NAMAZ . . . . . 5
Vacib namazlar . . . . . 6
Gündəlik vacib namazlar . . . . . 7
Sübh namazının vaxtı . . . . . 8
Zöhr və əsr namazlarının vaxtı . . . . . 9
Məğrib və işa namazlarının vaxtı . . . . . 10
Namaz vaxtlarının hökmləri . . . . . 11
Namazların ardıcıllığı . . . . . 12
Müstəhəb namazlar . . . . . 13
Qiblə . . . . . 14
Namazda örtünmə . . . . . 15
Namaz paltarının şərtləri . . . . . 16
1) Namaz paltarı pak olmalıdır . . . . . 17
Namazda bədənin və ya paltarın pak olmasının vacib olmadığı hallar . . . . . 18
2) Namaz paltarı mübah olmalıdır . . . . . 20
3) "Murdar"ın hissələrindən olmamalıdır . . . . . 21
4) Namaz paltarı əti haram heyvanın hissələrindən olmamalıdır . . . . . 22
5) Kişinin paltarı qızıldan olmamalıdır . . . . . 23
6) Kişinin paltarı xalis ipəkdən olmamalıdır . . . . . 24
Namaz paltarına aid müstəhəb və məkruh işlər . . . . . 25
Namaz qılınan məkanın şərtləri . . . . . 26
1) Namaz qılınan məkan mübah olmalıdır . . . . . 27
2) Namaz qılınan məkan hərəkətsiz olmalıdır . . . . . 28
3) Namaz qılınan məkanda dayanmaq haram olmamalıdır . . . . . 29
4) Namaz qılınan məkan Həzrət Peyğəmbərin (s) və Məsum İmamın (ə) qəbirindən qabaqda olmamalıdır . . . . . 30
5) Səcdə yeri pak olmalıdır . . . . . 31
6) Qadın ilə kişi arasında fasilə olmalıdır . . . . . 32
7) Namaz məkanı hamar olmalıdır . . . . . 33
Məscidin hökmləri . . . . . 34
Azan və iqamə . . . . . 36
Namazın vacib əməlləri . . . . . 37
1. Niyyət . . . . . 38
2. Qiyam . . . . . 39
3. Təkbirətul-ehram . . . . . 41
4. Qiraət . . . . . 42
5. Rüku . . . . . 45
6. Sücud . . . . . 47
Üzərinə səcdə etməyin düzgün olduğu şeylər . . . . . 49
Quranın vacib səcdəsi . . . . . 51
7- Təşəhhüd . . . . . 52
8- Salam . . . . . 53
9- Tərtib . . . . . 54
10- Muvalat . . . . . 55
Qunut . . . . . 56
Namazın təqibatı . . . . . 57
Namazın tərcüməsi . . . . . 58
Namazı pozan işlər . . . . . 60
Namazın şəkləri . . . . . 62
a) Namazın qılınıb-qılınmadığına şəkk etmək . . . . . 63

b) Namazın əməllərində şəkk etmək ..... 64
c) Namazın rəkətlərinin sayında şəkk etmək ..... 65
1) Namazı pozan şəklər ..... 66
2) Namazı pozmayan şəklər ..... 67
Ehtiyat namazı ..... 69
Etina olunmayan şəklər ..... 70
1- Namazın hansısa bir əməlinin yeri keçdikdən sonra bu əməl barəsində şəkk etmək ..... 71
2- Namazın salamından sonra şəkk etmək ..... 72
3- Namaz vaxtı başa çatdıqdan sonra şəkk etmək ..... 73
4- İmam-camaat və məmumun şəkki ..... 74
5- Çox şəkk edən şəxsin şəkki ..... 75
6- Müstəhəb namazlarda yaranan şəkk ..... 76
Səhv-səcdəsi ..... 77
Səhvən danışmaq ..... 78
Yersiz salam demək ..... 79
Unudulan səcdə və ya təşəhhüd ..... 80
Səhv-səcdəsinin qaydası ..... 81
Səhv-səcdəsinin hökmləri ..... 82
Unudulan səcdə və ya təşəhhüdün qəzası ..... 83
Müsafir namazı ..... 84
Birinci şərt: Şəri məsafə ..... 85
Şəri məsafənin sübuta yetməsi yolları ..... 87
İkinci şərt: Şəri məsafəni qət etmək niyyəti ..... 88
Səfər etməkdə tabelik ..... 89
Üçüncü şərt: Şəri məsafəni qət etmək niyyətinin davam etməsi ..... 90
Dördüncü şərt: Vətəndən keçib getməmək və ya yol üstündə müəyyən bir yerdə on gün qalmaq niyyətində olmamaq ..... 91
Beşinci şərt: Səfərin haram olmaması ..... 92
Səfərin icazəli səfər olaraq davam etməsi ..... 93
Günah səfərindən geri qayıdarkən səfərin hökmü ..... 94
Ov səfəri ..... 95
Altıncı şərt: Köçəri həyat sürməmək ..... 96
Yeddinci şərt: Səfərin peşə olmaması ..... 97
Səkkizinci şərt: Tərəxxüs həddinə çatmaq ..... 99
Səfəri kəsən səbəblər ..... 101
1- Vətəndən keçmək ..... 102
Əsl vətən ..... 103
Seçilən vətən ..... 104
Eyni vaxtda bir neçə vətənin olması ..... 105
Vətən baxımından tabelik ..... 106
Vətəni vətənlikdən çıxarmaq ..... 107
2- Müəyyən bir yerdə on gün qalmağı qərara almaq və ya bilmək ..... 108
Müəyyən bir yerdə on gün qalmaq niyyətindən dönmək ..... 110
On gün qaldığı yerdən müsafirin xaric olması ..... 111
3- Müəyyən bir yerdə tərəddüdlə otuz gün qalmaq ..... 112
Səfərdə nafilələrin hökmü ..... 113
Namazı qəsr qılmaq vacib olduğu halda tam qılmaq ..... 114
Namazı tam qılmaq vacib olduğu halda qəsr qılmaq ..... 115
Müxtəlif məsələlər ..... 116
Qəza namazı ..... 117

Əcir namazı ........ 118
Ata və ananın qəza namazları ........ 119
Ayat namazı ........ 120
Ayat namazının vaxtı ........ 121
Ayat namazının qaydası ........ 122
Ayat namazında şəkk etmək ........ 123
Fitr və Qurban bayramı namazı ........ 124
Camaat namazı ........ 125
Camaat namazının müstəhəbliyi ........ 126
Camaat namazının icazəli olduğu hallar ........ 127
Camaat namazının icazəli olmadığı hallar ........ 128
İmam-camaatın şərtləri ........ 129
Camaat namazının şərtləri ........ 130
İmam-camaata tabe olmaq baxımından məmumun vəzifələri ........ 131
Namazın müxtəlif rəkətlərində iqtida edərkən məmumun vəzifələri ........ 133
Birinci rəkətdə iqtida etmək ........ 133
Rükuda iqtida etmək ........ 134
İkinci rəkətdə iqtida etmək. ........ 135
Üçüncü və dördüncü rəkətlərdə iqtida etmək ........ 136
Niyyəti camaat namazından furada namaza dəyişmək ........ 137
Camaat namazının müstəhəb və məkruh əməlləri ........ 138
Cümə namazı ........ 139
Cümə namazının şərtləri ........ 140
İmam-cümənin şərtləri ........ 141
Cümə namazının vaxtı ........ 142
Cümə namazının qaydası ........ 143
İmam-cümənin vəzifələri ........ 144
Cümə namazında iştirak edənlərin vəzifələri ........ 145
Cümə namazının müxtəlif məsələləri ........ 146
ORUC ........ 147
Orucu vacib edən şərtlər ........ 148
Orucun vacib əməlləri ........ 150
1- Niyyət ........ 151
a) Ramazan ayının orucunun niyyəti ........ 152
b) Ramazan ayının orucundan qeyri bir orucun niyyəti ........ 153
Niyyətin davam etməsi ........ 154
2- Orucu pozan işləri yerinə yetirməmək ........ 155
1- Yemək və içmək ........ 156
2- Cinsi əlaqədə olmaq ........ 157
3- İstimna (masturbasiya) ........ 158
4- Sübh azanınadək cənabət, heyz və ya nifas qüslünü etməmək ........ 159
5- Maye bir şey ilə imalə etmək ........ 160
6- Qusmaq ........ 161
7- Mütəal Allahın, Həzrət Peyğəmbərin (s) və Məsum İmamların (ə) adından yalan demək ........ 162
8- Qatı tozu boğaza çatdırmaq ........ 163
9- Başı bütünlüklə suya salmaq ........ 164
Orucu pozan işlərin bir sıra hökmləri ........ 165
Oruc tutan şəxsə məkruh olan işlər ........ 166
Orucun qəzası və kəffarəsinin vacib olduğu hallar ........ 167

Orucu bilərəkdən pozmağın kəffarəsi . . . . . 168
Yalnız orucun qəzasının vacib olduğu hallar . . . . . 169
Orucun qəzasının hökmləri . . . . . 170
Təxir kəffarəsi . . . . . 172
Ata və ananın qəza orucunun hökmləri . . . . . 173
Müsafir orucunun hökmləri . . . . . 174
Vəzifəsinə zidd olaraq oruc tutan müsafir şəxs . . . . . 175
Orucun vacib olmadığı şəxslər . . . . . 176
Ayın əvvəlinin sübuta yetməsi yolları . . . . . 177
Orucun qisimləri . . . . . 178
Orucun və mübarək Ramazan ayının bir sıra hökmləri . . . . . 180
Etikaf . . . . . 181
Etikafın şərtləri . . . . . 182
1- Ağıl . . . . . 183
2- Niyyət . . . . . 184
3- Oruc tutmaq . . . . . 185
4- Eyni məsciddə qalmaq . . . . . 186
5- Etikafın üç gün ardıcıl davam etməsi . . . . . 187
6- Məsciddə davamlı surətdə qalmaq . . . . . 188
7- Etikaf etmək üçün icazənin olması . . . . . 189
Etikafda haram olan işlər, qəza və kəffarə . . . . . 190

# NAMAZ

**Namaz ən mühüm ibadətdir. Əgər namaz düzgün şəkildə və diqqətlə qılınarsa, insanın ruhunu təmizləyər və qəlbini nuranilәşdirər, insanda özünüislah qüdrəti yaradar. Eyni zamanda, namaz ictimai fəsadları aradan qaldıra bilər.**

**Namazı namaz vaxtının əvvəlində qılmaq tövsiyə olunur. Namazı hüzuri-qəlb ilə (yəni qəlbin diqqəti ilə) və riyasız qılmaq lazımdır. İnsan namazda Mütəal Allah ilə danışdığını diqqətdə saxlamalı və buna görə də dediyi sözlərin mənasını bilməlidir.**

# Vacib namazlar

**Məsələ 1. Vacib namazlar aşağıdakılardır:**

**1) Gündəlik vacib namazlar;**

**2) Kəbənin vacib təvafından sonra qılınan təvaf namazı;**

**3) Günəş və Ay tutulduğu, zəlzələ baş verdiyi və bu kimi bir sıra təbiət hadisələri baş verdiyi zaman qılınan ayat namazı;**

**4) Dünyasını dəyişən müsəlmanın cənazəsinə qılınan meyit namazı;**

**5) Atanın və ehtiyat-vacibə görə, ananın böyük oğula vacib olan qəza namazları;**

**6) Əhd, nəzir və and vasitəsilə, yaxud əcirlik vasitəsilə qılınması vacib olan namazlar[1].**

[1] Bu, müstəhəb namazın nəzir, əhd, and və əcirlik vasitəsilə vacib namaza çevrilməsi anlamını daşımır. Əslində, nəzir, əhd, and və əcirliyə əməl etmək vacibdir.

## Gündəlik vacib namazlar

**Məsələ 2. Gündəlik vacib namazlar İslam dininin çox mühüm vacib əməllərindəndir. Hətta namaz dinin sütunudur və heç bir vəziyyətdə tərk olunmamalıdır.**

**Məsələ 3. Gündəlik vacib namazlar on yeddi rəkətdir və aşağıdakılardan ibarətdir:**
**- Sübh namazı (iki rəkət);**
**- Zöhr namazı (dörd rəkət);**
**- Əsr namazı (dörd rəkət);**
**- Məğrib namazı (üç rəkət);**
**- İşa namazı (dörd rəkət).**

# Sübh namazının vaxtı

**Məsələ 4. Sübh namazının vaxtı "sadiq fəcr"[1] doğandan Günəş doğanadək olan müddətdir.**

**Məsələ 5. "Sadiq fəcr"in doğması (yəni sübh namazının vaxtının başlanması) baxımından "aylı gecələr" ilə "qeyri-aylı gecələr"[2] arasında fərq yoxdur. Amma "aylı gecələr"də sübhün işığı ayın işığını üstələyənədək gözləmək və bu zaman sübh namazını qılmaq daha yaxşıdır.**

1. "Fəcr" sözü burada "işıq kütləsi" mənasında işlənir. Sübh vaxtı gündoğan tərəfdə iki növ işıq müşahidə olunur. Bunlardan biri "kazib fəcr", digəri isə "sadiq fəcr" adlanır.
"Kazib fəcr" o işıqdır ki, "sadiq fəcr" doğmamışdan bir qədər əvvəl səmada əmələ gəlir və üfüq boyunca yayılmaq əvəzinə, şaquli şəkildə və üzü yuxarıya doğru saçır. Dəqiqələr sonra üfüq xəttində zəif bir ağ işıq əmələ gəlir və üfüq boyunca yayılmağa başlayır, getdikcə də işığın şiddəti artır. Bu işıq "sadiq fəcr" adlanır.
"Sadiq fəcr" doğarkən zəif bir işıq olduğuna görə, onu müşahidə edə bilmək üçün şərq tərəfin üfüqü tam açıq və qaranlıq olmalıdır. Şəhərlərin daxilində onu müşahidə etmək olduqca çətindir. "Sadiq fəcr"in doğduğunu dəqiqliklə müəyyən etməyin çətin olduğunu nəzərə alaraq, ehtiyata riayət etmək məqsədilə kütləvi informasiya vasitələrində azan deyilməyə başlayandan təxminən on dəqiqə sonra sübh namazı qılınsın.

2. Burada "aylı gecələr" dedikdə, nisbətən daha işıqlı gecələr nəzərdə tutulur. Belə ki, bu gecələrdə "sadiq fəcr" doğmağa başladığı zaman ayın işığı onu görməyə mane olur. Bu gecələrdə "sadiq fəcr"i bir qədər təxirlə (ayın işığının gücündən asılı olaraq təxminən on dəqiqə sonra) müşahidə etmək mümkün olur. Odur ki, ayın 13-cü gecəsindən 17-ci gecəsinədək olan gecələrə – belə ki, bu gecələrdə Ayın dairəsi təxminən tam görünür və ayın işığı da çox olur – "aylı gecələr" deyilir. Həmçinin ayın 17-ci gecəsindən sonra ayın axırınadək Ay tədricən şərq üfüqünə (yəni fəcrin doğduğu yerə) yaxınlaşdığına görə, bu gecələrə də "aylı gecələr" deyilir və ya "aylı gecələr" hökmü bu gecələrə də şamil edilir.

## Zöhr və əsr namazlarının vaxtı

**Məsələ 6.** **Zöhr namazının vaxtı "şəri zöhr"ün əvvəlindən (Günəş səmanın ortasından qərbə tərəf keçdiyi vaxtdan)[1] başlanır və Günəşin qürub etməsinə yalnız əsr namazını qılmaq ölçüsündə vaxt qaldığı zaman başa çatır.**

**Məsələ 7.** **Əsr namazının vaxtı "şəri zöhr"dən zöhr namazını qılmaq ölçüsündə vaxt keçdikdə başlanır və Günəş qürub edəndə başa çatır.**

**Məsələ 8.** **Zöhr və əsr namazlarının hər birinin xüsusi və müştərək vaxtları vardır.**
**Zöhr namazının xüsusi vaxtı "şəri zöhr" olduqda başlanır və zöhr namazını qılmaq ölçüsündə vaxt keçdikdə başa çatır.**
**Əsr namazının xüsusi vaxtı Günəşin qürub etməsinə əsr namazını qılmaq ölçüsündə vaxt qaldıqda başlanır və Günəş qürub etməyə başlayanda başa çatır.**
**Zöhr namazının xüsusi vaxtı ilə əsr namazının xüsusi vaxtı arasındakı müddət isə zöhr və əsr namazlarının müştərək vaxtıdır.**

**Məsələ 9.** **Əgər mükəlləf[2] əsr namazının xüsusi vaxtınadək zöhr namazını qılmazsa, onun zöhr namazı qəza olur. O, həmin vaxt əsr namazını qılmalıdır.**

---

[1] Günəş şərq tərəfdə doğduğu zaman əşyaların qərb tərəfə uzanan kölgələri əmələ gəlir. Günəş üfüqdən yuxarıya qalxdıqca kölgələr qısalmağa başlayır. Günəş səmanın ortasına gəldikdə isə, əgər Günəş şaquli şəkildə Yer üzünə saçarsa, kölgələr tamamilə aradan gedir. Yox əgər Günəş bir qədər mayili şəkildə Yer üzünə saçarsa, şimal və ya cənub istiqamətlərində əşyaların qısa kölgələri görünür. Günəş qərbə tərəf keçdikdə isə, aradan gedən kölgələr şərq tərəfdə əmələ gəlir, yaxud şimal və ya cənub istiqamətlərində qalan kölgələr şərqə tərəf uzanmağa başlayır. Bu zaman zöhr namazının vaxtıdır.

Həmçinin Günəşin doğması ilə batması arasındakı müddətin tam yarısı olan zaman "şəri zöhr"dür.

[2] Mükəlləf – şəri vəzifə daşıyan şəxsə deyilir.

## Məğrib və işa namazlarının vaxtı

**Məsələ 10.** **Günəş qürub etdikdən sonra Günəşin səmada yaranan qırmızılığı aradan getdikdə məğrib namazının vaxtı başlanır və "gecə yarısı"na yalnız işa namazını qılmaq ölçüsündə vaxt qaldığı zaman başa çatır.**

**Məsələ 11.** **İşa namazının vaxtı "şəri məğrib"dən məğrib namazını qılmaq ölçüsündə vaxt keçdikdə başlanır və gecə yarısı başa çatır.**

**Məsələ 12.** **"Gecə yarısı" Günəş qürub etdiyi vaxt ilə "sadiq fəcr"in doğduğu vaxt arasındakı müddətin tam yarısı olduğu zamandır.**

**Məsələ 13.** **Məğrib və işa namazlarının hər birinin xüsusi və müştərək vaxtları vardır.**

**Məğrib namazının xüsusi vaxtı "şəri məğrib" olduqda başlanır və üç rəkət namaz qılmaq ölçüsündə vaxt keçdikdə başa çatır.**

**İşa namazının xüsusi vaxtı gecə yarısına işa namazını qılmaq ölçüsündə vaxt qaldıqda başlanır və gecə yarısı olduqda başa çatır.**

**Məğrib namazının xüsusi vaxtı ilə işa namazının xüsusi vaxtı arasındakı müddət məğrib və işa namazlarının müştərək vaxtıdır.**

**Məsələ 14.** **Əgər mükəlləf işa namazının xüsusi vaxtınadək məğrib namazını qılmazsa, həmin vaxt əvvəlcə işa namazını, daha sonra məğrib namazını qılmalıdır.**

**Məsələ 15.** **Əgər bir şəxs günah edərək və ya hansısa bir üzrə görə məğrib və işa namazlarını gecə yarısınadək qılmazsa, ehtiyat-vacibə görə, bu namazları sübh namazınadək əda və qəza niyyəti etmədən ("ma fiz-zimmə" niyyətilə[1]) qılmalıdır.**

---

[1] Boynumda olan vəzifə niyyətilə

## Namaz vaxtlarının hökmləri

**Məsələ 16.** Namazı namaz vaxtının əvvəlində qılmaq müstəhəbdir. Bu məsələ İslam dininin təlimlərində təkidlə tövsiyə olunub. Əgər bir şəxs namazı vaxtın əvvəlində qıla bilməzsə, vaxtın əvvəlinə nə qədər yaxın bir vaxtda qılsa, bir o qədər yaxşıdır. Amma əgər namazı yubatmaq müəyyən səbəblərə görə daha üstün olarsa, bu hallar istisna təşkil edir. Məsələn, mükəlləf namazı camaatla qılmaq istəyir və camaat namazının təşkil olunmasını gözləyir.

**Məsələ 17.** Mükəlləf gündəlik namazların vaxtını təyin etmək üçün (hətta qütbə yaxın olan məntəqələrdə belə) öz yaşadığı yerin üfüqünə riayət etməlidir.

**Məsələ 18.** Mükəlləf namaz qılmaq üçün namaz vaxtının daxil olduğuna yəqin etməli və ya buna əmin olmalıdır. Yaxud iki ədalətli kişi namaz vaxtının daxil olduğunu xəbər verməlidir. Yaxud da etibarlı və namaz vaxtlarını tanıyan bir müəzzin azan deməlidir.

**Məsələ 19.** Əgər mükəlləf namaz vaxtının daxil olduğunu yəqin etsə və namaza başlasa, amma namaz əsnasında vaxtın daxil olub-olmadığına şəkk etsə, onun namazı düzgün deyildir. Amma əgər namaz əsnasında namaz vaxtının daxil olduğuna yəqinliyi olsa, amma namazdan qıldığı hissənin namaz vaxtı daxilində qılınıb-qılınmadığına şəkk etsə, onun namazı düzgündür.

**Məsələ 20.** Əgər mükəlləf kütləvi informasiya vasitələri və ya namaz vaxtlarını elan edən digər vasitələrlə namaz vaxtının daxil olduğuna əmin olsa, namazını qıla bilər.

**Məsələ 21.** Əgər azan deyilməyə başladıqda mükəlləfdə namaz vaxtının daxil olduğuna əminlik yaransa, azanın başa çatmasını gözləmək lazım deyildir. O, azanın başlaması ilə namazını qıla bilər.[1]

**Məsələ 22.** Əgər borc verən şəxs namaz vaxtında öz pulunu geri istəsə, borcu qaytarmağa mükəlləfin imkanı olduğu təqdirdə, o, əvvəlcə borcu qaytarmalı, daha sonra namazını qılmalıdır. Həmçinin əgər başqa bir təcili vacib iş ortaya çıxsa, mükəlləf əvvəlcə o işi yerinə yetirməli, daha sonra namazını qılmalıdır. Amma əgər namaz vaxtı dar olsa, əvvəlcə namazı qılmalıdır.

**Məsələ 23.** Əgər namaz vaxtı çox dar olsa, belə ki, namazın bəzi müstəhəb əməlləri yerinə yetirildiyi təqdirdə namazın müəyyən hissəsi namaz vaxtı başa çatdıqdan sonra qılınarsa, bu müstəhəb əməllər yerinə yetirilməməlidir. Məsələn, əgər qunut tutulduğu təqdirdə namazın müəyyən hissəsi namaz vaxtı başa çatdıqdan sonra qılınacaqsa, namaz qılan şəxs qunut tutmamalıdır.

**Məsələ 24.** Əgər namazın yalnız bir rəkətini qılmaq ölçüsündə vaxt qalmış olsa, mükəlləf namazı əda niyyətilə qılmalıdır. Amma namazı həmin vaxtadək bilərəkdən yubatmamalıdır.

**Məsələ 25.** Əgər Günəşin qürubunadək beş rəkət namaz qılmaq ölçüsündə vaxt qalsa, mükəlləf zöhr və əsr namazlarını qılmalıdır. Əgər bundan az vaxt qalsa, təkcə əsr namazını qılmalı və zöhr namazının qəzasını qılmalıdır.
Əgər gecə yarısınadək beş rəkət namaz qılmaq ölçüsündə vaxt qalsa, mükəlləf məğrib və işa namazlarını qılmalıdır. Əgər bundan az vaxt qalsa, təkcə işa namazını qılmalı və sonra ehtiyat-vacibə görə, əda və qəza niyyəti etmədən, əksinə, “ma fiz-zimmə” niyyətilə məğrib namazını qılmalıdır.

**Məsələ 26.** Əgər Günəşin qürubunadək üç rəkət namaz qılmaq ölçüsündə vaxt qalsa, müsafir şəxs zöhr və əsr namazlarını qılmalıdır. Əgər bundan az vaxt qalsa, təkcə əsr namazını qılmalı və zöhr namazının qəzasını qılmalıdır.
Əgər gecə yarısınadək dörd rəkət namaz qılmaq ölçüsündə vaxt qalsa, müsafir şəxs məğrib və işa namazlarını qılmalıdır. Əgər bundan az vaxt qalsa, o, əvvəlcə işa namazını qılmalı, daha sonra ehtiyat-vacibə görə, əda və qəza niyyəti etmədən, əksinə “ma fiz-zimmə” niyyətilə məğrib namazını qılmalıdır. Amma əgər işa namazını qıldıqdan sonra gecə yarısınadək bir rəkət və ya daha çox namaz qılmaq ölçüsündə vaxt qaldığı məlum olsa, mükəlləf dərhal məğrib namazını əda niyyətilə qılmalıdır.

---

[1] Qeyd olunduğu kimi, sübh namazı ehtiyata riayət etmək məqsədilə azan başladıqdan təxminən on dəqiqə sonra qılınsın.

## Namazların ardıcıllığı

**Məsələ 27. Əsr namazı zöhr namazından sonra və işa namazı məğrib namazından sonra qılınmalıdır. Əgər namazlar bilərəkdən bu ardıcıllığa zidd şəkildə qılınsa, namaz düzgün deyildir.**

**Məsələ 28. Əgər bir şəxs səhvən və ya diqqətsizlik üzündən əsr namazını zöhr namazından qabaq, yaxud işa namazını məğrib namazından qabaq qılsa və namazı qılıb qurtardıqdan sonra bunu başa düşsə, onun namazı düzgündür.**

**Məsələ 29. Əgər bir şəxs zöhr namazını qıldığını düşünüb əsr namazını qılmağa başlasa, amma namaz əsnasında zöhr namazını qılmadığını başa düşsə, zöhr və əsr namazlarının müştərək vaxtı olduğu təqdirdə, o öz niyyəini dərhal zöhr namazına çevirməli və namazı başa çatdırmalıdır. Daha sonra əsr namazını qılmalıdır. Amma əgər bu hal zöhr namazının xüsusi vaxtında baş vermiş olsa, ehtiyat-vacibə görə, o öz niyyətini zöhr namazına çevirməli və namazı başa çatdırmalıdır. Sonra isə zöhr və əsr namazlarını ardıcıllıqla qılmalıdır.**

**Məsələ 30. Əgər bir şəxs məğrib namazını qıldığını düşünüb işa namazını qılmağa başlasa, amma namaz əsnasında səhv etdiyini başa düşsə, məğrib və işa namazlarının müştərək vaxtı olduğu, eləcə də bu şəxs dördüncü rəkətin rükusuna getməmiş olduğu təqdirdə, o öz niyyətini məğrib namazına çevirməli və namazı başa çatdırmalıdır. Daha sonra işa namazını qılmalıdır. Amma əgər o, dördüncü rəkətin rükusuna gedibdirsə, ehtiyata görə, namazı başa çatdırmalı, daha sonra məğrib və işa namazlarını ardıcıllıqla qılmalıdır. Həmçinin əgər bu hal məğrib namazının xüsusi vaxtında baş versə, şəxs dördüncü rəkətin rükusuna getməmiş olsa belə, ehtiyat-vacibə görə, o öz niyyətini məğrib namazına çevirməli və namazı başa çatdırmalıdır. Sonra isə məğrib və işa namazlarını ardıcıllıqla qılmalıdır.**

**Məsələ 31. Əgər mükəlləf zöhr namazının niyyətilə namaza başlasa və namaz əsnasında zöhr namazını qıldığını xatırlasa, o öz niyyətini əsr namazına çevirə bilməz. O, bu namazı kəsməli və əsr namazını qılmalıdır. Həmçinin əgər məğrib namazının niyyətilə namaza başlasa və namaz əsnasında məğrib namazını qıldığını xatırlasa, o öz niyyətini işa namazına çevirə bilməz. O, bu namazı kəsməli və işa namazını qılmalıdır.**

# Müstəhəb namazlar

**Məsələ 32. Müstəhəb namazlar, yəni nafilələr olduqca çoxdur. Nafilə namazları arasında gündəlik nafilələri qılmaq, xüsusilə də gecə namazını qılmaq çox tövsiyə olunub.**

**Məsələ 33. Gündəlik nafilələr bir gecə-gündüz ərzində qılınan müstəhəb namazlardır. Bu nafilələri qılmaq olduqca əhəmiyyətlidir və onun üçün böyük savab vəd olunub. Gecə yarısından sonra qılınan gecə namazı isə müstəhəb namazlar arasında xüsusi əhəmiyyətə malikdir. Gecə namazının çoxsayda xüsusi mənəvi təsirləri vardır və tövsiyə olunur ki, bu namazı qılmağa əhəmiyyət verilsin.**

**Məsələ 34. Gündəlik nafilələr aşağıdakılardan ibarətdir:**
**- Zöhr namazının nafiləsi zöhr namazından qabaq qılınır və səkkiz rəkətdir (iki rəkət-iki rəkət olaraq qılınır);**
**- Əsr namazının nafiləsi əsr namazından qabaq qılınır və səkkiz rəkətdir (iki rəkət-iki rəkət olaraq qılınır);**
**- Məğrib namazının nafiləsi məğrib namazından sonra qılınır və dörd rəkətdir (iki rəkət-iki rəkət olaraq qılınır);**
**- İşa namazının nafiləsi işa namazından sonra əyləşən halda qılınır və iki rəkətdir;**
**- Sübh namazının nafiləsi sübh namazından qabaq qılınır və iki rəkətdir;**
**- Gecə nafiləsi gecə yarısından başlayaraq sübh azanınadək qılınır və on bir rəkətdir. Daha yaxşı olar, gecənin üç hissəsindən axırıncı hissəsində qılınsın və sübh azanına nə qədər yaxın bir vaxtda qılınsa, savabı bir o qədər çoxdur[1].**

**Məsələ 35. Zöhr və əsr namazlarının nafiləsi cümə günü ümumilikdə iyirmi rəkətdir, yəni on altı rəkət nafiləyə dörd rəkət əlavə olunur. Yaxşı olar ki, bu iyirmi rəkət nafilə şəri zöhrdən qabaq qılınsın. Əgər şəri zöhrdən qabaq qılınmazsa, onları Günəşin qürubunadək qılmağın maneəsi yoxdur.**

**Məsələ 36. Əgər zöhr və əsr namazlarının nafiləsi "nafilənin vaxtı"nda[2], amma zöhr və əsr namazları qılındıqdan sonra qılınarsa, ehtiyat-vacibə görə, əda və qəza niyyəti etmədən (yəni "ma fiz-zimmə niyyətilə) qılınmalıdır.**

**Məsələ 37. Gecə namazı aşağıdakı qaydada qılınır:**

**Əvvəlcə "gecə namazı" niyyətilə səkkiz rəkət namaz (iki rəkət-iki rəkət olaraq) sübh namazı kimi qılınır. Sonra "şəf namazı" niyyətilə iki rəkət və "vətr namazı" niyyətilə bir rəkət namaz qılınır. Vətr namazının qunutunda dua kitablarında qeyd edilən ardıcıllıqla Allahdan bağışlanma diləmək, möminlər üçün dua etmək və Allahdan ehtiyacları diləmək müstəhəbdir.**

**Məsələ 38. Əgər səfərdə olan şəxsə və ya bir gəncə, yaxud da qocalıq və ya xəstəlik kimi bir üzrü olan şəxsə gecə namazını öz vaxtında qılmaq çətin olarsa, o, gecə namazını gecə yarısından qabaq qıla bilər.**

**Məsələ 39. Nafilə namazlarında "Həmd"dən sonra "Surə" oxumaq vacib deyildir və hər rəkətdə təkcə "Həmd"i oxumaq kifayət edir. Amma "Surə"ni oxumaq müstəhəbdir.**

**Məsələ 40. Vətr namazı istisna olmaqla, nafilələr iki rəkətdir. (Qeyd olunduğu kimi, "vətr namazı" bir rəkətdir.) Nafilələri əyləşən halda da qılmaq olar. Amma ayaq üstə qılmaq daha yaxşıdır. Əgər nafilə əyləşən halda qılınarsa, iki rəkəti bir rəkət hesab etmək müstəhəbdir. İşa namazının nafiləsi isə istisna təşkil edir. Belə ki, bu nafiləni ehtiyata görə, ayaq üstə deyil, əyləşən halda qılmaq lazımdır.**

---

[1] Qeyd olunduğu kimi, işa namazının nafiləsi iki rəkətdir və əyləşən halda qılınır. Amma nəzərə alsaq ki, bu iki rəkət nafilə bir rəkət hesab olunur, gündəlik nafilələr ümumilikdə 34 rəkət, yəni gündəlik namazların iki misli qədər olacaq.

[2] Zöhrün nafiləsinin vaxtı şəri zöhrün əvvəlindən etibarən başlanır və "şaxis"in şəri zöhrdən sonra yaranan kölgəsi şaxisin yeddidə-ikisi uzunluğuna çatdığı zaman başa çatır. Məsələn, əgər şaxisin uzunluğu yeddi qarışdırsa, şaxisin şəri zöhrdən sonra yaranan kölgəsi iki qarışa çatdığı zaman zöhrün nafiləsinin vaxtı başa çatır. (Şaxis – şəri zöhrü təyin etmək üçün hamar yerə şaquli şəkildə sancılan düz bir çubuq və ya bu kimi bir vasitədir.) Əsrin nafiləsinin vaxtı isə şaxisin şəri zöhrdən sonra yaranan kölgəsi şaxisin yeddidə-dördü uzunluğuna çatdığı zaman başa çatır.

# Qiblə

**Məsələ 41.** Mükəlləf namazı üzü Kəbəyə tərəf qılmalıdır. Elə bu səbəbdən də, Kəbə istiqamətinə “qiblə” deyilir. Məlum məsələdir ki, Kəbədən uzaqda yaşayan insanlar üçün üzü tam olaraq Kəbəyə tərəf dayanmaq qeyri-mümkün olduğuna görə, onlar barəsində “üzü qibləyə tərəf namaz qılır” deyiləcək həddə üzü Kəbəyə tərəf dayanmaları kifayət edir.

**Məsələ 42.** Müstəhəb namazları piyada yol gedən halda və ya hansısa bir minikdə hərəkət edən halda qılmaq olar. Bu zaman üzü qibləyə tərəf olmaq vacib deyildir.

**Məsələ 43.** Ehtiyat namazı, unudulmuş səcdə və təşəhhüd üzü qibləyə tərəf dayanaraq qılınmalıdır. Səhv səcdəsi isə ehtiyat-müstəhəbə görə, üzü qibləyə tərəf dayanaraq qılınır.

**Məsələ 44.** Namaz qılan şəxsin qiblə istiqaməti barəsində yəqinliyi və ya əminliyi olmalıdır. Bu yəqinlik və ya əminlik düzgün və etibarlı qiblənüma vasitəsilə, yaxud Günəşin və ulduzların işıq saçması[1] yolu ilə (əlbəttə, bu yoldan istifadə edən şəxsin bu barədə məlumatı və bacarığı olmalıdır), yaxud da başqa yollar vasitəsilə yarana bilər. Əgər bir şəxs qiblənin hansı istiqamətdə olduğuna əmin ola bilməsə, böyük ehtimal etdiyi istiqamətə namaz qılmalıdır. Məsələn, məscidlərin mehrabına əsaslanaraq yaranan ehtimala müvafiq əməl edə bilər.

**Məsələ 45.** Əgər bir şəxsin qiblə istiqamətini təyin etmək üçün heç bir yolu olmazsa və heç bir istiqamət barəsində də ehtimalı olmazsa, ehtiyat-vacibə görə, o, dörd istiqamətə namaz qılmalıdır. Əgər dörd namaz qılmaq üçün kifayət qədər vaxt olmazsa, vaxt çatdığı qədər namazı təkrar qılmalıdır.

**Məsələ 46.** Əgər bir şəxs qiblə istiqamətini araşdırdıqdan sonra yenə də qiblə istiqamətini səhv təyin edərsə, qiblədən sağ və ya sol tərəfəyayınma doxsan dərəcədən az olduğu təqdirdə, bu şəxsin namazı düzgündür. Əgər o, namaz əsnasında bu səhvi başa düşərsə, namazın qalan hissəsini qiblə istiqamətinə qılmalıdır. Bu hökm baxımından namaz vaxtının geniş olub-olmamasının bir fərqi yoxdur.

**Məsələ 47.** Əgər bir şəxsin qiblə istiqaməti barəsində yəqinliyi yoxdursa, o, qiblə istiqamətinə tərəf yerinə yetirilən digər əməllərdə, məsələn, heyvan kəsimində öz ehtimalı əsasında əməl etməlidir. Əgər heç bir istiqamət barəsində ehtimalı olmazsa və bütün istiqamətlər onun üçün bərabər olarsa, bu işləri hansı istiqamətə tərəf yerinə yetirərsə, düzgündür.

1. Deyilənə görə, may ayının 28-i və iyul ayının 16-sı Günəş Məkkə üfüqü ilə zöhr vaxtı Kəbənin üstündə şaquli vəziyyətdə saçır. Əgər bir “şaxis”i, məsələn, düz bir çubuğu və ya dəmir bir mili hamar yerə şaquli vəziyyətdə sancsaq, Məkkə üfüqü ilə zöhr vaxtı şaxisin kölgəsinin istiqaməti qiblənin əks istiqaməti olacaqdır. Əgər bu yolla mükəlləfdə qiblə istiqaməti barəsində əminlik yaranarsa, bu əminliyə müvafiq şəkildə əməl etməyə icazə verilir.

## Namazda örtünmə

**Məsələ 48.** Vacib namazlarda və bu namazlara aid hissələrdə, məsələn, ehtiyat namazı və ya unudulan səcdə və təşəhhüddə, həmçinin ehtiyat-vacibə görə, səhv-səcdəsində bədən örtülü olmalıdır.

**Məsələ 49.** Namazda örtülü olmağın vacibliyi mükəlləfin namaz qıldığı məkanda naməhrəmin olmasından asılı deyildir. Əksinə, həmin məkanda heç kim olmasa belə, örtülü olmaq namazın düzgünlüyü şərtidir.

**Məsələ 50.** Kişi namaz qılanda, onu heç kim görməsə belə, öz övrətini (qabağını və arxasını) örtməlidir. Daha yaxşı olar ki, göbəkdən dizlərə qədər olan nahiyəni örtsün.

**Məsələ 51.** Qadın namaz qılanda bütün bədənini və saçlarını örtməlidir. Amma dəstəmazda yuyulması vacib olan ölçüdə üzü örtmək, həmçinin biləyə qədər əlləri və oynağa qədər ayaqları örtmək vacib deyildir. Amma naməhrəm onu gördüyü təqdirdə, oynağa qədər ayaqlarını da örtməlidir.

**Məsələ 52.** Şəri hökmü bilmədiyinə görə namazda lazımi hüdudda örtünməyən şəxsin namazı düzgün deyildir. Amma əgər bu şəxs qafil və ya qasir cahil olarsa, yəni örtünmədən namazın düzgün olmayacağını hətta ehtimal belə etməzsə, bu halda namaz düzgündür.

**Məsələ 53.** Çənə üzün bir hissəsidir və namaz qılanda çənəni örtmək qadına vacib deyildir. Amma çənənin altı üzün bir hissəsi sayılmır və həmin nahiyəni örtmək vacibdir.

**Məsələ 54.** Meyit namazında örtülü olmaq vacib deyildir, amma örtülü olmaq ehtiyat-müstəhəbə müvafiqdir.

**Məsələ 55.** Vacib namazlarda olduğu kimi, müstəhəb namazlarda da örtülü olmaq namazın düzgünlüyü şərtidir.

**Məsələ 56.** Əgər bir şəxs namaz əsnasında lazımi həddə örtülü olmadığını başa düşsə, ehtiyata görə, namazı başa çatdırmalı və onu yenidən qılmalıdır. Amma əgər özünü dərhal örtərsə, namazının düzgün olması uzaq ehtimal deyildir. Həmçinin əgər namazı qılıb qurtardıqdan sonra namazda lazımi həddə örtünmədiyini başa düşsə, onun namazı düzgündür.

## Namaz paltarının şərtləri

**Məsələ 57.** **Namaz paltarı aşağıdakı şərtlərə malik olmalıdır:**

**1)** **Pak olmalıdır;**

**2)** **Mübah olmalıdır;**

**3)** **“Murdar”ın[1] hissələrindən olmamalıdır;**

**4)** **Əti haram heyvanın hissələrindən olmamalıdır;**

**5)** **Kişinin paltarı qızıldan olmamalıdır;**

**6)** **Kişinin paltarı xalis ipəkdən olmamalıdır.**

---

[1] Murdar – ölən və ya öldürülən, yaxud da şəri kəsim olmayan “qanı sıçrayışlı” heyvanın cəsədinə deyilir.

## 1) Namaz paltarı pak olmalıdır

**Məsələ 58.** Namazda insanın paltarı və bədəni pak olmalıdır.

**Məsələ 59.** Əgər bir şəxs napak bədən və ya paltarla namaz qılmağın düzgün olmadığını bilməsə və napak bədən və ya paltarla namaz qılsa, onun namazı düzgün deyildir. Amma əgər diqqətsiz olsa və ya "qasir cahil" olsa, yəni napak paltarla namaz qılmağın düzgün olmadığını ehtimal belə etməsə, onun namazı düzgündür.

**Məsələ 60.** Əgər bir şəxs bədəninin və ya paltarının napak olduğunu bilməsə və namazı qılıb qurtardıqdan sonra bunu başa düşsə, onun qıldığı namaz düzgündür. Amma əgər bədəninin və ya paltarının napak olduğunu əvvəlcədən bilirdisə, amma bunu unudub, napak bədən və ya paltarla namaz qılıbsa, onun namazı düzgün deyildir.

**Məsələ 61.** Əgər bir şəxs şəkk etsə ki, görəsən, onun paltarı napaklanıb, yoxsa napaklanmayıb, o, paltarının pak olduğunu qəbul etməlidir. Bu paltarla namaz qılmaq düzgündür. Amma əgər napak bir paltarın paklanıb-paklanmadığına şəkk etsə, bu paltarda namaz qıla bilməz.

**Məsələ 62.** Əgər bir şəxs bədəninin və ya paltarının pak, yoxsa napak olduğunu bilməsə və namaz qılsa, amma namazdan sonra onun napak olduğunu başa düşsə, namazı düzgündür.

**Məsələ 63.** Əgər bir şəxs namaz əsnasında bədəninin və ya paltarının napak olduğunu başa düşsə və onun namazdan öncə napak olduğunu bilsə, namaz vaxtı geniş olduğu təqdirdə, namazı düzgün deyildir. O, bədənini və ya paltarını pakladıqdan sonra namazı yenidən qılmalıdır. Namaz vaxtı dar olduğu təqdirdə isə, əgər bədəni və ya paltarı suya çəkib paklamaq, yaxud paltarı dəyişmək və ya əyindən çıxarmaq namazın surətini pozmazsa, bu şəxs namazda bu işləri görməli və sonra namazı davam etdirməlidir. Amma əgər bu işləri görmək namazın surətini pozarsa, həmin vəziyyətdə namazı davam etdirməlidir və onun namazı düzgündür.

**Məsələ 64.** Əgər bir şəxs napak bir paltarı suya çəksə və onun paklandığına yəqin etsə, buna görə də bu paltarla namaz qılsa, amma namazı qıldıqdan sonra paltarın paklanmadığını başa düşsə, onun namazı düzgündür. Amma sonrakı namazlar üçün paltarını paklamalıdır.

## Namazda bədənin və ya paltarın pak olmasının vacib olmadığı hallar

**Məsələ 65.** Dörd halda insanın bədəni və ya paltarı namazda napak olsa belə, onun namazı düzgündür.

### Birinci hal: Yara, kəsik və çiban qanı

**Məsələ 66.** Əgər namazda insanın bədənində və ya paltarında yara, kəsik və ya çiban qanı olsa və bədəni və ya paltarı suya çəkib paklamaq, yaxud paltarı dəyişmək insanların əksəriyyəti üçün və ya onun özü üçün olduqca çətin və əziyyətli bir iş olsa, həmin yara, kəsik və ya çiban sağalanadək bu şəxs bu qana bulaşan bədən və ya paltar ilə namaz qıla bilər. Həmçinin yaradan axan qanlı irin, yaxud yaranın üstünə qoyulan və napak olan dərman eyni hökmü daşıyır.

**Məsələ 67.** Tez bir zamanda sağalan və yuyulması asan olan yara və ya kəsiklərin qanı yuxarıdakı məsələdəki hökmü daşımır. Bu qana bulaşan bədən və ya paltarla namaz qılmaq düzgün deyildir.

**Məsələ 68.** Əgər bədənin və ya paltarın adətən yaranın yaşlığına bulaşan hissəsi yaranın yaşlığı ilə napak olsa, onunla namaz qılmağın maneəsi yoxdur. Amma əgər bədənin və ya paltarın yara ilə məsafəsi olan hissəsi yaranın yaşlığı ilə napak olsa və şəxs bu bədən və ya paltarla namaz qılsa, onun namazı düzgün deyildir.

**Məsələ 69.** Əgər bədəndə olan bir neçə yara bir-birinə çox yaxın olduğuna görə bir yara hesab olunarsa, onların hamısı sağalmayanadək onların qanı ilə namaz qılmağın maneəsi yoxdur. Amma əgər yaralar bir-birindən uzaq olsalar və hər biri ayrı yara hesab olunsa, onların hər biri sağaldığı zaman bədənin və paltarın həmin hissəsi namaz üçün paklanmalıdır.

**Məsələ 70.** Əgər bir şəxs bədənindəki və ya paltarındakı qan ilə namaz qılmağın düzgün olduğunu yəqin etsə, məsələn, bu qanın yara, kəsik və ya çiban qanı olduğunu yəqin etsə, amma namazdan sonra bu qanın sadalanan qanlardan olmadığını və onunla namaz qılmağın düzgün olmadığını başa düşsə, onun namazı düzgündür.

### İkinci hal: İşarə barmağının bir bəndi ölçüsündən kiçik olan qan

**Məsələ 71.** Əgər bir şəxsin bədəni və ya paltarı "birinci hal"da qeyd edilən qanlardan[1] qeyri bir qana bulaşsa, onun ölçüsü işarə barmağının bir bəndi ölçüsündən kiçik olduğu təqdirdə, (irəlidə qeyd ediləcək şərtlər daxilində) bu qanla namaz qılmağın maneəsi yoxdur. Amma əgər bu qan işarə barmağının bir bəndi ölçüsündə olsa və ya bundan daha böyük olsa, bu qanla namaz qılmaq düzgün deyildir.

**Məsələ 72.** İşarə barmağının bir bəndi ölçüsündən kiçik olan qanla namaz qılmaq bir neçə şərt daxilində düzgündür:

**1-** Bu qan heyz qanı olmamalıdır. Əgər bədəndə və ya paltarda heyz qanı olsa, bu qan çox az olsa belə, namaz düzgün deyildir. Ehtiyat-vacibə görə, nifas qanı və istihazə qanı da eyni hökmü daşıyır.

**2-** Bu qan "nəcasət"lərdən olan heyvanın, yəni it və donuzun qanı, əti haram olan heyvanın qanı, "murdar"ın qanı və kafir insanın qanı olmamalıdır.

**3-** Bu qana kənar bir yaşlıq dəyməməlidir. Amma əgər kənar yaşlıq bu qana tamamilə qarışsa və yaranan ölçü işarə barmağının bir bəndi ölçüsündən böyük olmasa, bu halda onunla namaz qılmaq düzgündür. Əks halda, onunla namaz qılmaq ehtiyat-vacibə görə, düzgün deyildir.

**Məsələ 73.** Əgər bədən və ya paltar qana bulaşmasa, amma qanla təmasda olmaq nəticəsində napak olsa, məsələn, bir şəxsin yaş əli və ya paltarı quruyan qana dəysə və bunun nəticəsində əl və ya paltar napak olsa, amma ələ və ya paltara qan keçməsə, bu halda napak olan hissə işarə barmağının bir bəndi ölçüsündən kiçik olsa belə, onunla namaz qılmaq olmaz.

**Məsələ 74.** Əgər qanın özü bədəndən və ya paltardan təmizlənsə, amma onun yeri paklanmasa, bu yerin ölçüsü işarə barmağının bir bəndi ölçüsündən böyük olmadığı təqdirdə, bu bədən və ya paltarla namaz qılmaq olar.

**Məsələ 75.** Əgər qan astarlı bir paltarın üstünə tökülüb astara da keçsə, yaxud qan astara tökülüb paltarın üst qatına keçsə, paltarın üstündəki və astardakı qanın ümumi ölçüsü işarə barmağının bir bəndi ölçüsündən kiçik olduğu təqdirdə, onunla namaz qılmaq düzgündür. Amma əgər bu qan işarə barmağının bir bəndi ölçüsündə olsa və ya bundan daha böyük olsa, bu qanla namaz qılmaq düzgün deyildir.

### Üçüncü hal: Kiçik geyimlərin napak olması

**Məsələ 76.** Əgər corab, əlcək, araqçın və bu kimi kiçik geyimlər – belə ki, bu geyimlərlə övrəti örtmək mümkün deyildir – həmçinin üzük, qolbaq və bu kimi əşyalar "nəcasət" ilə təmas nəticəsində napak olsa, onunla namaz qılmaq düzgündür.

**Məsələ 77.** **Əgər namaz qılanda insanın üstündə napak cib dəsmalı, açar, bıçaq və s. olsa, onunla namaz qılmağın maneəsi yoxdur.**

## Dördüncü hal: Napak paltarı geyinmək məcburiyyətində olmaq

**Məsələ 78.** **Əgər bir şəxs havanın soyuq olması və ya suyun olmaması səbəbilə, yaxud da bu kimi başqa səbəblərlə napak bədən və ya paltarla namaz qılmaq məcburiyyətində qalsa, onun namazı düzgündür.**

---

[1] Yəni təmizlənib paklanması olduqca çətin və əziyyətli olan yara, kəsik və ya çiban qanı.

## 2) Namaz paltarı mübah olmalıdır

**Məsələ 79.** **Namaz paltarı mübah olmalıdır, yəni qəsbi olmamalıdır.**

**Məsələ 80.** **Əgər bir şəxs qəsbi paltarı geyinməyin haram olduğunu bilməsə, qəsbi paltarla qıldığı namaz düzgündür. Əgər bir şəxs qəsbi paltarı geyinməyin haram olduğunu bilsə, amma qəsbi paltarla namaz qılmağın düzgün olmadığını bilməsə, bilərəkdən qəsbi paltarla namaz qıldığı təqdirdə, o, namazını mübah paltarla yenidən qılmalıdır.**

**Məsələ 81.** **Əgər bir şəxs paltarının qəsbi olduğunu bilməsə və ya unutsa və bu paltarla namaz qılsa, onun namazı düzgündür.**

**Məsələ 82.** **Əgər bir şəxs sapı, düymısi və s. qəsbi olan bir paltarla bilərəkdən namaz qılsa, onun namazı düzgün deyildir.**

## 3) “Murdar”ın hissələrindən olmamalıdır

**Məsələ 83.** **Namaz paltarı qanı sıçrayışlı olan ölmüş bir heyvanın hissələrindən olmamalıdır. Ehtiyat-vacibə görə, qanı sıçrayışlı olmayan ölmüş bir heyvanın da hissələrindən olmamalıdır.**

**Məsələ 84.** **Əgər “murdar”ın hansısa hissəsi namaz qılarkən insanın üstündə olsa, ehtiyat-vacibə görə, onun namazı düzgün deyildir. Amma əgər əti halal heyvanın ruhsuz hissələri, məsələn, tükü, yunu və buynuzu namaz qılarkən insanın üstündə olsa, onun namazı düzgündür.**

**Məsələ 85.** **Qeyri-müsəlman ölkələrindən idxal edilən və şəri kəsim[1] olduğuna şəkk edilən əti halal heyvanın gön və dərisi paklıq-napaklıq baxımından “murdar” hökmündə deyildir və pak sayılır. Lakin onunla namaz qılmaq olmaz. Amma əgər bir şəxs bu hökmü bilmədiyinə görə əvvəllər belə bir paltarla namaz qılıbdırsa, onun namazı düzgündür. Əgər bu gön və dəriləri idxal edən şəxs müsəlman olsa və şəri kəsim barəsində onun araşdırma apardığı ehtimal edilsə, bu paltarla namaz qılmağın maneəsi yoxdur.**

---

[1] İslam dinində heyvanların ətinin halal olması və ya hissələrinin paklanması üçün bir sıra kəsim qaydaları müəyyən edilmişdir. Əti halal heyvanlar şəri kəsim olduğu zaman onun həm əti halal olur, həm də hissələri pak olur. Əti haram heyvanlar şəri kəsim olduğu zaman isə onun hissələri pak olur. Dəvə “nəhr” edilir, dəvədən qeyri heyvanların başı kəsilir və çöl heyvanları ov edilir.

## 4) Namaz paltarı əti haram heyvanın hissələrindən olmamalıdır

**Məsələ 86.** **Namaz paltarı əti haram heyvanın hissələrindən olmamalıdır. Əgər namaz qılarkən insanın üstündə əti haram heyvanın tükü belə olsa, onun namazı düzgün deyildir.**

**Məsələ 87.** **Əgər pişik və bu kimi "əti haram heyvan"ın pak olan yaşlığı, məsələn, ağız və ya burun suyu namaz qılarkən insanın bədənində və ya paltarında olsa, onun namazı düzgün deyildir. Amma əgər bu yaşlıq quruyub tamamilə aradan gedərsə, bu halda namaz düzgündür. Həmçinin əgər əti haram quşların nəcisi namaz qılarkən insanın bədənində və ya paltarında olsa, onun namazı düzgün deyildir. Amma əgər bu nəcis quruyub tamamilə aradan gedərsə, bu halda namaz düzgündür.**

**Məsələ 88.** **İnsanın saçı, təri və ağız suyu, bal və pətək, mirvarid və sədəf əgər namaz qılarkən insanın paltarında və ya bədənində olarsa, namazın iradı yoxdur.**

**Məsələ 89.** **Əgər şəxs bir paltarın əti halal, yoxsa əti haram heyvanın hissələrindən olduğuna şəkk etsə, bu paltarda namaz qılmaq düzgündür.**

## 5) Kişinin paltarı qızıldan olmamalıdır

**Məsələ 90.** Kişinin qızıldan toxunan parçadan paltar geyinməsi və ya qızıl işləməsi olan paltar geyinməsi haramdır və bu paltarda qıldığı namaz düzgün deyildir. Amma qadının istər namazda, istərsə də qeyri-namazda belə paltar geyinməsinin iradı yoxdur.

**Məsələ 91.** Kişinin qızıl boyunbağı, üzük və qol saatı taxması, hətta az bir müddət (məsələn, toy günü) taxsa belə, həmçinin bəzənmək məqsədilə olmasa və başqalarından gizlətsə belə, haramdır. Ehtiyat-vacibə görə, kişinin bu qızıl zinət əşyaları ilə namaz qılması da düzgün deyildir.

**Məsələ 92.** Sümük cərrahiyyə əməliyyatında və dişlərin düzəldilməsində kişilər üçün qızıldan istifadə edilməsinin maneəsi yoxdur və namazın düzgünlüyünə xələl gətirmir.

**Məsələ 93.** Əgər ağ qızıl adlanan metal elə sarı qızıl olub, kimyəvi birləşmə nəticəsində ağarıbsa, bu metal sarı qızıl hökmündədir. Amma əgər onun tərkibində qızıl elementi olduqca az olduğuna görə ürfdə (camaatın nəzərində) ona qızıl deyilmirsə, kişinin ondan istifadə etməsinin maneəsi yoxdur. Həmçinin kişinin platindən istifadə etməsinin maneəsi yoxdur.

**Məsələ 94.** Əgər kişi barmağındakı üzüyün və ya paltarının qızıldan olduğunu bilməsə və ya bunu unutsa və onunla namaz qılsa, namazı düzgündür.

## 6) Kişinin paltarı xalis ipəkdən olmamalıdır

**Məsələ 95.** **Əgər namaz qılarkən kişinin paltarı, hətta övrəti örtməyən kiçik geyimlər, o cümlədən, araqçın, corab və s. xalis ipəkdən olarsa, namaz düzgün deyildir. Namazdan qeyri hallarda da kişinin xalis ipəkdən paltar geyinməsi haramdır. Amma əgər ipək cib dəsmalı və bu kimi əşyalar namaz qılarkən kişinin üstündə, məsələn, cibində olsa, bunun iradı yoxdur və namaz düzgündür.**

**Məsələ 96.** **Əgər paltarın astarı, hətta astarın az bir hissəsi xalis ipəkdən olsa, bu paltarı geyinmək kişiyə haramdır və onunla namaz qılması düzgün deyildir.**

**Məsələ 97.** **Əgər kişi bir paltarın xalis ipəkdən, yoxsa başqa bir parçadan olduğunu bilməsə, bu paltarı geyinməsinin maneəsi yoxdur və onunla namaz qılması düzgündür.**

**Məsələ 98.** **Qadının istər namazda, istərsə də qeyri-namazda xalis ipəkdən paltar geyinməsinin maneəsi yoxdur.**

## Namaz paltarına aid müstəhəb və məkruh işlər

**Məsələ 99.** **Namaz paltarının ağ rəngdə və təmiz olması, pambıq və ya kətan parçadan olması müstəhəbdir. Namaz qılarkən ətirlənmək və əqiq üzük taxmaq da müstəhəbdir.**

**Məsələ 100.** **Namaz paltarının qara rəngdə olması, çirkli və dar olması məkruhdur. Spirtli içki içən və ya "nəcasətlər"dən qorunmayan bir şəxsin paltarını namazda geyinmək məkruhdur. Həmçinin üzərində üz şəkli olan paltarı, hətta alt paltarı olsa belə, geyinmək məkruhdur. Namazda paltarın düymələrini açıq qoymaq və üz şəkli həkk olunan üzük taxmaq məkruhdur.**

## Namaz qılınan məkanın şərtləri

Namaz qılınan məkan bir sıra şərtlərə malik olmalıdır və bu şərtlər aşağıdakı məsələlərdə açıqlanıb.

## 1) Namaz qılınan məkan mübah olmalıdır

**Məsələ 101.** Namaz qılınan məkan qəsbi olmamalıdır.

**Məsələ 102.** Qəsbi xalçanın və ya taxtın üstündə, hətta bu xalçanın sərildiyi və ya taxtın qoyulduğu yer mübah olsa belə, namaz qılmaq düzgün deyildir. Həmçinin əgər mübah bir xalça qəsbi yerə sərilərsə, bu xalçanın üstündə və bu yerdə namaz qılmaq düzgün deyildir.

**Məsələ 103.** Əgər bir şəxs müəyyən bir yerin qəsbi olduğunu bilməsə və ya bunu unutsa, onun bu yerdə qıldığı namaz düzgündür.

**Məsələ 104.** Əgər bir şəxs müəyyən bir məkanın qəsbi olduğunu bilsə, amma qəsbi məkanda namaz qılmağın düzgün olmadığını bilməsə və həmin yerdə namaz qılsa, onun namazı düzgün deyildir.

**Məsələ 105.** Əgər bir şəxs müəyyən bir mülkdə başqa bir şəxs ilə şərik olsa və onların hər birinin payı müəyyən və bir-birindən ayrı olmasa, şəriklərdən biri digərinin razılığı olmadan orada namaz qıla bilməz.

**Məsələ 106.** Əgər bir mülkün mənfəəti başqa bir şəxsə aiddirsə, bu şəxsin icazəsi olmadan orada namaz qılmaq düzgün deyildir. Məsələn, əgər icarəyə verilən bir evdə ev sahibi və ya başqa bir şəxs icarəçi şəxsin icazəsi olmadan namaz qılsa, onun namazı düzgün deyildir.

## 2) Namaz qılınan məkan hərəkətsiz olmalıdır

**Məsələ 107. Namaz qılınan məkan hərəkətsiz olmalıdır. Yəni elə olmalıdır ki, bədən hərəkətsiz vəziyyətdə və tərpənmədən namaz qılmaq mümkün olsun. Odur ki, bədənin qeyri-ixtiyari şəkildə tərpənməsinə səbəb olan məkanlarda, məsələn, hərəkətdə olan avtomobil və qatarda, yaxud bəzi yaylı taxtlarda namaz qılmaq düzgün deyildir. Amma namaz vaxtının darlığına görə və ya bəzi hallarda məcbur qalıb belə məkanlarda namaz qılmaq istisna təşkil edir.**

**Məsələ 108. Ümumi nəqliyyat vasitələrindən istifadə edən sərnişinlər namaz vaxtının keçəcəyindən qorxduqları təqdirdə, sürücüdən nəqliyyat vasitəsini dayandırmağı istəməlidirlər. Sürücü də onların istəyini qəbul etməlidir. Əgər sürücü hansısa bir səbəbə görə nəqliyyat vasitəsini saxlamasa, sərnişinlər nəqliyyat vasitəsi hərəkət etdiyi halda namaz qılmalıdırlar. Mümkün olduğu qədər qibləyə, qiyama, rüku və səcdələrə də riayət etməlidirlər.**

## 3) Namaz qılınan məkanda dayanmaq haram olmamalıdır

**Məsələ 109.** **Namaz qılınan məkan elə bir məkan olmamalıdır ki, orada dayanmaq haram olsun. Məsələn, insan üçün ciddi həyat təhlükəsi olan bir məkan olmamalıdır. Həmçinin elə bir yer olmamalıdır ki, onun üstündə dayanmaq və ya əyləşmək haram olsun. Məsələn, bir səccadə və ya xalçada Allahın adı və ya Quran ayələri elə bir şəkildə yazılıbdır ki, bu səccadə və ya xalçanın üstündə dayanmaq bir növ hörmətsizlik hesab olunur.**

## 4) Namaz qılınan məkan Həzrət Peyğəmbərin (s) və Məsum İmamın (ə) qəbirindən qabaqda olmamalıdır

**Məsələ 110.** **Namaz qılarkən insan Həzrət Peyğəmbərin (s) və Məsum İmamın (ə) qəbirindən qabaqda dayanmamalıdır. Amma onların qəbiri bərabərində dayanmağın maneəsi yoxdur.**

**Məsələ 111.** **Əgər insanın namaz qıldığı məkan ilə pak qəbir arasında divar və bu kimi bir maneə olsa və orada qəbirdən qabaqda dayanmaq hörmətsizlik hesab olunmasa, bu məkanda namaz qılmağın maneəsi yoxdur. Amma qəbirin üstünə qoyulan qutunu və sərilən parçanı, qəbirin ətrafına çəkilən zərihi bir "maneə" hesab etmək yetərli deyildir.**

## 5) Səcdə yeri pak olmalıdır

**Məsələ 112.** **Namazda səcdə yeri pak olmalıdır. Əgər səcdə yeri istisna olmaqla, namaz qılınan məkan napak olsa, amma bu napaklıq insanın bədəninə və ya paltarına sirayət etməsə, bunun maneəsi yoxdur və namaz düzgündür.**

## 6) Qadın ilə kişi arasında fasilə olmalıdır

**Məsələ 113. Ehtiyat-vacibə görə, (Məscidul-həram istisna olmaqla) namazda qadın ilə kişi arasında ən azı bir qarış fasilə olmalıdır. Bu fasilə qorunduğu təqdirdə, əgər qadın və kişi bir-birinin bərabərində dayansalar, yaxud qadın kişidən qabaqda dayansa, onların hər ikisinin namazı düzgündür. Bu hökm baxımından qadınla kişinin bir-birinə məhrəm, yoxsa naməhrəm olmasının bir fərqi yoxdur.**

## 7) Namaz məkanı hamar olmalıdır

**Məsələ 114. Namazda alının qoyulduğu yer dizlərin və ayaq barmaqlarının qoyulduğu yerdən dörd bağlı barmaq ölçüsündən çox hündürdə və ya alçaqda olmamalıdır.**

**Məsələ 115. Bu məkanlarda namaz qılmaq müstəhəbdir:**
**1- Məscid: Üstünlük baxımından öndə Məscidul-həram, sonra Məscidun-Nəbi, sonra Kufə məscidi və Məscidul-əqsa, daha sonra hər şəhərin mərkəzi məscidi (cami məscidi) dayanır.**
**2- Məsum İmamların (ə) hərəmi: Bu hərəmlərdə namaz qılmaq məscidlə müqayisədə daha fəzilətlidir.**
**3- Peyğəmbərlərin (ə), övliyaların, saleh bəndələrin və alimlərin məqbərələri.**

## Məscidin hökmləri

**Məsələ 116.** Məscidin yerini, tavanını, divarını və damını napak etmək haramdır. Əgər məscidin bu yerləri napak olubsa, oranı dərhal paklamaq lazımdır.

**Məsələ 117.** Məscidi paklamaq "kifayi-vacib"dir[1]. Belə ki, məscidi paklamaq yalnız oranı napak edən şəxsə və ya oranın napak olmasına səbəb olan şəxsə aid deyildir. Əksinə, məscidi paklamaq imkanına malik olan hər bir kəsə oranı paklamaq vacibdir.

**Məsələ 118.** Məsum İmamların (ə) hərəmini napak etmək haramdır. Əgər bu məkan napak olarsa, oranın napak qalması hörmətsizlik hesab olunduğu təqdirdə, oranı paklamaq vacibdir. Hörmətsizlik hesab olunmadığı təqdirdə isə, oranı paklamaq yaxşı bir əməl hesab olunur.

**Məsələ 119.** Məscidi qızıl ilə bəzəmək israfçılıq hesab olunduğu təqdirdə, bu iş haramdır. İsrafçılıq hesab olunmadığı təqdirdə isə, bu iş məkruhdur.

**Məsələ 120.** Məscdin şəni və mövqeyi qorunmalıdır. Məscidin şəni və mövqeyinə zidd olan işlərdən çəkinmək lazımdır.

**Məsələ 121.** Məsciddə tədris kursları və dərnəklər təşkil etmək və bu kimi başqa işlər görmək məscidin şəninə zidd olmadığı və ya camaat namazının təşkil olunmasına və namaz qılanlara maneəçilik törətmədiyi təqdirdə, bunun maneəsi yoxdur.

**Məsələ 122.** Məscid binasını bütünlüklə və ya onun bir hissəsini sökməyə icazə verilmir. Amma əhəmiyyət verilməməsi qeyri-mümkün olan bir məsləhətə görə bu işi görmək istisna təşkil edir.

**Məsələ 123.** Əgər bir məscid qəsb edilsə və ya sökülsə və onun yerində başqa bir bina inşa edilsə, yaxud bir məscid tərk edildiyinə görə məscidlikdən bir əsər-əlaməti qalmasa və oranın yenidən abadlaşdırılmasına əsla ümid olmasa, bu məkanı napak etməyin haram olduğu məlum deyildir. Amma oranı napak etməmək ehtiyat-müstəhəbə müvafiqdir.

**Məsələ 124.** Əgər bir məscid yeni yolun salınması ilə əlaqədar plana düşsə və məcburiyyət qarşısında onun bir hissəsi sökülsə və bu hissənin əvvəlki vəziyyətinə qaytarılması ehtimal edilməsə, bu məkan məscidin şəri hökmlərini daşımayacaq.

**Məsələ 125.** Əgər məscidin şəbistanında[2] bir küncdə muzey, kitabxana və s. yaratmaq məscidin şəbistanının vəqfinə zidd olsa və ya məscid binasının dəyişilməsinə səbəb olsa, buna icazə verilmir.

**Məsələ 126.** Əgər hərəkətdə olan və qeyri-sabit bir məkan, məsələn, nəqliyyat vasitəsi məscid ünvanında vəqf edilsə, ehtiyat-vacibə görə, bu məkan şəri məscid adlanır və məscidin hökmlərini daşıyır.

**Məsələ 127.** Məscidi təmizləmək və təmir etmək müstəhəbdir. Müstəhəbdir ki, məscidə getmək istəyən şəxs ətirlənsin, təmiz və yaxşı paltar geyinsin. Diqqətli olsun ki, ayaqqabısının və ya ayağının altı "nəcasət"ə və ya natəmiz bir şeyə bulaşmamış olsun. Hamıdan qabaq məscidə daxil olsun və hamıdan sonra məsciddən xaric olsun. Məscidə daxil olarkən və məsciddən xaric olarkən zikr desin və qəlbən Allaha əyilsin. Məscidə daxil olduqda məscidin təhiyyət namazı niyyətilə iki rəkət namaz qılsın. Başqa bir vacib və ya müstəhəb namaz qılmaq da kifayət edir.

**Məsələ 128.** Məsciddə yatmaq məkruhdur.

**Məsələ 129.** Hüseyniyyə və digər adlarla adlandırılan məkanlar məscid hökmündə deyildir.

---

[1] "Kifayi-vacib" – "eyni-vacib"in qarşısında dayanır. Kifayi-vacib ilk başda hər kəsə vacib olan bir işdir, amma əgər kimsə və ya kimlərsə bu işi yerinə yetirərsə, digərlərinin üzərindən vəzifə götürülür. Əgər şəri vəzifə daşıyan şəxslərin heç biri bu işi yerinə yetiməzsə, onların hamısı günahkardır. Məsələn, məscidi paklamaq, meyitə qüsl verib dəfn etmək "kifayi-vacib"dir. Amma "eyni-vacib"i bütün mükəlləflər, yəni şəri vəzifə daşıyan şəxslər yerinə yetirməlidirlər, məsələn, gündəlik namazları qılmaq, xüms və zəkat vermək və s.

[2] Şəbistan – böyük məscidlərin üstü tavanlı və kənarları örtülü hissələridir. Oxşar və bir-birinə paralel sütunlara malikdir və bir tərəfi məscidin daxilinə açılır. Şəbistan,

qədim memarlıqda məscid binasının o hissəsi idi ki, insanlar orada ibadət edir və gecələr isə orada yatırdılar.

# Azan və iqamə

**Məsələ 130.** Gündəlik vacib namazlardan qabaq azan və iqamə demək müstəhəbdir. Sübh və məğrib namazları, xüsusilə də, camaat namazı barəsində bu müstəhəb əməl daha da təkid olunub. Amma başqa vacib namazlarda, məsələn, Ayat namazında azan və iqamə demək şəriətdə gəlməyib.

**Məsələ 131.** Azan on səkkiz cümlədən ibarətdir və aşağıdakı ardıcıllıqla deyilir:
Əllahu əkbər (4 dəfə)
Əşhədu əlla ilahə illəllah (2 dəfə)
Əşhədu ənnə Muhəmmədən rəsulullah (2 dəfə)
Həyyə ələs-səlah (2 dəfə)
Həyyə ələl-fəlah (2 dəfə)
Həyyə əla xəyril-əməl (2 dəfə)
Əllahu əkbər (2 dəfə)
La ilahə illəllah (2 dəfə)

İqamənin də cümlələri eynilə azan kimidir, bu fərqlə ki, əvvəldə iki dəfə "Əllahu əkbər", deyilir. Həmçinin "Həyyə əla xəyril-əməl" cümləsindən sonra iki dəfə "Qəd qamətis-səlah" cümləsi deyilir. Axırda isə bir dəfə "La ilahə illəllah" deyilir.

**Məsələ 132.** "Əşhədu ənnə Əliyyən vəliyyullah" cümləsini şiənin şüarı ünvanında demək yaxşı və mühüm əməldir, amma azan və iqamənin bir hissəsi deyildir. Bu cümlə "mütləq qəsdi-qürbət" ilə deyilməlidir.

**Məsələ 133.** Namaz vaxtının daxil olduğunu elan etmək üçün azan demək və azanı eşidənlərin onu təkrar etmələri təkid olunan müstəhəb əməldir.

**Məsələ 134.** Namaz vaxtının daxil olduğunu elan etmək üçün məscidlərdən və başqa məkanlardan səsucaldan vasitəsilə adi qaydada azan yayımlamağın maneəsi yoxdur. Amma əgər səsucaldan vasitəsilə Quran tilavətinin və duaların yayımlanması qonşuların əziyyət çəkmələrinə səbəb olarsa, buna icazə verilmir.

**Məsələ 135.** Əgər camaat namazı üçün azan və iqamə deyilsə, bu camaat namazını qılan şəxs öz namazı üçün azan və iqamə deməməlidir.

**Məsələ 136.** Azan deyərkən üzü qibləyə dayanmaq, dəstəmazlı və qüsllü olmaq, əlləri qulağın kənarına qoymaq, səsi ucaltmaq və uzatmaq, azanın cümlələri arasında bir qədər fasilə etmək və danışmamaq müstəhəbdir.

**Məsələ 137.** İqamə deyərkən bədənin hərəkətsiz olması müstəhəbdir. Həmçinin iqaməni azandan daha asta demək və cümlələri bir-birinə birləşdirməmək müstəhəbdir. Amma azanın cümlələri arasında verilən fasilə ölçüsündə iqamənin cümlələri arasında fasilə verilməsin.

**Məsələ 138.** Azan ilə iqamənin arasında bir qədər əyləşmək və ya səcdə etmək, yaxud "təsbih" demək ("Subhanəllah" zikrini demək), yaxud bir qədər sakit dayanmaq və danışmamaq, yaxud da iki rəkət namaz qılmaq müstəhəbdir.

## Namazın vacib əməlləri

**Məsələ 139.** **Namazın vacib əməlləri on bir əməldən ibarətdir:**

**1.** **Niyyət;** **2.** **Qiyam;** **3.** **Təkbirətul-ehram;** **4.** **Qiraət;** **5.** **Rüku;** **6.** **İki sədə;** **7.** **Zikr;** **8.** **Təşəhhüd;** **9.** **Salam;** **10.** **Tərtib və ardıcıllıq;** **11.** **Muvalat (yəni əməlləri fasiləsiz yerinə yetirmək).**

**Məsələ 140.** **Namazın bir neçə vacib əməli "rükn"dür. Yəni əgər bu əməllər namazda yerinə yetirilməsə və ya vacib olan miqdardan artıq yerinə yetirilsə, hətta səhvən və ya unudularaq olsa belə, namaz düzgün deyildir. Namazın bəzi əməlləri isə "qeyri-rükn"dür. Yəni bu əməllər bilərəkdən az və ya çox yerinə yetirilsə, namaz düzgün deyildir. Amma əgər səhvən az və ya çox yerinə yetirilsə, namaz düzgün sayılır.**

**Məsələ 141.** **Namazın "rükn"ləri aşağıdakılardan ibarətdir:**

**1.** **Niyyət;** **2.** **Təkbirətul-ehram;** **3.** **Təkbirətul-ehramı deyərkən, həmçinin rükuya getməmişdən qabaq olan qiyam;** **4.** **Rüku;** **5.** **İki sədə.**

# 1. Niyyət

**Məsələ 142.** **Namazın niyyəti – namazı Allahın əmrinə itaət etmək məqsədilə qılmaqdan ibarətdir.**

**Məsələ 143.** **Niyyəti dilə gətirmək (məsələn, "Allaha yaxınlaşmaq üçün dörd rəkət zöhr namazı qılıram" demək) vacib deyildir. Həmçinin bunu ürəkdən və zehndən keçirmək də vacib deyildir. Ümumiyyətlə, əməli Allahın əmrinə itaət etməkdən ötrü yerinə yetirmək niyyətində olmaq kifayət edir.**

**Məsələ 144.** **Namaz qılan şəxs hansı namazı qıldığını bilməli və bunu müəyyən etməlidir. Odur ki, əgər dörd rəkət namaz niyyəti etsə, amma namazın zöhr, yoxsa əsr namazı olduğunu müəyyən etməsə, onun namazı düzgün deyildir.**

**Məsələ 145.** **İnsan namazı yalnız və yalnız Aləmlərin Rəbbinin əmrinə itaət etmək məqsədilə qılmalıdır. Deməli, əgər bir şəxs namazı riya, yəni özünü dindar kimi göstərmək məqsədilə və ya bu kimi başqa məqsədlərlə qılsa, bu iş haramdır və namaz düzgün deyildir.**

**Məsələ 146.** **Əgər bir şəxs namazın bəzi əməllərini riya məqsədilə yerinə yetirsə, ehtiyat-vacibə görə, namazı yenidən qılmalıdır.**

**Məsələ 147.** **Əgər bir şəxs riya ilə mübarizə məqsədilə namazın müstəhəb bir əməlini yerinə yetirməsə, onun bu əməli riya sayılmır və namazı düzgündür.**

**Məsələ 148.** **Namaz əsnasında niyyəti başqa bir namazın niyyətinə dəyişməyə icazə verilmir. Buna yalnız bəzi hallarda icazə verilir. Belə ki, bəzən namazın niyyətini başqa namazın niyyətinə dəyişmək vacib, bəzən isə icazəlidir.**[1]

**Məsələ 149.** **Namazın niyyətini başqa namazın niyyətinə dəyişmək bu hallarda vacibdir:**

**1- Əsr namazının niyyətini zöhr namazının niyyətinə dəyişmək: Əgər bir şəxs əsr namazının xüsusi vaxtından qabaq əsr namazını qıldığı əsnada zöhr namazını qılmadığını başa düşsə, niyyətini zöhr namazına dəyişməlidir.**

**2- İşa namazının niyyətini məğrib namazının niyyətinə dəyişmək: Əgər bir şəxs işa namazının xüsusi vaxtından qabaq işa namazını qıldığı əsnada məğrib namazını qılmadığını başa düşsə, eləcə də niyyəti dəyişmək yeri keçməyibsə, yəni dördüncü rəkətin rükusuna hələ getməyibsə, o, niyyətini məğrib namazının niyyətinə dəyişməlidir.**

**3- Niyyəti bir qəza namazından digər qəza namazına dəyişmək, belə ki, bu namazlar əda qılındığı zaman ardıcıllığa riayət olunmalı idi. Məsələn, bir günün zöhr və əsr namazlarının qəzası qılınarkən, unutqanlıq üzündən zöhr namazının qəzası qılınmadan əsr namazının qəzası qılındıqda, niyyəti zöhr namazının qəzasına dəyişmək lazımdır.**

---

[1] Namazda niyyəti başqa bir namazın niyyətinə dəyişməyin – buna fiqh terminologiyasında "udul" deyilir – icazəli olduğu hallar geniş fiqh kitablarında açıqlanıb.

## 2. Qiyam

**Məsələ 150.** **Təkbirətul-ehramı deyərkən ayaq üstə dayanmaq, həmçinin rükuya getməmişdən qabaq ayaq üstə dayanmaq "rükn"dür. Yəni əgər bu əməl səhvən və ya unutqanlıqla belə yerinə yetirilməsə, namaz düzgün deyildir.**

**Məsələ 151.** **"Qiraət" zamanı (yəni "Həmd" və "Surə"ni oxuyarkən), təsbihati-ərbə`əni deyərkən, həmçinin rükudan sonra ayaq üstə dayanmaq "qeyri-rükn"dür. Yəni əgər bu əməl bilərəkdən yerinə yetirilməsə, namaz düzgün deyildir. Amma əgər səhvən yerinə yetirilməsə, namaz düzgün sayılır.**

**Məsələ 152.** **Namazı ayaq üstə qılmağa qadir olan və heç bir üzrü olmayan şəxs namaza başlayandan rükuya gedənədək ayaq üstə dayanmalıdır. Həmçinin rükudan qalxdıqdan sonra və səcdəyə getməmişdən qabaq ayaq üstə dayanması vacibdir.**

**Məsələ 153.** **Əgər bir şəxs rükuya getməyi unutsa və "Həmd" və "Surə"ni dedikdən sonra əyləşsə, bu halda rükunu yerinə yetirmədiyini xatırlasa, o, qalxıb ayaq üstə dayanmalı və sonra rükuya getməlidir. Əgər o, ayaq üstə dayanmadan və elə əyləşən vəziyyətdən birbaşa rüku üçün əyilən vəziyyət alsa, onun namazı düzgün deyildir.**

**Məsələ 154.** **Namaz qılan şəxs "qiyam"da bədənini hərəkət etdirməməli, hansısa bir tərəfə aydın görünən bir həddə əyilməməli və harasa söykənməməlidir. Amma əgər bu deyilənlər çarəsizlik üzündən və ya səhvən və unutqanlıq üzündən olsa, istisna təşkil edir.**

**Məsələ 155.** **"Həmd" və "Surə"ni oxuyarkən, yaxud üçüncü və dördüncü rəkətlərdə təsbihati-ərbə`əni deyərkən namaz qılan şəxsin bədəni hərəkətsiz olmalıdır. Deməli, əgər o, bir qədər irəli və ya geri getmək istəsə, yaxud bədəni sağ və ya sol tərəflərə bir qədər hərəkət etdirmək istəsə, deməkdə olduğu ayə və ya zikrləri hərəkət zamanı dayandırmalıdır.**

**Məsələ 156.** **Qiyamda qaməti düz saxlamaq, çiyinləri aşağı salmaq, əlləri budların üstünə qoymaq, barmaqları bitişdirmək, səcdə yerinə baxmaq, bədənin ağırlığını bərabər olaraq hər iki ayağın üstünə salmaq, xüzu və xüşu halında olmaq, ayaqları bir-birindən qabağa və ya arxaya qoymamaq müstəhəbdir.**

**Məsələ 157.** **Namazı ayaq üstə dayanıb qılmağa qadir olmayan şəxs əyləşən halda namaz qılmalıdır. Amma əgər o, nəyəsə söykənib ayaq üstə dayana bilərsə, ayaq üstə dayanaraq namaz qılmalıdır.**

**Məsələ 158.** **Əgər əyləşən halda namaz qılan bir şəxs əziyyət və zəhmət çəkmədən namazın müəyyən miqdarını ayaq üstə dayanıb qıla bilərsə, bu miqdarı ayaq üstə dayanıb qılmalıdır. Beləliklə, əgər bir şəxs namazın hamısında ayaq üstə dayana bilməsə də, namazın bəzi rəkətlərində və hissələrində ayaq üstə dayana bilərsə, bu hissələri ayaq üstə dayanaraq qılmalıdır. Ayaq üstə dayana bilmədikdə isə, əyləşib namaz qılmalıdır. Sonra əgər yenidən ayaq üstə dayana bilərsə, namazı ayaq üstə dayanaraq davam etdirməlidir.**

**Məsələ 159.** **Əgər ayaq üstə dayanmağa qadir olmayan bir şəxs təkbirətul-ehramı demək miqdarında ayaq üstə dayana bilərsə, o, ayaq üstə dayanıb təkbirətul-ehramı deməli və namazın qalan hissəsini əyləşib qılmalıdır. Həmçinin əgər o, "Həmd" və "Surə"ni oxuduqdan sonra ayağa qalxa bilərsə, ayağa qalxıb, sonra rükuya getməlidir.**

**Məsələ 160.** **Əgər ayaq üstə dayanıb namaz qılmağa qadir olan bir şəxs ayaq üstə dayandığı halda xəstələnəcəyindən və ya ona başqa bir ziyanın dəyəcəyindən qorxsa, o, əyləşən halda namaz qıla bilər. Əgər əyləşən halda da bu qorxu mövcud olarsa, uzanan halda namaz qıla bilər.**

**Məsələ 161.** **Əyləşən halda namaz qılmağa qadir olmayan bir şəxs uzanan halda namaz qılmalıdır. Ehtiyat-vacibə görə, o, imkan daxilində sağ tərəfi üstə uzanmalı və onun üzü və bədəni qibləyə tərəf olmalıdır. Sağ tərəfi üstə uzanmaq mümkün olmadığı halda sol tərəfi üstə uzanmalı və onun üzü və bədəni qibləyə tərəf olmalıdır. Əgər sol tərəfi üstə də uzanmaq imkanı yoxdursa, arxası üstə uzanmalı və ayaqlarının altı qibləyə tərəf olmalıdır.**

**Məsələ 162.** **Əgər uzanan halda namaz qılan bir şəxs namaz əsnasında əziyyət çəkmədən və ya ziyan görmədən əyləşə və ya ayağa qalxa bilsə, namazın hansı miqdarını əyləşən halda və ya ayaq üstə qıla bilərsə, bu miqdarı əyləşən halda və ya ayaq üstə qılmalıdır.**

**Məsələ 163.** **Əgər bir şəxs müəyyən bir üzrə görə ayaq üstə dayana bilmirsə, amma namaz vaxtı başa çatmamış ayaq üstə dayanaraq namaz qıla biləcəyini ehtimal edirsə, ehtiyat-vacibə görə, o vaxtadək gözləməlidir. Amma əgər bir şəxs namaz vaxtının əvvəlində müəyyən bir üzrə görə namazını əyləşən halda qılsa və namaz vaxtı başa çatanadək onun üzrü aradan qalxmasa, qıldığı namaz düzgündür və namazı yenidən qılmaq lazım deyildir.**

**Məsələ 164.** **Əgər bir şəxs namaz vaxtının əvvəlində ayaq üstə dayanıb namaz qılmağa qadir olmasa, eyni zamanda namaz vaxtı başa çatanadək ayaq üstə dayanıb namaz qıla bilməyəcəyini də yəqin bilsə, o, namazını əyləşən halda namaz vaxtının əvvəlində qıla bilər. Amma əgər namaz vaxtı başa çatmamış ayaq üstə dayanıb namaz qılmaq imkanı yaransa, namazı ayaq üstə yenidən qılmalıdır.**

## 3. Təkbirətul-ehram

**Məsələ 165.** **"Təkbirətul-ehram" dedikdə, namazın əvvəlində "Əllahu əkbər" demək nəzərdə tutulur. Təkbirətul-ehram namazın vacib əməlidir.**

**Məsələ 166.** **Namazın əvvəlində təkbirətul-ehramı istər bilərəkdən, istərsə də səhvən deməmək, namazın düzgün olmamasına səbəb olur. Həmçinin əgər bir şəxs namazın əvvəlində təkbirətul-ehramı düzgün şəkildə dedikdən sonra müəyyən fasilə ilə (muvalata xələl gətirməyən bir fasilə ilə) və ya fasiləsiz olaraq "təkbirətul-ehram" niyyətilə ikinci dəfə "Əllahu əkbər" desə, onun namazı düzgün deyildir. Bu təkrarın bilərəkdən və ya səhvən olmasının isə bir fərqi yoxdur.**

**Məsələ 167.** **Təkbirətul-ehram "tələffüz edilməli"dir. Belə ki, əgər bir şəxs ağır eşitmirsə və ya ətrafda səs-küy yoxdursa, o, bunu eşidə bilməlidir.**

**Məsələ 168.** **Təkbirətul-ehram ərəbcə düzgün tələffüz edilməlidir. Əgər ərəbcə səhv tələffüz edilərsə və ya onun başqa dildə tərcüməsi deyilərsə, namaz düzgün deyildir.**

**Məsələ 169.** **Təkbirətul-ehramı deyərkən bədən hərəkətsiz olmalıdır. Deməli, əgər bir şəxs bilərəkdən və ixtiyari olaraq bədəni hərəkətdə olduğu halda təkbirətul-ehramı deyərsə, onun namazı düzgün deyildir.**

**Məsələ 170.** **Təkbirətul-ehramı düzgün tələffüz edə bilməyən şəxs onu öyrənməlidir.**

**Məsələ 171.** **Əgər bir şəxs təkbirətul-ehramı deyib-demədiyinə şəkk etsə, zikrlərə və qiraətə başlamadığı təqdirdə təkbirətul-ehramı deməlidir. Amma əgər "Həmd"i oxuduğu və ya hətta "Əuzu billahi minəş-şəytanir-rəcim" zikrini dediyi zaman bu şəkki edərsə, o öz şəkkinə etina etməməli və namazı davam etdirməlidir.**

**Məsələ 172.** **Əgər bir şəxs təkbirətul-ehramı dedikdən sonra onu düzgün deyib-demədiyinə şəkk etsə, o öz şəkkinə etina etməməlidir.**

## 4. Qiraət

**Məsələ 173.** Gündəlik vacib namazların birinci və ikinci rəkətlərində əvvəlcə "Həmd" və ondan sonra ehtiyat-vacibə görə, tam bir "Surə" oxunmalıdır.

**Məsələ 174.** Qiraət "qeyri-rükn"dür. Yəni əgər bilərəkdən tərk olunarsa, namaz düzgün deyildir. Amma əgər diqqətsizlik üzündən və ya səhvən olarsa, namaz düzgün sayılır.

**Məsələ 175.** Əgər namaz vaxtı dar olarsa, "Surə" oxunmamalıdır.

**Məsələ 176.** Əgər bir şəxs səhvən "Surə"ni "Həmd"dən qabaq oxusa və rükuya getməmişdən öncə bu səhvini başa düşsə, "Həmd"i oxuduqdan sonra "Surə"ni yenidən oxumalıdır. Amma əgər "Surə"ni oxuduğu zaman səhvini başa düşsə, "Surə"ni kəsməli və "Həmd"i oxuduqdan sonra "Surə"ni əvvəldən oxumalıdır.

**Məsələ 177.** Əgər bir şəxs "Həmd" və "Surə"ni və ya onlardan birini oxumağı unutsa və rüku etdikdən sonra bunu başa düşsə, onun namazı düzgündür.

**Məsələ 178.** Əgər bir şəxs rükuya getməmişdən qabaq "Həmd" və "Surə"ni və ya təkcə "Surə"ni oxumadığını başa düşsə, onu oxumalı və sonra rükuya getməlidir. Əgər təkcə "Həmd"i oxumadığını başa düşsə, "Həmd"i oxumalı, sonra "Surə"ni yenidən oxumalıdır. Həmçinin əgər rüku həddində əyilməmişdən qabaq "Həmd"i və ya "Surə"ni və ya onların hər ikisini oxumadığını başa düşsə, ayağa qalxıb eyni qaydada əməl etməlidir.

**Məsələ 179.** Vacib namazlarda vacib səcdəsi olan ayələrin yerləşdiyi surələri oxumağa icazə verilmir. Əgər bir şəxs bilərəkdən və ya səhvən bu surələrdən birini oxusa və səcdə ayəsinə çatsa, ehtiyat-vacibə görə, tilavət səcdəsini yerinə yetirməli və ayağa qalxmalıdır. "Surə" başa çatmadığı təqdirdə, onu başa çatdırmalı və namazı qılıb qurtardıqdan sonra onu yenidən qılmalıdır. Amma əgər bir şəxs səcdə ayəsinə çatmamışdan qabaq bunu başa düşsə, ehtiyat-vacibə görə, bu "Surə"ni kəsməli və başqa bir "Surə" oxumalıdır. Namazı qılıb qurtardıqdan sonra onu yenidən qılmalıdır.

**Məsələ 180.** Əgər bir şəxs namaz qıldığı əsnada səcdə ayəsini eşidərsə, onun namazı düzgündür. O, səcdə ayəsini eşitdikdən sonra səcdə etmək əvəzinə səcdəyə işarə etməli, sonra namazını davam etdirməlidir.

**Məsələ 181.** Əgər bir şəxs "Həmd"i oxuduqdan sonra "İxlas" və ya "Kafirun" surələrini oxumağa başlasa, onu kəsib başqa bir "Surə" oxuya bilməz. Amma əgər bir şəxs cümə namazında unutqanlıq üzündən "Cümə" və "Munafiqun" surələrinin yerinə bu surələrdən birini oxusa, onu kəsib "Cümə" və "Munafiqun" surələrini oxuya bilər.

**Məsələ 182.** Əgər bir şəxs namazda "İxlas" və "Kafirun" surələrindən qeyri bir surəni oxusa, bu surənin yarısını keçmədiyi təqdirdə, onu kəsib başqa bir surə oxuya bilər.

**Məsələ 183.** Əgər bir şəxs oxumaqda olduğu surənin bir hissəsini unutsa, yaxud vaxtın darlığına və ya başqa bir səbəbə görə surəni oxumağı başa çatdıra bilməsə, həmin surəni kəsməli və başqa bir surəni oxumalıdır. Bu halda surənin yarısını keçib-keçməməyin, yaxud bu surənin "İxlas" və "Kafirun" surələri olub-olmamasının bir fərqi yoxdur.

**Məsələ 184.** Müstəhəb namazlarda "Surə" oxumaq vacib deyildir. Hətta əgər bir müstəhəb namaz nəzir etmək nəticəsində vacib olsa belə, bu namazda "Surə" oxumaq vacib deyildir. Amma xüsusi bir surənin oxunması vurğulanan müstəhəb namazları (məsələn, valideyn üçün olan namazı) qaydası üzrə qılmaq istədikdə, həmin surə oxunmalıdır.

**Məsələ 185.** Namazın üçüncü və dördüncü rəkətlərində bir dəfə "təsbihati-ərbə`ə" demək, yəni "Subhanəllah, vəl-həmdu lilləh, və la ilahə illəllah, vəllahu əkbər" zikrini bir dəfə demək kifayət edir. Amma üç dəfə demək ehtiyat-müstəhəbə müvafiqdir. Əlbəttə, "təsbihati-ərəbə`ə"nin yerinə "Həmd"i də oxumaq olar.

**Məsələ 186.** Əgər bir şəxs "təsbihati-ərəbə`ə"ni dediyini bilsə, amma neçə dəfə dediyini bilməsə, onun üzərinə heç bir vəzifə düşmür. Amma rükuya getməmiş ən az sayı götürə bilər və "təsbihati-ərəbə`ə"ni üç dəfə dediyinə yəqin etmək üçün onu təkrar edə bilər.

**Məsələ 187.** Əgər bir şəxs adəti üzrə namazın üçüncü və dördüncü rəkətlərində "təsbihati-ərəbə`ə"ni deyirsə, amma "Həmd"i oxumağı qərara alarsa, buna baxmayaraq, bu qərarına diqqət etməyib öz adəti üzrə "təsbihati-ərəbə`ə"ni deyərsə, onun namazı düzgündür. Həmçinin əgər bir şəxs adəti üzrə namazın üçüncü və dördüncü rəkətlərində "Həmd"i oxuyursa, amma "təsbihati-ərəbə`ə"ni deməyi qərara alarsa, buna baxmayaraq, bu qərarına diqqət etməyib öz adəti üzrə "Həmd"i oxuyarsa, onun namazı düzgündür.

**Məsələ 188.** Əgər bir şəxs namazın üçüncü və ya dördüncü rəkətində "Həmd"i oxumaq istəsə, amma dilinə "təsbihati-ərbə`ə" gəlsə, yaxud "təsbihati-ərbə`ə"ni oxumaq istəsə, amma dilinə "Həmd" gəlsə, onu kəsib yenidən "Həmd"i və ya "təsbihati-ərbə`ə"ni oxumalıdır. Amma əgər o, adətən, dilinə gələn surə və ya zikri oxuyursa və qəlbinin dərinliyində də elə onu oxumaq niyyətindədirsə, bu halda dilinə gələn surə və ya zikri oxuya bilər və namazı düzgündür.

**Məsələ 189.** Əgər bir şəxs ayaq üstə ikən “Həmd”i və ya “təsbihati-ərbə`ə”ni oxuyub-oxumadığına şəkk etsə, o, “Həmd”i və ya “təsbihati-ərbə`ə”ni oxumalıdır. Amma əgər rükudan qabaq deyilən müstəhəb istiğfarı deyərkən “təsbihati-ərbə`ə”ni oxuyub-oxumadığına şəkk etsə, onu oxuması lazım deyildir.

**Məsələ 190.** Əgər bir şəxs üçüncü və dördüncü rəkətlərin rükusunda “Həmd”i və ya “təsbihati-ərbə`ə”ni oxuyub-oxumadığına şəkk etsə, o öz şəkkinə etina etməməlidir. Amma əgər rükuya gedərkən və rüku həddində əyilməmişdən qabaq bu şəkki etsə, ehtiyat-vacibə görə, ayağa qalxıb “Həmd”i və ya “təsbihati-ərbə`ə”ni oxumalıdır.

**Məsələ 191.** Sübh, məğrib və işa namazlarının birinci və ikinci rəkətlərində “Həmd” və “Surə”ni ucadan oxumaq kişiyə vacibdir. Zöhr və əsr namazlarının birinci və ikinci rəkətlərində “Həmd” və “Surə”ni astadan oxumaq həm kişiyə, həm də qadına vacibdir.

**Məsələ 192.** Qadın sübh, məğrib və işa namazlarının birinci və ikinci rəkətlərində “Həmd” və “Surə”ni ucadan və ya astadan oxuya bilər. Amma əgər naməhrəm kişi onun səsini eşidirsə, astadan oxuması daha yaxşıdır.

**Məsələ 193.** Namazın üçüncü və dördüncü rəkətlərində “Təsbihati-ərbə`ə” və ya “Həmd” astadan oxunmalıdır. Əgər bir şəxs “Həmd”i oxuyursa, ehtiyata görə, “Bismilləhir rahmənir rahim”i də astadan deməlidir.

**Məsələ 194.** Namazların birinci və ikinci rəkətlərində astadan və ya ucadan oxumağın vacibliyi “Həmd” və “Surə”nin qiraətinə, üçüncü və dördüncü rəkətlərdə isə astadan oxumağın vacibliyi “Həmd” və ya “Təsbihati-ərbə`ə”nin qiraətinə aiddir. Amma rüku və səcdənin zikrlərini, təşəhhüdü və salamları, həmçinin gündəlik vacib namazların digər zikrlərini həm ucadan, həm də astadan oxumaq olar.

**Məsələ 195.** Gündəlik vacib namazlarda ucadan və ya astadan oxumağın vacibliyi baxımından əda namazı ilə qəza namazı arasında – hətta ehtiyat qəza namazı olsa belə – fərq yoxdur.

**Məsələ 196.** Ucadan oxumağın meyarı səsin cövhərini (cingiltisini) aşkar etməkdən ibarətdir. Astadan oxumağın meyarı isə səsin cövhərini aşkar etməməkdir (bir növ pıçıltı ilə oxumaqdır), baxmayaraq ki, namaz qılan şəxsin kənarında dayanan başqa bir şəxs onun səsini eşidir.

**Məsələ 197.** Əgər bir şəxs səsini adi həddən çox qaldıraraq “Həmd” və “Surə”ni oxusa, məsələn, fəryad çəkərək oxusa, onun namazı pozulur.

**Məsələ 198.** Əgər bir şəxs namazın ucadan oxunan “qiraət”ini bilərəkdən astadan oxusa və ya astadan oxunan “qiraət”ini bilərəkdən ucadan oxusa, onun namazı düzgün deyildir. Amma əgər unutqanlıq üzündən və ya məsələni bilmədiyinə görə belə etsə, onun namazı düzgündür. Əgər o, “Həmd” və “Surə”ni və ya “Təsbihati-ərbə`ə”ni oxuyarkən səhvini başa düşsə, səhvən ucadan və ya astadan oxuduğu hissəni yenidən oxuması lazım deyildir.

**Məsələ 199.** Namazın sözlərini tələffüz etmək və dildə demək vacibdir. Odur ki, onları yalnız ürəkdən keçirmək kifayət etmir. Namazın sözlərini tələffüz etməyin göstəricisi isə odur ki, əgər bir şəxs ağır eşitmirsə və ya ətrafdakı səslər ona mane olmursa, o öz dediyini eşitsin.

**Məsələ 200.** Lal insan, yəni danışmaq qabiliyyətinə malik olmayan bir şəxs əgər namazı işarə ilə qılsa, namazı düzgündür.

**Məsələ 201.** Namazın sözləri düzgün və səhvsiz tələffüz edilməlidir. Əgər bir şəxs namazın sözlərini düzgün tələffüz etməyi heç bir vəchlə öyrənə bilmirsə, bacardığı şəkildə tələffüz etsin. Amma ehtiyat-müstəhəb odur ki, bu şəxs namazını camaatla qılsın.

**Məsələ 202.** Əgər bir şəxs “Həmd” və “Surə”ni, yaxud namazın digər sözlərini və zikrlərini yaxşı bilmirsə, amma onları öyrənə bilərsə, namazın vaxtı geniş olduğu təqdirdə onları öyrənməlidir. Amma əgər namazın vaxtı dardırsa, namazı camaatla qılmaq mümkün olduğu təqdirdə, ehtiyat-vacibə görə, namazını camaatla qılmalıdır.

**Məsələ 203.** Ümumiyyətlə, qiraətin (yəni oxunuş və tələffüzün) düzgünlüyü meyarı hərflərin hərəkələrini düzgün oxumaq və sükuna riayət etmək, həmçinin hərfləri öz məxrəcindən tələffüz etməkdir, belə ki, ərəbdillilər başqa bir hərfin deyil, məhz həmin hərfin tələffüz edildiyini söyləsinlər. Təcvid qaydalarına isə riayət etmək vacib deyildir.

**Məsələ 204.** Əgər bir şəxs “Həmd” və “Surə”nin hansısa bir kəlməsini bilmirsə, yaxud bilsə də, bilərəkdən onu demirsə, yaxud hansısa bir hərfin yerinə bilərəkdən başqa bir hərfi deyi” hərfinin yerinə “” hərfini deyirsə, yaxud kəlmələrin “hərəkələr”ini

dəyişirsə və ya təşdidə riayət etmirsə, onun namazı düzgün deyildir.

**Məsələ 205.** Əgər bir şəxs "Həmd" və "Surə"ni və ya namazın digər zikrlərini səhv tələffüz edibdirsə, məsələn, "yuləd" sözünü "yulid" olaraq tələffüz edibdirsə, "müqəssir cahil"[1] olduğu təqdirdə, ehtiyat-vacibə görə, onun namazı düzgün deyildir. Amma əgər "qasir cahil"[2] olubsa və həmin tələffüzün düzgün olduğunu düşünübsə, onun namazı düzgündür.

**Məsələ 206.** Əgər bir şəxs "Həmd" və "Surə"ni oxuyarkən bir ayəni digər ayəyə birləşdirərsə, əvvəlki ayənin axırıncı hərəkəsini tələffüz etməsi vacib deyildir. Məsələn, əgər o, "Maliki yəvmiddin" ayəsində "yəvmiddin" kəlməsinin axırıncı hərəkəsini deməsə və fasiləsiz olaraq "İyyakə nə`budu və iyyakə nəstə`in" desə, bunun iradı yoxdur. Bu, "sükunlu vəsl" adlanır. Ayənin təşkil olunduğu kəlmələrin axırıncı hərəkəsi barəsində də hökm eynidir, baxmayaraq ki, burada "sükunlu vəsl" etməmək ehtiyat-müstəhəbə müvafiqdir.

**Məsələ 207.** Bir ayənin ifadələri arasında dayanmaq və fasilə etmək əgər cümlənin bütövlüyünə xələl gətirməzsə, bunun iradı yoxdur. Məsələn, "Ğəyril məğzubu ələyhim" ifadəsindən sonra bir qədər dayanıb, daha sonra "Vələzzallin" ifadəsini deməyin iradı yoxdur.

**Məsələ 208.** Əgər bir şəxs bir ayəni oxumağa başladıqdan sonra əvvəlki ayəni düzgün oxuyub-oxumadığına şəkk etsə, o öz şəkkinə etina etməsin. Həmçinin əgər bir ayənin bir cümləsini deyərkən əvvəlki cümləni düzgün deyib-demədiyinə şəkk etsə, məsələn, "İyyakə nəstə`in" cümləsini deyərkən "İyyakə nə`budu" cümləsini düzgün deyib-demədiyinə şəkk etsə, öz şəkkinə etina etməsin. Əlbəttə, düzgün tələffüz edib-etmədiyinə şəkk etdiyi kəlmə və ifadəni ehtiyat üzrə yenidən desə, bunun maneəsi yoxdur.

**Məsələ 209.** "Həmd" və "Surə"ni oxuyarkən və ya "təsbihati-ərbə`ə"ni deyərkən bədən hərəkətsiz olmalıdır. Əgər şəxs bir qədər irəli və ya geri hərəkət etmək istəsə, yaxud bədənini bir qədər sağa və ya sola hərəkət etdirmək istəsə, deməkdə olduğu zikri hərəkət zamanı dayandırmalıdır.

**Məsələ 210.** Namazın birinci rəkətində "Həmd"i oxumağa başlamamışdan qabaq "Əuzu billahi minəş-şəytanir-rəcim" cümləsini demək müstəhəbdir. Zöhr və əsr namazlarının birinci və ikinci rəkətlərində "Bismilləhir rahmənir rahim" ayəsini ucadan demək müstəhəbdir. "Həmd" və "Surə"ni tələsmədən oxumaq və hər ayənin axırında vəqf etmək, yəni bir ayəni sonrakı ayəyə birləşdirməmək müstəhəbdir. "Həmd" və "Surə"ni oxuyarkən ayələrin mənasına diqqət yetirmək tövsiyə olunur. "Həmd" surəsi oxunduqdan sonra "Əl-həmdu lilləhi rabbil-aləmin" zikrini demək – istər camaat namazında, istərsə də tək halda qılınan namazda olsun, yaxud şəxs istər imam-camaat, istərsə də məmum olsun – müstəhəbdir. "İxlas" surəsi oxunduqdan sonra isə bir, ya iki və ya üç dəfə "Kəzalikəllahu Rabbi" zikrini demək müstəhəbdir. "Həmd"i oxuduqdan sonra, həmçinin "Surə"ni oxuduqdan sonra bir an dayanmaq və sonra namazı davam etdirmək tövsiyə olunur.

**Məsələ 211.** Namazın üçüncü və dördüncü rəkətlərində "təsbihati-ərbə`ə"dən sonra istiğfar etmək, yəni Allahdan bağışlanma diləmək müstəhəbdir. Məsələn, "Əstəğfirullahə Rabbi və ətubu iləyhi" və ya "Əllahummə iğfir li" zikrlərini demək olar.

**Məsələ 212.** Gündəlik namazların heç birində "İxlas" surəsini oxumamaq məkruhdur. Həmçinin "İxlas" surəsi istisna olmaqla, bir namazın iki rəkətində eyni "Surə"ni oxumaq məkruhdur.

**Məsələ 213.** Bütün namazların birinci rəkətində "Qədr" surəsini və ikinci rəkətində "İxlas" surəsini oxumaq müstəhəbdir.

---

[1] Müqəssir cahil – o şəxsdir ki, öz cəhalətini, yəni "bilmədiyi"ni bilir və bu cəhaləti aradan qaldırmağın yollarını da bilir, amma şəriəti öyrənməyə səhlənkar yanaşır.

[2] Qasir cahil – o şəxsdir ki, ümumiyyətlə, öz cəhalətindən xəbərsizdir, yəni bilmədiyini bilmir, yaxud da öz cəhalətindən xəbərdar olsa da, onu aradan qaldırmağa bir yolu yoxdur.

## 5. Rüku

**Məsələ 214.** Namazın hər rəkətində "Qiraət"dən sonra, yəni "Həmd" və "Surə" və ya "təsbihati-ərbə`ə" oxunduqdan sonra rüku yerinə yetirilməlidir. Yəni o həddə əyilmək lazımdır ki, əlləri dizlərə qoymaq mümkün olsun. Əgər əl barmaqlarının ucu dizlərə çatarsa, bu da kifayət edir.

**Məsələ 215.** Ehtiyat-vacibə görə, rüku halında əllər dizlərə qoyulmalıdır.

**Məsələ 216.** Rüku – namazın "rükn" qismindən olan vacib əməlidir. Belə ki, rüku bilərəkdən və ya səhvən artırılıb-azaldıldığı təqdirdə namaz pozulur. Deməli, əgər bir şəxs rüku həddində əyildikdən və bədəni hərəkətsiz olduqdan sonra qalxsa və rüku niyyətilə yenidən əyilsə, yaxud da rükunu unutsa və namazın ikinci səcdəsində və ya ikinci səcdədən sonra bunu xatırlasa, onun namazı pozulur.

**Məsələ 217.** İmam-camaata tabe olmaq nəticəsində (camaat namazı mövzusunda açıqlanacaq şərtlər daxilində) rükunun artması namazın pozulmasına səbəb olmur. Həmçinin əgər müstəhəb namazda rüku səhvən artıq yerinə yetirilərsə, namaz düzgündür.

**Məsələ 218.** Əyilmək rüku niyyətilə olmalıdır. Beləliklə, əgər bir şəxs başqa bir iş üçün, məsələn, yerdən nəyisə götürmək niyyətilə əyilsə, bunu rüku hesab edə bilməz. Əksinə, o, ayağa qalxmalı və rüku niyyətilə yenidən əyilməlidir. Bu halda "rükn" artırılmış hesab olunmur və namaz pozulmur.

**Məsələ 219.** Rüku üçün əyilə bilməyən bir şəxs əgər bir şeydən tutub və ya bir şeyə söykənib əyilə bilərsə, bu şəkildə rüku etməlidir. Əgər bir şəxs hətta bir şeydən tutub və ya bir şeyə söykənib əyilə bilmirsə, bacardığı qədər əyilib rüku etməlidir. Bu iki halda şəxs rükunu əyləşən halda yerinə yetirə bilməz, baxmayaraq ki, o, əyləşən halda rüku həddində əyilə bilər. Amma əgər bir şəxs ümumiyyətlə ayaq üstə dayanaraq rüku üçün əyilə bilmirsə, o, rükunu əyləşən halda yerinə yetirməlidir. Ehtiyata görə, namazı təkrar qılmalı və bu namazın rükusunu ayaq üstə dayanaraq işarə ilə yerinə yetirməlidir. Əgər bir şəxs hətta əyləşən halda rüku üçün əyilə bilmirsə, o, ayaq üstə dayanaraq başın işarəsi ilə rükunu yerinə yetirməlidir. Əgər baş ilə işarə edə bilmirsə, rükuya əyilmək niyyətilə gözlərini yummalı və rükudan qalxmaq niyyətilə gözlərini açmalıdır.

**Məsələ 220.** Əgər bir şəxs rükunu əyləşən halda yerinə yetirirsə, kifayət edir ki, o, üzü dizlərinin müqabilinə çatacaq həddə əyilsin. Əlləri dizlərə qoymaq isə lazım deyildir.

**Məsələ 221.** Əyləşən halda və ya işarə ilə yerinə yetirilən rükunu bilərəkdən və ya səhvən artırıb-azaltmaq namazın pozulmasına səbəb olur.

**Məsələ 222.** Rükuda zikr deyilməlidir. Rükunun vacib zikri bir dəfə "Subhanə Rabbiyəl-əzimi və bi-həmdihi" və ya üç dəfə "Subhanəllah"dan ibarətdir. Əgər "Subhanəllah" zikrinin yerinə (səcdənin xüsusi zikrindən qeyri) başqa bir zikr, məsələn, "Əl-həmdu lilləh", "Əllahu əkbər" və s. üç dəfə deyilərsə, kifayət edir.

**Məsələ 223.** Namaz vaxtı dar olduqda və ya məcburiyyət halında "Subhanəllah" zikrini bir dəfə demək kifayət edir.

**Məsələ 224.** Rükunun vacib zikri deyildiyi zaman bədən hərəkətsiz olmalıdır. Hətta rüku zikri müstəhəb niyyətilə deyildiyi zaman, məsələn, "Subhanə Rabbiyəl-əzimi və bi-həmdihi" zikri və ya başqa bir zikr təkrar edildiyi zaman, ehtiyat-vacibə görə, bədən hərəkətsiz olmalıdır.

**Məsələ 225.** Əgər şəxs bir qədər irəli və ya geri hərəkət etmək istəsə, yaxud bədənini bir qədər sağa və ya sola hərəkət etdirmək istəsə, deməkdə olduğu zikri hərəkət zamanı dayandırmalıdır. Amma hərəkət edərkən "namazın zikri" niyyətilə deyil, "ümumi zikr" niyyətilə zikr deməyin maneəsi yoxdur.

**Məsələ 226.** Rükunun zikrini deyərkən bədənin və ya barmaqların və ya bu kimi əzaların cüzi hərəkət etməsinin maneəsi yoxdur.

**Məsələ 227.** Əgər rükunun vacib zikrini deyərkən bədən qeyri-ixtiyari olaraq hərəkət etsə, belə ki, vacib olan hərəkətsizlik aradan getsə, bədən hərəkətsiz vəziyyətə gəldikdən sonra vacib zikr təkrar deyilməlidir.

**Məsələ 228.** Əgər bir şəxs rükunun zikri deyilərkən bədənin hərəkətsiz olmasının vacibliyini bilsə, amma rüku həddində əyilməmişdən və bədən hərəkətsiz vəziyyətə gəlməmişdən qabaq bilərəkdən rükunun zikrini desə, onun namazı pozulur.

**Məsələ 229.** Əgər bir şəxs rüku həddində əyilməmişdən və bədən hərəkətsiz vəziyyət almamışdan qabaq səhvən rükunun

zikrini desə, rüku həddində əyildikdən sonra zikri yenidən deməlidir.

**Məsələ 230.** Əgər bir şəxs rükunun zikri deyilərkən bədənin hərəkətsiz olmasının vacibliyini bilsə, amma rükunun vacib zikrini tamamlamamışdan qabaq bilərəkdən rükudan qalxsa, onun namazı pozulur. Lakin əgər bu işi səhvən etsə, bu halda əgər rüku həddindən xaric olmamışdan qabaq zikri tamamlamadığını başa düşsə, həmin vəziyyətdə dayanmalı və rükunun zikrini deməlidir. Amma əgər rüku halından xaric olduqdan sonra zikri tamamlamadığını başa düşsə, onun namazı düzgündür.

**Məsələ 231.** Əgər bir şəxs xəstəliklə və ya bu kimi başqa bir səbəblə əlaqədar olaraq üç dəfə "Subhanəllah" zikrini demək ölçüsündə rükuda qala bilmirsə, onun bir dəfə "Subhanəllah" deməsi kifayət edir. Əgər o, yalnız bir an rükuda qala bilirsə, ehtiyat-vacibə görə, həmin an zikri deməyə başlamalı və rükudan qalxa-qalxa zikri tamamlamalıdır.

**Məsələ 232.** Rükunun zikrini dedikdən sonra qalxıb ayaq üstə dayanmaq və bədən hərəkətsiz vəziyyət aldıqdan sonra səcdəyə getmək lazımdır. Əgər bir şəxs bilərəkdən qalxıb ayaq üstə dayanmadan və ya bədən hərəkətsiz vəziyyət almadan səcdəyə gedərsə, onun namazı pozulur.

**Məsələ 233.** Əgər bir şəxs rüku etməyi unutsa və səcdəyə getməmişdən qabaq bunu başa düşsə, o, ayağa qalxıb dayanmalı və ayaq üstə dayandığı halda rükuya getməlidir. Əgər o, tam ayağa qalxmamış və əyilmiş vəziyyətdə ikən rükuya gedərsə, bu, kifayət etmir. Belə rüku ilə kifayətləndiyi təqdirdə, onun namazı düzgün deyildir.

**Məsələ 234.** Əgər bir şəxs birinci səcdədə ikən və ya birinci səcdədən sonra və ikinci səcdəyə daxil olmamışdan qabaq rüku etmədiyini xatırlasa, ayağa qalxıb dayanmalı və rüku etməlidir. Rükudan sonra iki səcdəni yerinə yetirməlidir. Namaz tamamlandıqdan sonra isə artıq səcdə üçün iki səhv-səcdəsi yerinə yetirmək ehtiyat-müstəhəbdir.

**Məsələ 235.** Rükuya getməzdən qabaq və ayaq üstə dayanan halda "təkbir" (Əllahu əkbər) demək müstəhəbdir. Kişinin rüku zamanı dizlərini arxaya verməsi, başını aşağı salmayıb kürəyi ilə bərabər səviyyədə saxlaması, əllərini dizlərinə qoyması və ayaqlarının ortasına baxması müstəhəbdir. Rükunun zikrindən qabaq və ya sonra salavat demək, rükunun zikrini təkrarlamaq və zikri tək sayda demək müstəhəbdir. Rükudan qalxıb dayandıqdan və bədən hərəkətsiz vəziyyət aldıqdan sonra "Səmiəllahu li-mən həmidəhu" cümləsini demək müstəhəbdir.

**Məsələ 236.** Qadının rüku zamanı əllərini dizlərdən yuxarı hissəyə qoyması və dizləri arxaya verməməsi müstəhəbdir.

## 6. Sücud

**Məsələ 237.** İstər vacib, istərsə də müstəhəb namazların hər rəkətində rükudan sonra “iki səcdə” yerinə yetirmək, yəni Allahın qarşısında alnı təvazökarlıqla yerə qoymaq vacibdir.

**Məsələ 238.** Səcdə edərkən alından əlavə, iki əlin içi, iki diz və iki ayağın baş barmağının başı yerə qoyulmalıdır.

**Məsələ 239.** Bir rəkətdə “iki səcdə” yerinə yetirmək “rükn”dür. Beləliklə, əgər bir şəxs bilərəkdən və ya unutqanlıq üzündən hər iki səcdəni yerinə yetirməsə, yaxud əlavə olaraq iki səcdə yerinə yetirsə, onun namazı pozulur.

**Məsələ 240.** Səcdənin birini bilərəkdən azaltmaq və ya artırmaq namazı pozur.

**Məsələ 241.** Əgər bir şəxs unutqanlıq üzündən və ya səhvən bir səcdəni azaltsa və ya artırsa, namaz pozulmur, amma bir sıra hökmləri vardır ki, irəlidə açıqlanacaqdır.

**Məsələ 242.** Əgər alın bilərəkdən və ya səhvən yerə qoyulmasa, səcdə gerçəkləşməyibdir, baxmayaraq ki, digər altı üzv (yəni iki əlin içi, iki diz və iki ayağın baş barmağının başı) yerə qoyulubdur. Amma əgər alın yerə qoyulsa, digər üzvlər isə səhvən yerə qoyulmasa, yaxud səcdənin zikri səhvən deyilməsə, səcdə düzgündür.

**Məsələ 243.** Səcdə zamanı ayağın baş barmağının başından əlavə, digər barmaqları da yerə qoymaq olar.

**Məsələ 244.** Səcdənin vacib zikri bir dəfə “Subhanə Rabbiyəl-ə`la və bi-həmdihi” və ya üç dəfə “Subhanəllah”dan ibarətdir. Əgər “Subhanəllah” zikrinin yerinə (rükunun xüsusi zikrindən qeyri) başqa bir zikr, məsələn, “Əl-həmdu lilləh”, “Əllahu əkbər” və s. üç dəfə deyilərsə, kifayət edir.

**Məsələ 245.** Əgər rüku və səcdənin zikri bir-birinin yerinə deyilsə, bu, səhvən olduğu təqdirdə, iradı yoxdur. Həmçinin əgər bilərəkdən belə deyilsə, amma izzətli və cəlalətli Allahı ümumi zikr etmək niyyətilə deyilsə, iradı yoxdur, amma rüku və ya səcdənin xüsusi zikri də deyilməlidir.

**Məsələ 246.** Əgər bir şəxs rükudan və ya səcdədən sonra rüku və ya səcdənin zikrini səhv dediyini başa düşsə, onun namazı düzgündür.

**Məsələ 247.** Səcdənin vacib zikri deyilən zaman bədən hərəkətsiz olmalıdır. Həmçinin ehtiyat-vacibə görə, müstəhəb zikr niyyətilə hansısa bir zikr deyilərkən, məsələn, “Subhanə Rabbiyəl-ə`la və bi-həmdihi” və ya başqa bir zikr təkrar edilərkən bədən hərəkətsiz olmalıdır.

**Məsələ 248.** Səcdənin zikri deyilərkən bədənin hərəkətsiz olmasının vacibliyini bilən bir şəxs əgər alnını yerə qoymamış və bədəni hərəkətsiz olmamışdan qabaq bilərəkdən zikr desə, yaxud zikr tamamlanmamışdan qabaq başını səcdədən bilərəkdən qaldırsa, onun namazı pozulur.

**Məsələ 249.** Əgər bir şəxs alnını yerə qoymamış və bədəni hərəkətsiz olmamışdan qabaq səcdənin zikrini səhvən desə və səcdə zamanı bunu başa düşsə, bədəni hərəkətsiz olduqdan sonra zikri yenidən deməlidir.

**Məsələ 250.** Əgər bir şəxs səcdədən qalxdıqdan sonra səcdəyə çatmamış və ya bədən hərəkətsiz olmamışdan qabaq zikri dediyni başa düşsə, yaxud zikr tamamlanmışdan qabaq səcdədən qalxdığını başa düşsə, onun namazı düzgündür.

**Məsələ 251.** Əgər döşəyin və ya bu kimi bir şeyin üstündə dayanaraq səcdə yerinə yetirilsə (belə ki, döşəyin üstündə dayanaraq səcdə etdikdə bədən əvvəlcə hərəkət edir və sonra dayanır), bədən hərəkətsiz olduğu zaman zikr deyildiyi təqdirdə, namaz düzgündür.

**Məsələ 252.** Əgər səcdənin zikri deyilərkən yeddi üzvdən biri bilərəkdən yerdən qaldırılsa, namaz pozulur. Amma zikr deyilməyən zaman alından başqa üzvlər yerdən qaldırılsa və yenidən yerə qoyulsa, bunun iradı yoxdur.

**Məsələ 253.** Əgər səcdənin zikri tamamlanmamışdan qabaq alın səhvən yerdən qaldırılsa, alnı yenidən yerə qoymaq olmaz. Bu, bir səcdə hesab olunmalıdır. Amma əgər digər üzvlər səhvən yerdən qaldırılsa, onları yenidən yerə qoymaq və zikri demək lazımdır.

**Məsələ 254.** Əgər səcdə edərkən alın səcdə yerinə qoyulsa və qeyri-ixtiyari olaraq yerdən qalxsa, alnı yenidən yerə qoymaq və zikri demək lazımdır. Bu, birlikdə bir səcdə hesab olunur.

**Məsələ 255.** Səcdə zamanı iki əlin içi yerə qoyulmalıdır. Amma məcburiyyət halında əlin üstünü də yerə qoymağın maneəsi yoxdur. Əgər əlin üstünü də yerə qoymaq mümkün olmazsa, biləng yerə qoyulmalıdır. Əgər bu da mümkün olmazsa, dirsəyə qədər qolun hansı yerini yerə qoymaq mümkündürsə, həmin hissə yerə qoyulmalıdır. Əgər bu da mümkün olmazsa, bazunu yerə qoymaq kifayət edir.

**Məsələ 256.** Birinci səcdənin zikri tamamlandıqdan sonra əyləşmək və bədən hərəkətsiz vəziyyət aldıqdan sonra ikinci səcdəyə getmək lazımdır.

**Məsələ 257.** Əgər bir şəxs xəstəliklə və ya bu kimi başqa bir səbəblə əlaqədar olaraq üç dəfə "Subhanəllah" zikrini demək ölçüsündə səcdədə qala bilmirsə, onun bir dəfə "Subhanəllah" deməsi kifayət edir. Əgər o, yalnız bir an səcdədə qala bilirsə, ehtiyat-vacibə görə, həmin an zikri deməyə başlamalı və səcdədən qalxa-qalxa zikri tamamlamalıdır.

**Məsələ 258.** Əgər bir şəxs əyilib alnını yerə qoya bilmirsə, bacardığı qədər əyilməli və möhürü və ya üzərinə səcdə etməyin düzgün olduğu başqa bir şeyi hündür bir əşyanın üstünə qoymalı və alnını möhürə elə bir şəkildə qoymalıdır ki, ətrafdakılar onun səcdə etdiyini söyləsinlər. Amma mümkün olduğu təqdirdə əllərin içini, dizləri və ayağın baş barmağının başını adi qaydada yerə qoymalıdır. Əgər möhürü qoymaq üçün bir əşya tapılmazsa, möhürü əli ilə yuxarı qaldırmalı və alnını ona qoymalıdır. Əgər o, əsla əyilə bilmirsə, səcdə etmək əvəzinə baş ilə səcdəyə işarə etməlidir. Əgər bunu da edə bilmirsə, göz ilə səcdəyə işarə etməlidir.

**Məsələ 259.** Səcdə edərkən alının qoyulduğu yer dizlərin və ayaq barmaqlarının başının qoyulduğu yerdən dörd bağlı barmaq ölçüsündən hündürdə və ya alçaqda olmamalıdır.

**Məsələ 260.** Möhür və ya üzərinə səcdə edilən əşya pak olmalıdır. Amma möhürü napak xalçanın üstünə qoymağa gəlincə, əgər napaklıq bədənə və paltara sirayət etməzsə, yaxud möhürün bir tərəfi napak olsa da alın onun pak tərəfinə qoyularsa, bunun maneəsi yoxdur.

**Məsələ 261.** Alın ilə üzərinə səcdə edilən əşya, məsələn, möhür arasında saç, papaq və ya başqa bir şey maneə əmələ gətirməməlidir.

**Məsələ 262.** Əgər alın ilə möhür arasında bir şey maneə əmələ gətirərsə, namaz düzgün deyildir. Amma əgər möhürün sadəcə rəngi dəyişmiş olarsa, bunun iradı yoxdur.

**Məsələ 263.** Əgər bir şəxs səcdə zamanı başa düşsə ki, alın hansısa bir maneəyə görə, məsələn, çadraya görə möhürə dəymir, bu şəxs başını yerdən qaldırmadan alnını hərəkət etdirməli və ya maneəni alnının altından çəkib çıxartmalıdır. Belə ki, alın ən azı barmağın başı ölçüsündə möhürə dəyməlidir. Əgər bu şəxs başını yerdən qaldırsa və maneəni aradan qaldırdıqdan sonra alnını yenidən möhürə qoysa, bu hərəkət məsələni bilməmək və ya unutqanlıq üzündən olduğu, habelə bir rəkətin iki səcdəsindən yalnız birində bunu etdiyi təqdirdə, namaz düzgündür. Amma əgər məsələni bilərək bu hərəkəti edərsə və ya bir rəkətin hər iki səcdəsində bunu edərsə, namaz düzgün deyildir.

**Məsələ 264.** Bütün namazların birinci rəkətində, həmçinin dördrəkətli namazların üçüncü rəkətində ehtiyat-vacibə görə, ikinci səcdədən sonra əyləşmək və daha sonra növbəti rəkət üçün ayağa qalxmaq lazımdır. Əlbəttə, əgər şəxs müəyyən qədər əyləşmədən növbəti rəkət üçün ayağa qalxarsa, namaz pozulmur.

## Üzərinə səcdə etməyin düzgün olduğu şeylər

**Məsələ 265.** Səcdə zamanı alın "üzərinə səcdə etməyin düzgün olduğu şey"in üzərinə qoyulmalıdır.

**Məsələ 266.** Namazın səcdəsində alın Yerə və ya Yerdən çıxıb yeyilməyən və geyinilməyən bitkilərin üzərinə qoyulmalıdır, məsələn, daş, torpaq, çubuq, ağacların yarpağı və s. Amma Yerdən çıxmasına baxmayaraq, yeyilən və geyinilən bitkilərin, məsələn, buğda və pambığın üzərinə səcdə etmək, həmçinin Yerin tərkibindən sayılmayan qazıntıların, məsələn, metalların və şüşənin üzərinə səcdə etmək düzgün deyildir.

**Məsələn 267.** Binaların tikintisində və ya dekorasiyasında istifadə edilən mərmər daşının və başqa daşların, həmçinin əqiq, firuzə, dürr və bu kimi daşların üzərinə səcdə etmək düzgündür. Amma əqiq, firuzə, dürr və bu kimi daşların üzərinə səcdə etməmək ehtiyat-müstəhəbə müvafiqdir.

**Məsələ 268.** Kərpic, saxsı, tabaşir, əhəng və sementin üzərinə səcdə etmək düzgündür.

**Məsələ 269.** Yerdən çıxan və yalnız heyvan yemi olan bitkilərin, məsələn, ot və samanın üzərinə səcdə etmək düzgündür.

**Məsələ 270.** Çayın yaşıl yarpağı üzərinə səcdə etmək, ehtiyat-vacibə görə, düzgün deyildir. Amma qəhvə yarpağının üzərinə səcdə etmək – onun yarpağı qida kimi istifadə edilmədiyinə görə – düzgündür.

**Məsələ 271.** Qida kimi istifadə edilməyən güllərin, həmçinin yalnız xəstəliklərin müalicəsində istifadə edilən bitki dərmanlarının, məsələn, gülxətminin və bənövşə gülünün üzərinə səcdə etmək düzgündür. Amma tibbi xassələrinə görə müalicədən əlavə, qida kimi də istifadə edilən bitkilərin, məsələn, kətan toxumunun üzərinə səcdə etmək düzgün deyildir.

**Məsələ 272.** Bəzi məntəqələrdə və ya bəzi toplumlarda yeyilən, amma başqalarının qida kimi istifadə etmədikləri bitkilər yeyilən bitkilər sayılır. Belə bitkilərin üzərinə səcdə etmək düzgün deyildir.

**Məsələ 273.** Çubuqdan və bitkidən (kətan və pambıq istisna olmaqla) hazırlanan kağızın üzərinə səcdə etmək düzgündür.

**Məsələ 274.** Əgər bir şəxsin ixtiyarında "üzərinə səcdə etməyin düzgün olduğu bir şey" yoxdursa, yaxud soyuq və ya istiliklə, yaxud da başqa bir səbəblə əlaqədar onun üzərinə səcdə edə bilmirsə, onun paltarı pambıqdan və ya kətandan olduğu, yaxud pambıq və ya kətandan olan başqa bir şey onun ixtiyarında olduğu təqdirdə, onların üzərinə səcdə etməlidir. Ehtiyat-vacibə görə, pambıq və ya kətandan olan paltarın üzərinə səcdə etmək mümkün olduğu halda başqa bir şeyin (yəni pambıq və ya kətandan olan başqa bir şeyin üzərinə) səcdə etməsin. Amma əgər onun ixtiyarında bu kimi paltar və ya başqa bir əşya yoxdursa, ehtiyat-vacibə görə, o, əlinin üstünə səcdə etməlidir.

**Məsələ 275.** Əgər namaz əsnasında üzərinə səcdə edilən şey itərsə və üzərinə səcdə etməyin düzgün olduğu bir şey insanın əli altında olmazsa, namaz vaxtı geniş olduğu təqdirdə, namazı kəsmək lazımdır. Namaz vaxtı dar olduğu təqdirdə isə əvvəlki məsələdə qeyd edilən ardıcıllığa riayət edərək səcdəni yerinə yetirmək lazımdır.

**Məsələ 276.** Təqiyyə etməyin vacib olduğu yerdə xalçanın və bu kimi əşyanın üzərinə səcdə etmək olar. Namaz qılmaq üçün başqa yerə getmək vacib deyildir. Amma əgər həmin yerdə zəhmətə düşmədən həsirin, daşın və ya bu kimi əşyaların üzərinə səcdə etmək mümkündürsə, ehtiyat-vacibə görə, bu əşyaların üzərinə səcdə etmək lazımdır.

**Məsələ 277.** Əgər birinci səcdəni yerinə yetirərkən möhür alına yapışsa, ikinci səcdəni yerinə yetirmək üçün möhürü alından qoparmaq lazımdır. Əgər bir şəxs belə bir hal ilə qarşılaşdığı zaman möhürü alnından qoparmasa və möhür alnında ikən səcdəyə getsə, bunun iradı vardır.

**Məsələ 278.** Ən yaxşı səcdə torpağın və Yerin üstünə edilən səcdədir, çünki Mütəal Allah qarşısında xüzu və xüşu əlamətidir. Səcdə üçün heç bir torpaq fəzilətdə Seyyidüş-şühəda İmam Hüseynin (ə) türbətinə çatmır.

**Məsələ 279.** Səcdənin müstəhəb əməllərindən bir neçəsi aşağıdakılardır:

1- Səcdəyə getməmişdən qabaq və səcdəni yerinə yetirdikdən sonra bədən hərəkətsiz vəziyyətdə ikən "təkbir" (Əllahu əkbər) demək;

2- İki səcdə arasında bədən hərəkətsiz vəziyyətdə ikən "Əstəğfirullahə Rəbbi və ətubu iləyh" cümləsini demək;

3- Səcdəni uzatmaq və zikrlər demək, dünya və axirət ehtiyacları üçün dua etmək, salavat demək;

4- Səcdənin zikrini təkrarlamaq və tək sayda demək;

**5- Səcdədən qalxdıqdan sonra sol budun üstündə əyləşmək və sağ ayağın üstünü sol ayağın altına qoymaq;**

**6- Sonrakı rəkət üçün qalxarkən "Bi-həvlilləhi və quvvətihi əqumu və əq`udu" zikrini demək.**

**Məsələ 280.** **Səcdədə Quran oxumaq məkruhdur.**

**Məsələ 281.** **Mütəal Allahdan qeyrisi üçün səcdə etmək haramdır. Məsum İmamların (ə) hərəminin girişində alınlarını yerə qoyan şəxslər əgər Mütəal Allaha şükür etmək niyyətilə səcdə edirlərsə, bunun maneəsi yoxdur. Əks halda, bu iş haramdır.**

# Quranın vacib səcdəsi

**Məsələ 282.** **“Səcdə”, “Fussilət”, “Nəcm” və “Ələq” surələrinin hər birində bir vacib səcdəsi olan ayə vardır. Əgər bir şəxs bu ayəni oxusa və ya onu dinləsə, ayə tamamlanandan sonra dərhal səcdə etməlidir. Əgər səcdə etməyi unudarsa, yadına düşdüyü vaxt səcdəni yerinə yetirməlidir.**[1]

**Məsələ 283.** **Ayə tam oxunduğu və ya dinlənildiyi zaman səcdə etmək vacib olur. Ayənin bir hissəsini oxuduqda və ya dinlədikdə səcdə etmək vacib olmur.**

**Məsələ 284.** **Sözügedən ayələrin tərcüməsini oxuduqda və ya dinlədikdə səcdə etmək vacib olmur.**

**Məsələ 285.** **Əgər bir şəxs radio, televiziya və ya disk oxuducu və bu kimi vasitələrlə yayımlanan səcdə ayəsini dinləsə, səcdə etməlidir.**

**Məsələ 286.** **Əgər bir şəxs özü səcdə ayəsini oxuduğu zaman başqa bir şəxs də səcdə ayəsini oxusa və birinci şəxs onu dinləsə, yaxud özü səcdə ayəsini oxuduğu zaman disk oxuducudan və ya başqa vasitələrdən yayımlanan səcdə ayəsini dinləsə, o, iki səcdə etməlidir.**

**Məsələ 287.** **Quranın vacib səcdəsində o şeylərin üzərinə səcdə etmək lazımdır ki, namazda onların üzərinə səcdə etmək düzgün hesab olunurdu. Amma namazın səcdəsinin digər şərtlərinə riayət etmək, məsələn, üzü qibləyə tərəf olmaq, dəstəmazlı olmaq və s. vacib deyildir.**

**Məsələ 288.** **Quranın vacib səcdəsində alını səcdə məqsədilə yerə qoymaq kifayət edir və zikr demək vacib deyildir, amma zikr demək müstəhəbdir. Daha yaxşı olar ki, bu zikr deyilsin: “La ilahə illəllahu həqqən həqqa. La ilahə illəllahu imanən və təsdiqa. La ilahə illəllahu ubudiyyətən və riqqa. Səcədtu ləkə ya Rəbbi tə`əbbudən və riqqa, la mustənkifən və la mustəkbirən, bəl ənə əbdun zəlilun zəifun xaifun mustəcir”.**

---

[1] Səcdə ayələri bunlardır: “Səcdə” surəsinin 15-ci ayəsi, “Fussilət” surəsinin 37-ci ayəsi, “Nəcm” surəsinin 62-ci ayəsi, “Ələq” surəsinin 19-cu ayəsi.

## 7- Təşəhhüd

**Məsələ 289.** Bütün namazların ikinci rəkətində və axırıncı rəkətində ikinci səcdədən sonra əyləşmək və bədən hərəkətsiz vəziyyət aldıqdan sonra "təşəhhüd zikri" adlanan cümlələri demək lazımdır. Bu əməl "təşəhhüd" adlanır.

**Məsələ 290.** Təşəhhüddə deyilən vacib zikr budur:

"Əşhədu ən-la ilahə illəllah, vəhdəhu la şərikə ləhu. Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluhu, Əllahummə salli əla Muhəmmədin və Ali-Muhəmməd".

**Məsələ 291.** Təşəhhüdün vacib zikrindən qabaq "Əl-həmdu lilləh" və ya "Bismilləhi və billəhi, vəl-həmdu lilləhi, və xəyrul-əsmai lilləhi" cümləsini demək müstəhəbdir. Həmçinin təşəhhüdün salavatından sonra bu cümləni demək müstəhəbdir: "Və təqəbbəl şəfaətəhu vərfə dərəcətəhu".

**Məsələ 292.** Təşəhhüd namazın qeyri-rükn olan vacib əməlidir. Deməli, əgər bilərəkdən artırılıb-azaldılsa, namaz pozulur. Amma əgər səhvən artırılsa və ya tərk olunsa, namaz pozulmur.

**Məsələ 293.** Əgər bir şəxs təşəhhüdü deməyi unudub üçüncü rəkət üçün ayağa qalxsa, amma rükudan qabaq bunu xatırlasa, o, əyləşməli və təşəhhüdü deməlidir. Daha sonra ayağa qalxmalı və üçüncü rəkətin "təsbihati-ərbə`ə"sini yenidən deməli, namazı davam etdirməlidir. Namazı tamamladıqdan sonra isə yersiz ayağa qalxdığı üçün ehtiyat-müstəhəbə görə iki səhv-səcdəsi yerinə yetirsin.

**Məsələ 294.** Əgər bir şəxs təşəhhüdü deməyi unutsa və üçüncü rəkətin rükusunda və ya rükudan sonra bunu xatırlasa, o, namazı başa çatdırmalı və salamdan sonra unudulan təşəhhüd üçün iki səhv-səcdəsi yerinə yetirməlidir. Ehtiyat-vacibə görə, səhv-səcdəsindən qabaq unudulan təşəhhüdün qəzasını deməlidir.

## 8- Salam

**Məsələ 295.** **Salam – namazın axırıncı hissəsidir və onu dedikdən sonra namaz başa çatır. Namazın vacib salamı budur: "Əssəlamu ələykum". Daha yaxşı olar ki, bu ifadə də ona əlavə olunsun: "Və rəhmətullahi və bərəkatuhu". Yaxud salam ünvanında bu cümlə deyilsin: "Əssəlamu ələyna və əla ibadillahis-salihin".**

**Məsələ 296.** **Əvvəlki məsələdə qeyd edilən iki salamdan qabaq bu salamın deyilməsi müstəhəbdir: "Əssəlamu ələykə əyyuhən-Nəbiyyu və rəhmətullahi və bərəkatuhu".**

**Məsələ 297.** **Salam da namazın qeyri-rükn olan vacib əməlidir. Deməli, əgər səhvən artırılsa və ya tərk olunsa, namaz pozulmur.**

**Məsələ 298.** **Əgər bir şəxs namazın salamını deməyi unutsa, amma namazın surəti pozulmamışdan qabaq bunu xatırlasa, yaxud namazı pozan bir iş – istər bu işi bilərəkdən görmək namazı pozsun, istərsə də onu səhvən görmək namazı pozsun, məsələn, qiblədən dönmək – yerinə yetirməyibsə, o, namazın salamını deməlidir və namazı düzgündür.**

## 9- Tərtib

**Məsələ 299.** **Namaz qeyd edilən tərtib və ardıcıllıqla qılınmalı və onun hər bir hissəsi öz yerində yerinə yetirilməlidir. Deməli, əgər namazın tərtibinə bilərəkdən riayət olunmazsa, məsələn, "Surə" "Həmd"dən qabaq oxunarsa, yaxud səcdə rükudan qabaq yerinə yetirilərsə, namaz pozulur.**

**Məsələ 300.** **Əgər bir şəxs namazın rüknünü unutsa və növbəti rüknə daxil olduqdan sonra bunu xatırlasa, məsələn, iki səcdəni unudub sonrakı rəkətin rükusunda bunu xatırlasa, namaz pozulur.**

**Məsələ 301.** **Əgər bir şəxs namazın rüknünü unutsa və rükn olmayan növbəti əməli yerinə yetirməyə başlasa, amma növbəti rüknə daxil olmamışdan qabaq namazın rüknünü unutduğunu xatırlasa, o, unutduğu rüknü yerinə yetirməli və sonra səhvən yerinə yetirdiyi əməli yenidən yerinə yetirməlidir. Məsələn, bir şəxs təşəhhüdü oxumağa başladıqdan sonra iki səcdəni yerinə yetirmədiyini xatırlasa, o, iki səcdəni yerinə yetirməli və daha sonra yenidən təşəhhüdü oxumalıdır.**

**Məsələ 302.** **Əgər bir şəxs rükn olmayan bir əməli unutsa və növbəti rüknə daxil olduqdan sonra bunu xatırlasa, məsələn, "Həmd"i deməyi unutsa və bunu rükuda ikən başa düşsə, onun namazı düzgündür və o, geri qayıdıb "Həmd"i deyə bilməz.**

**Məsələ 303.** **Əgər bir şəxs rükn olmayan bir əməli unutsa və rükn olmayan növbəti əməli yerinə yetirsə, amma növbəti rüknə daxil olmamışdan qabaq bunu xatırlasa, məsələn, "Həmd"i deməyi unutsa və "Surə"ni oxusa, amma rükuya getməmişdən qabaq "Həmd"i demədiyini xatırlasa, o, əvvəlcə unutduğu əməli yerinə yetirməli (məsələn, "Həmd"i deməli), daha sonra səhvən yerinə yetirdiyi əməli yenidən yerinə yetirməlidir (yəni "Surə"ni yenidən oxumalıdır).**

## 10- Muvalat

**Məsələ 304.** **Namazın hissələri, məsələn, rüku, səcdə, təşəhhüd və s. fasiləsiz yerinə yetirilməli və onların arasında böyük və normal hesab olunmayan fasilə edilməməlidir. Namazın hissələrinin fasiləsiz yerinə yetirilməsi "muvalat" adlanır. Deməli, əgər namazın hissələri arasında o qədər fasilə edilsə ki, ətrafdakı insanların nəzərində bu, namazın surətindən çıxmaq hesab olunsa, namaz pozulur.**

**Məsələ 305.** **Əgər bir şəxs namazın sözləri və ya bir sözün hərfləri arasında səhvən normal olmayan fasilə etsə, amma bu, namazın surətinin aradan gedəcəyi bir tərzdə olmasa və bunu növbəti rüknə daxil olduqdan sonra başa düşsə, namaz düzgündür və həmin sözləri və cümlələri təkrar etmək lazım deyildir. Amma əgər bunu növbəti rüknə daxil olmamışdan qabaq başa düşsə, geri qayıdıb onları yenidən deməlidir.**

**Məsələ 306.** **Rükunun və səcdələrin zikrini uzatmaq, yaxud uzun surələri oxumaq, muvalatın aradan getməsinə səbəb olmur.**

## Qunut

**Məsələ 307.** Bütün vacib və müstəhəb namazların ikinci rəkətində "Həmd" və "Surə"ni oxuduqdan sonra və rükuya getməmişdən qabaq əlləri qaldırıb dua etmək müstəhəbdir. Bu əməl "qunut" adlanır.

**Məsələ 308.** Cümə namazının hər rəkətində bir qunut vardır. Belə ki, birinci rəkətdə rükudan qabaq, ikinci rəkətdə isə rükudan sonra yerinə yetirilir.

**Məsələ 309.** Fitr və Qurban bayramı namazında birinci rəkətdə beş qunut, ikinci rəkətdə dörd qunut vardır.

**Məsələ 310.** Qunutda istənilən zikri, duanı və ya Quran ayəsini oxumaq olar. Hətta bir salavat, ya "Subhanəllah" zikri, ya "Bismillah" cümləsi və ya "Bismilləhir rahmənir rahim" ayəsi ilə kifayətlənmək olar. Amma Qurani-Kərimdə keçən duaları oxumaq daha yaxşıdır. Məsələn, "Rəbbəna atina fid-dunya həsənətən və fil-axirəti həsənətən, və-qina əzabən-nar" dua məzmunlu ayəsini oxumaq olar. Yaxud Məsumların (ə) buyurduqları zikr və duaları oxumaq olar. Məsələn, "La ilahə illəllahu əl-həlimul-kərim. La ilahə illəllahu əl-əliyyul-əzim. Subhanəllahi rəbbis-səmavatis-səb`i və rəbbil-ərəzinəl-səb`i, və ma fihinnə və ma bəynəhunnə, və rəbbil-ərşil-əzim, vəl-həmdu lilləhi rəbbil-aləmin."

**Məsələ 311.** Qunutda hər bir dildə dua etmək, Allahdan bağışlanma diləmək və ehtiyacları istəmək olar.

**Məsələ 312.** Qunutun zikrini ucadan oxumaq müstəhəbdir. Amma əgər camaat namazında imam-camaat məmumun səsini eşidərsə, bu əməl müstəhəb sayılmır.

## Namazın təqibatı

**Məsələ 313.** **Namaz tamamlandıqdan sonra dua oxumaq, ya zikr demək və ya Quran oxumaq müstəhəbdir. Bu, “namazın təqibatı” adlanır. Yaxşı olar ki, namazın təqibatı namazdan sonra elə üzü qibləyə əyləşən halda, həmçinin dəstəmazlı və ya qüsllü və ya təyəmmümlü halda yerinə yetirilsin.**

**Məsələ 314.** **Namazın təqibatının ərəbcə olması vacib deyildir. Amma Məsumların (ə) buyurduqları dua və zikrləri oxumaq daha yaxşıdır. Ən üstün zikrlərdən biri isə “Xanım Fatimə Zəhra (s.ə) təsbihatı” adı ilə tanınan zikrdir. Bu təsbih 34 dəfə “Əllahu əkbər”, 33 dəfə “Əl-həmdu lilləh” və 33 dəfə “Subhanəllah” zikrlərindən ibarətdir. Dua kitablarında Məsumlardan (ə) ali məzmunlu və gözəl ifadələrlə zəngin təqibatlar qeyd olunub.**

**Məsələ 315.** **Namazdan sonra şükür səcdəsi yerinə yetirmək müstəhəbdir. Yəni bütün nemətlərə görə, eləcə də namaz qılmaq uğurunu tapmaq nemətinə görə şükür etmək məqsədilə alını yerə qoyursan. Daha yaxşı olar ki, şükür səcdəsində üç dəfə və ya daha çox “Şukrən lilləh” deyəsən.**

## Namazın tərcüməsi

**Məsələ 316.** **Yaxşı olar ki, insan namazın sözləri və zikrlərinin mənasına diqqət yetirsin və onları hüzuri-qəlb ilə dilə gətirsin. Bununla da ruhun paklanması və qəlbin Mütəal Allaha yaxınlaşması təsirinə malik olan namazdan bəhrələnsin.**

**Məsələ 317.** **"Həmd" surəsi yeddi ayədir və tərcüməsi budur:**

**1- Bismilləhir rahmənir rahim.**

**Rəhman (rəhməti dünyada bütün insanlara şamil olan) və rəhim (əbədi rəhməti möminlərə xas olan) Allahın adı ilə.**

**2- Əl-həmdu lilləhi rabbil-aləmin.**

**Həmd-səna yalnız aləmlərin rəbbi olan Allaha məxsusdur.**

**3- Ər-rahmənir-rahim.**

**(O Rəbb ki,) rəhman və rəhimdir.**

**4- Məliki yəvmiddin.**

**Din gününün (Qiyamətin) ixtiyar sahibidir.**

**5- İyyakə nə`budu və iyyakə nəstə`in.**

**Yalnız Sənə bəndəlik edir və yalnız Səndən kömək diləyirik.**

**6- İhdinəs-siratəl-mustəqim.**

**Bizi düz yola yönəlt.**

**7- Siratəlləzinə ən`əmtə ələyhim, ğəyril-məğzubi ələyhim və-ləz-zallin.**

**O kəslərin yoluna ki, onlara nemət vermisən (Səni tanımanın nurunu onların qəlbinə saçmısan). O kəslər ki, Sənin qəzəbinə düçar olmamış və düz yolu azmamışlar. (Yəni onlara böyük nemət verdikdən sonra onlar nankorluq və üsyan etməmiş, beləliklə də Sənin qəzəbini qazanmamış və düz yoldan azmamışlar.)**

**Məsələ 318.** **"İxlas" surəsi 4 ayədir və tərcüməsi budur:**

**1- Bismilləhir rahmənir rahim. Qul huvəllahu əhəd.**

**Rəhman və rəhim Allahın adı ilə. De: Odur yeganə olan Allah.**

**2- Əllahus-saməd.**

**Allah ehtiyacsızdır. (Hamı Ona möhtacdır.)**

**3- Ləm yəlid və ləm yuləd.**

**Övladı yoxdur və heç kimin də övladı deyildir.**

**4- Və ləm yəkun ləhu kufuvən əhəd.**

**Ona tay-bərabər yoxdur.**

**Məsələ 319.** **Rüku və səcdənin və bir sıra müstəhəb zikrlərin tərcüməsi:**

**- Subhanəllah: Allah pak və eyibsizdir.**

**- Subhanə Rəbbiyəl-əzimi və bi-həmdihi: Əzəmətli Rəbbim pak və eyibsizdir və mən Ona həmd-səna deyirəm.**

**- Subhanə Rəbbiyəl ə`la və bi-həmdihi: Uca Rəbbim pak və eyibsizdir və mən Ona həmd-səna deyirəm.**

**- Səmiəllahu li-mən həmidəhu: Allahın lütfü Ona həmd-səna deyən kəsə şamil olsun.**

**- Əstəğfirullahə Rəbbi və ətubu iləyh: Rəbbim olan Allahdan bağışlanma diləyirəm və Ona tərəf qayıdıram.**

**- Bi-həvlilləhi və quvvətihi əqumu və əq`udu: Allahın güc-qüvvəsi ilə ayağa qalxır və əyləşirəm.**

**Məsələ 320.** **Qunutun zikrlərinin tərcüməsi:**

**- Rəbbəna atina fid-dunya həsənətən və fil-axirəti həsənətən, və qina əzabən-nar.**

**Ey Rəbbim! Dünyada da, axirətdə də bizə xeyirlər əta et və bizi odun əzabından qoru.**

**- La ilahə illəllahu əl-həlimul-kərim. La ilahə illəllahu əl-əliyyul-əzim. Subhanəllahi rəbbis-səmavatis-səb`i və rəbbil-ərəzinəl-səb`i, və ma fihinnə və ma bəynəhunnə, və rəbbil-ərşil-əzim, vəl-həmdu lilləhi rəbbil-aləmin.**

**Həlim və kərim Allahdan qeyri ilah yoxdur. Uca və əzəmətli Allahdan qeyri ilah yoxdur. Yeddi səmanın və yeddi yerin, onlarda olanların və onların arasında olanların və əzəmətli ərşin rəbbi olan Allah pak və eyibsizdir. Həmd-səna yalnız aləmlərin rəbbi olan Allaha məxsusdur.**

**Məsələ 321.** **Təsbihati-ərbə`ənin tərcüməsi:**

**Subhanəllah, vəl-həmdu lilləh, və la ilahə illəllah, vəllahu əkbər.**

**Allah pak və eyibsizdir. Həmd-səna yalnız Allaha məxsusdur. Allahdan qeyri ilah yoxdur. Allah ən böyükdür.**

**Məsələ 322.** **Təşəhhüdün və salamın tərcüməsi:**

**- Əl-həmdu lilləh. Əşhədu ən-la ilahə illəllah, vəhdəhu la şərikə ləhu. Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluhu. Əllahummə salli əla Muhəmmədin və Ali-Muhəmməd. Və təqəbbəl şəfaətəhu vərfə dərəcətəhu.**

**Həmd-səna yalnız Allaha məxsusdur. Şəhadət verirəm ki, Allahdan qeyri ilah yoxdur, yeganədir və şəriki yoxdur. Şəhadət verirəm ki, Muhəmməd Onun bəndəsi və elçisidir. Ey Allahım, Muhəmmədə və Ali-Muhəmmədə salavat göndər. Onun şəfaətini qəbul et və dərəcəsini ucalt.**

**- Əssəlamu ələykə əyyuhən-Nəbiyyu və rəhmətullahi və bərəkatuhu. Əssəlamu ələyna və əla ibadillahis-salihin. Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuhu.**

**Salam və Allahın rəhməti və bərəkətləri olsun sənə, ey Peyğəmbər. Salam olsun bizə və Allahın saleh bəndələrinə. Salam və Allahın rəhməti və bərəkətləri olsun sizə (möminlərə, mələklərə).**

## Namazı pozan işlər

**Məsələ 323.** Namazı pozan işlər aşağıdakılardır:
1- Namazda riayət edilməsi vacib olan şərtlərdən birinin aradan getməsi;
2- Dəstəmaz və ya qüslün pozulması;
3- Qiblədən dönmək;
4- Danışmaq;
5- Gülmək;
6- Ağlamaq;
7- Namazın surətinin aradan getməsi;
8- Yemək və içmək;
9- Namazı pozan şəklər[1];
10- Namazın "rükn"lərini azaldıb-artırmaq;
11- "Həmd"dən sonra "Amin" ifadəsini demək;
12- Əlləri bədənin önündə bir-birinin üstünə qoyub bağlamaq (təkəttuf).

**Məsələ 324.** Əgər namaz əsnasında namazda riayət edilməsi vacib olan şərtlərdən biri aradan getsə, məsələn, bir şəxs namaz əsnasında namaz qıldığı məkanın qəsbi olduğunu başa düşsə, onun namazı pozulur və namaz düzgün deyildir.

**Məsələ 325.** Əgər namaz əsnasında dəstəmazı və ya qüslü və ya təyəmmümü pozan bir iş baş versə, məsələn, bir şəxs namaz qıldığı halda yatsa, yaxud ondan sidik və bu kimi bir şey xaric olsa, namaz pozulur.

**Məsələ 326.** Əgər üz və ya bədən qiblədən bilərəkdən döndərilsə, belə ki, sağ və ya sol tərəfləri asanlıqla görmək mümkün olsa, namaz pozulur. Əgər bu iş səhvən də görülsə, ehtiyat-vacibə görə, namaz pozulur. Amma əgər üz sağ və ya sol tərəflərə cüzi miqdarda döndərilsə, namaz pozulmur.

**Məsələ 327.** Namazda bilərəkdən danışmaq, hətta bir söz belə demək, namazı pozur.

**Məsələ 328.** Öskürən, asqıran və ya boğazı arıtlayan zaman insandan xaric olan səslər, hətta müəyyən hərflər yaratsa belə, namazı pozmur.

**Məsələ 329.** Əgər bir şəxs bir zikri "zikr" məqsədilə desə, məsələn, "Əllahu əkbər" desə və bunu deyərkən başqa bir şəxsə hansısa bir məsələni başa salmaq üçün səsini yüksəltsə, bu hərəkətin iradı yoxdur. Amma əgər başqa bir şəxsə hansısa bir məsələni başa salmaq üçün bir zikr desə, hətta zikr deməyi də nəzərdə tutmuş olsa belə, onun namazı pozulur.

**Məsələ 330.** Namaz qılmaqda olan şəxs başqa bir şəxsə salam verməməlidir. Amma əgər başqa bir şəxs ona salam verərsə, salamın cavabını verməlidir. Salamın cavabını verərkən "Salam" sözü əvvəldə işlənməlidir. Məsələn, "Səlamun ələykum" və ya "Əssəlamu ələykum" deməlidir. "Ələykumus-səlam" deyə bilməz.

**Məsələ 331.** Əgər bir şəxs bir dəstə insana salam deyərək "Əssəlamu ələykum cəmiən" desə və onlardan biri namazda olsa, başqa bir şəxs salamın cavabını verdiyi təqdirdə namaz qılan şəxs salamın cavabını verməməlidir.

**Məsələ 332.** Muməyyiz uşağın (yəni həddi-büluğa çatmayan, eyni zamanda yaxşı və pisi ayırd edən uşağın) salamının cavabını vermək, eynilə həddi-büluğa çatan şəxsin salamının cavabını vermək kimi vacibdir.

**Məsələ 333.** Salamın cavabı dərhal verilməlidir. Əgər bir şəxs hansısa bir səbəbə görə salamın cavabını verməyi yubatsa, belə ki, verilən cavab həmin salamın cavabı hesab olunmasa, bu şəxs namaz halında olduğu təqdirdə daha salamın cavabını verməməlidir. Qeyri-namaz halında olduqda da salamın cavabını vermək vacib deyildir. Həmçinin salamın cavabını çox yubadıb-yubatmadığına şəkk etdikdə, hökm eynidir. Əgər bir şəxs salamın cavabını verməyi bilərəkdən yubadarsa, günah etmişdir.

**Məsələ 334.** Əgər bir şəxs namaz qılmaqda olan bir şəxsə salam verərkən "Səlamun ələykum" ifadəsini deyil, sadəcə "Salam" ifadəsini istifadə edərsə, buna ürfdə (camaatın baxışında) salamlaşmaq deyildiyi təqdirdə bu salamın cavabını vermək vacibdir. Ehtiyat-vacibə görə, bir qədər əvvəlki məsələdə qeyd edilən şəkildə salamın cavabı verilməlidir.

**Məsələ 335.** Bilərəkdən ucadan gülmək (qəhqəhə ilə gülmək) namazı pozur. Amma səhvən gülmək və ya səssiz gülmək namazı pozmur.

**Məsələ 336.** Əgər bir şəxs namaz əsnasında gülməyinin qarşısını ala bilməsə və daxildə güldüyünə görə üzü qızarsa və ya bədəni titrəsə, namazın surəti aradan getmədiyi təqdirdə namaz düzgündür.

**Məsələ 337.** Dünya işləri üçün bilərəkdən səsli ağlamaq namazı pozur. Amma Allah qorxusundan ağlamaq və ya axirət işləri üçün ağlamağın iradı yoxdur, hətta ən yaxşı əməllərdən hesab olunur.

**Məsələ 338.** Namazın surətini aradan aparan işləri görmək, məsələn, əl çalmaq və ya atılıb-düşmək, istər bilərəkdən olsun, istərsə də səhvən olsun, namazı pozur.

**Məsələ 339.** Əgər bir şəxs namaz əsnasında başqa bir şəxsə hansısa məsələni anlatmaq üçün və ya onun sualına cavab olaraq əlini, ya gözlərini və ya qaşlarını cüzi miqdarda hərəkət etdirsə, bu hərəkət bədənin hərəkətsizliyinə xələl gətirmədiyi və ya namazın surətini aradan aparmadığı təqdirdə, namaz pozulmur.

**Məsələ 340.** Namazda gözləri yummağın maneəsi yoxdur və namazı pozmur, baxmayaraq ki, rükudan qeyri halda gözləri yummaq məkruhdur.

**Məsələ 341.** Qunutdan sonra əlləri üzə çəkmək məkruhdur, amma bu iş namazı pozmur.

**Məsələ 342.** Namazda yemək və içmək, istər az olsun, istərsə də çox olsun, namazı pozur. Amma ağızda qalan yemək qırıntılarını udmaq, yaxud ağızda qalan cüzi miqdarda qənd və şəkəri sovurmaq namazı pozmur. Həmçinin namazda səhvən və ya unutqanlıq üzündən nə isə yemək və içmək namazın surətini aradan aparmadığı təqdirdə namazı pozmur.

**Məsələ 343.** Əgər bir şəxs namazın hansısa bir rüknünü bilərəkdən və ya səhvən azaldıb-artırsa, yaxud namazın qeyri-rükn olan vacib bir əməlini bilərəkdən azaldıb-artırsa, onun namazı pozulur.

**Məsələ 344.** "Həmd"dən sonra "Amin" ifadəsini deməyə icazə verilmir və bu ifadəni demək namazı pozur. Amma əgər təqiyyə məqsədilə deyilərsə, iradı yoxdur. Əlləri bədənin önündə bir-birinin üstünə qoyub bağlamağa gəlincə, əgər bu əməl namazın tərkib hissəsi niyyətilə yerinə yetirilərsə, namazı pozur. Ehtiyat-vacibə görə, hətta bu niyyət olmadan belə, bu əməl yerinə yetirilməsin.

**Məsələ 345.** Üzrsüz yerə vacib namazı kəsmək olmaz.

**Məsələ 346.** Əgər qorunması vacib olan canı və ya malı qorumaq namazı kəsmədən mümkün olmazsa, namazı kəsmək lazımdır. Ümumiyyətlə, canı və ya malı hədələyən ciddi təhlükələrin qarşısını almaq üçün namazı pozmağa icazə verilir.

---

[1] Bu barədə "Namazın şəkləri" başlığı altında danışılacaq.

# Namazın şəkləri

**Məsələ 347.** **Namazın şəkləri[1] üç qismə ayrılır:**

**a) Namazın qılınıb-qılınmadığına şəkk etmək;**

**b) Namazın əməllərində şəkk etmək;**

**c) Namazın rəkətlərinin sayında şəkk etmək.**

---

[1] Şəkk – iki və ya daha çox tərəf arasında bərabər şəkildə tərəddüddə qalmaqdır, belə ki, heç bir tərəf digərinə üstünlük təşkil etmir. Əgər bir tərəf digərinə üstünlük təşkil edərsə, üstün tərəf “zənn” (ya güman), zəif tərəf isə “vəhm” adlanır.

### a) Namazın qılınıb-qılınmadığına şəkk etmək

**Məsələ 348.** **Əgər namaz vaxtı keçdikdən sonra namazın qılınıb-qılınmadığına şəkk edilsə, yaxud namazın qılınmadığı güman edilsə, namazı qılmaq vacib deyildir. Amma əgər namaz vaxtı başa çatmamışdan qabaq namazın qılınıb-qılınmadığına şəkk edilsə, namazı qılmaq lazımdır. Hətta əgər namazın qılındığı güman edilsə, namazı qılmaq lazımdır.**

## b) Namazın əməllərində şəkk etmək

**Məsələ 349.** Əgər bir şəxs namaz əsnasında namazın müəyyən bir vacib əməlini yerinə yetirib-yetirmədiyinə şəkk etsə, sonrakı hissəyə daxil olmadığı təqdirdə bu vacib əməli yerinə yetirməlidir. Amma əgər sonrakı hissəyə (hətta bu hissə müstəhəb bir əməl olsa belə) daxil olubsa, o öz şəkkinə etina etməməlidir.

**Məsələ 350.** Əgər bir şəxs "qiraət"ə (Həmd və Surəni oxumağa) başlamamışdan qabaq (hətta "Əuzu billəhi minəş-şəytanir-rəcim" cümləsini deməmişdən qabaq) təkbirətul-ehramı deyib-demədiyinə şəkk etsə, təkbirətul-ehramı deməlidir.

**Məsələ 351.** Əgər bir şəxs "Həmd"i oxuyub-oxumadığına şəkk etsə, sonrakı hissəyə (hətta sonrakı hissə müstəhəb bir əməl, məsələn, "Həmd"dən sonra deyilən "Əl-həmdu lilləhi rabbil-aləmin" zikri olsa belə) daxil olmadığı təqdirdə "Həmd"i oxumalıdır.

**Məsələ 352.** Əgər bir şəxs "Surə"ni oxuyub-oxumadığına şəkk etsə, sonrakı hissəyə daxil olmadığı təqdirdə "Surə"ni oxumalıdır. Amma əgər rükuya gedibsə, ya qunut tutubsa, ya "Surə"dən sonra deyilən müstəhəb zikrləri deməyə başlayıbsa, o öz şəkkinə etina etməməlidir.

**Məsələ 353.** Əgər bir şəxs səcdəyə getməmişdən qabaq rükunu yerinə yetirib-yetirmədiyinə şəkk etsə, rükunu yerinə yetirməlidir.

**Məsələ 354.** Əgər bir şəxs ikinci və dördüncü rəkət üçün ayağa qalxmamışdan qabaq, yaxud təşəhhüdü deməyə başlamamışdan qabaq bir səcdə, yoxsa iki səcdə yerinə yetirdiyinə şəkk etsə, daha bir səcdə yerinə yetirməlidir. Həmçinin ayağa qalxmaqda ikən (yəni tam ayağa qalxmamışdan qabaq) bu şəkki etsə, bir səcdəni yerinə yetirməlidir.

**Məsələ 355.** Əgər bir şəxs ayağa qalxmamışdan qabaq təşəhhüdü deyib-demədiyinə şəkk etsə, təşəhhüdü deməlidir. Amma əgər ayağa qalxmaqda ikən belə bir şəkk etsə, o öz şəkkinə etina etməməlidir. Həmçinin əgər sonrakı hissəyə (hətta bu hissə müstəhəb əməl olsa belə) daxil olubsa, o öz şəkkinə etina etməməlidir.

**Məsələ 356.** Əgər bir şəxs namazın salamını deyib-demədiyinə şəkk etsə, namazın təqibatına və ya başqa bir namazı qılmağa başlamadığı təqdirdə, yaxud namazın surətini aradan aparan bir iş nəticəsində (məsələn, üzü qiblədən döndərərək) namaz vəziyyətindən xaric olduğu təqdirdə, o öz şəkkinə etina etməməlidir. Amma əgər sözügedən işləri görməmişdən qabaq namazın salamını deyib-demədiyinə şəkk etsə, namazın salamını deməlidir.

**Məsələ 357.** Əgər bir şəxs müəyyən bir ayəni oxuduğu zaman əvvəlki ayəni oxuyub-oxumadığına şəkk etsə, yaxud ayənin axırını oxuduğu zaman ayənin əvvəlini oxuyub-oxumadığına şəkk etsə, o öz şəkkinə etina etməməlidir.

**Məsələ 358.** Əgər bir şəxs namazın müəyyən bir əməlini yerinə yetirdikdən sonra onu düzgün yerinə yetirib-yetirmədiyinə şəkk etsə, hətta sonrakı hissəyə daxil olmasa belə, o öz şəkkinə etina etməməlidir.

**Məsələ 359.** Əgər bir şəxs namazın müəyyən bir hissəsini yerinə yetirib-yetirmədiyinə şəkk etsə və sonrakı hissəyə daxil olmamışdan qabaq onu yerinə yetirsə, amma sonradan bu hissəni iki dəfə yerinə yetirdiyi məlum olsa, həmin hissə namazın rüknlərindən olmadığı təqdirdə namaz düzgündür.

**Məsələ 360.** Əgər bir şəxs namazın sonrakı hissəsinə daxil olduqdan sonra əvvəlki hissəni yerinə yetirib-yetirmədiyinə şəkk etsə və öz şəkkinə etina etməsə, amma bir qədər sonra həmin hissəni yerinə yetirmədiyini başa düşsə, sonrakı rüknə daxil olmadığı təqdirdə həmin hissəni yerinə yetirməlidir. Həmin hissədən sonra yerinə yetirdiyi əməlləri isə yenidən yerinə yetirməlidir. Amma əgər sonrakı rüknə daxil olubsa, yerinə yetirilməyən hissə rükn olduğu təqdirdə, namaz pozulur. Rükn olmadığı təqdirdə isə namaz düzgündür. Əgər yerinə yetirilməyən hissə bir səcdə və ya təşəhhüd olarsa, namazdan sonra səcdənin qəzası və ehtiyat-vacibə görə, təşəhhüdün qəzası yerinə yetirilməli, daha sonra iki səhv-səcdəsi yerinə yetirilməlidir.

## c) Namazın rəkətlərinin sayında şəkk etmək

**Məsələ 361.** **Əgər bir şəxs namazın rəkətlərinin sayında şəkk etsə, məsələn, üç rəkət, yoxsa dörd rəkət qıldığını bilməsə, o, ilk öncə bir qədər fikirləşməlidir. Əgər onda şəkkin bir tərəfinə yəqin və ya güman hasil olarsa, bu yəqinə və ya gümana müvafiq olaraq namazı davam etdirməlidir və namaz düzgündür. Amma əgər şəkkin heç bir tərəfinə yəqin və ya güman hasil olmazsa, qarşıda açıqlanan qaydalar üzrə əməl etməlidir.**

**Məsələ 362.** **Namazın rəkətlərinin sayında yaranan şəkk iki qismə ayrılır:**
**1) Namazı pozan şəklər;**
**2) Namazı pozmayan şəklər.**

## 1) Namazı pozan şəklər

**Məsələ 363.** **Namazın rəkətlərinin sayında şəkk etmək aşağıdakı hallarda namazı pozur:**
**1- İkirəkətli vacib namazların, məsələn, sübh namazı və ya müsafir namazının rəkətlərinin sayında şəkk etmək. (Amma iki rəkət qılınan ehtiyat namazının rəkətlərinin sayında şəkk etmək namazı pozmur.)**
**2- Məğrib namazının rəkətlərinin sayında şəkk etmək.**
**3- Dördrəkətli vacib namazların rəkətlərinin sayında yaranan şəkdə şəkkin bir tərəfi "bir rəkət" olduqda, məsələn, şəxs bir rəkət, yoxsa iki rəkət qıldığına şəkk edir, yaxud bir rəkət, yoxsa üç rəkət qıldığına şəkk edir.**
**4- Dördrəkətli vacib namazlarda ikinci səcdə tamamlanmamışdan qabaq rəkətlərin sayında şəkk etdikdə və şəkkin bir tərəfi "iki rəkət" olduqda, məsələn, bir şəxs iki rəkət, yoxsa üç rəkət qıldığına şəkk edir, yaxud iki rəkət, yoxsa dörd rəkət qıldığına şəkk edir.**
**5- Namazın rəkətlərinin sayında şəkk etmək, belə ki, şəxs neçə rəkət qıldığını ümumiyyətlə bilmir.**

**Məsələ 364.** **Əgər namaz əsnasında insanda namazı pozan şəklərdən biri yaransa, ehtiyata görə, namazı dərhal kəsməməlidir. Əksinə, bir qədər fikirləşməlidir. Əgər onda şəkkin bir tərəfinə yəqin və ya güman hasil olmazsa, bu vaxt namazı kəsə bilər.**

## 2) Namazı pozmayan şəklər

**Məsələ 365.** **Əgər bir şəxs dördrəkətli vacib namazların rəkətlərinin sayında şəkk etsə və bir qədər fikirləşdikdən sonra onda şəkkin bir tərəfinə yəqin və ya güman hasil olsa, bu yəqinə və ya gümana müvafiq olaraq namazı davam etdirməlidir və namaz düzgündür. Amma əgər onda şəkkin heç bir tərəfinə yəqin və ya güman hasil olmazsa, aşağıda qeyd edilən qaydada əməl etməlidir:**

**1- Əgər bir şəxs ikinci səcdədən qalxdıqdan sonra iki rəkət, yoxsa üç rəkət qıldığına şəkk etsə, o, üç rəkət qıldığını qəbul etməli və daha bir rəkət qılıb namazı tamamlamalıdır. Namazdan sonra bir rəkət ehtiyat namazı ayaq üstə və ya iki rəkət ehtiyat namazı əyləşən halda qılmalıdır. (Ehtiyat namazının qaydası bir qədər irəlidə açıqlanacaq.)**

**2- Əgər bir şəxs ikinci səcdədən qalxdıqdan sonra iki rəkət, yoxsa dörd rəkət qıldığına şəkk etsə, o, dörd rəkət qıldığını qəbul etməli və namazı tamamlamalıdır. Namazdan sonra iki rəkət ehtiyat namazı ayaq üstə qılmalıdır.**

**3- Əgər bir şəxs ikinci səcdədən qalxdıqdan sonra iki rəkət, yoxsa üç rəkət, yoxsa dörd rəkət qıldığına şəkk etsə, o, dörd rəkət qıldığını qəbul etməli və namazı tamamlamalıdır. Namazdan sonra iki rəkət ehtiyat namazı ayaq üstə və iki rəkət ehtiyat namazı əyləşən halda qılmalıdır.**[1]

**4- Əgər bir şəxs namazın istənilən bir yerində üç rəkət, yoxsa dörd rəkət qıldığına şəkk etsə, o, dörd rəkət qıldığını qəbul etməli və namazı tamamlamalıdır. Namazdan sonra bir rəkət ehtiyat namazı ayaq üstə qılmalı və ya iki rəkət ehtiyat namazı əyləşən halda qılmalıdır.**

**5- Əgər bir şəxs ikinci səcdədən qalxdıqdan sonra dörd rəkət, yoxsa beş rəkət qıldığına şəkk etsə, o, dörd rəkət qıldığını qəbul etməli və namazı tamamlamalıdır. Namazdan sonra iki səhv-səcdəsi yerinə yetirməlidir. (Səhv səcdəsinin qaydası bir qədər irəlidə açıqlanacaq.)**

**6- Əgər bir şəxs qiyam halında (yəni ayaq üstə) ikən dörd rəkət, yoxsa beş rəkət qıldığına şəkk etsə, o, (rüku etmədən) əyləşməli, təşəhhüdü və salamı deməlidir. Namazdan sonra bir rəkət ehtiyat namazı ayaq üstə və ya iki rəkət ehtiyat namazı əyləşən halda qılmalıdır.**[2]

**Məsələ 366.** **Əgər namaz qılarkən bir şəxsdə namazı pozmayan şəklərdən biri yaransa, qeyd olunduğu kimi, o, ilk öncə bir qədər fikirləşməlidir. Əgər şəkki aradan qalxmasa, qeyd edilən vəzifələrə əməl etməlidir.**

**Məsələ 367.** **Əgər namaz qılarkən bir şəxsdə namazı pozmayan şəklərdən biri yaransa, o, namazı kəsməməlidir. Əgər namazı kəsərsə, günah etmişdir. Əgər namazı kəsdikdən sonra namazı pozan bir işi görmədən, məsələn, üzünü qiblədən döndərmədən namazı əvvəldən qılmağa başlasa, ikinci namazı da düzgün deyildir. Amma əgər namazı pozan bir işi gördükdən sonra namazı əvvəldən qılmağa başlasa, ikinci namazı düzgündür.**

**Məsələ 368.** **Əgər namaz qılarkən insanda ehtiyat namazını vacib edən şəklərdən biri yaransa və o, namazdan sonra ehtiyat namazını qılmayıb namazı yenidən qılmağa başlasa, günah etmişdir. Bu halda əgər namazı pozan bir işi görmədən namazı yenidən qılmağa başlasa, onun ikinci namazı da düzgün deyildir. Amma əgər namazı pozan bir işi gördükdən sonra namazı yenidən qılmağa başlasa, ikinci namazı düzgündür.**

**Məsələ 369.** **Namazın rəkətlərinin sayında yaranan “güman” eynilə “yəqin” hökmündədir. Yəni əgər bir şəxs məsələn, iki rəkət, yoxsa üç rəkət qıldığına tərəddüd etsə və bunlardan birinə gümanı daha çox olsa, o öz gümanına müvafiq olaraq əməl etməlidir və namazı düzgündür.**

**Məsələ 370.** **Əgər bir şəxsdə əvvəlcə şəkkin bir tərəfinə güman yaransa, amma sonra şəkkin hər iki tərəfi onun nəzərində bərabərləşsə, o, şəkkin qaydalarına əməl etməlidir. Əgər bir şəxsin nəzərində şəkkin hər iki tərəfi bərabər olsa və o öz vəzifəsinə müvafiq olaraq əməl etməyi qərara alsa, amma sonra onda şəkkin bir tərəfinə güman yaransa, o öz gümanına müvafiq olaraq əməl etməli və namazı tamamlamalıdır.**

---

[1] Bir qədər əvvəldə qeyd olundu ki, bu üç bənddə sözükeçən şəklərdən biri ikinci səcdə tamamlanmamışdan qabaq yaransa, namaz pozulur.

[2] Namazı pozmayan bir sıra şəklər də mövcuddur ki, geniş fiqh kitablarında açıqlanıb. Amma bu şəklər nadir hallarda insanların qarşısına çıxdığına görə, burada onların

barəsində söz açmadıq.

## Ehtiyat namazı

**Məsələ 371.** **Ehtiyat namazını qılmaq vacib olduqda, namazın salamından sonra (namaz vəziyyətindən xaric olmadan) dərhal ehtiyat namazının niyyətini etmək və "təkbirətul-ehram" demək lazımdır. Sonra "Həmd" oxunur ("Surə" oxunmur), rüku və səcdələr yerinə yetirilir. Daha sonra əgər bir rəkət ehtiyat namazı vacib olubsa, səcdələrdən sonra təşəhhüd və salam deyilir. Amma əgər iki rəkət ehtiyat namazı vacib olubsa, səcdələrdən sonra eynilə birinci rəkət kimi daha bir rəkət qılınır, axırda təşəhhüd və salam deyilir.**

**Məsələ 372.** **Ehtiyat namazında "Surə" oxunmur və qunut tutulmur. Həmçinin ehtiyat namazının niyyəti dilə gətirilməməlidir. Ehtiyat-vacibə görə, "Həmd" surəsi, hətta surənin "Bismilləhir rahmənir rahim" ayəsi astadan oxunmalıdır.**

**Məsələ 373.** **Əgər bir şəxs ehtiyat namazını qılmamışdan qabaq namazının düzgün olduğunu başa düşərsə, ehtiyat namazını qılmağa ehtiyac yoxdur. Həmçinin əgər ehtiyat namazı əsnasında namazının düzgün olduğunu başa düşərsə, ehtiyat namazını başa çatdırmaq vacib deyildir.**

## Etina olunmayan şəklər

**Məsələ 374.** **Etina olunmayan şəklər aşağıdakılardır:**
**1- Namazın hansısa bir əməlinin yeri keçdikdən sonra bu əməl barəsində şəkk etmək;**
**2- Namazın salamından sonra şəkk etmək;**
**3- Namaz vaxtı başa çatdıqdan sonra şəkk etmək;**
**4- İmam-camaat və məmumun şəkki;**
**5- Çox şəkk edən şəxsin şəkki;**
**6- Müstəhəb namazlarda şəkk etmək.**

## 1- Namazın hansısa bir əməlinin yeri keçdikdən sonra bu əməl barəsində şəkk etmək

**Məsələ 375.** **Əgər bir şəxs namaz əsnasında namazın hansısa bir vacib əməlini yerinə yetirib-yetirmədiyinə şəkk etsə, sonrakı hissəyə daxil olduğu təqdirdə bu şəkkə etina etməməlidir. Məsələn, əgər bir şəxs rükuda ikən "Həmd"i oxuyub-oxumadığına şəkk etsə, bu şəkkə etina etməməlidir.**[1]

---

[1] Bu bəndin hökmləri "Namazın əməllərində şəkk etmək" başlığı altında açıqlandı.

## 2- Namazın salamından sonra şəkk etmək

**Məsələ 376.** **Əgər bir şəxs namazın salamını dedikdən sonra namazının düzgün olub-olmadığına şəkk etsə, məsələn, rüku edib-etmədiyinə şəkk etsə, yaxud dördrəkətli namazın salamını dedikdən sonra dörd rəkət, yoxsa beş rəkət qıldığına şəkk etsə, bu şəkkə etina etməməlidir. O, namazı düzgün qıldığını qəbul etməlidir. Yəni qeyd edilən birinci misalda rükunu yerinə yetirdiyini və ikinci misalda namazı dörd rəkət qıldığını qəbul etməlidir.**

**Məsələ 377.** **Əgər bir şəxs namazın salamını dedikdən sonra rəkətlərin sayında şəkk etsə, amma şəkkin hər iki tərəfi namazın düzgün olmamasına səbəb olsa, məsələn, dördrəkətli namazın salamından sonra üç rəkət, yoxsa beş rəkət qıldığına şəkk etsə, bu halda namaz düzgün deyildir.**

## 3- Namaz vaxtı başa çatdıqdan sonra şəkk etmək

**Məsələ 378.** **Əgər bir şəxs namaz vaxtı başa çatdıqdan sonra namazı qılıb-qılmadığına şəkk etsə, bu şəkkə etina etməməlidir.**

## 4- İmam-camaat və məmumun şəkki

**Məsələ 379.** Əgər imam-camaat rəkətlərin sayında şəkk etsə, məsələn, üç rəkət, yoxsa dörd rəkət qıldığına şəkk etsə, bu halda əgər məmum onun dörd rəkət qıldığını yəqin bilsə və ya bunu güman etsə və imam-camaata da bunu başa salsa, imam-camaat (dörd rəkət qıldığını qəbul edib) namazı başa çatdırmalıdır. Bu halda ehtiyat-namazı qılmaq ona vacib olmur. Həmçinin əgər imam-camaat neçə rəkət qıldığını yəqin bilsə və ya bunu güman etsə, amma məmum rəkətlərin sayında şəkk etsə, məmum öz şəkkinə etina etməməlidir.

## 5- Çox şəkk edən şəxsin şəkki

**Məsələ 380.** **Əgər bir şəxs adətən namazda üç dəfə şəkk edirsə, yaxud adətən üç ardıcıl namazda ən azı bir dəfə şəkk edirsə, onun çox şəkk etməsi qorxudan, ya qəzəbdən, ya fikir dağınıqlığından irəli gəlmədiyi təqdirdə, bu şəxs "çox şəkk edən şəxs" hesab olunur. Çox şəkk edən şəxs isə öz şəkkinə etina etməməlidir.**

**Məsələ 381.** **Əgər çox şəkk edən şəxs hansısa bir əməli yerinə yetirib-yetirmədiyinə şəkk etsə, bu əməli yerinə yetirmək namazı pozmadığı təqdirdə, o, bu əməli yerinə yetirdiyini qəbul etməlidir. Məsələn, əgər səcdəni yerinə yetirib-yetirmədiyinə şəkk etsə, səcdəni yerinə yetirdiyini qəbul etməlidir. Amma əgər bu əməli yerinə yetirmək namazı pozursa, onu yerinə yetirmədiyini qəbul etməlidir. Məsələn, əgər bir rüku, yoxsa daha çox rüku etdiyinə şəkk etsə, rükunu artırmaq namazı pozduğuna görə, o, bir rüku etdiyini qəbul etməlidir.**

**Məsələ 382.** **Əgər bir şəxs yalnız namazın müəyyən bir əməlində çox şəkk edirsə, o, yalnız həmin əməldə çox şəkk edən şəxs hökmündədir. Əgər bu şəxs namazın başqa əməllərində şəkk etsə, adi insanların vəzifələrinə müvafiq şəkildə əməl etməlidir. Məsələn, əgər bir şəxs səcdəni yerinə yetirib-yetirmədiyinə çox şəkk edirsə, o, rükunu yerinə yetirib-yetirmədiyinə şəkk etdiyi təqdirdə, bu şəkkin qaydasına əməl etməlidir. Yəni əgər ayaq üstə dayanıbsa, rükunu yerinə yetirməlidir. Yox əgər səcdəyə gedibsə, şəkkinə etina etməməlidir.**

**Məsələ 383.** **Əgər bir şəxs müəyyən bir namazda, məsələn, "cəhriyyə namazlar"da**[1] **çox şəkk edirsə, başqa bir namazda, məsələn, "ixvati namazlar"da**[2] **şəkk etdiyi təqdirdə, o, şəkkin qaydalarına əməl etməlidir.**

**Məsələ 384.** **Əgər bir şəxs namazı müəyyən bir məkanda qıldığı zaman çox şəkk edirsə, başqa bir məkanda namaz qıldığı zaman şəkk etdiyi təqdirdə, o, şəkkin qaydalarına əməl etməlidir.**

**Məsələ 385.** **Əgər bir şəxs "çox şəkk edən şəxs" olub-olmadığını təyin edə bilməsə, o, çox şəkk edən şəxs hökmündə deyildir və şəkkin qaydalarına əməl etməlidir. Əgər çox şəkk edən bir şəxs adi insanların vəziyyətinə qayıtdığına yəqin edə bilməsə, o öz şəkkinə etina etməməlidir.**

---

[1] "Həmd" və "Surə"nin ucadan oxunduğu namazlar.

[2] "Həmd" və "Surə"nin astadan oxunduğu namazlar.

## 6- Müstəhəb namazlarda yaranan şəkk

**Məsələ 386.** **Əgər bir şəxs müstəhəb namazların rəkətlərinin sayında şəkk etsə, o, şəkkin az və ya çox olan tərəfini qəbul etməkdə seçim sahibidir. Amma əgər şəkkin çox olan tərəfi namazın pozulmasına səbəb olursa, bu halda şəkkin az olan tərəfini qəbul etməlidir. Məsələn, əgər bir şəxs sübhün nafiləsində iki rəkət, yoxsa üç rəkət qıldığına şəkk etsə, o, iki rəkət qıldığını qəbul etməlidir. Amma əgər bir rəkət, yoxsa iki rəkət qıldığına şəkk etsə, şəkkin hansı tərəfinə əməl etsə, namazı düzgündür.**

**Məsələ 387.** **Əgər bir şəxs müstəhəb namazın hansısa bir əməlini yerinə yetirib-yetirməməkdə şəkk etsə, bu əməl istər rükn olsun, istərsə də qeyri-rükn olsun, bu əməlin yeri keçmədiyi təqdirdə, onu yerinə yetirməlidir. Əgər bu əməlin yeri keçibdirsə, o öz şəkkinə etina etməməlidir.**

**Məsələ 388.** **Rüknün artması müstəhəb namazı pozmur. Amma rüknün azalması, ehtiyat-vacibə görə, namazı pozur. Deməli, əgər bir şəxs müstəhəb namazın hansısa bir əməlini yerinə yetirməyi unutsa və növbəti rüknü yerinə yetirdiyi zaman bunu xatırlasa, o, əvvəlcə unutduğu əməli yerinə yetirməli, daha sonra həmin rüknü yenidən yerinə yetirməlidir. Məsələn, əgər rüku əsnasında "Surə"ni oxumadığını xatırlasa, o, qalxıb "Surə"ni oxumalı, daha sonra yenidən rüku etməlidir.**

## Səhv-səcdəsi

**Məsələ 389. Namaz qılan şəxs üç halda namazın salamından sonra iki səhv-səcdəsi (səhv-səcdəsinin qaydası bir qədər irəlidə izah olunacaq) yerinə yetirməlidir:**
**1- Namaz əsnasında səhvən danışdıqda;**
**2- Dördrəkətli namazlarda ikinci səcdədən sonra dörd rəkət, yoxsa beş rəkət qıldığına şəkk etdikdə;**
**3- Təşəhhüdü unutduqda.**

**İki halda isə ehtiyat-vacibə görə iki səhv-səcdəsi yerinə yetirməlidir:**
**1- Bir səcdəni unutduqda;**
**2- Namazın salamını deməməli olduğu yerdə səhvən salam dedikdə.**

**Məsələ 390. (Yuxarıdakı hallar istisna olmaqla,) namazda səhvən baş verən və yeri keçdikdən sonra yada düşən hər artırma və ya azaltma üçün iki səhv-səcdəsi yerinə yetirmək ehtiyat-müstəhəbdir. Məsələn, bir şəxs təsbihati-ərbə`əni səhvən demir və rükuda ikən və ya rükudan sonra bunu xatırlayır.**

## Səhvən danışmaq

**Məsələ 391.** **Əgər bir şəxs namaz əsnasında istəmədən və ya namazı bitirdiyini düşünərək danışsa, iki səhv-səcdəsi yerinə yetirməlidir.**

**Məsələ 392.** **"Ah" çəkərkən və ya öskürərkən yaranan söz üçün səhv-səcdəsi yerinə yetirmək vacib olmur. Amma əgər bir şəxs istəmədən belə, "ax" və "ah" sözünü desə, səhv-səcdəsi yerinə yetirməlidir.**

**Məsələ 393.** **Əgər bir şəxs namazın sözünü səhv tələffüz etsə və sonra onu yenidən düzgün şəkildə tələffüz etsə, bu sözü yenidən dediyinə görə səhv-səcdəsi etmək vacib olmur.**

**Məsələ 394.** **Əgər bir şəxs namazda səhvən bir neçə söz desə, amma bu, bir dəfə danışmaq hesab olunsa, iki səhv-səcdəsi yerinə yetirmək kifayət edir.**

## Yersiz salam demək

**Məsələ 395.** **Əgər bir şəxs namazın salamını deməməli olduğu yerdə "Əssəlamu ələyna və əla ibadillahis-salihin" və ya "Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuhu" desə, ehtiyat-vacibə görə, iki səhv-səcdəsi yerinə yetirməlidir. Amma əgər səhvən salamın bir hissəsini desə, ehtiyat-müstəhəbə görə, iki səhv-səcdəsi yerinə yetirsin.**

**Məsələ 396.** **Əgər bir şəxs namazın salamını deməməli olduğu yerdə səhvən hər üç salamı desə, iki səhv-səcdəsi yerinə yetirməsi kifayət edir.**

## Unudulan səcdə və ya təşəhhüd

**Məsələ 397.** **Əgər bir şəxs bir səcdəni və ya təşəhhüdü unutsa və növbəti rəkətin rükusuna getməmişdən qabaq bunu xatırlasa, o, dərhal əyləşməli və səcdəni və ya təşəhhüdü yerinə yetirməlidir.**

**Məsələ 398.** **Əgər bir şəxs bir səcdəni və ya təşəhhüdü unutsa və növbəti rəkətin rükusunda və ya rükudan sonra bunu xatırlasa, namazın salamını dedikdən sonra səcdənin qəzasını və ehtiyat-vacibə görə, təşəhhüdün qəzasını yerinə yetirməlidir. Daha sonra təşəhhüd üçün iki səhv-səcdəsi və ehtiyat-vacibə görə, səcdəyə görə iki səhv-səcdəsi yerinə yetirməlidir.**

## Səhv-səcdəsinin qaydası

**Məsələ 399.** **Səhv-səcdəsinin qaydası belədir:**

**Namazın salamını dedikdən sonra dərhal səhv-səcdəsi niyyətilə alnı “üzərinə səcdə etməyin düzgün olduğu şey”ə qoyursan və ehtiyata görə, bu zikri deyirsən: “Bismillahi və billahi, əssəlamu ələykə əyyuhən-Nəbiyyu və rəhmətullahi və bərəkatuhu”. Sonra səcdədən qalxır və yenidən səcdəyə gedib həmin zikri deyirsən. İkinci səcdədən qalxdıqdan sonra təşəhhüdü və salamı deyirsən.**

## Səhv-səcdəsinin hökmləri

**Məsələ 400.** **Əgər bir şəxs səhv-səcdəsini namazdan sonra bilərəkdən yerinə yetirməsə, günah etmişdir və vaxt itirmədən onu yerinə yetirməlidir. Əgər səhvən yerinə yetirməsə, xatırladığı vaxt dərhal onu yerinə yetirməlidir. Amma hər iki halda, namazı yenidən qılmaq lazım deyildir.**

## Unudulan səcdə və ya təşəhhüdün qəzası

**Məsələ 401.** Əgər namazın rükn olmayan vacib bir əməli səhvən yerinə yetirilməsə, namaz pozulmur və onun qəzasını yerinə yetirmək də lazım deyildir. Amma əgər səcdə və ehtiyat-vacibə görə, təşəhhüd səhvən yerinə yetirilməsə, namazdan sonra onların qəzası yerinə yetirilməlidir.

**Məsələ 402.** Əgər bir şəxs bir səcdəni səhvən yerinə yetirməsə və növbəti rəkətin rükusunda və ya rükudan sonra bunu xatırlasa, namazdan sonra səcdənin qəzasını yerinə yetirməlidir.

**Məsələ 403.** Əgər bir şəxs təşəhhüdü deməyi unutsa və növbəti rəkətin rükusunda və ya rükudan sonra bunu xatırlasa, onun namazı pozulmur. Amma ehtiyat-vacibə görə, namazın salamını dedikdən sonra təşəhhüdün qəzasını yerinə yetirməlidir.

**Məsələ 404.** Namazdan sonra səcdə və təşəhhüdün qəzasını yerinə yetirərkən namazın bütün şərtlərinə, o cümlədən bədən və paltarın pak olması, üzü qibləyə olmaq və s. riayət olunmalıdır.

**Məsələ 405.** Təşəhhüdün qəzasını yerinə yetirdikdən sonra daha salam demək lazım deyildir. Həmçinin səcdənin qəzasını yerinə yetirdikdən sonra təşəhhüdü və salamı demək lazım deyildir.

**Məsələ 406.** Əgər bir şəxs namazın salamını dedikdən sonra və səcdə və ya təşəhhüdün qəzasını yerinə yetirməmişdən qabaq namazı pozan bir iş görsə, məsələn, üzünü qiblədən çevirsə, səcdə və təşəhhüdün qəzasını yerinə yetirməlidir və onun namazı düzgündür.

**Məsələ 407.** Əgər bir şəxs səcdə və ya təşəhhüdün qəzasını yerinə yetirməlidirsə, eyni zamanda ona başqa bir əmələ görə səhv-səcdəsi etmək də vacib olubsa, namazdan sonra əvvəlcə səcdənin və ya təşəhhüdün qəzasını yerinə yetirməli, daha sonra səhv-səcdələrini yerinə yetirməlidir.

## Müsafir namazı

**Məsələ 408.** **Müsafir şəxs müəyyən şərtlər daxilində dördrəkətli vacib namazları səfərdə qəsr, yəni iki rəkət qılmalıdır.**

**Məsələ 409.** **Səfərdə namaz səkkiz şərt daxilində qəsr qılınır. Bu şərtlər aşağıdakılardır:**

**1- Şəri məsafə;**

**2- Şəri məsafəni qət etmək niyyəti;**

**3- Şəri məsafəni qət etmək niyyətinin davam etməsi (yəni bu məsafəni qət etmək niyyətindən dönməmək və ya bu barədə tərəddüdə düşməmək);**

**4- Vətəndən keçib getməmək və ya yol üstündə müəyyən bir yerdə on gün qalmaq niyyətində olmamaq;**

**5- Səfərin haram olmaması;**

**6- Köçəri həyat sürməmək;**

**7- Səfərin peşə olmaması;**

**8- Tərəxxüs həddinə çatmaq.**

## Birinci şərt: Şəri məsafə

**Məsələ 410.** Namazın qəsr qılınmasına səbəb olan məsafə ən azı "səkkiz fərsəx" olmalıdır. Deməli, əgər bu məsafədən az bir məsafə qət olunarsa, namaz qəsr qılınmayacaq.

**Məsələ 411.** Namazın qəsr qılınmasına səbəb olan "şəri məsafə", yəni səkkiz fərsəx (əminlik yaradan araşdırmalara əsasən) 41 kilometrə bərabərdir.

**Məsələ 412.** Şəri məsafənin hesablanması üçün "məbdə şəhər"in[1] sonu ilə "məqsəd şəhər"in[2] başlanğıcı arasındakı məsafə əsas götürülür.[3] Burada şəhərin "böyük şəhər" olub-olmamasının isə fərqi yoxdur.

**Məsələ 413.** Əgər bir şəxs şəhərin özünə deyil, əksinə, şəhərin ətrafında yerləşən müəyyən və müstəqil bir məkana – məsələn, şəhərdən kənarda yerləşən bəzi universitetlər, hərbi hissələr, xəstəxanalar və bu kimi məkanlara – getmək niyyətindədirsə, belə ki, ürfə görə şəhərə çatmaq şəxsin getmək istədiyi məkana çatmaq hesab olunmursa və şəhərə daxil olub, oradan keçmək sadəcə şəxsin getmək istədiyi məkana çatmaq üçün bir yol qismindədirsə, bu halda şəri məsafənin hesablanması üçün şəhərin başlanğıcı deyil, həmin xüsusi məkana qədər olan yol hesablanacaqdır.

**Məsələ 414.** Namazın qəsr qılınmasına səbəb olan şəri məsafənin "imtidadi məsafə" şəklində qət olunması vacib deyildir. Əksinə, əgər bu məsafə "təlfiqi məsafə" şəklində də qət olunarsa, namazın qəsr qılınmasına səbəb olur.

**Məsələ 415.** "İmtidadi məsafə" odur ki, "məbdə şəhər"dən "məqsəd şəhər"ədək olan məsafə, yaxud "məqsəd şəhər"dən "məbdə şəhər"ədək olan məsafə ən azı səkkiz fərsəxdir (yəni 41 kilometrdir). "Təlfiqi məsafə" odur ki, "məbdə şəhər"dən "məqsəd şəhər"ədək olan məsafə, yaxud "məqsəd şəhər"dən "məbdə şəhər"ədək olan məsafə səkkiz fərsəxdən azdır və gediş-qayıdış yol ümumilikdə ən azı səkkiz fərsəxdir.

**Məsələ 416.** "Təlfiqi məsafə"də gediş istiqamətindəki yol ən azı dörd fərsəx (yəni 20,5 kilometr) olmalıdır. Deməli, əgər şəxs beş fərsəx yol getsə və üç fərsəx yol qayıtsa, onun namazı qəsr olacaq. Yox əgər üç fərsəx yol getsə və beş fərsəx yol qayıtsa, onun namazı tamdır. Amma əgər qayıdış istiqamətindəki yol təklikdə səkkiz fərsəx və ya daha çox olacaqsa, bu halda namaz elə səfərin başlanğıcından qəsrdir.

**Məsələ 417.** "Təlfiqi məsafə" şəklində olan səfərdə həmin gün ərzində və ya həmin günün gecəsi geri dönmək şərt deyildir. Əksinə, əgər müsafir getdiyi yerdə bir neçə gün qalıb, sonra geri dönsə, "səfəri kəsən amillər"dən biri (məsələn, on gün müəyyən bir yerdə qalmaq) baş verədiyi təqdirdə, onun namazı qəsrdir. Həmçinin "imtidadi məsafə" şəklində olan səfərdə əgər müsafir səkkiz fərsəxə çatmamışdan qabaq ("səfəri kəsən amillər" baş verməmək şərtilə) bir neçə gün müəyyən bir yerdə qalmaq istəsə, onun namazı qəsrdir.

**Məsələ 418.** Əgər bir şəxs dörd fərsəxdən az olan bir məsafəni (məsələn, bir fərsəx yarım məsafəni) bir neçə dəfə gedib-qayıtsa, belə ki, gedib-qayıdılan yol ümumilikdə səkkiz fərsəx və ya daha çox olsa, bu şəxsin namazı qəsr olmayacaq.

**Məsələ 419.** Əgər bir neçə yerə getməyi nəzərdə tutan müsafir bir yerə getdikdən sonra növbəti yerə getmək üçün qət etdiyi yolun müəyyən hissəsini geri qayıtmalıdırsa, "səfərin başlandığı yer"dən "gedilən son yer"ədək məsafə (növbəti yerə getmək üçün geri qayıdılan məsafə də nəzərə alınmaq şərtilə) "imtidadi məsafə"də ən azı səkkiz fərsəx və ya "təlfiqi məsafə"də ən azı dörd fərsəx olarsa, namaz qəsrdir. Baxmayaraq ki, geri qayıdılan yol hesablanmadıqda, qət edilən məsafə qeyd edilən məsafədən az olur.

**Məsələ 420.** Əgər "məqsəd şəhər"ə çatmaq üçün iki yol mövcud olsa və bu yollardan biri uzun yol olub ən azı səkkiz fərsəxdirsə, digər yol isə qısa yol olub səkkiz fərsəxdən azdırsa, bu halda bir neçə surət təsəvvür olunur:
1- Əgər şəxs uzun yol ilə getsə, namaz qəsrdir, istər bu yol ilə qayıtmağı nəzərdə tutsun, istərsə də nəzərdə tutmasın.
2- Əgər şəxs qısa yol ilə getsə və bu yol ən azı dörd fərsəxdirsə, namaz qəsrdir, istər bu yol ilə qayıtmağı nəzərdə tutsun, istərsə də nəzərdə tutmasın.
3- Əgər qısa yol dörd fərsəxdən azdırsa və şəxs bu yol ilə getsə, amma uzun yol ilə qayıtsa (belə ki, uzun yol ən azı səkkiz fərsəxdir), bu halda da namaz qəsrdir.
4- Əgər qısa yol dörd fərsəxdən azdırsa və şəxs bu yol ilə gedib, bu yol ilə qayıtmağı nəzərdə tutsa, bu halda namaz tamdır.

**Məsələ 421.** Əvvəlki məsələni nəzərə alaraq, əgər hər iki yol səkkiz fərsəxdən azdırsa, amma yollardan biri ən azı dörd fərsəxdirsə və şəxs bu yol ilə gedibsə, gediş-qayıdış yolu ümumilikdə ən azı səkkiz fərsəx olduğu təqdirdə, onun namazı qəsrdir. Bundan qeyri halda, namazı tamdır.

**Məsələ 422.** Əgər səkkiz fərsəx məsafə şəhərin ətrafına dövrə vurmaq şəklində qət edilsə və tərəxxüs həddini keçdikdən sonra hesablansa, belə ki, bu səfərdə şəxs müəyyən bir yerə getməyi nəzərdə tutmayıbdır və sadəcə yolda hərəkət etməyi nəzərdə tutubdur,

**məsələn, yolun vəziyyətini yoxlamaq və ya avtomobilini yoxlamaq üçün şəhərin ətrafına dövrə vuran avtoban yolda hərəkət etmək niyyətindədir, bu halda səfər "imtidadi məsafə" şəklində olan səfər hesab olunur və namaz qəsrdir.**

---

[1] Səfərə hansı şəhərdən (kənd və ya qəsəbədən) yola düşülürsə, o şəhər nəzərdə tutulur.

[2] Hansı şəhərə səfər edilirsə, o şəhər nəzərdə tutulur.

[3] Yəni "məbdə şəhər"in axırıncı evləri ilə "məqsəd şəhər"in ilk evləri arasındakı məsafə hesablanacaq.

## Şəri məsafənin sübuta yetməsi yolları

**Məsələ 423.** Əgər bir şəxs qət etmək istədiyi məsafənin ən azı səkkiz fərsəx olduğunu bilsə və ya buna əminliyi olsa, yaxud da iki ədalətli şəxs bunu desə, o, namazı qəsr qılmalıdır.

**Məsələ 424.** Əgər bir məsafənin şəri məsafə qədər olması camaat arasında geniş yayılıbsa və geniş yayılan bu nəzər insanda elm və ya əminlik yaradarsa, bu nəzər əsasında əməl etmək və namazı qəsr qılmaq olar. Əks halda, hətta əgər zənn və güman yaratsa belə, ona əsaslanmaq olmaz.

**Məsələ 425.** Əgər bir şəxs məsafənin ölçüsünə şəkk etsə, araşdırma aparmaq onun üçün çətin olmadığı təqdirdə, məsələn, kilometrölçənə baxa bilirsə və ya bir neçə nəfərdən soruşa bilirsə, ehtiyat-vacibə görə, araşdırma aparmalıdır. Əgər bir nəticəyə çatmasa, namazı tam qılmalıdır.

**Məsələ 426.** Əgər müqəllid öz müctəhidinin fətvasını bilmirsə, məsələn, bilmir ki, görəsən, müctəhidin "təlfiqi məsafə" barəsində olan nəzəri "imtidadi məsafə" barəsində olan nəzəri ilə eynidir, yoxsa fərqlidir, o öz müctəhidinin fətvasını araşdırmalıdır. Əgər araşdırma apara bilmirsə və ya araşdırma aparmaq istəmirsə, ehtiyat etməli və namazı həm tam, həm də qəsr qılmalıdır.

**Məsələ 427.** Əgər bir şəxs məsafənin ölçüsünə şəkk etdiyinə görə namazı tam qılmalıdırsa, amma o, şəri vəzifəsinə zidd olaraq namazı qəsr qılsa, qıldığı namaz kifayət etmir və namazı tam olaraq yenidən qılmalıdır. Əlbəttə, əgər namazdan sonra başa düşsə ki, onun vəzifəsi, əslində, namazı qəsr qılmaq olub, qıldığı namaz qəsdi-qürbət ilə olduğu təqdirdə kifayət edir və onu yenidən qılmaq lazım deyildir.

**Məsələ 428.** Əgər bir şəxs "məbdə şəhər" ilə "məqsəd şəhər" arasındakı məsafənin şəri məsafə qədər olduğunu bilsə və namazı qəsr qılsa, amma sonradan bu məsafənin şəri məsafədən az olduğu məlum olsa, namaz vaxtı keçmədiyi təqdirdə, namazı yenidən tam qılmalı və namaz vaxtı keçdiyi təqdirdə, namazın qəzasını tam qılmalıdır.

**Məsələ 429.** Əgər bir şəxs qət edəcəyi məsafənin səkkiz fərsəx olmadığını bilsə və namazı tam qılsa, amma sonradan bu məsafənin şəri məsafə qədər olduğu məlum olsa, namaz vaxtı keçmədiyi təqdirdə, namazı yenidən qəsr qılmalı və namaz vaxtı keçdiyi təqdirdə, namazın qəzasını qəsr qılmalıdır.

**Məsələ 430.** Əgər bir şəxs müəyyən bir yerə getmək istəyirsə və oradək məsafənin şəri məsafə ölçüsündə olub-olmadığına şəkk edirsə, yaxud da oradək məsafənin şəri məsafə ölçüsündə olmadığını bilirsə (belə ki, bu iki halda o, namazı tam qılmalıdır), amma yol əsnasında oradək məsafənin şəri məsafə ölçüsündə olduğu onun üçün sübuta yetsə, həmin yerdən etibarən namazı qəsr qılmalıdır. Həmin yerdən gedəcəyi yerədək məsafənin şəri məsafə ölçüsündə olması isə şərt deyildir.

## İkinci şərt: Şəri məsafəni qət etmək niyyəti

**Məsələ 431.** Səfər edən şəxs şəhərdən xaric olarkən səkkiz fərsəxi (istər "imtidadi məsafə" şəklində, istərsə də "təlfiqi məsafə" şəklində) qət etmək niyyətində olmalıdır. Beləliklə, əgər o, şəhərdən xaric olarkən şəri məsafədən az olan bir məsafəni, məsələn, üç fərsəx məsafəni qət etməyi nəzərdə tutsa və bu yerə çatdıqdan (yəni üç fərsəx məsafəni qət etdikdən) sonra daha beş fərsəx məsafəni qət etməyi və getdiyi yerdə də on gün qalmağı qərara alsa, bu səfərdə namaz qəsr olmayacaq (baxmayaraq ki, səkkiz fərsəx məsafə qət edibdir).

**Məsələ 432.** Əgər bir şəxs şəhərdən xaric olarkən nə qədər yol gedəcəyini bilmirsə, məsələn, bir cinayətkarı həbs etmək üçün yola çıxan polis məmuru səkkiz fərsəx məsafə (istər "imtidadi məsafə" şəklində, istərsə də "təlfiqi məsafə" şəklində) qət edib-etməyəcəyini bilmirsə, onun namazı qəsr deyildir, baxmayaraq ki, sonda səkkiz fərsəx məsafəni qət edir. Əlbəttə, əgər geri qayıdarkən yol səkkiz fərsəx olsa, geri qayıdarkən yolda onun namazı qəsrdir. Həmçinin əgər o, yol əsnasında bundan sonra ən azı dörd fərsəx getməli olduğunu və qayıdış istiqamətindəki yol ilə birlikdə qət edilən məsafənin səkkiz fərsəx olacağını bilsə, həmin yerdən etibarən onun namazı qəsrdir.

**Məsələ 433.** Şəri məsafənin qət ediləcəyini bilmək, şəri məsafəni qət etmək niyyətində olmaq kimidir. Deməli, əgər bir şəxs şəri məsafə qədər yol qət edəcəyini bilsə, bu, şəri məsafəni qət etmək niyyəti üçün kifayət edir və onun namazı qəsrdir.

**Məsələ 434.** Əgər bir şəxs şəri məsafəni qət etmək niyyətində olsa, o, müəyyən bir yerə getməyi qərara almasa belə, namazı qəsrdir.

**Məsələ 435.** Şəri məsafəni qət etmək niyyəti qəti olmalıdır. Beləliklə, əgər bir şəxs şəri məsafəni qət edəcəyini hansısa bir işdən asılı etsə, namaz qəsr olmayacaq. Məsələn, əgər bir şəxs dörd fərsəxdən az olan bir yerə getməyi və orada yol yoldaşı olduğu təqdirdə səfəri davam etdirəcəyini, yol yoldaşı olmadığı təqdirdə isə geri qayıdacağını qərara alsa, onun niyyəti qəti olmadığına görə namazını tam qılmalıdır.

**Məsələ 436.** Əvvəlki məsələni nəzərə alaraq, əgər bu şəxs özünə yol yoldaşı tapacağını bilsə, əslində, səkkiz fərsəx getmək niyyətindədir. O, tərəxxüs həddini keçdikdən sonra namazı qəsr qılmalıdır.

**Məsələ 437.** Əgər bir şəxs şəri məsafə ölçüsündə yol qət etmək istəyirsə, amma yol əsnasında (səkkiz fərsəxə çatmamış) müəyyən bir yerdə on gün qalmaq niyyətindədirsə, onun namazı tamdır. Əgər o, yolun bir hissəsini qət etdikdən sonra nəzərdə tutduğu yerdə qalmaq fikrindən daşınsa, qalan yol şəri məsafə qədər, hətta "təlfiqi məsafə" şəklində olsa belə, olduğu və gediş istiqamətindəki yol (yolun qalan hissəsində) ən azı dörd fərsəx, yaxud da qayıdış istiqamətindəki yol təklikdə səkkiz fərsəx olduğu təqdirdə, onun namazı qəsrdir. Bundan qeyri halda, onun namazı tamdır.

**Məsələ 438.** Əgər bir şəxs "imtidadi məsafə"də (yəni gediş istiqamətində ən azı səkkiz fərsəx yol qət ediləcəyi təqdirdə) yol əsnasında səkkiz fərsəxə çatmamış müəyyən bir yerdə on gün qalıb-qalmayacağına dair tərəddüddə olsa, əslində, o, şəri məsafəni qət etmək niyyətində deyildir və buna görə də namazı tamdır.

**Məsələ 439.** Əgər bir şəxs "təlfiqi məsafə"də (yəni gediş-qayıdış birlikdə ən azı səkkiz fərsəx yol qət ediləcəyi təqdirdə) getdiyi yerdə və ya ora çatmamış, yaxud da geri qayıdarkən (səkkiz fərsəx yol qət etməmişdən əvvəl) müəyyən bir yerdə on gün qalmaq niyyətində olsa, səkkiz fərsəx yol qət etmək niyyəti gerçəkləşmir və buna görə də namaz tamdır.

**Məsələ 440.** Şəri məsafəni dayanmadan qət etmək şərt deyildir. Beləliklə, əgər şəri məsafəni qət etmək niyyətində olan şəxs iki-üç fərsəx yol qət etdikdən sonra bir-iki gecə müəyyən bir yerdə qalsa, sonra şəri məsafənin bir hissəsini qət etsə və yenə də bir neçə gecə müəyyən bir yerdə qalsa, on gün bir yerdə qalmaq niyyətində olmayanadək onun namazı qəsrdir.

## Səfər etməkdə tabelik

**Məsələ 441.** **Əgər səfər etməkdə başqa bir şəxsə tabe olan bir şəxs – istər ixtiyari olaraq, istərsə də məcburi olaraq tabedir – tabe olduğu şəxsin şəri məsafə ölçüsündə yol qət edəcəyini bilsə, onun da namazı qəsrdir.**

**Məsələ 442.** **Əgər tabe olan şəxs tabe olduğu şəxsin şəri məsafə ölçüsündə yol qət edib-etməyəcəyini bilmirsə, bunu ondan soruşması vacib deyildir. Tabe olunan şəxsin də bu barədə tabe olan şəxsə məlumat verməsi vacib deyildir. Tabe olan şəxs tabe olduğu şəxsin şəri məsafəni qət etmək niyyətində olduğunu bilməyənədək, onun namazı tamdır.**

**Məsələ 443.** **Əgər tabe olan şəxs tabe olduğu şəxsin şəri məsafəni qət etmək niyyətində olmadığını bilsə, amma yol əsnasında onun şəri məsafəni qət etmək niyyətində olduğunu başa düşsə, qalan yol şəri məsafədən (istər imtidadi məsafə, istərsə də təlfiqi məsafə olaraq) az olduğu təqdirdə, onun namazı tamdır.**

**Məsələ 444.** **Əgər bir şəxsi məcburi şəkildə bir yerə aparsalar və bu şəxs səkkiz fərsəx yol aparılacağını bilsə, onun namazı qəsrdir.**

## Üçüncü şərt: Şəri məsafəni qət etmək niyyətinin davam etməsi

**Məsələ 445.** Namazın qəsr qılınmasının üçüncü şərti şəri məsafəni qət etmək niyyətinin davam etməsidir. Odur ki, əgər bu şərt səfər əsnasında aradan qalxsa, digər şərtlər mövcud olsa belə, namaz tam qılınacaq. Məsələn, bir şəxs səkkiz fərsəx yol qət etmək niyyətindədir, amma iki-üç fərsəx yol qət etdikdən sonra səfəri davam etdirmək fikrindən daşınır və ya bu barədə tərəddüdə düşür. Daha sonra yolu itirir və şəri məsafəni qət etmək niyyətində olmadan, o, səkkiz fərsəxlik yerə gedib çatır. Bu halda bu şəxsin namazı tamdır.

**Məsələ 446.** Əgər bir şəxs səfərə çıxarkən səkkiz fərsəxlikdə yerləşən müəyyən bir yerə getmək niyyətində olsa, amma dörd fərsəxə çatmamış başqa bir yerə getməyi qərara alsa və səfərin əvvəlindən oradək məsafə də səkkiz fərsəx olsa, bu şəxsin namazı qəsrdir.

**Məsələ 447.** Əgər səkkiz fərsəx məsafəni "imtidadi məsafə" olaraq qət etmək niyyətində olan şəxs dörd fərsəx məsafəni qət etdikdən sonra niyyətindən dönsə və gəldiyi yol ilə də qayıtmaq istəsə (başqa sözlə, "imtidadi məsafə"ni "təlfiqi məsafə"yə çevirmək istəsə), onun namazı qəsrdir.

**Məsələ 448.** Əgər səkkiz fərsəx və ya daha çox məsafəni qət etmək niyyətində olan şəxs dörd fərsəxə çatmamış öz niyyətindən dönsə və ya tərəddüdə düşsə, onun namazı tamdır. Əgər o, səfəri davam etdirməyi yenidən qərara alsa, burada bir neçə surət yaranır:

1- Səfəri davam etdirməkdə tərəddüdə düşdüyü və ya niyyətindən döndüyü zaman müəyyən bir yerdə dayanmışdı: Bu surətdə onun namazı qəsrdir, istər qalan yol təklikdə şəri məsafə ölçüsündə olsun, istərsə də olmasın. Hətta əgər səfəri davam etdirməyi yenidən qərara aldıqdan sonra və hərəkət etməmişdən qabaq həmin yerdə namaz qılmaq istəsə, namazı qəsr qılmalıdır.

2- Səfəri davam etdirməkdə tərəddüdə düşdüyü və ya niyyətindən döndüyü zaman yolun bir hissəsini qət etmişdir və səfəri davam etdirməyi yenidən qərara aldıqdan sonra qalan yol şəri məsafə ölçüsündədir (istər imtidadi məsafə, istərsə də təlfiqi məsafə olaraq): Bu surətdə tərəddüd vəziyyətində qət etdiyi məsafədə onun namazı tamdır. Amma səfəri davam etdirməyi yenidən qərara aldıqdan sonra onun namazı qəsrdir.

3- Səfəri davam etdirməkdə tərəddüdə düşdüyü və ya niyyətindən döndüyü zaman yolun bir hissəsini qət etmişdir və səfəri davam etdirməyi yenidən qərara aldıqdan sonra qalan yol şəri məsafədən azdır: Bu surətdə onun namazı tamdır. Amma əgər səfəri davam etdirməkdə tərəddüdə düşməmişdən və ya niyyətindən dönməmişdən qabaq qət etdiyi yol ilə səfəri davam etdirməyi yenidən qərara aldıqdan sonra qalan yol birlikdə şəri məsafə ölçüsündə olarsa, bu halda ehtiyat-vacibə görə, namazı həm tam, həm də qəsr qılmalıdır.

**Məsələ 449.** Əgər bir şəxs şəri məsafəni qət etmək niyyətilə səfərə çıxsa və tərəxxüs həddini keçdikdən sonra namazı qəsr olaraq qılsa, amma dörd fərsəxə çatmamışdan qabaq niyyətindən dönsə və ya müəyyən bir yerdə on gün qalmağı qərara alsa, qəsr olaraq qıldığı namazları ehtiyat-vacibə görə, namaz vaxtı keçmədiyi təqdirdə tam olaraq yenidən qılmalı, namaz vaxtı keçdiyi təqdirdə isə onların qəzasını tam olaraq qılmalıdır.

## Dördüncü şərt: Vətəndən keçib getməmək və ya yol üstündə müəyyən bir yerdə on gün qalmaq niyyətində olmamaq

**Məsələ 450.** **Namazın qəsr qılınmasının şərtlərindən biri də budur ki, səfərə çıxarkən şəxs yol üstündə (səkkiz fərsəxə çatmamışdan əvvəl) müəyyən bir yerdə on gün qalmaq niyyətində olmamalı və ya səfər əsnasında belə bir qərara gəlməməli, həmçinin səfər əsnasında öz vətənindən keçməməlidir.**

**Məsələ 451.** **Əgər bir şəxs səfərə çıxarkən və ya səfər əsnasında qərara alsa ki, səkkiz fərsəxə çatmamış müəyyən bir yerdə on gün qalacaq və ya öz vətənindən keçəcəkdir, səfərin əvvəlindən onun namazı tamdır. Həmçinin əgər vətəndən və ya on gün qaldığı yerdən hərəkət etdikdən sonra qalan yol səkkiz fərsəx – hətta "təlfiqi məsafə" olaraq – olmasa, bu şəxsin namazı tamdır.**

**Məsələ 452.** **Əvvəlki məsələni nəzərə alaraq, əgər bu şəxs yol üstündə müəyyən bir yerdə on gün qalmaq və ya vətəndən keçməkdə tərəddüddə olsa, şəri məsafəni qət etmək niyyəti gerçəkləşmir və buna görə də, onun namazı tamdır.**

## Beşinci şərt: Səfərin haram olmaması

**Məsələ 453.** Namazın qəsr qılınmasının digər bir şərti də səfərin haram olmaması, başqa sözlə, səfərin icazəli olmasıdır. Deməli, əgər bir şəxs haram səfərə getsə, istər səfərin özü haram olsun (məsələn, döyüşdən qaçmaq), istərsə də haram bir iş görmək üçün səfər etsin (məsələn, oğurluq etmək), bu şəxsin namazı tamdır.

**Məsələ 454.** Əgər səfər vacib əməlin tərk olunmasına səbəb olarsa və səfər etməkdə şəxsin niyyəti də vacib əməli (məsələn, borcu qaytarmamaq kimi vacib bir əməli) tərk etmək olarsa, bu halda namaz tamdır. Amma əgər şəxsin niyyəti vacib əməli tərk etmək olmazsa, bu halda vacib əməl qeyri-ixtiyari olaraq tərk olunsa belə, bu səfər günah səfəri hesab olunmur və namaz qəsrdir.

**Məsələ 455.** Əgər bir şəxs qəsbi minik vasitəsilə səfər etsə və ya qəsbi bir yerdən keçib getsə, bu səfər günah səfəri hökmündə deyildir və namaz qəsrdir. Baxmayaraq ki, namazı həm qəsr, həm də tam qılmaq ehtiyat-müstəhəbə müvafiqdir.

**Məsələ 456.** Əgər bir şəxs səfərdə zalım bir insana yol yoldaşı olsa, amma onunla yol yoldaşı olmaq məcburi şəkildə olsa və könüllü olmasa, yaxud da icazəli və daha əhəmiyyətli bir hədəf üçün olsa, məsələn, zülmün qarşısını almaqdan ötrü olsa, bu şəxsin namazı qəsrdir. Amma əgər bir şəxs ixtiyari şəkildə və haram hədəf üçün zalım şəxsə yol yoldaşı olsa, yaxud da haram hədəf mövcud olmasa da, bu yoldaşlıq zalımın şan-şöhrətinin artmasına səbəb olsa və ya zülmə dəstək vermək olsa, bu səfər haramdır və namaz tamdır.

**Məsələ 457.** Əgər bir şəxs səfərinin haram olub-olmadığına şəkk etsə, o, səfərin haram olmadığını qəbul etməli və namazı qəsr qılmalıdır. Amma əgər bu səfər ilk başlanğıcda haram idisə və o, hazırda səfərin hələ də haram olub-olmadığına şəkk edirsə, bu halda səfərin haram olduğunu qəbul etməli və namazı tam qılmalıdır.

## Səfərin icazəli səfər olaraq davam etməsi

**Məsələ 458.** Səfərin icazəli olması şərti yalnız səfərin başlanğıcına aid deyildir, əksinə, səfər boyunca bu şərt mövcud olmalıdır. Beləliklə, əgər səfər əsnasında şəxsin niyyəti günah səfərinə çevrilsə, səfər haram olur və namaz tam qılınmalıdır, baxmayaraq ki, o, şəri məsafə ölçüsündə yol qət etmişdir.

**Məsələ 459.** Əgər bir şəxs icazəli bir səfərə çıxsa və səfər əsnasında (səkkiz fərsəxə çatmamışdan əvvəl) öz vəzifəsinə müvafiq olaraq namazı qəsr qılsa, amma sonradan onun niyyəti haram səfərə çevrilsə, qəsr olaraq qıldığı namazı namaz vaxtı keçmədiyi təqdirdə, tam olaraq yenidən qılmalı, namaz vaxtı keçdiyi təqdirdə isə namazın qəzasını tam olaraq qılmalıdır.[1]

**Məsələ 460.** Əgər bir şəxs icazəli bir səfərə getsə, amma getmək istədiyi yerə çatdıqdan sonra haram olan yeni bir səfərə getməyi qərara alsa (məsələn, döyüşdən qaçmaq niyyətilə evinə qayıtmaq istəsə), bu halda haram səfər niyyəti etdiyi andan etibarən onun namazı tamdır. Baxmayaraq ki, haram səfər niyyəti etdiyi andan bu səfərə getdiyi anadək olan zaman fasiləsində namazı həm qəsr, həm də tam qılmaq ehtiyat-müstəhəbə müvafiqdir.

**Məsələ 461.** Əgər bir şəxs icazəli bir səfərə getsə və şəri məsafəni qət etdikdən sonra dayandığı müəyyən bir yerdə niyyətini haram səfər niyyətinə çevirsə, haram səfərə başlamazdan öncə namaz qılmaq istədiyi təqdirdə, onu tam qılmalıdır. Baxmayaraq ki, namazı həm tam, həm də qəsr qılmaq ehtiyat-müstəhəbə müvafiqdir.

**Məsələ 462.** Əgər bir şəxs icazəli bir səfərə getsə və yolun bir hissəsini qət etdikdən sonra günah etmək niyyəti edib yolun bir hissəsini də bu niyyətlə qət etsə, amma sonra peşman olsa və icazəli səfər niyyətinə geri dönsə, günah etmək niyyətilə qət etdiyi yol istisna olmaqla, icazəli səfər niyyətilə qət etdiyi ümumi yol səkkiz fərsəx olduğu təqdirdə, əqvaya görə, onun namazı qəsrdir.

**Məsələ 463.** Əgər bir şəxs icazəli bir iş, məsələn, ticarət və ya səyahət üçün səfər etsə, amma səfər əsnasında yolun bir hissəsini icazəli səfər niyyətilə yanaşı haram səfər niyyətilə də qət etsə, icazəli və haram səfər niyyətinin yanaşı olduğu məsafədə namaz tam qılınacaq. Baxmayaraq ki, namazı həm tam, həm də qəsr qılmaq ehtiyata müvafiqdir. Amma yolun icazəli səfər niyyətilə qət etdiyi qalan hissəsinə gəlincə, bu yol (hətta icazəli səfər niyyətilə qət etdiyi əvvəlki hissə ilə birlikdə) şəri məsafə ölçüsündə olduğu təqdirdə, namaz qəsr olacaq.

**Məsələ 464.** Əgər günah etmək niyyətilə səfər edən şəxs səfər əsnasında peşman olsa və səfəri icazəli bir iş üçün davam etdirməyi qərara alsa, yolun qalan hissəsi səkkiz fərsəx (istər "imtidadi məsafə" olaraq, istərsə də "təlfiqi məsafə" olaraq) olduğu təqdirdə, onun namazı qəsrdir. Əks halda, namazı tamdır. Amma əgər qayıdan istiqamətdə yol təklikdə səkkiz fərsəx olarsa, bu halda icazəli səfər niyyəti etdiyi andan etibarən onun namazı qəsrdir.

**Məsələ 465.** Əvvəlki məsələni nəzərə alaraq, əgər bu şəxs müəyyən bir yerdə dayandığı zaman günah etmək niyyətindən dönərsə, həmin yerdə (yəni yola düşməmişdən əvvəl) namaz qılmaq istədiyi təqdirdə, onun namazı tamdır. Baxmayaraq ki, namazı həm tam, həm də qəsr qılmaq ehtiyata müvafiqdir.

**Məsələ 466.** İstirahət və əylənmək üçün səfər etmək haram deyildir və bu səfərdə namaz qəsrdir.

**Məsələ 467.** Günah səfərində zöhr, əsr və işa namazlarının nafilələri ortadan qalxmır və şəxs onları qıla bilər.

**Məsələ 468.** Günah səfərində şəxs cümə namazında da iştirak edə bilər.

---

[1] Amma əgər səkkiz fərsəxi keçdikdən sonra onun niyyəti dəyişərsə, qəsr olaraq qıldığı namazlar düzgündür.

## Günah səfərindən geri qayıdarkən səfərin hökmü

**Məsələ 469. Günah səfərindən geri qayıdarkən əgər qayıdan istiqamətdə yol şəri məsafə ölçüsündə olarsa və günah səfərindən qayıtmaq günah səfərinin davamı hesab olunarsa, bu şəxs tövbə etdiyi təqdirdə, geri qayıdarkən onun namazı qəsrdir. Tövbə etmədiyi təqdirdə isə, ehtiyat-vacibə görə, namazı həm qəsr, həm də tam qılmalıdır. Amma əgər günah səfərindən geri qayıtmaq günah səfərinin davamı deyil, yeni bir səfər sayılarsa, məsələn, uzun bir müddətdən, bir ildən sonra əvvəlki şəhərə qayıtmaq istəsə, hər bir halda (istər tövbə etmiş olsun, istərsə də tövbə etməmiş olsun) namazı qəsr qılmalıdır və oruc tuta bilməz.**

## Ov səfəri

**Məsələ 470.** **Əgər insan özünün və ailəsinin yeməyini və digər məişət ehtiyaclarını təmin etməkdən ötrü ov səfərinə gedirsə, bu səfər icazəlidir və səfərdə namaz qəsrdir.**

**Məsələ 471.** **Əgər bir şəxs ticarət etmək üçün ov səfərinə gedirsə, məsələn, heyvanın ətini, dərisini, dişini və digər hissələrini satıb böyük gəlir əldə etməkdən ötrü ov edirsə[1], bu halda, ehtiyat-vacibə görə, namazı həm qəsr, həm də tam qılmalıdır. Amma oruc tuta bilməz.**

**Məsələ 472.** **Əgər ov səfəri sırf əyləncə məqsədi daşıyarsa[2] (yəni ov etmək heyvanın ətini yemək və digər məişət ehtiyaclarını təmin etmək, yaxud da ticarət etmək məqsədi daşımırsa), bu səfərdə namaz tamdır və oruc tutmaq vacibdir.**

**Məsələ 473.** **Əgər ov səfəri əyləncə məqsədilə olsa da, amma ovun əti yeyiləcəkdirsə, bu səfər sırf əyləncə məqsədi daşıyan ov səfəri hökmündə olmayacaqdır.**

---

[1] Yəni əgər bir şəxs ov etdiyi heyvanı öz məişət ehtiyaclarını təmin etməkdən ötrü satarsa, bu halda ov üçün etdiyi səfərdə onun namazı qəsrdir. Amma əgər məişət ehtiyaclarını təmin etməkdən ötrü ov etmirsə, əksinə, böyük gəlir əldə etməkdən ötrü ov edirsə, məsələn, sincab, fil və s. az tapılan heyvanların dərisini, dişini və başqa hissələrini satmaqdan ötrü onları ovlayır və bu yolla sərvətini artırmaq istəyirsə, bu halda ov üçün etdiyi səfərdə onun namazı qəsr deyildir.

[2] Yəni ova çıxan şəxs sırf əyləncə məqsədilə heyvanı ovlayır və heyvanın ətinin yeyilə bilən ət olub-olmamasının onun üçün fərqi yoxdur.

## Altıncı şərt: Köçəri həyat sürməmək

**Məsələ 474.** **Səfərdə namazın qəsr qılınmasının şərtlərindən biri də budur ki, insanın məskunlaşdığı və yaşadığı sabit bir məkan olmalıdır. Beləliklə, əgər səfər edən şəxsin məskunlaşdığı və yaşadığı sabit bir məkanı yoxdursa (yəni köçəri həyat sürürsə[1]), onun namazı tamdır.**

**Məsələ 475.** **İlin bir hissəsini müəyyən bir yerdə yaşayan, ilin bir hissəsini isə yaylağa köç edən tayfalar və insanlar "köçəri həyat sürən" insanlar hökmündə deyildir. Əksinə, onlar iki vətənə malikdirlər. Əgər bu iki yer arasındakı məsafə şəri məsafə ölçüsündə olarsa, bu iki yer arasındakı yolda onların namazı qəsrdir.**

**Məsələ 476.** **Əgər köçəri həyat sürən bir şəxs bir səfərə getmək istəsə, məsələn, həcc ziyarətinə və ya qohumunu görmək üçün başqa bir şəhərə getmək istəsə, bu halda əgər bu səfərə də başqa səfərlərdə olduğu kimi ailəsi və özü ilə daşıdığı əşyalarla birlikdə getsə və bu zaman ona "köçəri həyat sürən insan" deyilsə, bu səfərdə onun namazı tamdır. Amma əgər ailəsini və əşyalarını müəyyən bir şəhərdə qoysa və özü təkcə getsə, belə ki, bu zaman ona "köçəri həyat sürən insan" deyilməsə, onun namazının qəsr olması uzaq ehtimal deyildir.**

**Məsələ 477.** **Əgər bir şəxs ilin bir hissəsində müəyyən bir yerdə daimi yaşayırsa, amma ilin bir hissəsində müəyyən bir yerdə yaşamır və köçəri həyat sürürsə (bəzi qəbilələr kimi), o, daimi yaşadığı yerdə namazını tam qılmalı, bir yerdə qalmayıb daim köç etdiyi yerlərdə isə ehtiyat-vacibə görə, namazı həm qəsr, həm də tam qılmalıdır.**

**Məsələ 478.** **Əgər köçəri həyat sürən tayfadan bir şəxs su və bitki axtarmaq üçün tayfadan ayrılsa, o, səkkiz fərsəx və ya daha çox yol qət etsə belə, namazı tam qılmalıdır.**

---

[1] Burada "köçəri həyat sürmək" dedikdə, bu nəzərdə tutulur ki, insan hara gedirsə, evini özü ilə daşıyır və müəyyən bir məskəni və vətəni yoxdur ki, bir yerə gedərkən yenidən qayıdıb ora gəlsin.

## Yeddinci şərt: Səfərin peşə olmaması

**Məsələ 479.** Səfərdə namazın qəsr qılınmasının daha bir şərti səfərin peşə olmamasıdır. Deməli, əgər səfər etmək bir şəxsin peşəsi olsa, istər səfər etmək müəyyən bir peşənin əsasında dayansın (məsələn, sürücülük və pilot kimi peşələr), istərsə də səfər etmək müəyyən bir peşənin müqəddiməsi olsun (məsələn, peşəsi ilə əlaqədar səfər edən həkim və müəllim kimi), bu səfərdə namaz tamdır və oruc düzgündür.

**Məsələ 480.** Əgər bir şəxsin peşəsi səfər etmək deyildirsə, o, çoxsayda səfər etsə belə, onun namazı qəsrdir. Fərqi yoxdur ki, bu şəxs əvvəlcədən çoxsayda səfər etməyi qərara alıbdır (məsələn, qırx cümə günü ziyarət üçün başqa bir şəhərə səfər etməyi niyyət edən şəxs kimi), yaxud da təsadüfi olaraq və əvvəlcədən qərara almadan çoxsayda səfər edir (məsələn, xəstəliyi ilə əlaqədar müalicə almaqdan ötrü davamlı olaraq başqa bir şəhərə səfər edən xəstə kimi).

**Məsələ 481.** İş səfərinin gerçəkləşməsi üçün üç şərt tələb olunur:

1- İş səfərinə getmək niyyətində olmaq;

2- İş səfərinə getmək;

3- İş səfərini davam etdirmək niyyətində olmaq.

**Məsələ 482.** Səfərin iş səfəri hesab olunması üçün meyar "ürf"dür, yəni camaatın nəzəridir. (Başqa sözlə, səfər camaatın nəzərində iş səfəri hesab olunmalıdır.) Əgər bir səfərin iş səfəri hesab olunması ürfə görə şübhə altında olarsa, bu halda namaz qəsrdir və oruc tutmaq düzgün deyildir.

**Məsələ 483.** Səfərin peşə hesab olunması, bu peşə ilə qazanc əldə etmək və dolanışığı təmin etməyə bağlı deyildir. Beləliklə, təmənnasız olaraq tədris etmək üçün səfər edən müəllim "peşəsi səfər edən şəxs" hesab olunur və bu səfərdə onun namazı tamdır.

**Məsələ 484.** Yuxarıdakı üç şərt gerçəkləşdiyi təqdirdə ilk iş səfərində namaz tamdır və oruc düzgündür.

**Məsələ 485.** Əgər elm öyrənmək üçün səfər etmək işin tərkib hissəsi sayılarsa, məsələn, bir işçi üçün kurs qoyulur və o, bu kursu keçmək üçün səfər edir, bu halda onun namazı tamdır.

**Məsələ 486.** Elm öyrənmək və bu yolla gələcəkdə bir peşə sahibi olmaq üçün səfər edən şagird və tələbə, ehtiyat-vacibə görə, təhsil səfərində namazı həm tam, həm də qəsr qılmalı, həmçinin orucu tutmalı, sonradan orucun qəzasını da tutmalıdır.

**Məsələ 487.** Əgər elm öyrənmək hansısa bir təbəqəyə daxil olmaqla yanaşı olarsa, belə ki, bu təbəqənin adı müəyyən bir peşə adıdır, məsələn, dini hövzə tələbəsi elə təhsilə başladığı ilk vaxtlarda "ruhani" adlanır, yaxud hərbi məktəbə daxil olan tələbələr bir neçə ay təlim gördükdən sonra onlara dərəcə verilir və hərbiçi adlanır, bu növ təhsil peşənin tərkib hissəsi hesab olunur. Odur ki, bu təhsil səfərində onlar namazı tam qılmalı və orucu tutmalıdırlar.

**Məsələ 488.** Əgər bir şəxs işi ilə əlaqədar yalnız bir uzun səfərə gedərsə (məsələn, uzun bir dəniz səfərinə gedərsə), uzaq ehtimal deyildir ki, ürf bu səfəri iş səfəri hesab etsin. Ona görə də bu səfərdə namaz tamdır, baxmayaraq ki, səfəri davam etdirmək niyyəti mövcud olmayıb, yəni uzun səfər "səfəri davam etdirmək niyyəti"ni əvəz edir.

**Məsələ 489.** Bir şəxsin işi ildə bir dəfə bir ay davam edir, məsələn, həcc ziyarətində qrup rəhbəri olur. Əgər o, hər il bu işlə məşğul olmaq niyyətindədirsə, birinci səfərdə belə, onun namazı tamdır. Amma əgər bu işi davam etdirmək niyyətində deyildirsə, səfərdə namazı qəsrdir.

**Məsələ 490.** Bir şəxs ilin müəyyən hissəsində (məsələn, yay fəslində bir-iki ay səfər edən sürücü kimi) iş səfərinə gedir və hər il bu işlə məşğul olmaq niyyətindədir. Onun səfəri iş səfəri hökmündədir və birinci səfərdən etibarən namazı tamdır.

**Məsələ 491.** Bir şəxs yalnız bir dəfə ilin müəyyən hissəsində bir işlə məşğul olur və qarşıda gələn illərdə bu işlə məşğul olmaq niyyətində deyildir. Əgər bu iş ən azı üç ay adi şəkildə davam edərsə (yəni bu şəxs adətən iş olmayan günlərdə, məsələn, istirahət və bayram günlərində işləmirsə), onun namazı, hətta birinci səfərdə belə, tamdır. Amma əgər iş bu müddətdən az davam edərsə, məsələn, bir ay davam edərsə, ürfə görə bu səfərin iş səfəri adlanması məlum deyildir. Məsələ şübhə altında olduqda isə namaz qəsr olur.

**Məsələ 492.** Bir şəxsin işi (məsələn, bəzi taksi sürücüləri kimi) şəhər ətrafına şəri məsafədən az olaraq gedib-qayıtmaqdır. Əgər bu şəxs təsadüfən bu işdə şəhər ətrafına şəri məsafə ölçüsündə səfər etsə, bu səfər iş səfəri hesab olunmayacaq və onun namazı qəsrdir.

**Məsələ 493.** Əgər peşəsi səfər etmək olan bir şəxs (istər səfər etmək onun peşəsinin əsasında dayansın, istərsə də peşəsinin müqəddiməsi olsun) qeyri-iş səfərinə getsə, hətta işlədiyi yerə getsə belə, namazı qəsrdir.

**Məsələ 494.** Əvvəlki məsələni nəzərə alaraq, əgər bu şəxs işi üçün deyil, başqa bir məsələ ilə əlaqədar iş yerinə səfər etsə, amma işinə görə orada qalmağı qərara alsa, işə getmək üçün orada qaldığı müddətdə, həmçinin ondan sonra və geri qayıdarkən onun namazı tamdır. Baxmayaraq ki, işə getmək üçün orada qaldığı müddətdə namazı həm tam, həm də qəsr qılması ehtiyata müvafiqdir.

**Məsələ 495.** İşi ilə əlaqədar səfər edən şəxs əgər müəyyən bir iş ilə əlaqədar, məsələn, qohumlara baş çəkmək üçün iş yerinə bir-iki gün tez gedərsə, zahirə görə, bu səfər iş səfəri hökmündədir.

**Məsələ 496.** Əgər peşəsi səfər etmək olan şəxs vətəndə və ya qeyri-vətəndə istər məqsədli şəkildə olaraq, istərsə də məqsədli şəkildə olmayaraq on gün qalsa, on gündən sonra etdiyi birinci səfərdə namazı qəsrdir.

**Məsələ 497.** Əgər peşəsi səfər etmək olan şəxs vətəndə və ya qeyri-vətəndə on gün qalsa, sonra qeyri-iş səfərinə getsə, məsələn, ziyarətə getsə, ehtiyat-vacibə görə, ziyarət səfərindən sonra getdiyi iş səfərində namazı həm tam, həm də qəsr qılmalıdır.

**Məsələ 498.** Əgər peşəsi səfər etmək olan şəxs bir yerdə on gün, yoxsa daha az qaldığına dair şəkk etsə, onun şəkki bu yerə hansı gün daxil olduğu barədə yaranan tərəddüddən irəli gəldiyi təqdirdə, o, ilk iş səfərində namazını tam qılmalıdır. Amma əgər onun şəkki bu yerdən hansı gün xaric olduğu barədə yaranan tərəddüddən irəli gələrsə, o, ilk iş səfərində namazı qəsr qılmalıdır.

**Məsələ 499.** Əgər peşəsi səfər etmək olan şəxs iş səfərində yalnız müəyyən bir ünvana gedəcəkdirsə və o, getmək istədiyi ünvana çatmamış yolda on gün bir yerdə qalarsa, ünvana çatanadək səfərin davamı və vətənə geri qayıdış yolu birlikdə “birinci səfər” hesab olunur və bu səfərdə namazı qəsr qılmalıdır.

**Məsələ 500.** Əvvəlki məsələni nəzərə alaraq, əgər o, bir neçə ünvana gedəcəkdirsə, (on gün bir yerdə qaldıqdan sonra) onun birinci səfəri birinci ünvana çatdıqda başa çatır. İkinci ünvana hərəkət etməyə başladıqda isə ikinci səfər başlanır və namazı tam qılmalıdır.

**Məsələ 501.** Namazın tam qılındığı və orucun düzgün olduğu iş səfərində yolun, yaxud peşənin, yaxud da nəqliyyat vasitəsinin əvvəlki peşə, yol və nəqliyyat vasitəsi olmasının və ya dəyişməsinin bir fərqi yoxdur.

**Məsələ 502.** Əgər peşəsi sürücülük olan bir şəxsin iş başında olarkən maşını xarab olsa və o, maşının təmiri və ya ehtiyat hissələrini almaq üçün şəri məsafə ölçüsündə səfər etsə, bu səfər də iş səfəri hesab olunur və namazı tam qılmalıdır.

**Məsələ 503.** Əvvəlki məsələni nəzərə alaraq, əgər işə çıxmazdan qabaq onun maşını xarab olsa və o, maşının təmiri və ya ehtiyat hissələrini almaq üçün şəri məsafə ölçüsündə səfər etsə, namazını qəsr qılmalıdır.

**Məsələ 504.** Əgər peşəsi səfər etmək olan şəxs qeyri-iş səfərinə getsə, onun namazı qəsrdir. Məsələn, bir şəxsin işi bir şəhərdən başqa şəhərə sərnişin aparmaqdır. Əgər bu şəxs həcc ziyarətinə və ya İmamların (ə) ziyarətinə getsə, namazı qəsr qılmalıdır. Amma əgər o, iş səfəri əsnasında şəxsi bir işini də görsə, məsələn, ziyarətə getsə – istər onun əsas məqsədi öz şəxsi işini görmək olsun və sərnişin aparmaq onun ikinci məqsədi olsun, istər bunun əksi olsun, istərsə də hər iki məqsədi bərabər olsun – onun namazı tamdır.

**Məsələ 505.** Əgər peşəsi səfər etmək olan şəxs qeyri-iş səfərinə getsə və oradan işinə görə işlədiyi yerə getmək istəsə, getdiyi yerdə (istər əvvəlcədən qərara alaraq, istərsə də əvvəlcədən qərara almadan) on gün qalmadığı təqdirdə, iş yerinə getdiyi səfərdə onun namazı tamdır.

**Məsələ 506.** Peşəsi səfər etmək olan şəxs iş səfərindən geri qayıdarkən namazı tam qılmalıdır. Amma əgər o, işlədiyi yerdə bir neçə gün (on gündən az olaraq) işindən qeyri bir məqsədlə, məsələn, ziyarət və ya istirahət üçün qalarsa, ehtiyat-vacibə görə, geri qayıdarkən namazı həm qəsr, həm də tam qılmalıdır.

**Məsələ 507.** Əgər peşəsi səfər etmək olan şəxs axırıncı iş səfərinə getsə və ya yol əsnasında işi davam etdirməkdən daşınsa, bu halda əgər səfər etmək onun peşəsinin əsasında dayanırsa, məsələn, bu şəxs sürücüdürsə, axırıncı iş səfərindən qayıdarkən sərnişin aparmadığı təqdirdə, geri qayıdarkən onun səfəri iş səfəri hesab olunmur və namazı qəsrdir. O, istər öz maşını ilə qayıtsın, istərsə də başqa bir nəqliyyat vasitəsilə qayıtsın, hökm dəyişmir. Amma əgər səfər etmək onun peşəsinin müqəddiməsi olarsa, axırıncı iş səfərindən qayıdarkən, ehtiyat-vacibə görə, namazı həm qəsr, həm də tam qılmalıdır.

# Səkkizinci şərt: Tərəxxüs həddinə çatmaq[1]

**Məsələ 508.** Vətənindən yola düşən və şəri məsafəni qət etmək niyyətində olan müsafir müəyyən hüduda çatdıqda onun namazı qəsr olur. Həmçinin səfərdən qayıdarkən bu hüduda çatdıqda namazı tam qılmalıdır. Bu hüduda "tərəxxüs həddi" deyilir. Amma səfərdən qayıdarkən tərəxxüs-həddi ilə şəhərədək olan məsafədə namazı həm qəsr, həm də tam qılmaq ehtiyat-müstəhəbə müvafiqdir.

**Məsələ 509.** Tərəxxüs-həddini müəyyən etmək üçün meyar budur ki, şəhərin axırıncı evindən o hüdudda uzaqlaşırsan ki, şəhərdə səsucaldandan istifadə edilmədən adi səslə çəkilən azan səsini eşitmirsən. Bu yerdə istər şəhərin divarları görünsün, istərsə də görünməsin, rol oynamır.

**Məsələ 510.** Əgər müsafir şəxs şəhərdən xaric olduqdan sonra azan səsini eşitsə və onun azan olduğunu müəyyən etsə, amma azanın cümlələrini müəyyən edə bilməsə, bu yerdə namaz qılmaq istədiyi təqdirdə, ehtiyat-vacibə görə, namazı həm qəsr, həm də tam qılmalıdır. Amma azan səsini əsla eşitmədiyi yerədək şəhərdən uzaqlaşdıqda namazı qəsr qılacaqdır.

**Məsələ 511.** Tərəxxüs-həddini müəyyən etmək üçün qədim məscidlərdə azan deyilən minarələr kimi adi həddə uca bir məkanda və şəhərin axırında deyilən azanın səsini eşitmək meyar götürülür.

**Məsələ 512.** Azan səsinin ucalığı baxımından orta və normal səs meyar götürülür. Azan səsini eşitmək baxımından orta və normal eşitmək qabiliyyəti meyar götürülür. Hava şəraiti baxımından isə küləksiz, toz-torpaqsız, dumansız bir normal hava şəraiti meyar götürülür.

**Məsələ 513.** Əgər müsafir şəxs azanın səsi eşidilməyəcək həddə şəhərdən uzaqlaşsa, amma başqa uca səsləri, məsələn, dua və Quran qiraətinin səsini eşitsə, bu yerdə namaz qılmaq istədiyi təqdirdə, ehtiyata görə, namazı həm qəsr, həm də tam qılmalıdır. Yaxud da heç bir səs eşidilməyəcək həddə şəhərdən uzaqlaşmalıdır.

**Məsələ 514.** Əgər müsafir şəxs on gün qalmaq istədiyi bir yerə getsə, bu yerin tərəxxüs-həddinədək olan yolda onun namazı qəsrdir. Amma bu yerin tərəxxüs-həddindən bu yerədək olan məsafədə, ehtiyat-vacibə görə, o, namazı həm qəsr, həm də tam qılmalıdır.

**Məsələ 515.** Əgər bir şəxs şəri məsafə ölçüsündə yol getmək məqsədilə on gün qalmaq niyyətində olduğu yerdən xaric olsa, ehtiyat-vacibə görə, bu yerdən oranın tərəxxüs-həddinədək olan məsafədə namazı həm qəsr, həm də tam qılmalıdır. Yaxud da tərəxxüs-həddini keçib, namazı qəsr qılmalıdır.

**Məsələ 516.** Əgər müəyyən bir yerdə on gün qalacağına qərar verə bilməyən və otuz gün bu yerdə qərarsız olaraq qalan, otuz birinci gün isə namazı tam qılan bir şəxs şəri məsafə ölçüsündə yol getmək məqsədilə oradan xaric olsa, ehtiyat-vacibə görə, tərəxxüs-həddinə çatanadək namazı həm qəsr, həm də tam qılmalıdır. Yaxud da tərəxxüs-həddini keçib, namazı qəsr qılmalıdır.

**Məsələ 517.** (Üç hal[2] istisna olmaqla,) digər hallarda vəzifəsi namazı tam qılmaq olan, amma sonradan qəsrə çevrilən müsafir şəxsin namazı qəsr qılması üçün tərəxxüs-həddi meyar götürülmür. Misal olaraq, haram səfərə gedən, amma sonradan səfəri icazəli səfərə çevrilən şəxsi, yaxud da səkkiz fərsəx qət etməyi niyyət etmədən bu məsafəni qət edən və geri qayıtmaq istəyən şəxsi göstərmək olar.

**Məsələ 518.** Şəri məsafəni qət etmək məqsədilə öz vətənindən səfərə gedən şəxs əgər tərəxxüs-həddinə çatıb-çatmadığına şəkk etsə, o, tərəxxüs-həddinə çatmadığını qəbul etməli və namazı tam qılmalıdır. Səfərdən qayıdarkən tərəxxüs-həddinə çatıb-çatmadığına şəkk etdikdə isə namazı qəsr qılmalıdır. Əlbəttə, əgər həm səfərə gedərkən, həm də səfərdən qayıdarkən müəyyən bir yerdə tərəxxüs-həddini keçib-keçmədiyinə dair şəkk etsə və bu yerdə namaz qılmaq istəsə, namazı həm qəsr, həm də tam qılmalıdır. Əgər o, səfərə gedərkən namazı tam qılıbsa, namazı qəsr də qılmalıdır.

**Məsələ 519.** Öz vətənindən səfərə gedən şəxs əgər tərəxxüs-həddinə çatmadığı halda tərəxxüs-həddinə çatdığını düşünərək namazı qəsr qılsa, amma sonradan səhv etdiyini başa düşsə, namazı yenidən qılmalıdır. Əgər vətənə geri qayıdarkən belə bir hal baş versə və o, namazı tam qılsa, namazı yenidən qılmalıdır.

**Məsələ 520.** Öz vətənindən səfərə gedən şəxs əgər tərəxxüs-həddini keçdiyi halda tərəxxüs-həddinə çatmadığını düşünərək namazı tam qılsa, amma sonradan səhv etdiyini başa düşsə, namazı yenidən qılmalıdır. Əgər vətənə geri qayıdarkən belə bir hal baş versə və o, namazı qəsr qılsa, namazı yenidən qılmalıdır.

**Məsələ 521.** Əgər müsafir şəxs öz vətənindən xaric olduqdan və tərəxxüs-həddini keçdikdən sonra yenidən tərəxxüs-həddinə daxil olsa, tərəxxüs-həddi daxilində namazı tam qılmalıdır. Burada fərqi yoxdur ki, şəxs ixtiyari olaraq, yoxsa qeyri-ixtiyari olaraq

geri qayıtmışdır, yaxud da yol əyri olduğuna görə geri qayıtmalı olmuşdur.

**Məsələ 522.** Əvvəlki məsələni nəzərə alaraq, əgər o, yol əyri olduğuna görə yenidən tərəxxüs-həddinə daxil olubsa, qalan yolun şəri məsafə ölçüsündə olması lazım deyildir. Əksinə, şəri məsafə səfərin başlanğıcından etibarən hesablanır və tərəxxüs-həddinə daxil olub, geri qayıdılan yol da bura daxildir.

**Məsələ 523.** Əvvəlki məsələni nəzərə alaraq, əgər o, yol əyri olduğuna görə deyil, başqa bir işlə əlaqədar ixtiyari və ya qeyri-ixtiyari olaraq[3] tərəxxüs-həddinə geri qayıdarsa, məsələn, tərəxxüs-həddi daxilində unutduğu çamadanı götürmək üçün geri qayıdarsa və çamadanı götürdükdən sonra əvvəlki səfərini davam etdirərsə, bu halda da şəri məsafə səfərin başlanğıcından etibarən hesablanır, amma əlavə qət edilən məsafə, yəni çamadanı götürmək üçün müəyyən məkandan tərəxxüs-həddi daxilinə geri qayıtdığı və yenidən bu məkanadək qət etdiyi məsafə şəri məsafəyə daxil edilməyəcəkdir.

**Məsələ 524.** Əgər bir şəxs şəri məsafəni qət etmək niyyətilə vətənin tərəxxüs-həddindən xaric olsa və namazını qəsr qılsa, amma yenidən tərəxxüs-həddinə daxil olsa və sonra səfərini davam etdirsə, qıldığı namaz kifayət edir və onu yenidən qılmaq lazım deyildir.

**Məsələ 525.** Əgər bir şəxs on gün qalmaq niyyətində olduğu yerdən şəri məsafə ölçüsündə yol qət etmək məqsədilə xaric olsa və tərəxxüs-həddini keçdikdən sonra müəyyən bir səbəbə görə yenidən tərəxxüs-həddinə geri qayıtsa və ya hətta qaldığı yerə daxil olsa, orada on gün qalmaq niyyətində olmadığı təqdirdə, namazı qəsrdir.

**Məsələ 526.** Əgər bir şəxs şəhərin ətrafına ən azı səkkiz fərsəx məsafə ölçüsündə dövrə vurmaq istəsə, tərəxxüs-həddi daxilində hərəkət etdiyi təqdirdə, onun namazı tamdır. Amma əgər tərəxxüs-həddi xaricində hərəkət etsə, onun namazı qəsrdir. Baxmayaraq ki, yol əyri olduğuna görə o, bəzən tərəxxüs-həddinə daxil olur və tərəxxüs-həddi xaricində qət etdiyi yol səkkiz fərsəxdən az olur. Əlbəttə, əgər tərəxxüs-həddi daxilində namaz qılmaq istəsə, namazı tam qılmalıdır.

**Məsələ 527.** Əvvəlki məsələni nəzərə alaraq, əgər tərəxxüs-həddinə yol əyri olduğuna görə deyil, ixtiyari şəkildə daxil olarsa, tərəxxüs-həddinə geri qayıdıb, yenidən xaric olanadək qət etdiyi məsafə istisna olmaqla, qalan yol səkkiz fərsəx olmadığı təqdirdə, namazı tam qılmalıdır. Amma əgər şəri məsafə ölçüsündə olarsa, namazı qəsrdir. Əlbəttə, əgər tərəxxüs-həddi daxilində namaz qılmaq istəsə, namazı tam qılmalıdır.

---

[1] Aparılan araşdırmalara əsasən, tərəxxüs-həddi şəhərin axırıncı nöqtəsindən 1350 metr uzaqlıqda yerləşir.

[2] Yəni müsafirin vətəni, on gün qalmağı qərara aldığı yer və qərarsız olaraq otuz gündən çox qaldığı yer.

[3] Məsələn, müəyyən bir məntəqəyə tərəf hərəkət edən gəmi tərəxxüs-həddini keçir, amma güclü külək səbəbilə yenidən tərəxxüs-həddinə qayıdır.

## Səfəri kəsən səbəblər

**Məsələ 528.** **Aşağıdakı səbəblərdən biri baş verdikdə səfər başa çatır və namazı tam qılmaq lazımdır:**

**1- Vətəndən keçmək;**

**2- Müəyyən bir yerdə on gün qalmağı qərara almaq və ya bilmək;**

**3- Müəyyən bir yerdə tərəddüdlə otuz gün qalmaq.**

## 1- Vətəndən keçmək

**Məsələ 529.** **Şəri məsafəni qət etmək istəyən bir şəxs əgər yol əsnasında öz vətəninə daxil olsa, onun səfəri kəsilir. O, öz vətənində namazı tam qılmalıdır. Səfərin davamına gəlincə isə, əgər gedilən yerədək yolun qalan hissəsi ən azı səkkiz fərsəx (istər yalnız gediş istiqamətində, istərsə də gediş-qayıdış birlikdə) olsa, onun namazı qəsrdir. Amma əgər səkkiz fərsəx olmasa, səfərin davamında namazı tam qılmalıdır.**

**Məsələ 530.** **Vətəndən keçib getmək (yəni orada dayanmadan yalnız keçib getmək) səfərin kəsilməsi üçün kifayət edir.**

**Məsələ 531.** **Vətən – ürfə görə, insanın məskunlaşdığı və yaşadığı yerə deyilir. Bu yer həm şəhər, həm kənd, həm də müəyyən bir məkan ola bilər.**

**Məsələ 532.** **Vətən iki qismə ayrılır: əsl vətən və seçilən vətən.**

## Əsl vətən

**Məsələ 533.** Əsl vətən o yerdir ki, insan öz ömrünün ilkin dövrünün böyük hissəsini (uşaqlıq və yeniyetməlik illərini) orada yaşayıb boya-başa çatmışdır.

**Məsələ 534.** Əsl vətənin gerçəkləşməsi üçün insanın orada dünyaya gəlməsi və ya o yerin onun valideynlərinin vətəni olması şərt deyildir. Həmçinin insanın daim və ya uzun müddət orada yaşamaq niyyətində olması şərt deyildir. Hətta əgər o, gələcəkdə bu yerdən köçüb getmək niyyətində olsa, oradan köçməyənədək bu yer onun əsl vətəni sayılır.

**Məsələ 535.** Əsl vətənin gerçəkləşməsi üçün nə qədər müddətin tələb olunduğu ürfə (yəni camaatın nəzərinə) bağlıdır. Məsələn, əgər bir şəxs ömrünün ilkin dövrünün on ilini müəyyən bir yerdə qalıbsa, ürfə görə, bu yer onun vətəni sayılır. Əgər bu yerdə yalnız bir-iki il qalıbsa, ürfə görə, bu yer onun vətəni sayılmır.

## Seçilən vətən

**Məsələ 536.** **Seçilən vətən ürfə görə o yerdir ki, insan oranı vətən və yaşayış yeri olaraq seçir, halbuki o yer əvvəllər onun vətəni olmayıbdır. Bu şəxs istər öz əsl vətənini vətənlikdən çıxarsın, istərsə də çıxarmasın, bunun fərqi yoxdur.**

**Məsələ 537.** **Seçilən vətənin gerçəkləşməsi üçün fərq etmir ki, insan orada daimi olaraq yaşamaq niyyətində olsun, yaxud müddət təyin etmədən yaşamaq niyyətində olsun, yaxud da uzun müddət yaşamaq niyyətində olsun.**

**Məsələ 538.** **Əgər bir şəxs müəyyən bir yerdə təxminən on il yaşamaq niyyətində olsa, ürfə görə bu yerin bu şəxs üçün seçilən vətən sayılması baxımından kifayət etməsi uzaq ehtimal deyildir.**

**Məsələ 539.** **Bir yerin ürfə görə "seçilən vətən" sayılması üçün təkcə niyyət kifayət etmir, əksinə, yaşayış üçün lazım olan bəzi işlər də görülməlidir. Məsələn, bir şəxs vətən olaraq seçdiyi yerdə bir müddət (bir-iki ay) qalır, yaxud müəyyən işləri görür ki, insan bir yeri yaşayış üçün seçdikdə adətən bu işləri görür.**

**Məsələ 540.** **Əgər bir şəxs yaşayış niyyətilə müəyyən bir yerə köçüb ev icarəyə götürsə və ya alsa, yaxud orada iş tapıb işləsə, bu yer elə həmin vaxtdan etibarən onun vətəni sayılır və orada namazı tam qılmalıdır. Oranın vətən sayılması üçün bir-iki ayın keçməsi lazım deyildir.**

**Məsələ 541.** **Əgər bir şəxs müəyyən bir yeri yaşayış üçün seçdikdən sonra, amma yaşayış üçün lazım olan işləri (məsələn, əvvəlki iki məsələdə qeyd edilən işləri) görməmişdən qabaq orada qalıb yaşamaqda tərəddüd etsə, bu yer onun vətəni sayılmır. Əgər orada on gün qalmaq niyyətində deyildirsə, namazı qəsr qılmalıdır.**

**Məsələ 542.** **Əgər bir şəxs başqa bir şəhərdə, məsələn, Məşhəd şəhərində və ya yaylaq məntəqəsində bir ev alsa və davamlı olaraq, məsələn, hər həftə ziyarət və ya istirahət üçün ora getmək istəsə, bu şəhər ürfə görə onun yaşayış yeri hesab ediləcək müddətdə orada qalmadığı təqdirdə, onun namazı qəsrdir və orucu düzgün deyildir.**

**Məsələ 543.** **Bir şəxsin bir-iki il yaşamaq üçün seçdiyi yer ürfə görə vətən sayılmır, amma bu şəxs burada müsafir də sayılmır. Odur ki, on gün qalmağı niyyət etmədən belə, onun namazı tamdır.**

## Eyni vaxtda bir neçə vətənin olması

**Məsələ 544.** **İnsanın eyni vaxtda iki və ya üç vətəni ola bilər və bunun maneəsi yoxdur. Belə ki, bu yerlərin hər birində onun evi və yaşayışı vardır və il ərzində bir neçə ay bu yerlərdə yaşayır. Amma eyni vaxtda üç vətəndən artıq vətənin olması iradlıdır.**

**Məsələ 545.** **Əgər bir şəxs daimi olaraq və ya uzun illər boyunca müəyyən bir yerdə ilin üç-dörd ayını (məsələn, yay aylarında və ya tətil günlərində) yaşamaq niyyətində olsa, belə ki, yaşayış üçün orada şərait yaratsa, məsələn, ev alsa və ya icarəyə götürsə və bu kimi işlər görsə, bu yer ürfə görə onun ikinci vətəni sayılır. Amma əgər sırf yay aylarında istirahət üçün və yaşayış niyyəti olmadan və yaşayış üçün şərait yaratmadan ora getsə, bu yerin vətən sayılması uzaq ehtimaldır.**

**Məsələ 546.** **Əgər bir şəxs bir neçə yerdə yaşayırsa, bu yerlərin onun vətəni sayılması üçün onların hər birində eyni müddət qalması şərt deyildir. Beləliklə, əgər bir şəxs iki yerdə yaşayırsa və onların birində beş ay və digərində yeddi ay qalırsa, yaxud əgər bir şəxs üç yerdə yaşayırsa və onların birində dörd ay, digərində beş ay və üçüncüsündə üç ay qalırsa, bu yerlərin hamısı onun vətəni sayılır.**

## Vətən baxımından tabelik

**Məsələ 547.** Vətən baxımından tabelik də ürf əsasında müəyyən edilir. Yəni ata-anası, yaxud onlardan biri ilə birlikdə yaşayan övlad ürfə görə onlara tabedir və valideynin vətəni övladın da vətəni sayılır.

**Məsələ 548.** Vətən baxımından tabelik əsl vətənə deyil, seçilən vətənə aiddir. Beləliklə, əgər bir şəxs ömrünün ilkin dövrünü müəyyən bir yerdə yaşayıb boya-başa çatıbsa və uşaqlıq və yeniyetməlik illərini orada keçiribsə, bu yer onun əsl vətəni olur. Bu yer istər onun valideyninin vətəni olsun, istərsə də onların vətəni olmasın, fərq etmir.

**Məsələ 549.** Əgər övlad ata və ananın vətənində (istər onların əsl vətəni olsun, istərsə də seçilən vətəni olsun) onun əsl vətəni sayılacaq müddətdə yaşamasa, məsələn, doğumdan sonra müəyyən səbəbə görə ata-anasından uzaq başqa bir yerdə yaşasa və orada böyüsə və məsələn, on ildən sonra ata-anasının yanına qayıtsa, bu halda valideynin vətəni onun əsl vətəni sayılmayacaqdır. Amma o, valideynlərinin yanına qayıtdıqdan sonra – onlarla birlikdə yaşadığına görə – bu yer onun seçilən vətəni olacaqdır.

**Məsələ 550.** Vətən baxımından tabelik yalnız övlada aid deyildir və ürfə görə başqasına tabe olan hər bir şəxsə (məsələn, daim insanın yanında olub xidmət göstərmək üçün tutulan xidmətçiyə, yaxud müəyyən bir yerdə yaşayacağını şərt qoymayan və daim əri ilə birlikdə yaşayan qadına) şamil olur.

**Məsələ 551.** “Tabe olan şəxs”in “yaşayış niyyəti” etməsi (yəni “tabe olduğu şəxs”in seçdiyi vətəni özünə vətən olaraq seçməsi) vacib deyildir, əksinə, tabe olduğu şəxs ilə birlikdə olması bu yerin onun da vətəni olması üçün kifayət edir. Amma əgər tabe olan şəxs bu yeri özünə vətən olaraq seçməzsə, yaxud vətən seçdikdən sonra oranı vətənlikdən çıxararsa, bu yer onun vətəni olmayacaqdır.

**Məsələ 552.** Əgər həddi-büluğa çatan övlad, məsələn, on bir-on iki yaşında olan qız övladı və ya on altı-on yeddi yaşında olan oğlan övladı vətən və yaşayış yeri seçməyin fərqinə varmadan ata-ana ilə birlikdə onların vətən olaraq seçdiyi şəhərə getsə, bu şəhər onun da vətəni olacaqdır.

**Məsələ 553.** Əgər övlad ata-ana ilə birlikdə onların vətən olaraq seçdiyi şəhərə getsə, amma o, bu şəhəri özünə vətən seçmək niyyətində olmasa, bu şəhər onun vətəni olmayacaq, baxmayaraq ki, valideynin çörəkyeyəni sayılır.

**Məsələ 554.** Əgər valideynə tabe olaraq müəyyən bir yeri vətən olaraq seçən övlad bir müddətdən sonra (məsələn, bir-iki ay sonra) fikrindən daşınsa, bu yerdən xaric olmayanadək “vətəni vətənlikdən çıxarmaq” məsələsi gerçəkləşmir və orada onun namazı tamdır.

## Vətəni vətənlikdən çıxarmaq

**Məsələ 555. Vətəni vətənlikdən çıxarmaq da ürf əsasında müəyyən edilir. Vətəni vətənlikdən çıxarmaq o deməkdir ki, insan yaşayış üçün bir daha vətəninə qayıtmamağı qərara alaraq vətəni tərk edir.**

**Məsələ 556. Vətənini (əsl vətəni və ya seçilən vətəni) vətənlikdən çıxaran bir şəxs ora getdiyi zaman orada namazı qəsrdir, istər bu şəxsin orada mülkü olsun, istərsə də olmasın. Həmçinin oradan keçib getmək də, onun səfərini kəsmir. Amma əgər orada on gün qalmaq niyyətində olsa, namaz tamdır və səfəri də kəsilir.**

**Məsələ 557. Vətəni vətənlikdən çıxarmaqda niyyət şərtdir. Deməli, əgər bir şəxs vətənini vətənlikdən çıxarmaq niyyəti olmadan bir müddət, məsələn, dörd-beş il öz vətənindən çıxsa, bu yer onun vətəni olaraq qalır. Əlbəttə, əgər bir şəxs çox uzun müddət, məsələn, qırx-əlli il öz vətənindən çıxsa və bu müddət ərzində ora qayıtmaq onun zehnindən keçməsə, bu halda uzaq ehtimal deyildir ki, uzun müddət vətəndən çıxmaq oranı vətənlikdən çıxarmaq hökmündə olsun və orada on gün qalmaq niyyətində olmadığı təqdirdə bu şəxsin namazı qəsr olsun.**

**Məsələ 558. Əgər bir şəxs öz vətənindən çıxsa və ora qayıtmamaq niyyətində olmasa[1], amma yaşayış üçün ora qayıtmayacağını bilsə və ya buna əmin olsa, uzaq ehtimal deyildir ki, bunu bilmək və ya buna əmin olmaq vətəni vətənlikdən çıxarmaq hökmündə olsun. Odur ki, bu şəxsin namazı orada qəsrdir.**

**Məsələ 559. Vətən baxımından ərinə tabe olaraq öz əsl vətənindən qeyri bir yerdə yaşayan və öz vətənini vətənlikdən çıxarmayan bir qadın əgər ömrünün axırınadək vətəninə qayıtmayacağını bilmirsə və ya buna əmin deyildirsə, əksinə, hansısa səbəblərə görə, məsələn, boşanma və ya ərin ölməsi səbəbilə ora qayıdacağını ehtimal edirsə, bu yerdə onun namazı tamdır. Amma əgər ərindən boşansa və ya əri dünyasını dəyişsə belə, vətəninə qayıtmamağı qərara alsa və ya bunu bilsə, bu halda vətəni vətənlikdən çıxarmışdır və ora daha onun vətəni sayılmır.**

---

[1] Vətənindən çıxan şəxs üçün üç hal mövcuddur:
1- O, vətəninə qayıtmaq niyyətindədir və ya vətəninə qayıdacağını bilir: Bu halda bu yer onun vətəni olaraq qalır.
2- O, vətəninə qayıtmamaq niyyətindədir və ya vətəninə qayıtmayacağını bilir: Bu halda o, bu yeri vətənlikdən çıxarmışdır.
3- O, vətəninə qayıdıb-qayıtmayacağına dair bir qərar almamışdır və bu barədə heç nə bilmir. Bu halda bu yer onun vətəni olaraq qalır. Amma əgər vətəndən çıxmasından çox uzun müddət, məsələn, qırx-əlli il keçsə və bu müddət ərzində ora qayıtmaq onun zehnindən keçməsə, bu halda bu yeri vətənlikdən çıxarmış hesab olunur.

## 2- Müəyyən bir yerdə on gün qalmağı qərara almaq və ya bilmək

**Məsələ 560.** Əgər səfərə çıxan şəxs müəyyən bir yerdə on gün qalmağı qərara alsa, orada namazı tam qılmalıdır. Amma əgər orada on gün qalmağı qərara almayıbsa və ya qalıb-qalmayacağına dair qərar verə bilmədən tərəddüdlə on gün qalsa, namazı qəsr qılmalıdır.

**Məsələ 561.** Əgər bir şəxs müəyyən bir yerdə on gün qalmağı qərara almasa, amma orada on gün qalacağına yəqinliyi və ya əminliyi olsa, namazı tam qılmalıdır. Amma əgər orada on gün qalacağını güman etsə, namazı qəsr qılmalıdır.

**Məsələ 562.** Əgər bir şəxs müəyyən bir yerdə on gün qalmağı qərara alıbsa, on gün ardıcıl olaraq orada qalmalı və bu on gün əsnasında namazın qəsr qılınmasına səbəb olan bir səfərə getmək niyyətində olmamalıdır. Beləliklə, əgər bir şəxs müəyyən bir yerdə beş gün qaldıqdan sonra on fərsəxlik bir yerə gedib-qayıtmağı və sonra daha beş gün orada qalmağı qərara alsa, bu halda “müəyyən bir yerdə on gün qalmaq niyyəti” gerçəkləşməmişdir və bu şəxs orada elə ilk gündən namazı qəsr qılmalıdır.

**Məsələ 563.** Əgər bir şəxs müəyyən bir yerdə on gün qalmağı qərara aldığı zaman bu on gün əsnasında qaldığı yerdən xaric olmağı və dörd fərsəxdən az olan bir məsafədə başqa bir yerə getməyi də nəzərdə tutsa[1], bu halda ürfə görə müəyyən bir yerdə on gün qalmağa zidd olmayan miqdarda, məsələn, on gün ərzində iki-üç dəfə və hər dəfə ən çoxu yarım gün oradan xaric olmağı nəzərdə tutduğu təqdirdə, onun müəyyən bir yerdə on gün qalmaq niyyətinə xələl gəlmir və namazı tam qılmalıdır.

**Məsələ 564.** Müəyyən bir yerdə on gün qalmaq niyyətində “gün”ün ürfi mənası nəzərdə tutulur, yəni Günəş doğandan qürub edənədək olan zaman (gündüz) nəzərdə tutulur. Odur ki, əgər bir şəxs Günəş doğan zaman müəyyən bir yerə daxil olsa və onuncu günün qürub vaxtınadək orada qalmağı qərara alsa, onun namazı tamdır və gecəni orada qalması vacib deyildir.

**Məsələ 565.** Müəyyən bir yerdə on gün qalmaq niyyətində ortadakı gecələr də on gün hökmündədir. Deməli, müəyyən bir yerdə on gün qalmağı qərara alan şəxs gecələr şəri məsafə ölçüsündə oradan xaric ola bilməz.

**Məsələ 566.** Əgər bir şəxs müəyyən bir yerdə on gündən bir qədər az olaraq (hətta bir saat az olaraq) qalmaq istəsə, “müəyyən bir yerdə on gün qalmaq niyyəti”nin gerçəkləşməsi üçün kifayət etmir və namazı qəsr qılmalıdır.

**Məsələ 567.** Əgər bir şəxs müəyyən bir yerdə on gün qalmağı qərara alıbsa, on gün başa çatdıqdan sonra orada qaldığı müddətdə namazı tam qılmalıdır və yenidən qalmaq niyyəti etməsi lazım deyildir.

**Məsələ 568.** Əgər bir şəxs on gün qalmaq istədiyi yerə Günəş doğandan sonra daxil olsa, Günəşin doğmasından nə qədər vaxt keçibdirsə, on birinci gün Günəşin doğmasından o qədər vaxt keçənədək orada qalmalıdır ki, on gün tamamlansın. Beləliklə, əgər birinci gün Günəşin doğmasından üç saat keçdikdən sonra ora daxil olsa və on birinci gün Günəşin doğmasından üç saat keçənədək orada qalmağı qərara alsa, onun namazı tamdır.

**Məsələ 569.** On gün qalmaq istədiyiniz yer ürfə görə “bir yer” hesab olunmalıdır. Deməli, bir-birinə birləşən iki yer (məsələn, iki şəhər və ya kənd) ürfə görə “bir yer” hesab olunmadığı təqdirdə, onların bir-birinə birləşməsi kifayət etmir.

**Məsələ 570.** Əgər on gün qalmağı qərara aldığınız şəhər böyük şəhərlərdən olub, bir-birinə birləşən məntəqələrə malik olarsa, məntəqələrarası gediş-gəliş “müəyyən bir yerdə qalmaq” məsələsinə xələl gətirmir.

**Məsələ 571.** Qaldığınız yerin “bir yer” olduğuna şəkk etdiyiniz təqdirdə, namaz qəsrdir.

**Məsələ 572.** Əgər müəyyən bir yerdə on gün qalmaq qərarı sual altında olan bir məsələdən asılı olarsa, müəyyən bir yerdə on gün qalmaq qərarı gerçəkləşmir və namaz qəsrdir. Məsələn, bir şəxs dostu gələcəyi təqdirdə müəyyən bir yerdə on gün qalmağı nəzərdə tutur, halbuki dostunun gəlib-gəlməyəcəyini dəqiq bilmir, yaxud onun gələcəyini güman edir.

**Məsələ 573.** Əgər bir şəxs müəyyən bir yerdə on gün qalmağı qərara alsa, amma hansısa bir maneənin qarşıya çıxacağını və orada on gün qala bilməyəcəyini ehtimal etsə, bu ehtimal zəif olduğu və məntiqi əsası olmadığı təqdirdə, bu şəxsin orada on gün qalmaq qərarı gerçəkləşir və namazı tamdır. Amma əgər ehtimal zəif olmasa və məntiqi əsası olsa, orada on gün qalmaq qərarı gerçəkləşmir və namaz qəsrdir.

**Məsələ 574.** Əgər bir şəxs müəyyən günədək (məsələn, ayın axırınadək) müəyyən bir yerdə qalmağı qərara alsa və həmin günədək müddət, əslində, on gün olsa, bu şəxs həmin günədək müddətin on gün olduğunu bilməsə belə, müəyyən bir yerdə on gün qalmaq qərarı gerçəkləşir və onun namazı tamdır. Baxmayaraq ki, namazı həm qəsr, həm də tam qılmaq ehtiyat-müstəhəbə müvafiqdir.

**Məsələ 575.** Əgər bir şəxs müəyyən günədək, məsələn, bazar ertəsinədək müəyyən bir yerdə qalmağı qərara alsa və həmin günədək müddətin on gün olduğunu düşünüb (halbuki on gündən azdır) orada on gün qalmağı qərara alsa, onun namazı qəsrdir. Deməli, əgər namaz vaxtı bu məsələni başa düşsə, namazı yenidən qəsr olaraq qılmalıdır. Əgər namaz vaxtı başa çatdıqdan sonra başa düşsə, ehtiyat-vacibə görə, namazın qəzasını qəsr olaraq qılmalıdır.

**Məsələ 576.** Əgər müəyyən bir yerdə on gün qalmağı qərara alan şəxs filan günədək müddətin on gün olduğunu düşünsə (əslində, on gündən azdır), halbuki həmin günədək müddətin on gün olmadığını bilsəydi, on gün tamamlananadək mütləq, orada qalardı, bu halda onun namazı tamdır.

**Məsələ 577.** Müəyyən bir yerdə on gün qalmaq qərarının gerçəkləşməsi namaz qılmaqdan asılı deyildir. Beləliklə, əgər heyzli və ya nifaslı qadın müəyyən bir yerdə on gün qalmağı qərara alsa, bu, düzgündür. Namaz qılmadığı günlər də, bu on günə daxildir.

**Məsələ 578.** Əgər müsafir şəxs namazı qəsr qıldığı zaman orada on gün qalmağı qərara alsa, namazı dörd rəkət olaraq tamamlamalıdır.

---

[1] Yəni müəyyən bir yerdə on gün qalmağı qərara alarkən, eyni zamanda oradan xaric olub, şəri məsafədən az olan bir məsafəni qət etməyi nəzərdə tutub.

## Müəyyən bir yerdə on gün qalmaq niyyətindən dönmək

**Məsələ 579.** Müəyyən bir yerdə on gün qalmağı qərara alan şəxs əgər bir gündəlik dördrəkətli namazı əda olaraq qılmamışdan qabaq qərarından dönsə, yaxud on gün qalıb-qalmayacağına tərəddüd etsə, namazı qəsrdir.

**Məsələ 580.** Müəyyən bir yerdə on gün qalmağı qərara alan şəxs bir gündəlik dördrəkətli namazı əda olaraq qıldıqdan sonra, hətta qərarından dönsə və orada on gün qalmaq istəməsə belə, orada olduğu müddətdə namazı tam qılmalıdır. Amma əgər təkcə sübh və ya məğrib namazını qılıbsa və sonra qərarından dönübsə, namazı qəsrdir.

**Məsələ 581.** Əgər müsafir şəxs birinci dördrəkətli namazı qılarkən orada on gün qalmaq qərarından dönsə və on gündən az qalmaq istəsə, onun namazı qəsr namazına çevrilir. Beləliklə, əgər o, üçüncü rəkətə çatmamışdan qabaq qərarından dönsə, namazı qəsr olaraq tamamlamalıdır. Əgər üçüncü rəkətdə rükuya getməmişdən qabaq qərarından dönsə, ehtiyat-vacibə görə, əyləşməli və namazı qəsr olaraq tamamlamalı, sonra namazı qəsr olaraq yenidən qılmalıdır. Amma əgər üçüncü rəkətin rükusuna getdikdən sonra qərarından dönsə, namaz düzgün deyildir.

**Məsələ 582.** Müəyyən bir yerdə on gün qalmağı qərara alan şəxs əgər oruc tutsa və dördrəkətli namaz qılmamışdan qabaq qərarından dönsə, şəri zöhr vaxtı daxil olduqdan sonra qərarından döndüyü təqdirdə, onun orucu düzgündür. Şəri zöhr vaxtı daxil olmamışdan qabaq qərarından döndüyü təqdirdə isə orucu düzgün deyildir.

**Məsələ 583.** Əgər bir şəxs müəyyən bir yerdə on gün qalmağı qərara aldıqdan sonra dördrəkətli namazı qəzaya getsə və başqa bir dördrəkətli namazı əda olaraq qılmamışdan qabaq on gün qalmaq qərarından dönsə, sonrakı namazları qəsr qılmalıdır. Amma qəzaya gedən namazı, hətta səfərdə onun qəzasını qılsa belə, tam qılmalıdır.

**Məsələ 584.** Əvvəlki məsələni nəzərə alaraq, əgər namazın qəzasını həmin səfərdə tam qılsa və bundan sonra on gün qalmaq qərarından dönsə, bu dörd rəkət olaraq qılınan qəza namazı sonrakı namazları qəsr qılmaq üçün kifayət etmir və namaz qəsr qılınmalıdır.

**Məsələ 585.** Əgər bir şəxs bir dördrəkətli namazı qıldıqdan sonra on gün qalmaq qərarından dönsə, amma qərarından döndükdən sonra namazın düzgün olmadığı məlum olsa, namazı qəsr qılmalıdır.

**Məsələ 586.** Əgər bir şəxs dördrəkətli namazın vaxtı başa çatdıqdan sonra on gün qalmaq qərarından dönsə və namazı namaz vaxtı başa çatdıqdan sonra qılıb-qılmadığına şəkk etsə, o, namazı tam qıldığını qəbul etməli və sonrakı namazları da tam qılmalıdır.

**Məsələ 587.** Əgər bir şəxs on gün qalmaq qərarından döndükdən sonra qərarından dönməmişdən qabaq bir dördrəkətli namaz qılıb-qılmadığına şəkk etsə, namazı qəsrdir.

## On gün qaldığı yerdən müsafirin xaric olması

**Məsələ 588.** **Əgər bir yerdə on gün qalmaq niyyəti gerçəkləşdikdən sonra şəxs qaldığı yerdən dörd fərsəxdən az olaraq (hətta bir gün və ya daha artıq müddət) xaric olmaq istəsə, bunun iradı yoxdur və müəyyən bir yerdə on gün qalmaq niyyətinə xələl gəlmir.**

**Məsələ 589.** **Əgər bir yerdə on gün qalmaq niyyəti gerçəkləşdikdən sonra şəxs (istər ilk on gün əsnasında, istərsə də sonrakı günlərdə) dörd fərsəxdən az olaraq getməyi və yenidən qaldığı yerə qayıtmağı qərara alsa, gediş-qayıdış yolunda, getdiyi yerdə və qaldığı yerdə onun namazı tamdır.**

## 3- Müəyyən bir yerdə tərəddüdlə otuz gün qalmaq

**Məsələ 590.** Əgər bir şəxs səkkiz fərsəx məsafəni qət etdikdən sonra on gün qalacağına qərar verə bilmədən müəyyən bir yerdə tərəddüdlə otuz gün qalsa, otuzuncu gündən sonra orada qaldığı müddətdə (hətta yarım gün qalsa belə,) namazı tam qılmalıdır.

**Məsələ 591.** Müəyyən bir yerdə on gündən az qalmağı qərara alan müsafir şəxs əgər bu müddət başa çatdıqdan sonra getmək fikrindən daşınsa və yenidən on gündən az, məsələn, bir həftə orada qalmağı qərara alsa və bu minvalla orada qaldığı müddət bir ayadək uzansa, bu halda əvvəlki məsələdə olduğu kimi, otuz birinci gündən etibarən namazını tam qılmalıdır.

**Məsələ 592.** Müəyyən bir yerdə otuz gündən az, məsələn, iyirmi səkkiz gün qalıb-qalmamaqda tərəddüd edərək qalan şəxs əgər başqa bir yerə getsə və orada da otuz gündən az tərəddüd edərək qalsa, daha sonra üçüncü bir yerə gedib yenə də bu şəkildə qalsa, hər üç yerdə onun namazı qəsrdir.

**Məsələ 593.** Otuz gün bu qaydada hesablanır: Əgər bir şəxs Günəş doğan zaman müəyyən bir yerə daxil olubsa, otuzuncu gün Günəş qürub etdikdən sonra namazı tam qılmalıdır. Yəni otuzuncu günün işa namazını və sonrakı dördrəkətli namazları tam qılmalıdır. Amma əgər Günəş doğandan sonra müəyyən bir yerə daxil olubsa, ora hansı vaxt daxil olubsa, otuz birinci gün həmin vaxt otuz günü tamamlanacaqdır. Beləliklə, əgər Günəş doğandan bir saat sonra ora daxil olubsa, otuz birinci gün Günəş doğandan bir saat sonra otuz günü tamamlanır və bundan sonra dördrəkətli namazları tam qılmalıdır.

**Məsələ 594.** Əgər sözügedən yerə qəməri ayının 1-i daxil olsa və ay iyirmi doqquz gün olsa,iyirmi doqquz gün namaz qəsr qılınmalıdır. Otuzuncu gün (yəni sonrakı ayın 1-i) ehtiyat-vacibə görə, namaz həm qəsr, həm də tam qılınmalı, otuz birinci gün isə namaz tam qılınmalıdır.

**Məsələ 595.** Müsafir şəxsin on gün qalıb-qalmayacağına qərar verə bilmədiyi və tərəddüdlə qaldığı yer ürfə görə “bir yer” olmalıdır. Beləliklə, əgər müsafir şəxs sözügedən otuz günün bir qismini bir yerdə, məsələn, Tehranda və bir qismini başqa bir yerdə, məsələn, Kərəcdə qalsa, bu, “otuz gün bir yerdə tərəddüdlə qalmaq” hökmündə deyildir və namaz qəsrdir.

**Məsələ 596.** Əgər müsafir şəxs tərəddüdlə qaldığı bu otuz gün əsnasında dörd fərsəxdən az bir məsafədə yerləşən yerə getsə, belə ki, əgər qaldığı yerdən onun xaric olması ürfə görə “otuz gün bir yerdə qalmağ”a zidd olmayacaq miqdarda olsa və otuz gün bir yerdə qalmağa xələl gətirməsə, otuz gün keçdikdən sonra onun namazı tamdır. Məsələn, günün hamısını deyil, bir hissəsini oradan xaric olur və bu hal çox təkrarlanmır, yəni otuz gün ərzində dörd-beş dəfə oradan xaric olur və hər dəfə üç-dörd saatdan sonra geri qayıdır.

**Məsələ 597.** Müəyyən bir yerdə on gün qalıb-qalmayacağına dair qərar verə bilmədən otuz gün tərəddüdlə qalan şəxs otuz birinci gündən etibarən bu yerdə on gün qalmağı qərara alan şəxs kimi olur. Odur ki, otuz gün başa çatdıqda namazı tam qılmalıdır. Əgər o, şəri məsafədən az olan bir məsafədə yerləşən yerə getmək istəsə, müəyyən bir yerdə on gün qalmağı qərara alan müsafirin hökmləri ona da şamil olur. Məsələn, əgər o, dörd fərsəxdən az olan bir məsafədə yerləşən yerə getsə və yenidən otuz gün qaldığı yerə qayıdıb on gün qalmağı niyyət etmədən orada qalsa, gediş və qayıdış yolunda, getdiyi yerdə və qayıdıb qaldığı yerdə onun namazı tamdır.

**Məsələ 598.** Otuz gün keçdikdən sonra namazı tam qılmalı olan müsafir şəxs əgər şəri məsafə ölçüsündə yol qət etmək niyyətilə oradan çıxsa, ehtiyat-vacibə görə, otuz gün qaldığı yer ilə oranın tərəxxüs-həddi arasındakı məsafədə namazı həm qəsr, həm də tam qılmalıdır. Yaxud tərəxxüs-həddini keçdikdən sonra namazı qəsr qılmalıdır.

## Səfərdə nafilələrin hökmü

**Məsələ 599.** **Namazın qəsr qılındığı səfərdə zöhr və əsr namazlarının nafilələrini qılmağa (hətta qəsdi-rəca, yəni savab ümidi niyyətilə) qılmağa icazə verilmir.**

**Məsələ 600.** **Səfərdə işa namazının nafiləsini (vuteyrə namazı) qəsdi-rəca və savab ümidilə qılmağın maneəsi yoxdur.**

**Məsələ 601.** **Müəyyən bir yerdə on gün qalmağı qərara alan müsafir şəxs zöhr və əsr namazlarının nafiləsini qıla bilər və müstəhəbdir. Həmçinin müstəhəb oruc da tuta bilər.**

**Məsələ 602.** **"Təxyir məkanları"nda, yəni namazı həm qəsr, həm də tam qılmaqda insanın seçim edə bildiyi yerlərdə əgər bir şəxs namazı tam qılsa, gündəlik namazların nafiləsini də qıla bilər.**

**Məsələ 603.** **Müsafir şəxs gecə namazını, sübh və məğrib namazlarının nafiləsini qıla bilər.**

**Məsələ 604.** **Gündəlik namazların nafiləsi istisna olmaqla, müsafir şəxs digər müstəhəb namazları, məsələn, Cəfər Təyyar namazını (çox əhəmiyyətli və savablı bir namazdır), İmam Zaman (ə.f) namazını və ya xüsusi günlərdə qılınan namazları, məsələn, cümə namazını qıla bilər.**

## Namazı qəsr qılmaq vacib olduğu halda tam qılmaq

**Məsələ 605.** **Əgər müsafir şəxs müəyyən şərtlər mövcud olduğu təqdirdə səfərdə namazın qəsr olduğunu, həmçinin onun səfərinin bu şərtlərə malik olduğunu bilsə, amma namazı tam qılsa, onun namazı düzgün deyildir. İstər namaz vaxtı başa çatmamış olsun, istərsə də başa çatmış olsun, o, namazı yenidən qəsr olaraq qılmalıdır.**

**Məsələ 606.** **Əgər müsafir şəxs səfərdə namazın qəsr olduğunu bilmirsə və vəzifəsinə zidd olaraq namazı tam qılsa, qasir-cahil[1] olduğu təqdirdə, hökmü bildikdən sonra namazı yenidən qılması və ya onun qəzasını qılması lazım deyildir.**

**Məsələ 607.** **Əvvəlki məsələni nəzərə alaraq, əgər o, müqəssir-cahil[2] olsa, hökmü öyrənmədiyinə görə günah etmişdir və hökmü bildikdən sonra namaz vaxtı keçmədiyi təqdirdə namazı yenidən qılmalı, namaz vaxtı keçdiyi təqdirdə isə namazın qəzasını qılmalıdır.**

**Məsələ 608.** **Əgər müsafir şəxs səfərdə namazın hökmünü (yəni qəsr olduğunu) bilirsə, amma hökmün təfərrüatını bilmədiyinə görə namazı tam qılsa, ehtiyat-vacibə görə, namaz vaxtı keçməmişdən qabaq səhvini başa düşdüyü təqdirdə, namazı yenidən qılmalıdır. Namaz vaxtı keçdikdən sonra səhvini başa düşdükdə isə namazın qəzasını qılmalıdır. Məsələn, müsafir şəxs səfərdə namazın qəsr olduğunu bilir, amma bilmir ki, müəyyən bir yerdə on gün qalmağı qərara aldıqdan sonra və bir dördrəkətli namaz qılmamışdan qabaq orada qalmaq qərarından daşındığı halda namazı qəsr qılmalıdır. Bunu bilmədiyinə görə namazı tam qılır.**

**Məsələ 609.** **Əgər müsafir şəxs səfərdə namazın hökmünü bilirsə, amma hökmü düzgün tətbiq etmədiyinə görə namazı tam qılsa, namazı yenidən qılmalıdır. Məsələn, müsafir şəxs səfərdə namazın qəsr olduğunu bilir, amma səkkiz fərsəxlikdə yerləşən bir yerə getməyi qərara alır və elə düşünür ki, o yerədək məsafə yeddi fərsəxdir, buna görə də namazı tam qılır. Əslində, namazı qəsr qılmalı idi.**

**Məsələ 610.** **Əgər müsafir şəxs səfərdə namazın qəsr olduğunu unutsa və ya səfərdə olduğunu unutsa, buna görə də namazı tam qılsa, namaz vaxtı keçməmişdən qabaq məsələni xatırladığı təqdirdə, namazı yenidən qəsr olaraq qılmalıdır. Əgər namazı yenidən qılmazsa, namazın qəzasını qılmalıdır. Amma əgər namaz vaxtı keçdikdən sonra məsələni xatırlasa, namazın qəzasını qılmaq lazım deyildir.**

**Məsələ 611.** **Əgər səfərdə namazın qəsr olduğunu bilməyən müsafir şəxs namazını qəzaya versə və namaz vaxtı keçdikdən sonra hökmü bilsə, namazın qəzasını qəsr olaraq qılmalıdır.**

**Məsələ 612.** **Əvvəlki məsələni nəzərə alaraq, əgər o, namazın qəzasını tam olaraq qılsa və sonra hökmü bilsə, qasir-cahil olduğu təqdirdə, namazı yenidən qılması lazım deyildir.**

**Məsələ 613.** **Əgər müsafir şəxs səfərdə namazın qəsr olduğunu unutsa və ya səfərdə olduğunu unutsa, buna görə də namazı tam qılmaq niyyətilə namaza başlasa və üçüncü rəkət üçün ayağa qalxmamışdan qabaq məsələni xatırlasa, namazı iki rəkət olaraq başa çatdırmalıdır. Bu halda onun namazı düzgündür. Əgər üçüncü rəkət üçün ayağa qalxdıqdan sonra, amma rükuya getməmişdən qabaq məsələni xatırlasa, əyləşib salamı deməlidir.**

**Məsələ 614.** **Əvvəlki məsələni nəzərə alaraq, əgər o, üçüncü rəkətin rükusuna getdikdən sonra məsələni xatırlasa, namazı düzgün deyildir. İstər namazın geniş vaxtı məsələni xatırlasın, istərsə də namazın dar vaxtı, hətta bir rəkət qılmağa vaxt qalmasa belə, məsələni xatırlasın, namazı yenidən qılmalı və ya qəzasını qılmalıdır.**

---

[1] Yəni hökmü bilməyən və bilmədiyini də bilməyən şəxs

[2] Yəni hökmü bilmədiyini bilən, amma öyrənmək imkanı olsa da, öyrənməyən şəxs

## Namazı tam qılmaq vacib olduğu halda qəsr qılmaq

**Məsələ 615.** **Namazı tam qılmalı olan müsafir şəxs əgər vəzifəsinə zidd olaraq namazı qəsr qılsa, onun namazı düzgün deyildir. Bu hökm baxımından bilmək, bilərəkdən etmək, unutmaq, hökmü bilməmək və ya hökmü düzgün tətbiq etməmək arasında fərq yoxdur. Yalnız sonrakı məsələdə açıqlanan hal istisna təşkil edir.**

**Məsələ 616.** **Müəyyən bir yerdə on gün qalmağı qərara alan müsafir şəxs əgər hökmü bilmədiyinə görə namazı qəsr qılsa, onun namazı düzgündür. Amma əgər hökmü düzgün tətbiq etmədiyinə və ya unutduğuna görə namazı qəsr qılsa, namazı düzgün deyildir və yenidən qılmalıdır.**

**Məsələ 617.** **Namazı tam qılmalı olan, məsələn, müəyyən bir yerdə on gün qalmağı qərara alan müsafir şəxs əgər hökmü unutduğuna, yaxud hökmü bilmədiyinə, yaxud da hökmü düzgün tətbiq etmədiyinə görə namazı qəsr qılmaq niyyətilə başlasa və namazdan xaric edən salamı**[1] **deməmişdən qabaq səhvini başa düşsə, namazı tam olaraq başa çatdırmalıdır. Bu halda onun namazı düzgündür.**

---

[1] Birinci salam, yəni "Əssəlamu ələykə əyyuhən-Nəbiyyu və rahmətullahi və bərəkatuhu" cümləsi müstəhəb salamdır və bu salamı dedikdə namazdan xaric olmursan. Amma ikinci salam, yəni "Əssəlamu ələyna və əla ibadillahis-salihin" cümləsi və ya üçüncü salam, yəni "Əssəlamu ələykum və rahmətullahi və bərəkatuhu" cümləsi namazdan xaric olmağa səbəb olan salamdır.

## Müxtəlif məsələlər

**Məsələ 618.** Əgər bir şəxs namaz vaxtı daxil olduqda öz vətənində və ya on gün qalmağı qərara aldığı yerdə olsa və namazı qılmayıb səfərə çıxsa, səfərdə namazı qılmaq istədikdə, namazı qəsr qılmalıdır.

**Məsələ 619.** Əgər bir şəxs namaz vaxtı daxil olduqda səfərdə olsa və namazı qılmasa, sonra öz vətəninə və ya on gün qalmağı qərara aldığı yerə çatsa, namazı tam qılmalıdır.

**Məsələ 620.** Əgər bir şəxs namaz vaxtı daxil olduqda səfərdə olsa və namazı qılmasa, öz vətəninə və ya on gün qalmağı qərara aldığı yerə çatdıqdan sonra namazı qəzaya getsə, namazın qəzasını tam qılmalıdır.

**Məsələ 621.** Əgər bir şəxs namaz vaxtı daxil olduqda öz vətənində və ya on gün qalmağı qərara aldığı yerdə olsa və namazı qılmayıb səfərə çıxsa, amma səfərdə namazı qəzaya getsə, namazın qəzasını qəsr qılmalıdır.

**Məsələ 622.** Müsafir şəxs dörd məkan olan "təxyir məkanları"nda (yəni Məkkə şəhəri, Mədinə şəhəri, Kufə məscidi və İmam Hüseynin (ə) hairində) dördrəkətli namazları həm qəsr, həm də tam qıla bilər. Əgər namazı tam qılsa, daha yaxşıdır. Amma qəsr qılmaq ehtiyat-müstəhəbə müvafiqdir.

**Məsələ 623.** Namazı qəsr və ya tam qılmaqda seçim edə bilmək hökmü hazırkı Məkkə və Mədinə şəhərlərinin bütün ərazisinə aiddir və təkcə Məscidul-hərama və Məscidun-Nəbiyə (Allahın salamı olsun ona və Əhli-beytinə) aid deyildir. Amma bu iki məscidin ərazisi ilə kifayətlənmək ehtiyat-müstəhəbə müvafiqdir.

**Məsələ 624.** Kufədə isə namazı qəsr və ya tam qılmaqda seçim edə bilmək hökmü təkcə Kufə məscidinə aiddir. Ehtiyat-vacibə görə, bu hökm Kufə şəhərinə şamil olmur.

**Məsələ 625.** İmam Hüseyn (ə) hairində namazı qəsr və ya tam qılmaqda seçim edə bilmək hökmü gümbəzin altına ("təhtəl-qubbə"yə) və İmam Hüseynin (ə) qəbrinə yaxın adlanan yerə aiddir. Ehtiyata görə, bu hökm qəbirin ətrafındakı otaqlara və hərəmin həyətinə şamil olmur.

**Məsələ 626.** Sözügedən dörd məkanda müsafir şəxs dördrəkətli namazlardan hansını istəsə tam, hansını istəsə qəsr qıla bilər.

**Məsələ 627.** Əgər sözügedən dörd məkanda müsafir şəxs (bilərəkdən və ya səhvən) namazını qəzaya versə və namazın qəzasını bu məkanlardan qeyri bir yerdə qılmaq istəsə, qəsr olaraq qılmalıdır. Həmçinin əgər həmin namazın qəzasını bu məkanlarda qılmaq istəsə, ehtiyat-vacibə görə, qəsr qılmalıdır.

**Məsələ 628.** Namazı qəsr və ya tam qılmaqda seçim edə bilmək hökmü oruca aid deyildir. Odur ki, müsafir şəxs bu məkanlarda mübarək Ramazan ayının orucunu tuta bilməz.

## Qəza namazı

**Məsələ 629.** Əgər bir şəxs vacib gündəlik namazı öz vaxtında bilərəkdən, ya unudaraq, ya da bilmədən qılmasa, yaxud da namaz vaxtı keçdikdən sonra namazın düzgün olmadığını başa düşsə, bu namazın qəzasını qılmalıdır.

**Məsələ 630.** Əgər bir şəxs gündəlik namazlardan qeyri vacib bir namazı, məsələn, ayat namazını öz vaxtında qılmasa, onun qəzasını qılmalıdır.

**Məsələ 631.** Namazın qəzasını qılmaq o halda vacib olur ki, namazı qılmadığına və ya namazın düzgün olmadığına mükəlləfin yəqinliyi vardır. Amma əgər mükəlləf namazı qılmadığına və ya namazın düzgün olmadığına şəkk və ya güman etsə, namazın qəzasını qılmaq vacib deyildir.

**Məsələ 632.** Əgər mükəlləf namaz vaxtı ərzində huşsuz vəziyyətdə olsa, namazın qəzasını qılmaq ona vacib olmur. Amma əgər o, ixtiyari şəkildə huşsuz vəziyyətə düşsə, ehtiyat-vacibə görə, namazın qəzasını qılmalıdır.

**Məsələ 633.** İslam dinini qəbul edən qeyri-müsəlman şəxsə müsəlman olmamışdan qabaq qılmadığı namazların qəzasını qılmaq vacib deyildir. Amma əgər mürtəd şəxs (yəni İslam dinindən dönən şəxs) tövbə etdikdən sonra mürtədlik dövründə qılmadığı namazların qəzasını qılmalıdır.

**Məsələ 634.** Qadın hansı namazların vaxtında (namazın bütün vaxtı ərzində) heyzli və ya nifaslı olubsa, bu namazların qəzası yoxdur.

**Məsələ 635.** Boynunda qəza namazı olan şəxsə qəza namazlarını dərhal qılmaq vacib deyildir. Amma söz yox ki, qəza namazlarını qılmaqda səhlənkarlıq etməməlidir.

**Məsələ 636.** Əgər bir şəxs hökmü tətbiq etmədiyinə və ya hökmü bilmədiyinə görə namazı təharətsiz, yəni dəstəmazsız və ya qüslsüz qılsa, məsələn, bir şəxs cənabətli olduğunu bilməyib qüslsüz namaz qılsa, yaxud düzgün olmayan dəstəmaz və ya qüsl ilə namaz qılsa, bu namazın qəzasını qılmalıdır.

**Məsələ 637.** Vacib namaz hansı şəkildə qəzaya gedibsə, onun qəzası o şəkildə qılınmalıdır. Deməli, əgər bir şəxs namazı dördrəkətli olaraq qılmalıdırsa və o, namazı qəzaya veribsə, bu namazın qəzasını (hətta səfərdə qılsa belə) dördrəkətli olaraq qılmalıdır. Yaxud əgər səfərdə ikən dördrəkətli namazı qəzaya gedibsə, bu namazın qəzasını qəsr olaraq qılmalıdır, baxmayaraq ki, namazın qəzasını səfərdə qılmır.

**Məsələ 638.** Vacib namazın qəzasını günün istənilən vaxtında qılmaq olar. Yəni sübh namazının qəzasını sübh namazının vaxtında və ya zöhr namazının qəzasını zöhr namazının vaxtında qılmaq lazım deyildir.

**Məsələ 639.** Qəza namazında meyar namaz vaxtının axırıdır. Deməli, əgər bir şəxs qəzaya verdiyi namazın vaxtının axırında müsafir olubsa, namazın qəzasını qəsr olaraq qılmalıdır, baxmayaraq ki, namaz vaxtının əvvəlində o öz vətənində olubdur. Əgər bir şəxs namaz vaxtının axırında müsafir olmayıbsa, namazın qəzasını tam olaraq qılmalıdır, baxmayaraq ki, namaz vaxtının əvvəlində müsafir olubdur.

**Məsələ 640.** Qəza namazını qılarkən namazların ardıcıllığına riayət etmək lazım deyildir. Amma eyni günün zöhr və əsr namazlarının qəzasını, həmçinin məğrib və işa namazlarının qəzasını qılmaq istədikdə namazların ardıcıllığına riayət olunmalıdır.

**Məsələ 641.** Əgər bir şəxs öz qəza namazlarının sayını bilmirsə, qəza etdiyini yəqinliklə bildiyi namazların qəzasını qılmaqla kifayətlənə bilər.

**Məsələ 642.** Boynunda qəza namazı olan şəxs əda namazı qıla bilər. Amma əgər onun bir qəza namazı varsa – xüsusilə də qəza namazı həmin günə aiddirsə – ehtiyat-vacibə görə, əvvəlcə qəza namazını qılmalıdır.

**Məsələ 643.** Boynunda qəza namazı olan şəxs nafilə namazları və müstəhəb namazlar qıla bilər.

**Məsələ 644.** Gündəlik namazların nafiləsinin qəzasını qılmaq müstəhəbdir.

# Əcir namazı

**Məsələ 645.** Əgər dünyasını dəyişən bir şəxsin boynunda namaz, oruc və bu kimi ibadətlərin qəzası qalıbsa, mərhumun əvəzinə bu ibadətlərin qəzasını yerinə yetirmək üçün bir şəxsi əcir tutmaq (yəni ücrət verib bu ibadətləri yerinə yetizdirmək) olar. Həmçinin kim istəsə mərhumun əvəzinə bu ibadətlərin qəzasını ücrətsiz[1] yerinə yetirə bilər və bu halda mərhumun boynundan bu ibadətlər götürülür.

**Məsələ 646.** Mərhumun əvəzinə ücrətlə qılınan namaz əcir namazı adlanır.

**Məsələ 647.** Əgər mərhum qəza namazlarının qılınması üçün əcir tutulmasını vəsiyyət edibsə, onun irsinin üçdə biri bu iş üçün sərf edilməlidir. Əgər irsin üçdə birindən çox vəsait tələb olunarsa, bunun üçün varislərdən icazə alınmalıdır.

**Məsələ 648.** Mərhumun qəza namazlarını qılmaq üçün əcir tutulan şəxsin namazı qılarkən mərhumun xüsusiyyətlərini vurğulaması vacib deyildir. Əksinə, əgər ümumi şəkildə mərhumu müəyyən etsə, kifayət edir. Məsələn, əgər bir şəxs iki nəfərin qəza namazını qılmaq üçün əcir olubsa, birinci əcir olduğu mərhumun qəza namazını qıldığını niyyət etsə, bu, kifayət edir.

**Məsələ 649.** Əgər əcir namazı üçün xüsusi bir şərt qoyulmayıbsa (məsələn, namazın camaatla qılınması və ya məsciddə qılınması şərt qoyulmayıbsa), əcir şəxsə yalnız namazın vacib əməllərini yerinə yetirərək onu qılmaq vacibdir.

**Məsələ 650.** Mərhumun qəza namazlarını qılmaq üçün mərhumla eynicinsli olmaq şərt deyildir. Yəni kişi qadının qəza namazlarını və qadın kişinin qəza namazlarını qıla bilər, istər əcir olsun, istərsə də ücrətsiz qılsın.

**Məsələ 651.** Namazın ucadan və ya astadan qılınmasında isə əcir olan şəxs öz şəri vəzifəsinə əməl etməlidir. Deməli, əgər kişi qadının qəza namazlarını qılmaq üçün əcir olubsa, o, sübh, məğrib və işa namazlarının "Həmd" və "Surə"sini ucadan oxumalıdır.

**Məsələ 652.** Mərhumun qəza namazlarını qılmaq üçün əcir olan şəxs aşağıdakı şərtlərə malik olmalıdır:

1- Namazın hökmlərini düzgün bilməlidir, istər özü müctəhid olsun, istərsə də bir müctəhidə təqlid etsin;

2- Namazı düzgün qılacağına dair ona etibar edilsin;

3- Hansısa bir üzrü olmasın, məsələn, əyləşən halda namaz qılan şəxs mərhumun qəza namazlarını qılmaq üçün əcir ola bilməz.

---

[1] Bu, fiqhdə "təbərruən" termini ilə ifadə olunur.

## Ata və ananın qəza namazları

**Məsələ 653.** **Atanın və ehtiyat-vacibə görə, ananın qəza namazlarını qılmaq böyük oğula vacibdir.**

**Məsələ 654.** **Əgər ata və ya ana əsla namaz qılmayıbsa, ehtiyat-vacibə görə, onların qəza namazlarını qılmaq böyük oğula vacibdir.**

**Məsələ 655.** **"Böyük oğul" dedikdə, ata və ana vəfat edərkən ailənin həyatda olan böyük oğlu (istər həddi-büluğa çatmış olsun, istərsə də çatmamış olsun) nəzərdə tutulur.**

**Məsələ 656.** **Əgər mərhumun böyük övladı qız və ikinci övladı oğlandırsa, ata və ananın qəza namazları ailənin ikinci övladı olan böyük oğula vacibdir.**

**Məsələ 657.** **Əgər böyük oğul deyil, başqa bir şəxs ata və ananın qəza namazlarını qılsa, bu namazlar böyük oğulun öhdəsindən götürülür.**

**Məsələ 658.** **Ata və ananın qılmadığını yəqinliklə bildiyi namazların qəzasını qılmaq böyük oğula vacibdir. Əgər o, ata və anasının qəza namazı olub-olmadığını dəqiq bilmirsə, onun üzərinə heç bir vəzifə düşmür. Bu barədə araşdırma aparmaq da lazım deyildir.**

**Məsələ 659.** **Böyük oğul mümkün olan hər hansı bir şəkildə ata və ananın qəza namazlarını qılmalıdır. Əgər o, ata və ananın qəza namazlarını qılmaqda acizdirsə, bu halda onun üzərinə heç bir vəzifə düşmür.**

**Məsələ 660.** **Əgər bir şəxsin özünün qəza namazı varsa, həmçinin ata və anasının da qəza namazı onun öhdəsindədirsə, hansını istəsə qabağa sala və birinci qıla bilər.**

**Məsələ 661.** **Əgər ata və ana vəfat etdikdən sonra böyük oğul dünyasını dəyişsə, ailənin digər övladlarına ata və ananın qəza namazlarını qılmaq vacib olmur.**

## Ayat namazı

**Bəzi heyrətamiz təbiət hadisələri, o cümlədən zəlzələ, Günəş tutulması, Ay tutulması, qorxulu tufanlar, göy gurultusu və şimşək hər zaman insana Qiyamətin əlamətlərini, həmçinin Allahın əzəmət və qüdrətini xatırlatmışdır. Bu hadisələr zamanı bütün qüdrətlərin mənbəyi olan Allaha üz tutmaq və iki rəkət Ayat namazı qılmaq iztirab və vəhşəti aradan aparıb daxili aramlıq yaratmaqla yanaşı, yaradılışda Mütəal Allahın idarəçiliyini də yada salır. Xurafatlara üz tutmaq əvəzinə, insanda yeganəpərəstlik ruhunu gücləndirir. Bu iki rəkət namazı qılmaq insanın zehnini "hadisə"dən "hadisəni Yaradan"a tərəf yönəldir.**

**Məsələ 662.** **Ayat namazı aşağıdakı dörd səbəbdən biri baş verdikdə vacib olur:**

**1- Günəş tutulması, hətta Günəşin az bir hissəsi tutulsa belə;**

**2- Ay tutulması, hətta Ayın az bir hissəsi tutulsa belə;**

**3- Zəlzələ;**

**4- Əksər insanların qorxmasına səbəb olan göy hadisələri, məsələn, qara və qırmızı küləklər, şimşək.**

**Məsələ 663.** **Günəş və Ay tutulması və zəlzələ istisna olmaqla, digər təbiət hadisələrində insanların əksəriyyəti qorxduğu halda Ayat namazı vacib olur. Odur ki, əgər bir təbiət hadisəsi qorxulu olmazsa, yaxud bəzi insanların qorxmasına səbəb olarsa, Ayat namazı vacib olmur.**

**Məsələ 664.** **Əgər Ayat namazının vacib olmasına səbəb olan hadisələr bir dəfədən çox baş verərsə, onların hər biri üçün bir Ayat namazı qılmaq vacibdir.**

**Məsələ 665.** **Hər bir zəlzələ üçün (istər güclü olsun, istərsə də zəif olsun), hətta zəlzələdən sonrakı yeraltı təkanlar ayrıca bir zəlzələ sayıldığı təqdirdə, onlar üçün ayrıca olaraq Ayat namazı qılınmalıdır.**

**Məsələ 666.** **Ayat namazını qılmaq o şəxslərə vacib olur ki, hadisə zamanı həmin məntəqədə olublar.**

**Məsələ 667.** **Ayat namazının qılınmasına səbəb olan hadisələrin baş verdiyi aşağıdakı yollardan biri ilə sübuta yetir:**

**1- İnsanın özü onu müşahidə edir;**

**2- Elm və ya əminlik yaradan hər hansı bir yol;**

**3- İki ədalətli kişi bu barədə xəbər verir.**

## Ayat namazının vaxtı

**Məsələ 668.** Günəş və Ay tutulmasında Ayat namazının vacib olması vaxtı Günəş və Ay tutulmağa başladığı andan etibarən başlanır. Ehtiyat-vacibə görə, namaz o qədər yubadılmamalıdır ki, Günəş və Ay açılmağa başlasın.

**Məsələ 669.** Əgər bir şəxs Ayat namazını qılmağı yubatsa və Günəş və ya Ay açılmağa başlasa, namazı qəsdi-qürbət ilə, yəni əda və qəza niyyəti etmədən (ma fiz-zimmə niyyətilə) qılmalıdır. Amma əgər Günəş və ya Ay tam açılarsa, namazı qəza niyyətilə qılmalıdır.

**Məsələ 670.** Zəlzələ baş verdikdə, göy gurultusu və şimşək çaxdıqda və ya bu kimi hadisələr (yəni baş vermə müddəti az olan hadisələr) baş verdikdə, ehtiyata görə, şəri vəzifə daşıyan şəxs Ayat namazını dərhal qılmalıdır. Əgər namazı qılmağı yubatsa, ömrünün axırınadək bu Ayat namazını əda və qəza niyyəti etmədən (ma fiz-zimmə niyyətilə) qılmalıdır.

**Məsələ 671.** Əgər Seysmoloji Xidmət Mərkəzi müəyyən bir məntəqədə zəif yeraltı təkanların baş verdiyini elan etsə, belə ki, bu yeraltı təkanlar yalnız cihazlar vasitəsilə müəyyən edilir və o məntəqədə yaşayan insanlar onları əsla hiss etmirlər, bu halda Ayat namazı vacib olmur.

**Məsələ 672.** Əgər bir şəxsin Günəş və ya Ay tutulduğu zaman bu hadisədən əsla xəbəri olmayıbsa və Günəş və ya Ay açıldığı zaman bunu başa düşübsə, tutulma tam olduğu təqdirdə, o, Ayat namazının qəzasını qılmalıdır. Amma əgər tutulma qismən olubsa, ona Ayat namazının qəzası vacib olmur.

**Məsələ 673.** Əgər bir şəxs Günəş və ya Ay tutulduğu zaman bu hadisədən xəbərdar olubsa, amma Ayat namazını (hətta unutqanlıq üzündən) qılmayıbsa, namazın qəzasını qılmalıdır, baxmayaraq ki, tutulma qismən olubdur.

**Məsələ 674.** Günəş və Ay tutulması istisna olmaqla, əgər bir şəxs digər təbiət hadisələri baş verdiyi zaman hadisədən xəbərdar olubsa və Ayat namazını, hətta unutqanlıq üzündən qılmayıbsa, o, Ayat namazını qılmalıdır. Əgər bu hadisələr baş verdiyi zaman hadisədən xəbərdar olmayıbsa və sonradan bunu başa düşübsə, ehtiyat-vacibə görə, Ayat namazını qılmalıdır.

## Ayat namazının qaydası

**Məsələ 675.** **Ayat namazı iki rəkətdir. Hər rəkətdə beş rüku və iki səcdə yerinə yetirilir. Ayat namazı bir neçə surətdə qılına bilər:**

**Birinci surət:** **Hər rəkətdə beş dəfə "Həmd" və "Surə" oxunur. Belə ki, niyyət etdikdən və "təkbirətul-ehram"ı dedikdən sonra "Həmd" və tam bir "Surə" oxunur və rükuya gedilir. Daha sonra rükudan qalxıb, "Həmd" və tam bir "Surə" oxunur və ikinci rükuya gedilir. Bu qaydada beş rüku yerinə yetirilir. Beşinci rükudan qalxdıqdan sonra səcdəyə gedilir və iki səcdə yerinə yetirilir. İkinci rəkət də eynilə birinci rəkət kimi qılınır. İkinci rəkətin iki səcdəsindən sonra təşəhhüd və salam deyilir.**

**İkinci surət:** **Hər rəkətdə bir dəfə "Həmd" və "Surə" oxunur. Belə ki, "Surə" beş hissəyə (bu hissə bir ayə, yaxud bir ayədən çox və ya az ola bilər) bölünür. Niyyət etdikdən və "təkbirətul-ehram"ı dedikdən sonra "Həmd" və "Surə"nin bir hissəsi oxunur və rükuya gedilir. Rükudan qalxdıqdan sonra "Həmd"i oxumadan "Surə"nin ikinci hissəsi oxunur və ikinci rükuya gedilir. Bu qaydada namaz davam etdirilir. Beşinci rükudan qabaq "Surə"nin beşinci hissəsi oxunur və rükuya gedilir. Beşinci rükudan qalxdıqdan sonra səcdəyə gedilir və iki səcdə yerinə yetirilir. İkinci rəkət də eynilə birinci rəkət kimi qılınır. İkinci rəkətin iki səcdəsindən sonra təşəhhüd və salam deyilir.**

**Məsələ 676.** **Ehtiyat-vacibə görə, "Bismilləhir rahmənir rahim" ayəsi "Surə"nin bir hissəsi kimi götürülə bilməz və onu dedikdən sonra rüku edilə bilməz.**

**Məsələ 677.** **Gündəlik namazlarda vacib və ya müstəhəb olan əməllər Ayat namazında da eyni hökmü daşıyır. Amma Ayat namazında azan və iqamənin yerinə savab əldə etmək ümidilə üç dəfə "Əs-səlah" deyilir.**

**Məsələ 678.** **Ayat namazının beşinci və onuncu rükusundan sonra bu zikri demək müstəhəbdir: "Səmiəllahu li-mən həmidəhu". Həmçinin hər rükudan qabaq və sonra "təkbir" demək müstəhəbdir. Amma beşinci və onuncu rükudan sonra "təkbir" demək müstəhəb deyildir.**

**Məsələ 679.** **İkinci, dördüncü, altıncı, səkkizinci və onuncu rükudan qabaq qunut tutmaq müstəhəbdir. Əlbəttə, əgər onuncu rükudan qabaq yalnız bir qunut tutulsa, kifayət edir.**

## Ayat namazında şəkk etmək

**Məsələ 680.** **Əgər bir şəxs Ayat namazında dörd rüku, yoxsa beş rüku yerinə yetirdiyinə şəkk etsə, səcdə etmək üçün əyilmədiyi təqdirdə, daha bir rüku yerinə yetirməlidir. Amma əgər səcdə etmək üçün əyilibdirsə, öz şəkkinə etina etməməlidir.**

**Məsələ 681.** **Ayat namazının hər bir rükusu "rükn"dür. Belə ki, əgər bilərəkdən və ya səhvən az və ya çox yerinə yetirilsə, namaz pozulur.**

**Məsələ 682.** **Əgər bir şəxs qıldığı Ayat namazının düzgün olmadığını başa düşsə, onu yenidən qılmalıdır. Əgər namazın vaxtı keçibsə, namazın qəzasını qılmalıdır.**

## Fitr və Qurban bayramı namazı

**Məsələ 683.** Məsumun (ə) dövründə Fitr və Qurban bayramı namazları vacibdir və camaatla qılınmalıdır. İndiki dövrdə isə (böyük qeyb dövrü olduğuna görə) bu bayram namazlarını qılmaq müstəhəbdir.

**Məsələ 684.** Fitr və Qurban bayramı namazının vaxtı bayram günü Günəş doğandan zöhrədəkdir.

**Məsələ 685.** Qurban bayramı namazını Günəş üfüqdən qalxdıqdan sonra qılmaq müstəhəbdir. Amma Fitr bayramında Günəş üfüqdən qalxdıqdan sonra əvvəlcə yemək yemək və fitrə zəkatını vermək, daha sonra bayram namazını qılmaq müstəhəbdir.

**Məsələ 686.** Fitr və Qurban bayramı namazı iki rəkətdir. Birinci rəkətdə "Həmd" və "Surə"dən sonra beş təkbir deyilir və hər təkbirdən sonra qunut tutulur. Beşinci qunutdan sonra daha bir təkbir deyilir və rükuya gedilir. Daha sonra iki səcdə yerinə yetirilir. İkinci rəkətdə isə "Həmd" və "Surə"dən sonra dörd təkbir deyilir və hər təkbirdən sonra qunut tutulur. Dördüncü qunutdan sonra daha bir təkbir deyilir və rükuya gedilir. Daha sonra iki səcdə yerinə yetirilir və səcdələrdən sonra təşəhhüd və salam deyilərək namaz tamamlanır.

**Məsələ 687.** Fitr və Qurban bayramı namazında "Həmd" və "Surə"ni ucadan oxumaq müstəhəbdir.

**Məsələ 688.** Bayram namazında "Həmd"dən sonra xüsusi bir "Surə"nin oxunması qeyd edilməyib. Amma daha yaxşı olar ki, birinci rəkətdə "Şəms" surəsi və ikinci rəkətdə "Ğaşiyə" surəsi oxunsun. Yaxud birinci rəkətdə "Ə`la" surəsi və ikinci rəkətdə "Şəms" surəsi oxunsun.

**Məsələ 689.** Fitr və Qurban bayramı namazının qunutunda istənilən dua və zikr deyilə bilər və kifayət edir. Amma daha yaxşı olar ki, savab əldə etmək ümidilə bu dua oxunsun:

"Əllahummə əhləl-kibriyai vəl-əzəməti, və əhləl-cudi vəl-cəbəruti, və əhləl-əfvi vər-rəhməti, və əhlət-təqva vəl-məğfirəti. Əs`alukə bi-həqqi hazəl-yəvmi, əlləzi cəəltəhu lil-musliminə īdən, və li-Muhəmmədin səlləllahu ələyhi və alihi zuxrən və şərəfən və kəramətən və məzida, ən tusəlliyə əla Muhəmmədin və Ali-Muhəmmədin, və ən tudxiləni fi kulli xəyrin ədxəltə fihi Muhəmmədən və Alə-Muhəmmədin, və ən tuxricəni min kulli suin əxrəctə minhu Muhəmmədən və Alə-Muhəmmədin, sələvatukə ələyhi və ələyhim. Əllahummə inni əs`alukə xəyrə ma səələkə bihi ibadukəs-salihun, və əuzu bikə mimma istəazə minhu ibadukəl-muxləsun."

**Məsələ 690.** Bayram namazının qunutunda uzun və ya qısa dua oxumağın maneəsi yoxdur. Amma qunutların sayını azaldıb-artırmağa icazə verilmir.

**Məsələ 691.** Əgər bir şəxs bayram namazının təkbirləri və ya qunutlarının sayında şəkk etsə, təkbir və ya qunutun yeri keçmədiyi təqdirdə, az sayı götürməlidir. Amma əgər sonradan məlum olsa ki, onu deyibdir, iradı yoxdur.

**Məsələ 692.** Əgər bir şəxs bayram namazında "qiraət"i ("Həmd" və "Surə"ni oxumağı), ya təkbirləri və ya qunutları deməyi unutsa, namaz düzgündür. Amma əgər rükunu, ya iki səcdəni və ya təkbirətul-ehramı unutsa, namaz düzgün deyildir.

**Məsələ 693.** Fitr və Qurban bayramı namazının qəzası yoxdur.

## Camaat namazı

**İslam dininin ictimai ruhu bir çox dini vəzifələrdə, o cümlədən namazda müşahidə olunur. Bu ibadətin cəm şəklində yerinə yetirilməsi böyük bir şövkət sərgiləməklə yanaşı, möminlər arasında birlik və həmkarlıq yaradır. Mütəal Allah camaat namazında iştirak edənlərə çoxlu mükafat vəd etmişdir. Eyni zamanda, camaat namazına əhəmiyyətsiz yanaşanlar və camaat namazında iştirak etməyənlər qınanılmış, bu rəftar münafiqlik əlaməti hesab edilmişdir. Camaat namazı həm də insanda rəhbər və başçıya tabe olmaq, təmiz və əməlisaleh insanları önə keçirmək və onların hərəkətlərini hamılıqla yerinə yetirmək düşüncəsini aşılayır.**

## Camaat namazının müstəhəbliyi

**Məsələ 694.** **Gündəlik vacib namazları camaatla qılmaq müstəhəbdir. Sübh, məğrib və işa namazlarını camaatla qılmaq daha çox tövsiyə olunub.**

**Məsələ 695.** **Camaat namazında iştirak etmək hamı üçün müstəhəbdir. Amma məscidin qonşuluğunda olanlar və məscidin azan səsini eşidənlər üçün camaat namazında iştirak etmək daha çox tövsiyə olunub.**

**Məsələ 696.** **Camaat namazı təşkil edildiyi zaman namazını furada (tək halda) qılan şəxsin bu namazı yenidən camaatla qılması müstəhəbdir. Əgər bu şəxs sonradan birinci namazın düzgün olmadığını başa düşsə, ikinci namaz kifayət edir.**

**Məsələ 697.** **Əgər bir şəxs üçrəkətli və ya dördrəkətli namazı qılarkən camaat namazı təşkil olunarsa və o, namazını başa çatdırdıqdan sonra camaat namazına çatacağına əmin olmazsa, üçüncü rəkətin rükusuna getmədiyi təqdirdə, namazını müstəhəb namaz niyyətilə iki rəkət olaraq başa çatdırması və camaat namazına qatılması müstəhəbdir.**

**Məsələ 698.** **Əgər ata və ya ana öz övladına namazı camaatla qılmağı əmr etsə, camaat namazında iştirak etməmək valideynə əziyyət verməyə səbəb olduğu təqdirdə, ehtiyata görə, övlad namazı camaatla qılmalıdır.**

**Məsələn 699.** **Əgər bir şəxs namazda çox şəkk edirsə, namazını camaatla qılması vacib deyildir. Amma əgər onun şəkki elə bir həddə olsa ki, namazını kəsir və ya bir zikri çox təkrar etməsi "muvalat"ın aradan getməsinə və namazın pozulmasına səbəb olur, bu halda namazı camaatla qılması vacibdir.**

## Camaat namazının icazəli olduğu hallar

**Məsələ 700.** **Bütün gündəlik vacib namazları camaatla qılmaq olar. İmam-camaat gündəlik namazlardan birini qıldığı zaman həmin namazı və ya başqa bir gündəlik namazı ona iqtida etmək olar.**

**Məsələ 701.** **Əgər imam-camaat öz namazını ehtiyat üzrə ikinci dəfə qılarsa, məmum yalnız o halda ona iqtida edə bilər ki, o da öz namazını ehtiyat üzrə ikinci dəfə qılmaq istəyir və onun ehtiyat etdiyi səbəb imam-camaatla eynidir.**

**Məsələ 702.** **Əgər imam-camaat gündəlik namazlardan birini qılırsa, məmum gündəlik namazlardan istənilən birinin qəzasını ona iqtida edib camaatla qıla bilər.**

**Məsələ 703.** **Əgər imam-camaat gündəlik namazın qəzasını qılırsa, məmum gündəlik namazı və ya onun qəzasını imam-camaata iqtida edə bilər. Amma əgər imam-camaat ehtiyat qəza namazı, yəni qəza olduğu qəti olmayan namazın qəzasını qılırsa – istər öz namazı, istərsə də başqasının namazı olsun – məmum ona iqtida edə bilməz.**

**Məsələ 704.** **Gündəlik namazı ehtiyat üzrə yenidən qılan şəxs (istər ehtiyat etmək müstəhəb olsun, istərsə də vacib olsun) vacib namazı (istər əda namazı, istərsə də qəza namazı) qılan bir şəxsə iqtida edə bilər.**

**Məsələ 705.** **Əgər imam-camaatın və ya məmumun namazı qəsr olsa, camaat namazı düzgündür və camaat namazının savabına malikdir.**

**Məsələ 706.** **Cümə namazı camaatla qılınmalıdır və onu tək halda qılmaq düzgün deyildir.**

**Məsələ 707.** **Gündəlik namazların camaat namazında bir dəfə təkrar olaraq imam-camaat dayanmaq olar, amma bu şərtlə ki, ikinci camaat namazında iştirak edən məmumlar birinci camaat namazında iştirak edən məmumlar olmamalıdır, yəni başqa məmumlar olmalıdır.**

## Camaat namazının icazəli olmadığı hallar

**Məsələ 708.** Kəbənin təvaf namazını camaatla qılmaq düzgün deyildir.

**Məsələ 709.** Müstəhəb namazlardan heç birini camaatla qılmaq olmaz. Yalnız Fitr və Qurban bayramı namazını (belə ki, qeyb dövründə bayram namazı müstəhəbdir) və istisqa namazını (yağış istəmək namazını) camaatla qılmaq olar.

**Məsələ 710.** Ğədir-xum bayramı namazını camaatla qılmaq şəriətdə yoxdur.

**Məsələ 711.** Əgər imam-camaatın vacib, yoxsa müstəhəb namaz qıldığı məlum deyildirsə, ona iqtida etmək olmaz.

**Məsələ 712.** Gündəlik namazı ehtiyat namazına (rəkətlərin sayında şəkk edildikdə qılınan ehtiyat namazına) iqtida etmək olmaz. Həmçinin ehtiyat namazını gündəlik namaza iqtida etmək olmaz.

## İmam-camaatın şərtləri

**Məsələ 713.** İmam-camaat ağıllı, ədalətli, on iki imam şiəsi, halalzadə və ehtiyata görə, həddi-büluğa çatan və namazı düzgün qılan fərd olmalıdır. Əgər məmum kişidirsə, imam-camaat da kişi olmalıdır.

**Məsələ 714.** Əgər bütün məmumlar qadın olarsa, onların imam-camaatı qadın ola bilər.

**Məsələ 715.** Ayaq üstə namaz qılan şəxs əyləşən və ya uzanan halda namaz qılan şəxsə iqtida edə bilməz.

**Məsələ 716.** Əyləşən halda namaz qılan şəxs əyləşən halda namaz qılan şəxsə iqtida edə bilər.

**Məsələ 717.** Müəyyən bir şəri üzrə görə təyəmmümlə, yaxud cəbirə dəstəmazla, yaxud da napak bədən və ya paltarla namaz qılan şəxsə iqtida etmək olar.

**Məsələ 718.** Əgər bir şəxs ədalətli şəxs kimi tanıdığı imam-camaatın ədalətli olaraq qaldığına şəkk etsə, ona iqtida edə bilər.

## Camaat namazının şərtləri

**Məsələ 719.** **Camaat namazında aşağıdakı şərtlərə riayət olunmalıdır:**

**1- Məmum imam-camaatdan qabaqda dayanmamalıdır, hətta ehtiyat-vacibə görə, ondan bir qədər arxada dayanmalıdır.**

**2- İmam-camaatın dayandığı yer məmumların dayandığı yerdən yuxarıda olmamalıdır. Amma cüzi fərqin (bir qarışdan az) maneəsi yoxdur.**

**3- İmam-camaat ilə məmumlar arasındakı məsafə, həmçinin məmumların cərgələri arasındakı məsafə çox olmamalıdır.**

**4- İmam-camaat ilə məmumlar arasında, həmçinin məmumların cərgələri arasında divar və ya pərdə kimi bir maneə olmamalıdır. Amma kişilərin cərgələri ilə qadınların cərgələri arasında pərdə və bu kimi bir vasitənin olmasının maneəsi yoxdur.**

**Məsələ 720.** **Əgər camaat namazı enişli yerdə təşkil olunarsa və imam-camaat bu yerin yuxarı olan tərəfində dayanarsa, eniş bucağının az olduğuna görə o yerə düz yer deyildiyi təqdirdə camaat namazının iradı yoxdur.**

**Məsələ 721.** **Əgər məmumun dayandığı yer yuxarıda olarsa, bu hündürlük adi ölçüdə olduğu, məsələn, məscidin həyəti və ya məscidin damı olduğu təqdirdə – nəinki bir neçəmərtəbəli binaların hündürlüyü ölçüsündə – camaat namazı düzgündür.**

**Məsələ 722.** **Ehtiyat-vacibə görə, məmumun səcdə məkanı ilə imam-camaatın dayandığı yer arasındakı məsafə, həmçinin qabaq cərgənin dayandığı yer ilə arxadakı cərgənin səcdə yeri arasındakı məsafə bir böyük addımdan (təxminən bir metrdən) çox olmamalıdır.**

**Məsələ 723.** **Əgər bir məmum qabaq tərəfdən imam-camaata birləşməsə və yalnız sağ və ya sol tərəfində dayanan məmum vasitəsilə imam-camaata birləşsə, onun namazı düzgündür.**

**Məsələ 724.** **Əgər namazda məmum ilə imam-camaat arasında, yaxud bir məmum ilə digər məmum (belə ki, bu məmum vasitəsilə imam-camaata birləşir) arasında bir böyük addımdan çox məsafə yaranarsa, camaata bağlanma kəsilir və onun namazı furada namaza (yəni tək halda qılınan namaza) çevrilir.**

**Məsələ 725.** **Əgər həddi-büluğa çatmayan uşaq vasitəsilə camaat namazına birləşmək mümkün olarsa, uşağın namazı düzgün qıldığı məlum olduğu təqdirdə, imam-camaata iqtida etmək və camaatla namaz qılmaq olar.**

**Məsələ 726.** **Əgər qabaq cərgədəki bütün məmumların namazı başa çatsa və ya onlar niyyəti camaat namazından furada namaza dəyişsələr, onlardan qabaqdakı cərgə ilə olan məsafə bir böyük addım ölçüsündə olmadığı təqdirdə, camaat namazına birləşmək qüvvədədir və camaat namazı düzgündür. Amma əgər məsafə bir böyük addımdan çox olarsa, namaz furada namaza çevrilir. Yalnız o halda namaz camaat namazı olaraq davam edə bilər ki, namazı başa çatan qabaq cərgədəki məmumlar dərhal yenidən iqtida etsinlər.**

**Məsələ 727.** **Əgər imam-camaatın namazı pozulsa və ya məmumların namazından qabaq başa çatsa, məsələn, imam-camaat müsafir olsa, məmumlar öz aralarından bir şəxsi (imam-camaatın şərtlərinə malik olan bir şəxsi) qabağa keçirib, namazın davamını ona iqtida edərək qıla və namazı başa çatdıra bilərlər.**

## İmam-camaata tabe olmaq baxımından məmumun vəzifələri

**Məsələ 728.** **Məmum "təkbirətul-ehram"ı imam-camaatdan qabaq deməməlidir. Hətta ehtiyat-vacibə görə, imam-camaat "təkbirətul-ehram"ı deyib qurtarmamış "təkbirətul-ehram"ı deməməlidir.**

**Məsələ 729.** **İmam-camaat "təkbirətul-ehram"ı dedikdən sonra əgər qabaq cərgədəki məmumlar namaza başlamaq və "təkbirətul-ehram"ı demək üzrə olsalar, sonrakı cərgədə dayanan məmum "təkbirətul-ehram"ı deyə bilər.**

**Məsələ 730.** **"Həmd" və "Surə" istisna olmaqla, məmum namazın digər zikrlərini deməlidir. Amma əgər imam-camaatın namazının üçüncü və ya dördüncü rəkətində ona iqtida etsə, "Həmd" və "Surə" də oxumalıdır.**

**Məsələ 731.** **Əgər məmum sübh namazında, məğrib və işa namazlarının birinci və ikinci rəkətlərində imam-camaatın "Həmd" və "Surə"sini eşidərsə, surələrin sözlərini ayırd edə bilməsə belə, "Həmd" və "Surə"ni oxumamalıdır. Həmçinin əgər imam-camaatın "Həmd" və "Surə"nin bəzi sözlərini eşidərsə, ehtiyat-vacibə görə, "Həmd" və "Surə"ni oxumamalıdır. Amma əgər imam-camaatın səsini eşitmirsə, "Həmd" və "Surə"ni astadan oxuması müstəhəbdir. Əgər səhvən ucadan oxusa, iradı yoxdur.**

**Məsələ 732.** **Zöhr və əsr namazlarının birinci və ikinci rəkətlərində məmum ehtiyat-vacibə görə, "Həmd" və "Surə"ni oxumamalıdır və onun yerinə zikr deməsi müstəhəbdir.**

**Məsələ 733.** **Əgər bir şəxs imam-camaatı təyin etməkdə səhv etsə, məsələn, imam-camaatın "Əli" olduğunu düşünüb ona iqtida etsə, amma namazdan sonra imam-camaatın "Əhməd" olduğu məlum olsa, Əhməd ədalətli şəxs olduğu və məmum da iqtida etmək üçün imam-camaatın xüsusi bir şəxs olmasını bir şərt kimi qoymadığı təqdirdə, onun camaat namazı düzgündür. Amma əgər iqtida etmək üçün məmum imam-camaatın xüsusi bir şəxs (Əli) olmasını bir şərt kimi qoyubdursa, onun camaat namazı düzgün deyildir. Namazın rüknünü artırmadığı təqdirdə, onun namazı furada namaz olaraq düzgündür.**

**Məsələ 734.** **Əgər məmum namazın sözlərini[1] imam-camaatdan tez və ya gec desə, bunun iradı yoxdur. Amma təkbirətul-ehram istisna təşkil edir və onun hökmü bir qədər əvvəldə qeyd olundu. Təkbirətul-ehram istisna olmaqla, əgər məmum imam-camaatın nə dediyini eşidərsə və ya sözləri hansı vaxt deyəcəyini bilərsə, ehtiyat-müstəhəbə görə, bu sözləri imam-camaatdan qabaq deməsin.**

**Məsələ 735.** **Məmum namazın hərəkətlərini imam-camaatla eyni vaxtda və ya imam-camaatdan bir qədər sonra yerinə yetirməlidir. Əgər o, bilərəkdən imam-camaatdan qabağa keçərsə və ya namazın hərəkətlərini imam-camaatdan çox gec olaraq (yəni imam-camaata tabe olmaq hesab olunmayacaq bir şəkildə) yerinə yetirərsə, onun namazı tək halda qılınan namaz olacaqdır.**

**Məsələ 736.** **Əgər məmum səhvən imam-camaatdan qabaq rükuya getsə, rükudan qalxmalı və yenidən imam-camaatla birlikdə rükuya getməli, namazı onunla birlikdə tamamlamalıdır. Bu halda onun camaat namazı düzgündür. Amma əgər o, rükudan qalxmazsa, onun namazı furada namaz olaraq düzgündür.**

**Məsələ 737.** **Əgər məmum səhvən imam-camaatdan qabaq rükudan qalxsa və imam-camaat hələ rükuda olsa, o, rükuya getməlidir. Bu halda rüknü artırmaq namazı pozmur. Amma əgər məmum rükuya getsə və rüku həddində əyilməmişdən qabaq imam-camaat rükudan qalxsa, onun namazı pozulur.**

**Məsələ 738.** **Əgər məmum səhvən imam-camaatdan qabaq səcdəyə getsə, o, səcdədən qalxmalı və imam-camaatla birlikdə səcdəyə getməlidir. Bu halda onun camaat namazı düzgündür.**

**Məsələ 739.** **Əgər məmum səhvən imam-camaatdan qabaq səcdədən qalxsa və imam-camaatın səcdədə olduğunu görsə, buna görə də yenidən səcdəyə getsə, amma imam-camaatın səcdəsinə çatmasa, namazı düzgündür. Amma əgər hər iki səcdədə bu hal baş versə, onun namazı pozulur.**

**Məsələ 740.** **Əgər məmum səhvən imam-camaatdan qabaq rükudan və ya səcdədən qalxsa, amma səhvən və ya imam-camaatın rükusuna və ya səcdəsinə çatmayacağını düşünərək rükuya və ya səcdəyə qayıtmasa, onun namazı düzgündür.**

**Məsələ 741.** **Əgər qunut tutulmayan bir rəkətdə imam-camaat səhvən qunut tutsa, məmum qunut tutmamalıdır. Amma məmum imam-camaatdan qabaq rükuya gedə bilməz, əksinə, imam-camaat qunutu deyib qurtaranadək gözləməli və namazı imam-camaatla birlikdə davam etdirməlidir.**

**Məsələ 742.** **Əgər təşəhhüd deyilməyən bir rəkətdə imam-camaat səhvən təşəhhüd desə, məmum təşəhhüdü deməməlidir. Amma məmum imam-camaatdan qabaq ayağa qalxa bilməz, əksinə, imam-camaat təşəhhüdü deyib qurtaranadək gözləməli və namazı imam-camaatla birlikdə davam etdirməlidir.**

[1] Namazın hissələri iki qismə ayrılır:
1- Namazın sözləri: Namazın “tələffüz edilən” hissələrinə deyilir, məsələn, təkbirətul-ehram, “Həmd” və “Surə”, zikrlər, təşəhhüd, salamlar.
2- Namazın hərəkətləri: Namazda “yerinə yetirilən” hərəkətlərə deyilir, məsələn, qiyam, rüku, səcdə, səcdədən sonra əyləşmək.

## Birinci rəkətdə iqtida etmək

**Məsələ 743.** Əgər məmum imam-camaatın birinci və ya ikinci rəkətində ona iqtida etsə, həmin rəkətdə "Həmd" və "Surə"ni oxumaq onun üzərindən götürülür.

**Məsələ 744.** Əgər imam-camaat ayaq üstə olsa və məmum onun hansı rəkətdə olduğunu bilməsə, məmum ona iqtida edə bilər. Amma "Həmd" və "Surə"ni qəsdi-qürbət ilə oxumalıdır və onun camaat namazı düzgündür. Baxmayaraq ki, sonradan imam-camaatın birinci və ya ikinci rəkətdə olduğunu başa düşür.

**Məsələ 745.** Əgər məmum imam-camaatın birinci və ya ikinci rəkətdə olduğunu düşünüb "Həmd" və "Surə"ni oxumasa və rükuya getdikdən sonra imam-camaatın üçüncü və ya dördüncü rəkətdə olduğunu başa düşsə, onun namazı düzgündür. Amma əgər bunu rükudan qabaq başa düşsə, "Həmd" və "Surə"ni oxumalıdır. Əgər vaxt az olarsa, təkcə "Həmd"i oxumalı və rükuda özünü imam-camaata çatdırmalıdır.

**Məsələ 746.** Əgər məmum namazın əvvəlində, yaxud "Həmd" və ya "Surə" oxunarkən iqtida etsə və rükuya getməmişdən qabaq imam-camaat rükudan qalxsa, onun camaat namazı düzgündür. O, rükuya getməli və özünü imam-camaata çatdırmalıdır.

## Rükuda iqtida etmək

**Məsələ 747.** **Əgər imam-camaat rükuda ikən məmum ona iqtida etsə, aşağıdakı surətlərdən biri yarana bilər:**

**1- Məmum rüku həddində əyildikdə imam-camaat hələ rükudadır: Məmumun camaat namazı düzgündür və bu, bir rəkət sayılır, baxmayaraq ki, imam-camaat rükunun zikrini deyib qurtarmışdır.**

**2- Məmum rüku həddində əyildikdə imam-camaat rükudan qalxmaqdadır və ya artıq qalxmışdır: Məmumun namazı furada namaz olaraq düzgündür və onun birinci rəkəti sayılır. O, namazı davam etdirməlidir.**

**3- Məmum rüku həddində əyilmiş, amma imam-camaatın rükusuna çatıb-çatmadığına şəkk edir: Məmumun namazı furada namaz olaraq düzgündür və onun birinci rəkəti sayılır. O, namazı davam etdirməlidir.**

**4- Məmum rüku həddində əyilməmişdən qabaq imam-camaat rükudan qalxır: Bu halda məmum furada namazın niyyətini edə bilər.**

## İkinci rəkətdə iqtida etmək.

**Məsələ 748.** **Əgər məmum imam-camaatın ikinci rəkətində ona iqtida etsə, imam-camaatın namazını nəzərə alaraq, aşağıdakı üç surət yarana bilər:**

**1- Əgər imam-camaatın namazı ikirəkətlidirsə, müstəhəbdir ki, məmum qunutun zikrini imam-camaatla birlikdə desin. İmam-camaat təşəhhüdü deyərkən məmum ayağa qalxa və namazın davamını tək halda qıla bilər. Yaxud imam-camaat namazın salamını deyənədək yarı əyləşən halda dayana, sonra ayağa qalxa bilər.**

**2- Əgər imam-camaatın namazı üçrəkətlidirsə, müstəhəbdir ki, məmum qunutun zikrini və təşəhhüdü imam-camaatla birlikdə desin. Ehtiyat-vacibə görə, təşəhhüdü deyərkən yarı əyləşən halda dayansın. Təşəhhüddən sonra imam-camaatla birlikdə ayağa qalxsın, "Həmd" və "Surə"ni oxusun. Əgər "Surə"ni oxumağa vaxt çatmırsa, təkcə "Həmd"i oxusun və rükuda özünü imam-camaata çatdırsın. İki səcdəni etdikdən sonra ikinci rəkətin təşəhhüdünü desin. Əgər məmumun da namazı üçrəkətlidirsə, imam-camaat salamı dediyi zaman o, ayağa qalxa və namazın davamını tək halda qıla bilər. Yaxud da yarı əyləşən halda dayana və imam-camaat salamı dedikdən sonra üçüncü rəkət üçün ayağa qalxa bilər.**

**3- Əgər imam-camaatın namazı dördrəkətlidirsə, məmum birinci rəkətdə əvvəlki surətdə qeyd edilən şəkildə əməl etsin. Namazının ikinci rəkətində (belə ki, imam-camaatın üçüncü rəkətidir) iki səcdəni yerinə yetirdikdən sonra təşəhhüdü vacib miqdarda desin, sonra ayağa qalxıb üçüncü rəkəti yerinə yetirsin. Əgər təsbihati-ərbə`əni üç dəfə deməyə vaxt çatmırsa, onu bir dəfə desin və rükuda özünü imam-camaata çatdırsın. Namazın davamını da qeyd edilən qaydada qılsın.**

## Üçüncü və dördüncü rəkətlərdə iqtida etmək

**Məsələ 749.** **Əgər məmum imam-camaatın üçüncü və ya dördüncü rəkətlərində ona iqtida etsə, "Həmd" və "Surə"ni oxumalıdır. Əgər "Surə"ni oxumağa vaxt çatmazsa, təkcə "Həmd"i oxumalı və rükuda özünü imam-camaata çatdırmalıdır.**

**Məsələ 750.** **Əgər məmum bilsə ki, "Surə"ni oxuduğu təqdirdə rükuda imam-camaata çatmayacaqdır, "Surə"ni oxumamalıdır. Əgər oxusa və rükuda imam-camaata çatmasa, onun namazı furada namaza çevrilir.**

**Məsələ 751.** **Əgər imam-camaat namazın üçüncü və ya dördüncü rəkətində olsa və məmum bilsə ki, iqtida edib "Həmd"i oxuduğu təqdirdə rükuda imam-camaata çatmayacaqdır, ehtiyat-vacibə görə, imam-camaat rükuya gedənədək gözləməli və rükuda ikən ona iqtida etməlidir.**

**Məsələ 752.** **Əgər bir şəxs imam-camaat namazın axırıncı rəkətinin təşəhhüdünü oxuyarkən camaat namazına çatsa, camaat namazının savabına nail olmağı istədiyi təqdirdə niyyət etməli və təkbirətul-ehramı deyib əyləşməli, namazın təşəhhüdünü imam-camaatla birlikdə oxumalıdır. Daha sonra ayağa qalxıb namazını davam etdirməlidir, yəni "Həmd" və "Surə"ni oxumalı və bunu öz namazının birinci rəkəti hesab etməlidir. Bu əməl camaat namazının axırıncı təşəhhüdünə aiddir və camaat namazının savabına nail olmaqdan ötrüdür. Bu əməli üçrəkətli və dördrəkətli namazların ikinci rəkətinin təşəhhüdündə etmək olmaz.**

## Niyyəti camaat namazından furada namaza dəyişmək

**Məsələ 753.** **Camaat namazı əsnasında niyyəti furada namaza dəyişmək və namazın davamını tək halda qılmaq olar. Hətta əgər bir şəxs elə namazın əvvəlindən bu niyyətdə olsa, namaz düzgündür. Amma namazın əvvəlindən bu niyyətdə olmamaq ehtiyat-müstəhəbə müvafiqdir.**

**Məsələ 754.** **Əgər imam-camaat "qiraət"i tamamladıqdan sonra məmum furada namaz niyyəti etsə, "qiraət"i oxuması lazım deyildir. Amma əgər "qiraət" əsnasında furada namaz niyyəti etsə, "Həmd" tamamlandıqdan sonra niyyətini furada namaza dəyişdiyi təqdirdə "Həmd"i oxuması lazım deyildir. Amma əgər "Həmd" və ya "Surə" əsnasında niyyətini furada namaza dəyişsə, ehtiyat-vacibə görə, (qəsdi-vurud ilə deyil) "mütləq qəsdi-qürbət" ilə onu əvvəldən oxumalıdır.**

**Məsələ 755.** **Əgər məmum camaat namazı əsnasında niyyətini furada namaza dəyişsə, ehtiyat-vacibə görə, yenidən camaat namazı niyyəti edə bilməz, baxmayaraq ki, çox az bir fasilədən sonra fikrindən daşınmışdır. Həmçinin əgər furada namaz niyyəti edib-etməməkdə tərəddüd etsə, ehtiyat-vacibə görə, namazını furada olaraq tamamlamalıdır.**

## Camaat namazının müstəhəb və məkruh əməlləri

**Məsələ 756.** Yaxşı olar ki, imam-camaat cərgənin ortasında dayansın və elm, kamal və təqva əhli birinci cərgədə dayansınlar.

**Məsələ 757.** Müstəhəbdir ki, camaat namazının cərgələri münəzzəm və düz olsun, eyni bir cərgədə dayanan məmumlar arasında məsafə olmasın və onların çiyinləri bir xətt üzrə olsun.

**Məsələ 758.** “Qəd qamətis-səlah” deyildikdən sonra məmumların ayağa qalxmaları müstəhəbdir.

**Məsələ 759.** İmam-camaatın fiziki baxımdan zəif olan məmumların vəziyyətini nəzərə alması və tələsməməsi müstəhəbdir, belə ki, zəif insanlar özlərini ona çatdıra bilsinlər.

**Məsələ 760.** Müstəhəbdir ki, imam-camaat ucadan qılınan namazların “Həmd” və “Surə”sini oxuyarkən və zikrləri ucadan deyərkən səsini başqaları eşidəcək həddə ucaltsın. Amma səsini həddən artıq ucaltmamalıdır.

**Məsələ 761.** Əgər imam-camaat rükuda ikən başa düşsə ki, kimsə namaza yenicə çatıb və iqtida etmək istəyir, rükunu adi miqdardan iki dəfə çox uzatması, sonra rükudan qalxması müstəhəbdir. Baxmayaraq ki, başqa bir şəxsin də yenicə çatdığını və iqtida etmək istədiyini başa düşmüşdür.

**Məsələ 762.** Əgər camaat namazının cərgələrində yer olsa, ayrıca bir cərgədə tək dayanmaq məkruhdur.

**Məsələ 763.** Məmumun namazın zikrlərini imam-camaat eşidəcək şəkildə deməsi məkruhdur.

## Cümə namazı

**Cümə namazı müsəlmanların həftəlik toplantısıdır. Bu toplantının əsas məqsədi isə Allahı yad etmək və Allaha bəndəlik etməkdir. İmam-cümənin söylədiyi xütbələr həm öyüd-nəsihət və maarifləndirmə xarakteri, həm də müsəlman cəmiyyətini məlumatlandırmaq məqsədi daşıyır. Cümə namazı İslam hökumətinin göstəricilərindən olub, siyasi və idarəçilik yönünə malikdir. Həmçinin İslam ümmətinin şövkəti və dini hakimiyyətin iqtidarını nümayiş etdirir. Bildiyiniz kimi, Qurani-Kərimdə "Cumuə" adlı surə vardır və bu surədə müsəlmanlara əmr olunur ki, cümə günləri cümə namazına tərəf tələssinlər. Bunun özü cümə namazının əhəmiyyətini göstərir. Cümə namazı müsəlmanları bir yerə cəm edir, düşmənlərin zəhərli təbliğatlarını zərərsizləşdirir, müsəlmanlara İslam aləminin qlobal məsələlərini və onların ictimai vəzifələrini tanıtdırır. Cümə namazı həm də bir növ səfərbərlikdir. Bu toplantıda davamlı şəkildə iştirak etmək İslam ümməti ilə həmrəylik və İslam hakimiyyətinin amallarına sədaqət nişanəsidir.**

**Məsələ 764.** **Cümə günü zöhr namazının yerinə qılınan cümə namazı hazırkı dövrdə (yəni İmam Zamanın (ə.f) qeyb dövründə) "təxyiri vacib" əməldir[1].**

**Məsələ 765.** **Cümə namazında iştirak etməmək əgər bu namaza əhəmiyyət verməməkdən qaynaqlanarsa, şəri baxımdan bəyənilmir.**

---

[1] Yəni mükəlləf cümə günü cümə namazını və ya zöhr namazını qılmaqda seçim edə bilər.

## Cümə namazının şərtləri

**Məsələ 766. Cümə namazının düzgün olmasının şərtləri aşağıdakılardan ibarətdir:**

**1- Cümə namazı camaatla qılınmalıdır;**

**2- Namazda iştirak edənlərin sayı ən azı beş nəfər olmalıdır (bir nəfər imam-cümə və dörd nəfər məmum);**

**3- Camaat namazının bütün şərtləri, məsələn, cərgələrin bir-birinə birləşməsi cümə namazında da riayət olunmalıdır;**

**4- Təşkil edilən iki cümə namazı arasındakı məsafə ən azı bir fərsəx[1] olmalıdır.**

**Məsələ 767. Namazı qəsr olan müsafir şəxs cümə namazında iştirak edə və zöhr namazının yerinə cümə namazını qıla bilər.**

**Məsələ 768. İki cümə namazı arasındakı məsafə dedikdə, cümə namazlarının təşkil edildiyi şəhərlər arasındakı məsafə deyil, cümə namazlarının qılındığı yerlər arasındakı məsafə nəzərdə tutulur.**

**Məsələ 769. Əgər təşkil edilən iki cümə namazı arasındakı məsafə bir fərsəxdən az olsa, daha tez qılınan namaz düzgündür, digər namaz isə düzgün deyildir. Amma əgər hər ikisi eyni zamanda qılınarsa, heç biri düzgün deyildir.**

---

[1] Bir fərsəx təxminən 5125 metrdir.

## İmam-cümənin şərtləri

**Məsələ 770.** İmam-camaatın bütün şərtləri, məsələn, ədalətli olmaq imam-cümədə də olmalıdır.

**Məsələ 771.** Əgər bir şəxs imam-cüməyə iqtida edərkən onun ədalətli bir şəxs olduğuna əmin idisə, amma namazdan sonra onun ədalətinə şəkk edərsə və ya onun ədalətli bir şəxs olmadığına dair onda yəqinlik hasil olarsa, bu imam-cüməyə iqtida edərək qıldığı namazlar düzgündür.

**Məsələ 772.** Əgər bir şəxsin imam-cümə təyin edilməsi onun ədalətli bir şəxs olduğuna dair məmumda əminlik yaradarsa, bu, ona iqtida etməyin düzgün olması baxımından kifayət edir.

## Cümə namazının vaxtı

**Məsələ 773.** **Cümə namazının vaxtı şəri zöhr daxil olduqda başlanır. Ehtiyat-vacibə görə, cümə namazı zöhr namazının ürfə görə əvvəl vaxtı sayılan vaxtda qılınmalı və yubadılmamalıdır.**

**Məsələ 774.** **İmam-cümə cümə namazının xütbələrini şəri zöhrdən qabaq söyləyə bilər.**

## Cümə namazının qaydası

**Məsələ 775.** **Cümə namazı iki rəkətdir və iki xütbəsi vardır. Xütbələri imam-cümə namazdan qabaq söyləyir.**

**Məsələ 776.** **Ehtiyata görə, cümə namazının "Həmd" və "Surə"si uca səslə oxunmalıdır. Birinci rəkətdə "Həmd"dən sonra "Cumuə" surəsini, ikinci rəkətdə isə "Həmd"dən sonra "Munafiqun" surəsini oxumaq müstəhəbdir. Həmçinin iki qunut tutmaq (bir qunut birinci rəkətdə rükudan qabaq, digər qunut ikinci rəkətdə rükudan sonra) müstəhəbdir.**

## İmam-cümənin vəzifələri

**Məsələ 777.** **İmam-cümə (başqa şəxs deyil) xütbələri ayaq üstə dayanıb söyləməlidir. Əgər o, ayaq üstə dayanıb xütbələri söyləyə bilmirsə, başqa bir şəxs xütbələri söyləməli və cümə namazını qılmalıdır.**

**Məsələ 778.** **İmam-cümənin birinci xütbədən sonra və ikinci xütbədən qabaq bir qədər əyləşməsi vacibdir.**

**Məsələ 779.** **İmam-cümə cümə xütbələrini asta səslə söyləyə bilməz. Ehtiyat-vacibə görə, o, xütbələri elə bir şəkildə uca səslə söyləməlidir ki, cümə namazı üçün tələb olunan ən az sayda adam (yəni dörd nəfər) onun səsini eşitməlidir. Hətta moizə edərkən və təqvaya çağırarkən səsucaldan vasitəsilə olsa belə, səsini hamıya çatdırması ehtiyat-müstəhəbə müvafiqdir.**

**Məsələ 780.** **Birinci xütbədə imam-cümə Allaha həmd-səna deməli və sonra Həzrət Peyğəmbərə (s) salavat göndərməlidir, həmçinin camaatı təqvalı olmağa çağırmalı və kiçik bir Quran surəsi oxumalıdır. İkinci xütbədə də Allaha həmd-səna deməli və Həzrət Peyğəmbərə (s) salavat göndərməlidir. Ehtiyat-vacibə görə, ikinci xütbədə də camaatı təqvalı olmağa çağırmalı və kiçik bir Quran surəsi oxumalıdır. İkinci xütbədə Həzrət Peyğəmbərə (s) salavat göndərdikdən sonra Məsum İmamlara (ə) salam göndərməsi və möminlər üçün Allahdan bağışlanma diləməsi ehtiyat-müstəhəbə müvafiqdir.**

## Cümə namazında iştirak edənlərin vəzifələri

**Məsələ 781.** **Ehtiyata görə, cümə namazında iştirak edənlər imam-cümənin xütbələrinə qulaq asmalı və sakit dayanıb danışmamalıdırlar.**

**Məsələ 782.** **Ehtiyat-müstəhəbə görə, imam-cümə xütbə söyləyərkən məmumlar üzü imam-cüməyə tərəf dayansınlar və namazda icazə verilən miqdardan çox olmayaraq üzlərini qiblədən çevirməsinlər.**

**Məsələ 783.** **Əgər məmum cümə xütbələrinə əsla yetişməsə və namaza başlananda yetişib imam-cüməyə iqtida etsə, onun namazı düzgündür və zöhr namazını əvəz edir. Hətta axırıncı rəkətin rükusundan bir neçə an əvvəl cümə namazına çatsa, cümə namazı niyyətilə iqtida edə bilər, sonra ikinci rəkəti cümə namazının ikinci rəkəti kimi qıla bilər. Bu namaz da zöhr namazını əvəz edir.**

## Cümə namazının müxtəlif məsələləri

**Məsələ 784.** **Cümə namazı müsəlmanların vəhdətini nümayiş etdirən bir ayindir. Odur ki, möminlər arasında ixtilaf və pərakəndəlik yaradan işlərə icazə verilmir.**

**Məsələ 785.** **Cümə gününün əsr namazını imam-cümədən qeyri bir şəxsə iqtida etməyin maneəsi yoxdur.**

**Məsələ 786.** **Cümə namazında iştirak etməyən şəxs zöhr namazını vaxtın əvvəlində qıla bilər və cümə namazının bitməsini gözləməsi lazım deyildir.**

**Məsələ 787.** **Cümə günü cümə namazının qılındığı yerə yaxın bir yerdə zöhr namazının camaatla qılınmasının öz-özlüyündə maneəsi yoxdur. Amma nəzərə alsaq ki, bu iş möminlər arasında təfriqə yarada, yaxud cümə namazına etinasızlıq hesab oluna, yaxud da imam-cüməyə qarşı hörmətsizlik sayıla bilər, bu camaat namazını təşkil etməmək daha yaxşıdır. Əksinə, əgər bu işin hansısa bir fəsadı olarsa və ya haram bir işlə yanaşı olarsa, bu camaat namazı təşkil edilməməlidir.**

# ORUC

**Oruc – səmavi dinlərdə insanın kamilləşməsinə xidmət edən ən mühüm ibadətlərdən biridir. Bu ibadət İslam şəriətindən öncəki şəriətlərdə də vacib buyurulmuşdur. İslam şəriətində orucu mübarək Ramazan ayında tutmaq əmr olunub.**

**Oruc insanda mənəvi hal yaradır, insanın daxili aləminə səfa və saflıq gətirir. Aclıq və susuzluğu dadan insanda məhrum təbəqənin dərdinə şərik olmaq hissi oyanır. Oruc insanın iradəsini gücləndirir və nəfsi istəklər qarşısında dayanmaq gücünü artırır. Oruc insanda cinsi istəkləri zəiflədir, çətin vəziyyətlərdə ona dözümlü olmağı öyrədir. Eyni zamanda, insana Qiyamətin aclıq və susuzluğunu xatırladır. Bir sözlə, oruc mənəviyyatlı, iradəli, dözümlü və qane olan insanlar tərbiyə edir.**

**Orucun insan bədəninə və orqanizminə olan faydaları da tibb elmində sübuta yetmişdir. Həzrət Peyğəmbərin "Oruc tutun, sağlam olun" kəlamı məhz bu məsələyə toxunur. Orucun mənəvi və maddi faydalarından əlavə, Mütəal Allah oruc tutanlara böyük savablar vəd etmişdir. Allah övliyaları Ramazan ayının vacib orucundan əlavə, çoxlu müstəhəb oruclar tutur və bunu Allaha yaxınlaşmaq üçün bir yol bilirlər.**

**Məsələ 788.** **Müqəddəs İslam şəriətində oruc odur ki, insan "sadiq fəcr"[1] doğandan "şəri məğribə"dək Allahın əmrinə itaət etmək niyyətilə orucu pozan işləri yerinə yetirməməlidir. Orucu pozan işlər qarşıdakı məsələlərdə geniş izah olunacaqdır.**

---

[1] "Fəcr" sözü burada "işıq kütləsi" mənasında işlənir. Sübh vaxtı gündoğan tərəfdə iki növ işıq müşahidə olunur. Bunlardan biri "kazib fəcr", digəri isə "sadiq fəcr" adlanır. "Kazib fəcr" o işıqdır ki, "sadiq fəcr" doğmamışdan bir qədər əvvəl səmada əmələ gəlir və üfüq boyunca yayılmaq əvəzinə, şaquli şəkildə və üzü yuxarıya doğru saçır. Dəqiqələr sonra üfüq xəttində zəif bir ağ işıq əmələ gəlir və üfüq boyunca yayılmağa başlayır, getdikcə də işığın şiddəti artır. Bu işıq "sadiq fəcr" adlanır.
"Sadiq fəcr" doğarkən zəif bir işıq olduğuna görə, onu müşahidə edə bilmək üçün şərq tərəfin üfüqü tam açıq və qaranlıq olmalıdır. Şəhərlərin daxilində onu müşahidə etmək olduqca çətindir. "Sadiq fəcr"in doğduğunu dəqiqliklə müəyyən etməyin çətin olduğunu nəzərə alaraq, ehtiyata riayət etmək məqsədilə azan başlayanda oruc üçün imsak etmək və təxminən on dəqiqə sonra sübh namazını qılmaq lazımdır.

## Orucu vacib edən şərtlər

**Məsələ 789.** **Orucu vacib edən şərtlər aşağıdakılardır:**

**1- Şəri həddi-büluğa çatmaq; 2- Ağıllı olmaq; 3- Oruc tutmağa qadir olmaq; 4- Huşsuz vəziyyətdə olmamaq; 5- Səfərdə olmamaq; 6- Qadının heyzli və nifaslı olmaması; 7- Orucun ziyanlı olmaması; 8- Orucun əziyyətli olmaması.**

**Məsələ 790.** **Oruc tutmaq yuxarıdakı şərtlərə malik olan şəxslərə vacib olur. Deməli, həddi-büluğa çatmayan uşağa, dəli insana, huşunu itirən şəxsə, oruc tutmağa qüvvəsi çatmayan insana, səfərdə olan şəxsə, heyzli və nifaslı qadına, oruc tutmağın ona ziyanı və ya əziyyəti (çox böyük çətinliyi) olan şəxsə oruc tutmaq vacib deyildir.**

**Məsələ 791.** **Əgər uşaq Ramazan ayında sübh azanından qabaq həddi-büluğa çatsa, həmin günün orucunu tutmalıdır. Amma əgər sübh azanından sonra həddi-büluğa çatsa, həmin günün orucu ona vacib olmur.**

**Məsələ 792.** **Şəri büluğ yaşına yeni çatan qızlara[1] oruc tutmaq vacibdir. Çətin olduğuna, halsızlıq yaratdığına və bu kimi başqa səbəblərə görə onlar orucu tərk edə bilməzlər. Amma əgər oruc tutmağın onlara ziyanı olarsa və ya böyük çətinlik yaradarsa, bu hallarda oruc tutmamalarına icazə verilir.**

**Məsələ 793.** **Heyzli və ya nifaslı qadının orucu düzgün deyildir. Hətta əgər bir qadın şəri məğribə bir neçə dəqiqə qalarkən heyz olsa və ya uşaq dünyaya gətirsə, onun orucu pozulur. Həmçinin əgər bir qadın sübh namazının vaxtı daxil olduqdan bir neçə dəqiqə sonra heyzdən və ya nifasdan paklanarsa, həmin günün orucu düzgün deyildir.**

**Məsələ 794.** **Əgər bir şəxs orucun ona ziyanı olduğunu bilsə və ya məntiqi ehtimal etsə (yəni orucun ona ziyanı olacağından qorxsa), oruc tutmaq ona vacib olmur. Əksinə, bəzi hallarda oruc tutmaq ona haramdır. Bu yəqinlik və ya qorxu, istər şəxsi təcrübə əsasında, istər etibarlı həkimin sözləri əsasında hasil olsun, istərsə də bunun başqa bir məntiqi əsası olsun, fərqi yoxdur. Əgər bu şəxs oruc tutsa, orucu düzgün deyildir. Yalnız o halda düzgün olar ki, qəsdi-qürbət ilə oruc tutmuş və sonradan orucun ona ziyanı olmadığı məlum olmuşdur.**

**Məsələ 795.** **Əgər bir şəxs orucun ona ziyanı olmadığını bilib oruc tutsa, amma məğribdən sonra orucun ona ziyanı olduğunu başa düşsə, onun orucu düzgün deyildir və orucun qəzasını tutmalıdır.**

**Məsələ 796** **İnsanın özü müəyyən etməlidir ki, oruc tutmaq onda xəstəlik yarada bilər, yaxud onun xəstəliyini ağırlaşdıra bilər, yaxud oruc tutmağa onun qüvvəsi çatmır və ya orucun ona ziyanı vardır. Deməli, əgər həkim bir şəxsə: "Orucun sənə ziyanı vardır" – desə, amma həkimin sözü bu şəxsdə orucun ona ziyanı olacağına dair əminlik və ya qorxu yaratmasa, yaxud da bu şəxs öz təcrübəsi əsasında orucun ona ziyanı olmadığını bilsə, bu şəxs oruc tutmalıdır. Həmçinin əgər həkim bir şəxsə: "Orucun sənə ziyanı yoxdur" – desə, amma bu şəxs orucun ona ziyanı olduğunu bilsə və ya məntiqi bir əsasla orucun ona ziyanı olacağından qorxsa, bu şəxs oruc tutmamalıdır. Oruc tutmaq ona haramdır.**

**Məsələ 797.** **Əgər xəstə bir insan Ramazan ayında gündüz vaxtı sağalsa, həmin gün oruc niyyəti edib oruc tutması lazım deyildir. Amma əgər zöhrdən qabaq sağalarsa və bu vaxtadək orucu pozan bir iş görməyibdirsə, niyyət edib oruc tutması ehtiyat-müstəhəbə müvafiqdir. Ramazan ayından sonra isə bu orucun qəzasını tutmalıdır.**

**Məsələ 798.** **Müstəhəb oruc o halda düzgündür ki, insanın boynunda Ramazan ayının qəza orucu, həmçinin ehtiyat-vacibə görə, başqa bir vacib oruc olmamalıdır.**

**Məsələ 799.** **Əgər boynunda qəza orucu olan bir şəxs bilməsə ki, qəza orucu olan şəxsin müstəhəb oruc tutması düzgün deyildir və bu səbəbdən müstəhəb oruc tutsa, onun orucu düzgün deyildir. Tutduğu oruc qəza orucunun yerinə belə hesab olunmur.**

**Məsələ 800.** **Əgər bir şəxs boynunda qəza orucunun olub-olmadığını bilməsə və bu səbəbdən üzərinə düşən vəzifə (həm qəza, həm də müstəhəb oruc) niyyətilə oruc tutsa, amma əslində, onun boynunda qəza orucu olsa, tutduğu oruc qəza orucu hesab edilir.**

**Məsələ 801.** **Əgər bir şəxsin boynunda Ramazan ayının qəza orucu olsa, amma o, bunu unutsa və müstəhəb oruc tutsa, gündüz ərzində bunu xatırladığı təqdirdə, onun müstəhəb orucu pozulur. Əlbəttə, əgər zöhrdən qabaq bunu xatırlasa, Ramazan ayının qəza orucunun niyyətini edə bilər. Amma əgər zöhrdən sonra xatırlasa, qəza orucunun niyyətini etməsi düzgün deyildir.**

---

[1] Məşhur rəyə görə, qızlarda şəri büluğ yaşı qəməri təqvimi ilə doqquz yaşın tamamlanmasıdır (miladi təqvim ilə 8 il 8 ay 23

gün edir).

## Orucun vacib əməlləri

**Məsələ 802. Orucda iki məsələyə əməl olunmalıdır:**

**1- Niyyət;**

**2- Orucu pozan işləri yerinə yetirməmək.**

## 1- Niyyət

**Məsələ 803.** **Başqa ibadətlərdə olduğu kimi, orucda da niyyət etmək vacibdir. Yəni Allahın əmrinə itaət etmək niyyətilə yeyib-içməkdən və orucu pozan digər işlərdən çəkinmək lazımdır. Əlbəttə, bu işi yerinə yetirməyi qərara almaq kifayət edir və onu dilə gətirməyə ehtiyac yoxdur.**

**Məsələ 804.** **Mübarək Ramazan ayının orucunu tutarkən mükəlləfin hansı orucu tutduğunu müəyyən etməsi lazım deyildir və təkcə oruc niyyəti etməsi kifayət edir. Amma Ramazan ayının orucundan qeyri bir orucu tutarkən mükəlləf, ümumi də olsa, hansı orucu tutduğunu müəyyən etməlidir. Məsələn, əgər bir şəxsin boynunda təkcə qəza orucu varsa, o, ya birbaşa qəza orucunun niyyətini etməli, ya da ümumi olaraq boynunda olan orucu tutduğunu niyyət etməlidir. Əgər onun boynunda bir neçə oruc, məsələn, qəza və nəzir orucu varsa, hansı orucu tutduğunu müəyyən etməlidir.**

**Məsələ 805.** **Əgər mükəlləf boynunda hansısa bir orucun olduğunu bilsə, amma dəqiqliklə hansı oruc olduğunu bilməsə, o, “ma fiz-zimmə” (boynumda olan vəzifə) niyyəti edə bilər.**

**Məsələ 806.** **Əgər şaban ayının axırıncı günü, yoxsa Ramazan ayının birinci günü olduğu məlum olmasa (bu gün “şəkk günü” adlanır)[1], həmin gün oruc tutmaq vacib deyildir. Əgər bir şəxs həmin gün oruc tutmaq istəsə, Ramazan ayının orucunun niyyətini edə bilməz. Şaban ayının axırıncı gününün müstəhəb orucu, yaxud qəza orucu və ya bu kimi oruc niyyəti edib, oruc tuta bilər. Amma əgər sonradan Ramazan ayı olduğu məlum olsa, bu oruc Ramazan ayının orucu hesab olunacaq və onun qəzasını tutmaq lazım deyildir. Əgər o, gün əsnasında Ramazan ayı olduğunu başa düşsə, həmin andan etibarən Ramazan ayının orucunun niyyətini etməlidir.**

---

[1] **Əgər qəməri ayının iyirmi doqquzuncu günü ayın hilalını hava buludlu olduğuna və ya başqa bir səbəblə əlaqədar görə bilməsələr, yaxud ayın göründüyünə dair fikirayrılığı yaransa, həmin gün “şəkk günü” adlanır. Beləliklə, əgər şaban ayının axırıncı günü, yoxsa Ramazan ayının birinci günü olduğuna dair şəkk edilsə, həmin gün şaban ayının axırıncı günü hesab olunacaq. Həmin gün müstəhəb və ya qəza orucu niyyətilə oruc tutmaq olar, amma Ramazan ayının orucu niyyətilə oruc tutmaq olmaz və haramdır. Həmçinin əgər Ramazan ayının axırıncı günü, yoxsa şəvval ayının birinci günü olduğuna dair şəkk edilsə, Ramazan ayının axırıncı günü hesab olunacaq və oruc tutmaq vacibdir.**

## a) Ramazan ayının orucunun niyyəti

**Məsələ 807.** **Nəzərə alsaq ki, oruc "sadiq fəcr" doğan andan etibarən başlanır, orucun niyyətini etməyin vaxtı da həmin an başa çatır. Daha yaxşı olar ki, fəcr yaxınlaşmamışdan qabaq orucun niyyəti edilsin.**

**Məsələ 808.** **Oruc tutan şəxs Ramazan ayının hər gecəsində sabahkı günün orucu üçün niyyət edə bilər. Amma yaxşı olar ki, ayın birinci gecəsi bütün ayın orucu üçün niyyət etsin və hər gecə niyyətini yeniləsin.**

**Məsələ 809.** **Əgər bir şəxs gecənin əvvəlində sabah oruc tutacağını niyyət etsə, daha sonra yatsa və sübh namazının vaxtı daxil olduqdan sonra yuxudan oyansa, yaxud da bir işlə məşğul olduğuna görə sübh namazının vaxtının daxil olduğundan xəbərsiz olsa və bunu sonradan başa düşsə, onun orucu düzgündür.**

**Məsələ 810.** **Ramazan ayında Ramazan orucundan qeyri bir orucun niyyətini etmək olmaz. Ramazan ayının orucunu tuta bilməyən müsafir şəxs isə istisna təşkil edir, belə ki, o, səfərdə müstəhəb oruc tutacağını nəzir etmişdir və buna görə də Ramazan ayında onun tutduğu müstəhəb oruc düzgündür[1].**

**Məsələ 811.** **Əgər bir şəxs Ramazan ayının gecəsində bilərəkdən fəcr doğanadək oruc niyyəti etməsə, o, gün əsnasında oruc niyyəti etsə belə, orucu düzgün deyildir. Amma həmin gün məğribədək orucu pozan bütün işlərdən çəkinməli və Ramazan ayından sonra həmin günün orucunun qəzasını tutmalıdır.**

**Məsələ 812.** **Əgər bir şəxs Ramazan ayında unutduğuna və ya məsələni bilmədiyinə görə oruc niyyəti etməsə və bunu gün əsnasında başa düşsə (istər şəri zöhrdən qabaq başa düşmüşdür, istərsə də şəri zöhrdən sonra başa düşmüşdür), orucu pozan bir iş gördüyü təqdirdə, oruc niyyəti edə bilməz. Amma əgər orucu pozan bir iş görməyibdirsə, zöhrdən sonra başa düşdüyü təqdirdə, oruc niyyəti etməsi düzgün deyildir. Buna baxmayaraq, məğribədək orucu pozan işlərdən çəkinməlidir. Amma əgər zöhrdən qabaq başa düşsə, ehtiyat-vacibə görə, oruc niyyəti edib oruc tutmalı və sonradan həmin günün orucunun qəzasını tutmalıdır.**

---

[1] Bunu da bilməlisiniz ki, Ramazan ayında tutulan nəzir orucu Ramazan ayının orucu hesab olunmur və onun qəzasını sonradan tutmaq lazımdır.

## b) Ramazan ayının orucundan qeyri bir orucun niyyəti

**Məsələ 813.** **Əgər bir şəxs Ramazan ayının orucundan qeyri bir "günü müəyyən olan vacib oruc" tutmalıdırsa, məsələn, müəyyən bir gün oruc tutmağı nəzir edibdirsə, o, bilərəkdən fəcr doğanadək oruc niyyəti etmədiyi təqdirdə, orucu düzgün deyildir. Amma əgər oruc niyyəti etməyi unudubdursa və şəri zöhrədək bunu xatırlayarsa, oruc niyyəti edə bilər.**

**Məsələ 814.** **Əgər bir şəxs "günü müəyyən olmayan vacib oruc", məsələn, kəffarə və ya qəza orucu üçün şəri zöhrədək (istər bilərəkdən, istərsə də səhvən) niyyət etməsə, həmin vaxtadək orucu pozan bir iş görmədiyi təqdirdə, oruc niyyəti edə bilər və orucu düzgündür. Amma zöhrdən sonra oruc niyyəti düzgün deyildir.**

**Məsələ 815.** **Müstəhəb oruc üçün günün istənilən vaxtı niyyət etmək olar, amma bu şərtlə ki, oruc tutmaq istəyən şəxs niyyət etdiyi vaxtadək orucu pozan bir iş görməyibdir.**

## Niyyətin davam etməsi

**Məsələ 816.** **“Günü müəyyən olan vacib oruc”da (məsələn, Ramazan ayının orucu və ya günü müəyyən olan nəzir orucunda) niyyət fəcr doğandan şəri məğribədək davam etməlidir. Beləliklə, əgər bir şəxs gün əsnasında oruc niyyətindən dönsə və orucu davam etdirmək niyyətində olmasa, orucu pozulur. Hətta orucu davam etdirmək üçün yenidən niyyət etməsinin faydası yoxdur. Amma eyni zamanda şəri məğribədək orucu pozan işləri görməməlidir.**

**Məsələ 817.** **Əgər bir şəxs “günü müəyyən olan vacib oruc”da orucu davam etdirib-etdirməməkdə tərəddüd etsə, yaxud orucu pozan işlərdən birini yerinə yetirməyi qərara alsa, amma bu işi yerinə yetirməsə, ehtiyat-vacibə görə, orucu başa çatdırmalı və sonradan orucun qəzasını da tutmalıdır.**

**Məsələ 818.** **Əgər bir şəxs müstəhəb orucda və ya “günü müəyyən olmayan vacib oruc”da orucu kəsməyi qərara alsa, yaxud orucu kəsib-kəsməməkdə tərəddüd etsə, orucu pozan bir iş görmədiyi təqdirdə, şəri zöhrədək “günü müəyyən olmayan vacib oruc”un niyyətini və şəri məğribədək müstəhəb orucun niyyətini edə bilər.**

## 2- Orucu pozan işləri yerinə yetirməmək

**Məsələ 819.** **Doqquz iş orucu pozur:**

**1- Yemək və içmək;**

**2- Cinsi əlaqədə olmaq;**

**3- Məninin xaric olmasına səbəb olan bir iş görmək (masturbasiya);**

**4- Sübh azanınadək cənabət, heyz və ya nifas qüslünü etməmək;**

**5- Maye bir şey ilə imalə etmək;**

**6- Qusmaq;**

**7- Mütəal Allahın, Həzrət Peyğəmbərin (s) və Məsum İmamların (ə) adından yalan demək (ehtiyat-vacibə görə);**

**8- Qatı tozu boğaza çatdırmaq (ehtiyat-vacibə görə);**

**9- Başı bütünlüklə suya salmaq (ehtiyat-vacibə görə).**

## 1- Yemək və içmək

**Məsələ 820.** Əgər oruc tutan şəxs bilərəkdən və şüurlu şəkildə bir şey yesə və ya içsə, onun orucu pozulur. Onun yeyib-içdiyi şey istər adi qidalardan biri olsun, istərsə də qeyri-qida (məsələn, kağız, parça və bu kimi bir şey) olsun, yaxud da istər çox olsun, istərsə də az olsun (məsələn, bir damcı su və ya bir çörək qırıntısı), bunun fərqi yoxdur.

**Məsələ 821.** Əgər oruc tutan şəxs səhvən bir şey yesə və ya içsə, onun orucu – istər vacib oruc olsun, istərsə də müstəhəb oruc olsun – pozulmur.

**Məsələ 822.** Əgər oruc tutan şəxs dişinin arasında qalan yemək qırıntısını bilərəkdən udsa, onun orucu pozulur. Amma əgər dişinin arasında yemək qırıntısı qaldığını bilməsə və ya onu bilərəkdən udmasa, orucu pozulmur.

**Məsələ 823.** Ağız suyunu udmaq orucu pozmur.

**Məsələ 824.** Əgər baş və sinədən gələn bəlğəm ağız boşluğuna daxil olmayıbsa, onu udmaq orucu pozmur. Amma əgər ağız boşluğuna daxil olubsa, ehtiyat-vacibə görə, onu udmaq olmaz.

**Məsələ 825.** Ehtiyat-vacibə görə, oruc tutan şəxs qidalandırıcı və qüvvətləndirici əzələ iynələrindən, damara vurulan iynələrdən, həmçinin hər növ sistemdən istifadə etməməlidir. Amma qidalandırıcı və qüvvətləndirici olmayan əzələ iynələrindən, məsələn, antibiotiklərdən, ağrıkəsicilərdən, keyidicilərdən, həmçinin yaranın üstünə qoyulan dərmanlardan istifadə edə bilər.

**Məsələ 826.** Ehtiyat-vacibə görə, oruc tutan şəxs hər növ tütün məhsulunun tüstüsündən, həmçinin burun yolu ilə və ya dilin altına qoymaqla istifadə edilən narkotik maddələrdən çəkinməlidir.

**Məsələ 827.** Əgər xəstəliyin müalicəsi üçün dərman içmək və ya bu kimi bir işi görmək zəruri olarsa, dərman içməyin və s. maneəsi yoxdur. Amma oruc pozulur və sonradan onun qəzasını tutmaq lazımdır.

**Məsələ 828.** Əgər dil altına qoyulan dərmanlardan istifadə edərkən ağız suyu dərmanla qarışarsa, bu ağız suyunu tüpükdükdə oruc düzgündür.

**Məsələ 829.** Əgər oruc tutmaq niyyətində olan şəxs yemək yediyi zaman sübh namazının vaxtının daxil olduğunu başa düşsə, ağzındakı yeməyi çıxarmalıdır. Əgər onu bilərəkdən udsa, orucu pozulur.

**Məsələ 830.** Ağız daxilinin qanaması orucu pozmur. Amma qanın boğaza çatmasının qarşısını almaq lazımdır.

**Məsələ 831.** Əgər damaq və ya dişdən gələn qan ağız suyuna qarışıb tamamilə aradan getsə, ağız suyu pak hökmündədir və onu udmaq orucu pozmur. Həmçinin əgər ağız suyunda qanın olduğuna şəkk olunarsa, onu udmağın maneəsi yoxdur və oruc düzgündür.

**Məsələ 832.** Uşaq üçün yeməyi ağızda çeynəmək, yeməyin dadına baxmaq və bu kimi işlər – belə ki, bu hallarda yemək adətən boğaza çatmır – orucu pozmur. Hətta əgər yemək qeyri-ixtiyari olaraq boğaza çatsa və boğazdan keçsə, yenə də oruc pozulmur. Amma əgər şəxs yeməyin boğaza çatacağını əvvəlcədən bilərsə, yemək boğazdan keçdiyi halda oruc pozulur.

**Məsələ 833.** Halsızlıq və zəifliyə görə orucu pozmağa icazə verilmir. Amma əgər halsızlıq və zəiflik elə bir həddə olsa ki, adətən ona dözmək olmur, bu halda orucu pozmağa icazə verilir. Sonradan isə orucun qəzasını tutmaq lazımdır.

## 2- Cinsi əlaqədə olmaq

**Məsələ 834.** Cinsi əlaqədə olmaq, hətta məni xaric olmasa belə, orucu pozur.

**Məsələ 835. Əgər oruc tutan şəxs oruc olduğunu unudarsa və cinsi əlaqədə olarsa, onun orucu pozulmur. Amma bunu xatırladığı an dərhal cinsi əlaqəni kəsməlidir. Əks halda, orucu pozulur.**

## 3- İstimna (masturbasiya)

**Məsələ 836. Əgər oruc tutan şəxs ondan məni xaric olmasına səbəb olan bir işi bilərəkdən görsə, orucu pozulur.**

**Məsələ 837. Əgər oruc tutan şəxs özündən məni xaric etmək məqsədilə bir iş görsə, məni xaric olmadığı təqdirdə, ehtiyat-vacibə görə, orucunu tamamlamalı və sonradan orucun qəzasını tutmalıdır.**

**Məsələ 838. Əgər oruc tutan şəxsdən yuxuda ikən və ya oyaqlıqda qeyri-ixtiyari olaraq məni xaric olsa, onun orucu pozulmur.**

**Məsələ 839. Gündüz vaxtı möhtəlim olmaq[1] orucu pozmur. Əgər oruc tutan şəxs bilsə ki, yatdığı təqdirdə möhtəlim olacaqdır, o, yata bilər.**

**Məsələ 840. Əgər oruc tutan şəxs məni xaric olmaqda ikən yuxudan ayılsa, məninin xaric olmasının qarşısını alması vacib deyildir.**

**Məsələ 841. Əgər oruc tutan şəxs Ramazan ayının gündüzündə və ya oruc tutduğu digər günlərdə yuxuda ikən cənabətli olsa, ayıldıqdan sonra dərhal qüsl etməsi vacib deyildir.**

---

[1] Yuxuda ikən məninin xaric olması

## 4- Sübh azanınadək cənabət, heyz və ya nifas qüslünü etməmək

**Məsələ 842.** **Əgər bir şəxs Ramazan ayının gecəsində cənabətli olsa, sübh namazının vaxtı daxil olmamışdan qabaq (yəni fəcr doğanadək) qüsl etməlidir. Əgər o, fəcr doğanadək bilərəkdən qüsl etməsə, orucu düzgün deyildir. Amma məğribədək orucu pozan işləri yerinə yetirməməlidir.**

**Məsələ 843.** **Əgər bir şəxs Ramazan ayının gecəsində cənabətli olsa və qeyri-ixtiyari olaraq sübh namazının vaxtı daxil olanadək qüsl etməsə, məsələn, yuxuda ikən cənabətli olsa və sübh namazının vaxtı daxil olduqdan sonra yuxudan ayılsa, onun orucu düzgündür.**

**Məsələ 844.** **Əgər qəza orucu tutmaq istəyən şəxs bilərəkdən sübh azanının vaxtı daxil olanadək cənabət qüslü etməsə, orucu düzgün deyildir. Əgər səhvən qüsl etməsə, ehtiyata görə, orucu düzgün deyildir.**

**Məsələ 845.** **Ramazan ayının gecəsində cənabətli olan bir şəxs bilir ki, yatdığı təqdirdə sübh azanından qabaq oyanacaqdır. Amma o, oyandıqdan sonra qüsl etmək istəmir və ya qüsl edib-etməyəcəyinə tərəddüd edir. Əgər bu şəxs yatsa və yuxudan oyanmasa, orucu düzgün deyildir.**

**Məsələ 846.** **Əgər oyaqlıqda cənabətli olan və ya yuxuda ikən cənabətli olduqdan sonra oyanan bir şəxs bilsə ki, yatdığı təqdirdə sübh azanınadək qüsl üçün oyana bilməyəcəkdir, o, qüsl etmədən yata bilməz. Əgər yatsa və sübh azanınadək qüsl edə bilməsə, orucu düzgün deyildir. Amma əgər sübh azanınadək qüsl üçün oyanacağını ehtimal etsə və qüsl etmək niyyətində də olsa, lakin oyana bilməsə, orucu düzgündür. Amma əgər o, oyandıqdan sonra yenidən yatsa və sübh azanınadək oyanmasa, həmin günün orucunun qəzasını tutmalıdır.**

**Məsələ 847.** **Əgər bir şəxs Ramazan ayında cənabət qüslünü unutsa və sübh namazının vaxtı daxil olduğu zaman o, cənabətli halda olsa, həmin gün onun orucu düzgündür. Amma əgər bu unutqanlıq bir neçə gün davam etsə, bu günlərin orucunun qəzasını tutmalıdır. Namazlar isə istənilən halda düzgün deyildir.**

**Məsələ 848.** **Əgər bir şəxs cənabətli halda qalmağın orucu pozub-pozmadığına şəkk etsə və cənabətli halda oruc tutsa, ehtiyat-vacibə görə, onun orucu düzgün deyildir[1] və orucun qəzasını da tutmalıdır. Amma əgər cənabətli halda qalmağın orucu pozmadığına yəqinliyi olsa və buna görə də oruc tutsa, orucu düzgündür. Baxmayaraq ki, ehtiyat üzrə orucun qəzasını tutmaq yaxşı olar.**

**Məsələ 849.** **Ramazan ayının gecəsində qüsl etməli olan şəxs əgər vaxt dar olduğuna və ya suyun ona ziyanı olduğuna və ya bu kimi başqa səbəblərə görə qüsl edə bilməsə, fəcr doğanadək qüsl əvəzinə təyəmmüm etməlidir.**

**Məsələ 850.** **Əgər Ramazan ayının gecəsində qüsl və təyəmmüm etmək üçün vaxt olmadığı bir halda oruc tutan şəxs özünü cənabətli etsə, onun orucu düzgün deyildir. Ona orucun həm qəzası, həm də orucu bilərəkdən açmağın kəffarəsi vacib olur. Amma əgər yalnız təyəmmüm etmək üçün vaxt olarsa və bu şəxs cənabətli olduqdan sonra fəcr doğanadək təyəmmüm edərsə, orucu düzgündür.**

**Məsələ 851.** **Vəzifəsi təyəmmüm etmək olan bir şəxs mübarək Ramazan ayının gecələrində cənabətə səbəb olan işi görə bilər. Amma bu şərtlə ki, cənabətli olduqdan sonra təyəmmüm etmək üçün kifayət qədər vaxt olmalıdır.**

**Məsələ 852.** **Əgər qadın heyz və ya nifas qanından paklanarsa, sübh namazının vaxtı daxil olanadək qüsl etməlidir. Əgər o, bilərəkdən qüsl etməzsə, orucu düzgün deyildir.**

**Məsələ 853.** **Əgər qadın oruc ikən heyz olsa və ya uşağı doğulsa, orucu pozulur.**

**Məsələ 854.** **Əgər qadın sübh azanından sonra heyz və ya nifas qanından paklansa, həmin gün oruc tuta bilməz.**

**Məsələ 855.** **Əgər qadın heyz və ya nifas qüslünü etməyi unutsa və bunu sonradan xatırlasa, bu müddət ərzində tutduğu oruclar – istər Ramazan ayının orucu olsun, istərsə də başqa oruclar olsun – düzgündür.**

---

[1] Orucun “ehtiyat-vacibə görə” düzgün olmadığı hallarda mükəlləf orucu tutmalı və sonradan onun qəzasını da yerinə yetirməlidir.

## 5- Maye bir şey ilə imalə etmək

**Məsələ 856. Maye bir şeylə imalə etmək, hətta çarəsizlik üzündən və müalicə üçün olsa belə, orucu pozur. Amma bərk şamlardan istifadə etməyin maneəsi yoxdur və orucu pozmur.**

## 6- Qusmaq

**Məsələ 857. Əgər oruc tutan şəxs bilərəkdən qussa, orucu pozulur. Baxmayaraq ki, xəstəliklə əlaqədar olaraq və ya başqa bir səbəbə görə qusmaq məcburiyyətində olmuşdur. Amma əgər səhvən və ya qeyri-ixtiyari olaraq qussa, orucu pozulmur.**

**Məsələ 858. Əgər gəyirərkən oruc tutan şəxsin ağzına bir şey gəlsə, onu ağzından çıxarmalıdır. Amma əgər onu qeyri-ixtiyari olaraq udsa, orucu düzgündür.**

## 7- Mütəal Allahın, Həzrət Peyğəmbərin (s) və Məsum İmamların (ə) adından yalan demək

**Məsələ 859.** **Mütəal Allahın, Həzrət Peyğəmbərin (s) və Məsum İmamların (ə) adından yalan demək – hətta insan sonradan tövbə etsə və onların adından yalan dediyini etiraf etsə belə – ehtiyat-vacibə görə, orucu pozur.**

**Məsələ 860.** **Əgər insan kitablarda yazılan hədislərin yalan olduğunu bilməsə və onları nəql etsə, iradı yoxdur. Amma hədisləri həmin kitablara istinadən nəql etməsi ehtiyat-müstəhəbə müvafiqdir.**

**Məsələ 861.** **Əgər bir şəxs bir sözün düzgün olduğunu bilib, onu Mütəal Allahın, ya Həzrət Peyğəmbərin (s) və ya Məsum İmamların (ə) adından desə, amma sonradan bu sözün səhv olduğunu başa düşsə, orucu pozulmur.**

**Məsələ 862.** **Əgər oruc tutan şəxs bilsə ki, Mütəal Allahın və Həzrət Peyğəmbərin (s) adından yalan demək orucu pozur, amma buna baxmayaraq, yalan söz olduğunu bildiyi bir sözü onların adından desə, sonradan isə bu sözün düzgün olduğu məlum olsa, ehtiyata görə, bu şəxs orucunu tamamlamalı və sonradan orucun qəzasını tutmalıdır.**

**Məsələ 863.** **Əgər oruc tutan şəxsdən soruşsalar ki, "Həzrət Peyğəmbər (s) belə bir söz buyurmuşdurmu?" və o, bilərəkdən həqiqətə zidd olan cavab versə, ehtiyata görə, onun orucu pozulur.**

## 8- Qatı tozu boğaza çatdırmaq

**Məsələ 864.** **Ehtiyat-vacibə görə, oruc tutan şəxs qatı tozu (məsələn, torpaqlı yeri süpürərkən qalxan tozu), həmçinin siqaretin və digər tütün məhsullarının tüstüsünü udmamalıdır. Əgər onları udarsa, ehtiyata görə, orucu pozulur.**

**Məsələ 865.** **Oruc tutan şəxs təngnəfəsliyə qarşı aerozol şəklində olan dərmandan istifadə edə bilər və onun orucu pozulmur.**

**Məsələ 866.** **Ağız və ya buruna daxil olan toz və tüstü boğaza çatmadığı təqdirdə, oruc pozulmur.**

**Məsələ 867.** **Əgər güclü külək qalxdığına görə havaya qatı toz-torpaq qalxsa və şəxs oruc olduğunu bildiyi halda özünü qorumasa, buna görə də toz-torpaq onun boğazına çatsa, ehtiyat-vacibə görə, onun orucu pozulur.**

**Məsələ 868.** **Əgər bir şəxs oruc olduğunu unutsa və toz-torpaq və ya bu kimi bir şey onun boğazına çatsa, orucu pozulmur. Həmçinin əgər toz-torpaq qeyri-ixtiyari olaraq insanın boğazına çatsa, orucu düzgündür.**

## 9- Başı bütünlüklə suya salmaq

**Məsələ 869.** **Əgər oruc tutan şəxs bilərəkdən başını bütünlüklə suya salsa, ehtiyat-vacibə görə, onun orucu pozulur və həmin günün orucunun qəzasını tutmalıdır.**

**Məsələ 870.** **Əvvəlki məsələni nəzərə alaraq, başı bütünlüklə suya salarkən bədənin də suda olmasının, yaxud təkcə başı suya salmağın fərqi yoxdur və hökm eynidir.**

**Məsələ 871.** **Əgər bir şəxs başının yarısını suya salsa və çıxarsa, sonra başın digər yarısını suya salsa, onun orucu pozulmur.**

**Məsələ 872.** **Əgər oruc tutan şəxs bilərəkdən başını bütünlüklə suya salsa, amma saçların bir hissəsi sudan xaricdə olsa, ehtiyat-vacibə görə, orucu pozulur.**

**Məsələ 873.** **Əgər oruc tutan şəxs başının bütünlüklə suya daxil olub-olmadığına şəkk etsə, orucu düzgündür.**

**Məsələ 874.** **Əgər oruc tutan şəxs qeyri-ixtiyari olaraq suya düşsə və onun başı bütünlüklə suya daxil olsa, yaxud onun başını məcburi şəkildə suya salsalar, orucu pozulmur. Amma o, başını sudan dərhal çıxarmalıdır. Həmçinin əgər oruc olduğunu unutsa və başını suya salsa, orucu pozulmur. Amma oruc olduğunu xatırladığı an başını sudan dərhal çıxarmalıdır.**

**Məsələ 875.** **Başa su tökmək və ya hamamda duşun altında dayanmaq orucu pozmur.**

## Orucu pozan işlərin bir sıra hökmləri

**Məsələ 876.** **Orucu pozan işlər (yemək, içmək və s.) bilərəkdən və ixtiyari şəkildə yerinə yetirildikdə oruc pozulur. Amma əgər bilərəkdən olmasa, məsələn, oruc tutan şəxsin ayağı sürüşüb dənizə düşsə və suda batsa, yaxud oruc olduğunu unudaraq yemək yesə, yaxud da onun boğazına zorla bir şey töksələr, orucu pozulmur.**

**Məsələ 877.** **Əgər oruc tutan şəxs orucu pozan bir işi səhvən yerinə yetirsə, sonra orucunun pozulduğunu düşünüb, yenidən bu işi bilərəkdən yerinə yetirsə, onun orucu pozulur.**

**Məsələ 878.** **Əgər oruc tutan şəxsi məcbur etsələr ki, orucu pozan bir işi yerinə yetirsin, məsələn, ona: "Əgər yemək yeməsən, sənin canına və ya malına ziyan vuracağıq" – desələr, o da ziyanı dəf etmək üçün özü yemək yesə, orucu pozulur.**

**Məsələ 879.** **Əgər oruc tutan şəxs orucu pozan bir işi yerinə yetirib-yetirmədiyinə şəkk etsə, məsələn, ağzına aldığı suyu udub-udmadığına şəkk etsə, onun orucu düzgündür.**

## Oruc tutan şəxsə məkruh olan işlər

**Məsələ 880. Oruc tutan şəxsə aşağıdakı işlər məkruhdur:**

**1- Halsızlığa səbəb olan hər bir iş (məsələn, qan vermək, hamama getmək və s.);**

**2- Ətirli bitkiləri qoxulamaq (ətir vurmaq məkruh deyildir);**

**3- Əynində olan paltarı islatmaq;**

**4- Rütubətli misvak çubuğu ilə dişləri təmizləmək;**

**5- Diş çəkdirmək, ümumiyyətlə, ağızdan qan gəlməsinə səbəb olan bir işi görmək;**

**6- Yeməyi dadmaq və bu kimi işləri görmək;**

**7- Boğaza çatmamaq şərtilə, buruna dərman tökmək;**

**8- Qoxusu və ya dadı boğaza çatdığı təqdirdə, gözə dərman tökmək və sürmə çəkmək;**

**9- Qadının suda əyləşməsi;**

**10- Həyat yoldaşına toxunmaq və şəhvətin oyanmasına səbəb olan hər hansı bir işi görmək;**

**11- Ağıza su alıb, ağızı yaxalamaq.**

## Orucun qəzası və kəffarəsinin vacib olduğu hallar

**Məsələ 881.** **Əgər bir şəxs mübarək Ramazan ayında orucu pozan işləri[1] bilərəkdən və ixtiyari olaraq və heç bir şəri üzr olmadan yerinə yetirsə, oruc pozulur və orucun qəzasından əlavə, ona orucu bilərəkdən pozmağın kəffarəsi də vacib olur. Bu şəxs istər orucun kəffarəsinin ona vacib olacağını bilsin, istərsə də bilməsin, fərqi yoxdur və kəffarə ona vacib olur.**

**Məsələ 882.** **Əgər bir şəxs müəyyən bir işin haram olduğunu bilsə, amma bu işin orucu pozduğunu bilməsə və bu işi görsə, orucun qəzasından əlavə, ehtiyat-vacibə görə, ona orucun kəffarəsi də vacib olur.**

**Məsələ 883.** **Əgər oruc tutan şəxsin daxilindən onun ağzına bir şey gəlsə, onu udmamalıdır. Əgər bilərəkdən onu udsa, orucun qəzası və kəffarəsi bu şəxsə vacib olur.**

**Məsələ 884.** **Əgər bir şəxs müəyyən gündə oruc tutmağı nəzir etsə, amma həmin gün bilərəkdən oruc tutmasa və ya orucunu pozsa, kəffarə verməlidir[2].**

**Məsələ 885.** **Əgər Ramazan ayında sözünə etibar edilməyən bir şəxs şəri məğrib olduğunu desə və oruc tutan şəxs onun sözünə əsasən iftar etsə, sonra isə məğrib olmadığını başa düşsə, ona orucun qəzası və kəffarəsi vacib olur.**

**Məsələ 886.** **Əgər bir şəxs orucunu bilərəkdən pozsa, həmin gün səfərə getsə belə, kəffarə onun öhdəsindən götürülmür.**

**Məsələ 887.** **Cinsi əlaqədə hər iki tərəfin orucu pozulur və onların hər ikisinə orucun qəzası və kəffarəsi vacib olur.**

---

[1] Qüsl etmədən yatan cənabətli şəxs istisna təşkil edir və onun hökmü əvvəlki məsələlərdə açıqlandı.

[2] Nəzir orucunun kəffarəsi on fəqiri yedizdirmək və ya geyindirməkdən ibarətdir. Buna maddi imkan olmadıqda, üç gün oruc tutulur.

## Orucu bilərəkdən pozmağın kəffarəsi

**Məsələ 888.** **Müqəddəs İslam şəriətində mübarək Ramazan ayının orucunu bilərəkdən pozmağın kəffarəsi aşağıdakı üç işdən biridir:**

**1- Bir qul azad etmək;**

**2- İki ay oruc tutmaq;**

**3- Altımış fəqirə yemək vermək.**

**Hazırkı dövrdə qul olmadığına görə, şəri vəzifə daşıyan şəxs digər iki işdən birini yerinə yetirməlidir.**

**Məsələ 889.** **Ramazan ayının orucunun iki ay kəffarə orucunu tutmaq istəyən şəxs tam bir ayı və ikinci aydan ən azı bir günü ara vermədən oruc tutmalıdır. İkinci ayın orucunu fasilələrlə tutmağın maneəsi yoxdur.**

**Məsələ 890.** **Ara vermədən oruc tutmalı olan şəxs əgər həmin müddətdə heç bir üzr olmadan bir gün oruc tutmasa, yaxud oruc tutmağa elə bir vaxt başlasa ki, həmin müddətdə oruc tutmağın haram olduğu bir gün (məsələn, Qurban bayramı) və ya oruc tutmağın vacib olduğu bir gün (məsələn, günü müəyyən olan nəzir orucu) vardır, oruc tutduğu günlər sayılmır və yenidən başdan oruc tutmağa başlamalıdır.**

**Məsələ 891.** **Altmış gün oruc tutmaq istəyən şəxs əgər həmin müddətdə müəyyən bir üzrə görə, məsələn, xəstəliklə və ya heyz ilə əlaqədar oruc tuta bilməsə, üzrü aradan qalxdıqdan sonra orucu davam etdirə bilər və yenidən başdan başlamaq lazım deyildir.**

**Məsələ 892.** **Fəqirə yemək vermək iki şəkildə yerinə yetirilə bilər:**

**1- Hazır yemək verib, onları doyuzdurmaq;**

**2- Hər bir fəqirə 750 qram buğda, un, çörək, düyü və bu kimi ərzaqlardan vermək.**

**Məsələ 893.** **Fəqir – o şəxsdir ki, özünün və ailəsinin illik xərcini təmin edə bilmir və qazanc da əldə edə bilmir.**

**Məsələ 894.** **Əgər bir şəxs orucu bilərəkdən pozmağın kəffarəsi olaraq qeyd edilən işlərin heç birini yerinə yetirə bilmirsə, imkanı çatdığı qədər fəqirə yemək versin və ehtiyata görə, Allahdan bağışlanma da diləsin. Əgər fəqirə heç bir vəchlə yemək verməyə maddi imkanı yoxdursa, Allahdan bağışlanma diləməsi kifayət edir. Yəni dili və qəlbi ilə desin: "Əstəğfirullahə" (Allahdan bağışlanma diləyirəm).**

**Məsələ 895.** **Oruc tutmağa və fəqirə yemək verməyə qadir olmadığına görə şəri vəzifəsi Allahdan bağışlanma diləmək olan bir şəxs əgər sonralar oruc tutmağa və ya fəqirlərə yemək verməyə qadir olsa, bu işi görmək ehtiyat-müstəhəbə müvafiqdir.**

**Məsələ 896.** **Orucu bilərəkdən pozmağın kəffarəsi olaraq altmış fəqirə yemək vermək istəyən şəxsin əgər altmış fəqirə əli çatırsa, iki və ya daha çox fəqirin payını bir fəqirə verə bilməz. Əksinə, altmış fəqirin hər birinə ona düşən pay miqdarında yemək verməlidir. Amma fəqir bir şəxsin ailə üzvlərinin payını ona həvalə edə bilər ki, aparıb ailə üzvlərinə çatdırsın. Fəqir şəxsin uşaq və ya böyük, yaxud kişi və ya qadın olmasının bir fərqi yoxdur.**

**Məsələ 897.** **Əgər oruc tutan şəxs gün ərzində orucu pozan bir işi bir dəfədən çox yerinə yetirsə, ona yalnız bir kəffarə vacib olur. Amma əgər cinsi əlaqə və ya istimna ilə orucu pozarsa, ehtiyat-vacibə görə, cinsi əlaqənin və ya istimnanın sayı qədər kəffarə verməlidir.**

**Məsələ 898.** **Əgər bir şəxs Ramazan ayında haram cinsi əlaqə və ya haram yemək-içmək ilə orucunu pozarsa, üç kəffarədən birini verməsi kifayət edir. Baxmayaraq ki, hər üç kəffarəni verməsi (bir qul azad etmək, altmış gün oruc tutmaq, altmış fəqirə yemək vermək) ehtiyat-müstəhəbə müvafiqdir.**

**Məsələ 899.** **Əgər bir şəxsə kəffarə vacib olubsa, onu dərhal yerinə yetirməsi vacib deyildir. Amma kəffarəni verməyi o qədər yubatmamalıdır ki, vacib əməli yerinə yetirməkdə səhlənkarlıq hesab olunsun.**

**Məsələ 900.** **Əgər bir neçə il keçsə və şəxs vacib kəffarəni verməsə, kəffarənin üstünə heç nə əlavə olunmur.**

**Məsələ 901.** **Orucun qəzasını və kəffarəsini yerinə yetirməkdə xüsusi bir ardıcıllıq gözlənilmir, yəni hansını istəsən, birinci yerinə yetirə bilərsən.**

## Yalnız orucun qəzasının vacib olduğu hallar

**Məsələ 902.** Əgər bir şəxs şəri hökmü bilmədiyinə görə orucu pozan bir iş görsə, məsələn, dərman içməyin digər yeyilib-içilənlər kimi orucu pozduğunu bilməsə və Ramazan ayının gündüzündə dərman içsə, bu şəxsin orucu pozulur və orucun qəzasını tutmalıdır. Amma ona kəffarə vacib olmur.

**Məsələ 903.** Əgər bir şəxs Ramazan ayında oruc niyyəti etməsə, yaxud riya ilə oruc tutsa, yaxud da oruc tutmamaq niyyətində olsa, amma orucu pozan işlərdən heç birini yerinə yetirməsə, həmin günün orucunun qəzasını tutmalıdır, kəffarə isə vacib olmur.

**Məsələ 904.** Əgər bir şəxs Ramazan ayının gecəsində cənabətli olsa və 844-cü məsələdə açıqlandığı şəkildə sübh azanınadək ikinci yuxudan oyanmasa, ona yalnız orucun qəzası vacib olur. Amma məğribədək orucu pozan işləri yerinə yetirməməlidir.

**Məsələ 905.** Əgər bir şəxs Ramazan ayında cənabət qüslünü etməyi unutsa və cənabətli halda bir neçə gün oruc tutsa, ona yalnız həmin günlərin orucunun qəzası vacibdir.

**Məsələ 906.** Əgər bir şəxs Ramazan ayının sübh çağında fəcrin doğduğuna hələ yəqin etməyibdirsə, orucu pozan işləri yerinə yetirə bilər.

**Məsələ 907.** Əgər bir şəxs Ramazan ayının sübh çağında fəcrin doğub-doğmadığını araşdırmadan orucu pozan bir iş görsə və sonradan həmin vaxt fəcrin doğduğu məlum olsa, həmin günün orucunun qəzasını tutmalıdır. Amma əgər araşdırma apardıqdan və fəcrin doğmadığını bildikdən sonra orucu pozan bir iş görsə, sonradan isə həmin vaxt fəcrin doğduğu məlum olsa, ona həmin günün orucunun qəzası vacib olmur.

**Məsələ 908.** Ramazan ayında şəri məğribin olduğuna yəqinlik olmayanadək orucu açmaq olmaz.

**Məsələ 909.** Əgər bir şəxs Ramazan ayında havanın qaranlığına görə məğrib vaxtı olduğuna yəqin etsə və ya sözü şəri dəlil olan şəxslər məğrib olduğunu desələr və o da iftar etsə, amma sonradan həmin vaxt məğrib olmadığı məlum olsa, həmin günün orucunun qəzasını tutmalıdır.

**Məsələ 910.** Əgər bir şəxs səma buludlu olduğuna görə məğrib olduğunu güman etsə və buna görə də iftar etsə, amma sonradan həmin vaxt məğrib olmadığı məlum olsa, ona həmin günün orucunun qəzası vacib olmur.

**Məsələ 911.** Əgər hansısa bir səbəbə görə orucu pozmaq icazəli və ya vacib olsa, məsələn, bir şəxsi orucu pozan bir işi görməyə vadar etsələr, yaxud suda boğulan bir insanı xilas etmək üçün suya atılmaq lazım gəlsə, bu halda yalnız orucun qəzası vacib olur, kəffarə vacib olmur.

**Məsələ 912.** Əgər oruc tutan şəxs dəstəmaz alarkən suyun boğazdan keçməyəcəyinə əmin olduğu bir halda ağzını yaxalasa (belə ki, dəstəmaz alarkən ağıza bir qədər su alıb ağzı yaxalamaq müstəhəbdir) və su qeyri-ixtiyari olaraq boğazdan keçsə, bu iş vacib namazı qılmaq üçün alınan dəstəmazda yerinə yetirildiyi təqdirdə, oruc düzgündür. Amma əgər vacib olmayan namazı qılmaq üçün alınan dəstəmazda yerinə yetirilərsə və ya dəstəmazdan qeyri bir yerdə yerinə yetirilərsə (məsələn, sərinlənmək üçün və s.) və su qeyri-ixtiyari boğazdan keçərsə, ehtiyata görə, həmin günün orucunun qəzası tutulmalıdır.

**Məsələ 913.** Əgər oruc tutan şəxs bilsə ki, ağzını yaxaladığı təqdirdə su qeyri-ixtiyari olaraq və ya unutqanlıq nəticəsində boğazdan keçəcəkdir, o, ağzını yaxalamamalıdır.

## Orucun qəzasının hökmləri

**Məsələ 914.** Əgər bir şəxs bir neçə gün huşsuz vəziyyətdə olsa və vacib orucu tuta bilməsə, həmin günlərin orucunun qəzasını tutmaq lazım deyildir.

**Məsələ 915.** Əgər bir şəxs məst olduğuna görə vacib orucu tuta bilməyibdirsə, məsələn, oruc niyyəti etməyibdirsə, gün ərzində orucu pozan işləri yerinə yetirməsə belə, onun orucu düzgün deyildir və həmin günün orucunun qəzasını tutmalıdır.

**Məsələ 916.** Əgər bir şəxs oruc niyyəti etdikdən sonra məst olubsa və bütün gün və ya günün bir hissəsini məst vəziyyətdə olubsa – xüsusilə də ağılın aradan getdiyi bərk məstlik vəziyyətində olduğu hallarda – ehtiyat-vacibə görə, həmin günün orucunun qəzasını tutmalıdır.

**Məsələ 917.** Əvvəlki iki məsələdə bunun bir fərqi yoxdur ki, məstedici maddəni qəbul etmək onun üçün haram imiş, yaxud da xəstəliklə əlaqədar və ya qəbul etdiyi maddənin məstedici olduğunu bilmədiyinə görə onu qəbul etmək haram deyilmiş.

**Məsələ 918.** Ramazan ayında qadın heyzli və ya nifaslı günlərində tutmadığı orucun qəzasını Ramazan ayından sonra tutmalıdır.

**Məsələ 919.** Əgər Ramazan ayında bir şəxs xəstəliklə əlaqədar olaraq, yaxud qadın heyzli və ya nifaslı günlərində oruc tutmazsa və Ramazan ayı başa çatmamışdan qabaq o, dünyasını dəyişərsə, tutmadığı orucların qəzasını onun əvəzindən tutmaq lazım deyildir.

**Məsələ 920.** Əgər Ramazan ayında bir şəxs müəyyən üzrə görə bir neçə gün oruc tutmasa və günlərin sayını dəqiq bilməsə, üzrün hansı tarixdən etibarən başlandığını bilmədiyi təqdirdə (məsələn, bir şəxs Ramazan ayının 25-i, yoxsa 26-sı səfərə getdiyini bilmir və buna görə də altı gün, yoxsa beş gün qəza orucu tutmalı olduğunu müəyyənləşdirə bilmir), o, sayın azını götürüb, həmin sayda qəza orucu tuta bilər. Amma əgər üzrün hansı tarixdən etibarən başlandığını bilirsə, məsələn, Ramazan ayının 5-i səfərə getdiyini bilir, lakin ayın 10-u, yoxsa 11-i gecə qayıtdığını bilmir və buna görə də beş gün, yoxsa altı gün qəza orucu tutacağını müəyyənləşdirə bilmirsə, bu halda ehtiyat-vacibə görə, sayın çoxunu götürməli və həmin sayda qəza orucu tutmalıdır.

**Məsələ 921.** Əgər bir şəxsin boynunda bir neçə Ramazan ayının qəza orucu vardırsa, onlardan hansını birinci tutsa, düzgündür. Amma əgər axırıncı Ramazan ayının qəza orucları üçün vaxt dar olsa, məsələn, axırıncı Ramazan ayından beş gün qəza orucu olsa və qarşıda gələn Ramazan ayınadək yalnız beş gün vaxt qalsa, bu halda ehtiyat-vacibə görə, axırıncı Ramazan ayının qəza oruclarını tutmalıdır.

**Məsələ 922.** Əgər bir şəxs Ramazan ayının qəza orucunu tutubsa və qəza orucu üçün vaxt dar deyildirsə, bu şəxs zöhrdən qabaq orucunu poza bilər. Amma əgər vaxt dardırsa, yəni qarşıda gələn Ramazan ayınadək qəza oruclarının sayı qədər gün qalıbdırsa, ehtiyata görə, bu şəxs zöhrdən qabaq orucunu pozmasın.

**Məsələ 923.** Əgər Ramazan ayının orucunun qəzasını tutan şəxs zöhrdən sonra orucunu biləərəkdən pozsa, on fəqirə yemək verməlidir. Əgər buna maddi imkanı yoxdursa, üç gün oruc tutmalıdır.

**Məsələ 924.** Əgər bir şəxsin boynunda bir neçə Ramazan ayının orucunun qəzası vardırsa və o, niyyətində hansı ayın qəzasını tutduğunu müəyyən etməzsə, tutduğu oruc birinci olan Ramazan ayının qəza orucu hesab olunacaqdır.

**Məsələ 925.** Əgər bir şəxs müəyyən bir üzrə görə (məsələn, xəstəliklə əlaqədar və ya səfərə getdiyi üçün) oruc tutmayıbdırsa, gələn ilin Ramazan ayınadək onun üzrü aradan qalxdığı təqdirdə, orucun qəzasını tutmalıdır.

**Məsələ 926.** Əgər bir şəxs xəstəliklə əlaqədar olaraq Ramazan ayının orucunu tuta bilməyibdirsə, onun xəstəliyi gələn Ramazan ayınadək davam etdiyi təqdirdə, orucların qəzası onun boynundan götürülür. Amma hər gün üçün bir müdd təam fəqirə verməlidir.

**Məsələ 927.** Əgər bir şəxs xəstəliklə əlaqədar olaraq Ramazan ayında oruc tuta bilməsə və Ramazan ayından sonra xəstəliyi sağalsa, amma fasiləsiz olaraq başqa bir üzr ortaya çıxsa və gələn ilin Ramazan ayınadək orucların qəzasını tuta bilməsə, bu qəza oruclarını sonrakı illərdə tutmalıdır. Həmçinin əgər xəstəlikdən qeyri bir üzrə görə Ramazan ayında oruc tuta bilməsə və Ramazan ayından sonra üzrü aradan qalxsa, amma gələn ilin Ramazan ayınadək xəstəliklə əlaqədar olaraq orucların qəzasını tuta bilməsə, bu qəza oruclarını sonrakı illərdə tutmalıdır.

**Məsələ 928.** Əgər bir şəxs səfər ilə əlaqədar olaraq Ramazan ayının orucunu tuta bilməsə və gələn ilin Ramazan ayınadək səfər vəziyyətində olsa, ötən ilin Ramazan ayının orucunun qəzası onun boynundan götürülmür. O, bu qəza oruclarını sonrakı illərdə

**tutmalıdır. Təxir kəffarəsi vermək isə ehtiyat-müstəhəbə müvafiqdir.**

**Məsələ 929.** **Əgər bir şəxs fiziki gücü çatmadığına görə Ramazan ayında oruc tutmağa, həmçinin gələn ilin Ramazan ayınadək orucların qəzasını tutmağa qadir deyildirsə, orucların qəzası onun boynundan götürülmür. Orucların qəzasını tutmağa qadir olduğu zaman onları tutmalıdır. Həmçinin əgər bir şəxs bir neçə il oruc tutmayıbsa və tövbə edib, orucların qəzasını tutmağı qərara alıbdırsa, tutmadığı bütün orucların qəzasını tutmalıdır. Əgər bu orucları tutmazsa, onun boynundan götürülmür və boynunda qalır.**

## Təxir kəffarəsi[1]

**Məsələ 930.** **Əgər bir şəxs Ramazan ayında müəyyən bir şəri üzrə görə oruc tutmasa və Ramazan ayından sonra onun üzrü aradan qalxsa, amma buna baxmayaraq, o, orucun qəzasını tutmasa və gələn ilin Ramazan ayı gəlib çatsa, orucun qəzasından əlavə, hər gün üçün bir müdd təam fəqirə verməlidir.**

**Məsələ 931.** **Əgər bir şəxs Ramazan ayının orucunu bilərəkdən tutmasa və heç bir şəri üzrü olmadan orucun qəzasını da gələn Ramazan ayınadək tutmasa, orucun qəzası və orucu bilərəkdən iftar etməyin kəffarəsindən əlavə, hər gün üçün təxir kəffarəsi (yəni bir müdd təam) fəqirə verməlidir.**

**Məsələ 932.** **Təxir kəffarəsi bir müdd təamdır, yəni 750 qram buğda, un, çörək, düyü və bu kimi ərzaqlardır və fəqirə verilməlidir.**

**Məsələ 933.** **Əgər bir şəxs Ramazan ayının orucunun qəzasını bir neçə il təxirə salsa və tutmasa, orucun qəzasından əlavə təkcə bir müdd təam fəqirə verəcək və orucun qəzasını bir neçə il təxirə saldığına görə onun boynuna başqa bir kəffarə gəlmir.**

**Məsələ 934.** **Hər gün üçün bir müdd təam kəffarə verməli olan şəxs bir neçə günün kəffarəsini bir fəqirə verə bilər.**

**Məsələ 935.** **Əgər bir şəxs gələn ilin Ramazan ayınadək ötən ilin Ramazan ayının orucunun qəzasını tutmalı olduğunu bilməsə, təxir kəffarəsi onun boynundan götürülmür.**

---

[1] Təxir kəffarəsi – Ramazan ayının qəza orucu gələn ilin Ramazan ayınadək yerinə yetirilmədiyi təqdirdə vacib olan kəffarədir.

## Ata və ananın qəza orucunun hökmləri

**Məsələ 936.** **Əgər ata və ehtiyat-vacibə görə, ana öz oruclarını səfərdən qeyri bir şəri üzrə görə tutmasalar və orucun qəzasını tuta bilmələrinə rəğmən orucun qəzasını da tutmasalar, onlar dünyadan köçdükdən sonra böyük oğul, ya özü onların qəza oruclarını tutmalı, ya da əcir tutaraq onların qəza oruclarını tutdurmalıdır. Amma səfər ilə əlaqədar olaraq tutmadıqları oruclara gəlincə, onları tutmaq böyük oğula vacibdir, baxmayaraq ki, valideynlərin bu orucları tutmağa fürsəti və imkanı olmamışdır.**

**Məsələ 937.** **Ata və ananın bilərəkdən tutmadıqları orucların qəzası, ehtiyat-vacibə görə, böyük oğula vacibdir.**

## Müsafir orucunun hökmləri

**Məsələ 938.** Ramazan ayında səfər etməyə, hətta orucdan yayınmaq məqsədilə olsa belə, icazə verilir. Amma səfər etməmək daha yaxşıdır. Yaxşı və ya lazımlı bir iş üçün səfər etmək isə istisna təşkil edir.

**Məsələ 939.** Mübarək Ramazan ayında səfərdə olan şəxs oruc tuta bilməz. Oruc tuta bilməkdən ötrü onun müəyyən bir yerdə on gün qalmağı qərara alması da vacib deyildir.

**Məsələ 940.** Əgər Ramazan ayında səfərdə olan şəxsin namazı qəsrdirsə, səfərdə oruc tuta bilməz. Amma əgər o, səfərdə namazı dörd rəkət olaraq qılırsa (məsələn, müəyyən bir yerdə on gün qalmağı qərara alıbsa, yaxud səfər etmək onun peşəsidirsə), orucunu tutmalıdır.

**Məsələ 941.** Əgər oruc tutan şəxs zöhrdən sonra səfər etsə, orucunu davam etdirməlidir. Amma əgər zöhrdən qabaq səfər etsə, burada iki hal yaranır:

Əgər o, səfərə getməyi əvvəlki gecədən qərara alıbdırsa, orucu düzgün deyildir.

Amma əgər gündüz vaxtı səfər etməyi qərara alıbdırsa, ehtiyat-vacibə görə, oruc tutmalı və Ramazan ayından sonra orucun qəzasını da tutmalıdır.

**Məsələ 942.** Səfərə getməyi əvvəlki gecədən qərara alan və zöhrdən qabaq səfər edən şəxs tərəxxüs-həddinə çatmamışdan qabaq orucunu iftar edə bilməz. Əgər tərəxxüs-həddinə çatmamışdan qabaq orucunu iftar etsə, ehtiyata görə, ona Ramazan ayının orucunu bilərəkdən iftar etməyin kəffarəsi vacib olur. Amma əgər məsələnin hökmünü bilməyibdirsə, kəffarə vacib olmur.

**Məsələ 943.** Əgər müsafir şəxs zöhrdən qabaq vətənə daxil olsa və ya on gün qalmağı qərara aldığı yerə çatsa, orucu pozan bir iş görmədiyi təqdirdə, orucu tutmalıdır. Orucu pozan bir iş gördüyü təqdirdə isə sonradan orucun qəzasını tutmalıdır. Amma əgər zöhrdən sonra vətənə daxil olsa və ya on gün qalmağı qərara aldığı yerə çatsa, oruc tuta bilməz.

**Məsələ 944.** Əgər bir şəxs müəyyən bir gündə (məsələn, rəcəb ayının birində) oruc tutacağını nəzir etsə və hətta səfərdə olsa belə, bu orucu tutacağını vurğulasa, həmin gün səfərdə olsa belə, nəzir orucunu tutmalıdır. Onun on gün bir yerdə qalmağı qərara alması vacib deyildir.

**Məsələ 945.** Əgər bir şəxs müəyyən bir gündə müstəhəb oruc tutacağını nəzir etsə, amma səfərdə olsa belə, bu nəzir orucunu tutacağını vurğulamasa və şərt etməsə, həmin gün səfərdə olduğu təqdirdə, o, oruc tuta bilməz. Onun on gün bir yerdə qalmağı qərara alması vacib deyildir. Amma sonradan bu orucun qəzasını tutmalıdır.

**Məsələ 946.** "Təxyir məkanları"nın hökmü oruca şamil olmur. Odur ki, müsafir şəxs bu dörd məkanda (Məkkə şəhəri, Mədinə şəhəri, İmam Hüseynin (ə) hairi və Kufə məscidi) namazı tam və ya qəsr qılmaqda seçim edə bilər, amma mübarək Ramazan ayının orucunu tuta bilməz.

**Məsələ 947.** Səfərdə müstəhəb oruc tutmaq olmaz.

**Məsələ 948.** Müsafir şəxs hacət və istəyinin həyata keçməsi üçün Mədinə şəhərində on gün qalmağı qərara almadan üç gün müstəhəb oruc tuta bilər.

**Məsələ 949.** Günah səfərində namaz tamdır və oruc – istər Ramazan ayının orucu kimi vacib oruc, istərsə də müstəhəb oruc – düzgündür.

**Məsələ 950.** Əgər bir şəxs günah səfərində zöhrdən qabaq günah niyyətindən dönsə və icazəli bir iş üçün səfəri davam etdirsə, qalan yol (hətta "təlfiqi məsafə" şəklində olsa belə) şəri məsafə ölçüsündə olduğu təqdirdə, bu şəxsin namazı qəsrdir və o, orucunu açmalıdır.

**Məsələ 951.** Əgər bir şəxs günah səfərində zöhrdən sonra günah niyyətindən dönsə, orucu düzgündür. Amma orucu tutmaq və sonradan onun qəzasını tutmaq ehtiyat-müstəhəbə müvafiqdir.

## Vəzifəsinə zidd olaraq oruc tutan müsafir şəxs

**Məsələ 952.** **Əgər oruc tutmamalı olan müsafir şəxs bilərəkdən öz vəzifəsinə zidd olaraq oruc tutsa, orucu düzgün deyildir. Əgər Ramazan ayı olsa, orucun qəzasını tutmalıdır. Amma əgər o, hökmün özünü bilmədiyi üçün[1] oruc tutubsa, orucu düzgündür.**

**Məsələ 953.** **Əvvəlki məsələni nəzərə alaraq, əgər o, hökmün təfərrüatını bilmədiyi üçün oruc tutsa, orucu düzgün deyildir. Məsələn, səfərdə orucun düzgün olmadığını bilir, amma bilmir ki, əgər on gün müəyyən bir yerdə qalmaq niyyətində olan şəxs bir dördrəkətli namazı qılmamışdan qabaq orada qalmaq niyyətindən dönərsə, orada qalan şəxs hökmündə deyildir və oruc tutmamalıdır.**

**Məsələ 954.** **Əgər müsafir şəxs müəyyən bir yerə getmək istəsə və bu yerədək məsafə əslində, şəri məsafə ölçüsündə olsa, amma o, qət etmək istədiyi yolun ölçüsünü bilmədiyinə görə oruc tutsa, orucu düzgün deyildir.**

**Məsələ 955.** **Əgər bir şəxs müsafir olduğunu və ya müsafirin orucunun düzgün olmadığını unutsa və səfərdə oruc tutsa, orucu düzgün deyildir.**

---

[1] Yəni səfərdə oruc tutmağın düzgün olmadığını bilmir.

## Orucun vacib olmadığı şəxslər

**Məsələ 956.** **Doğumu yaxınlaşan hamilə qadın əgər orucun onun bətnindəki körpəyə və ya onun özünə ziyanı olacağından qorxsa, ona oruc tutmaq vacib olmur. Birinci surətdə (yəni orucun onun bətnindəki körpəyə ziyanı olacağından qorxduğu təqdirdə) hər gün üçün bir müdd təam, yəni 750 qram buğda, arpa və s. bu kimi ərzaqlar fidyə ünvanında fəqirə verməlidir. Ramazan ayından sonra da bu orucun qəzasını tutmalıdır. İkinci surətdə (yəni orucun onun özünə ziyanı olacağından qorxduğu təqdirdə) tutmadığı orucların qəzasını tutmalı və ehtiyata görə, fidyə də verməlidir. Doğumu yaxın olmayan hamilə qadının isə fidyə verməsi ehtiyat-vacibdir.**

**Məsələ 957.** **Əgər südverən qadın (istər körpənin doğma anası olsun, istərsə də dayəsi olsun, dayə istər ücrət ilə süd versin, istərsə də ücrətsiz süd versin) südün azalacağından və ya quruyacağından qorxduğu üçün orucun uşağa ziyanı olacağından qorxsa, ona oruc tutmaq vacib olmur. O, hər gün üçün fidyə verməli və sonradan orucun qəzasını tutmalıdır. Amma əgər orucun qadının özünə ziyanı olsa, ehtiyata görə, fidyə vacib olur.**

**Məsələ 958.** **Yuxarıdakı iki məsələni nəzərə alaraq, əgər bu qadın gələn ilin Ramazan ayınadək orucun qəzasını tutmasa, səhlənkarlıq etdiyi təqdirdə, orucun qəzasından əlavə, təxir kəffarəsi də verməlidir. Amma əgər hansısa bir üzrə görə orucun qəzasını tuta bilməyibsə, təxir kəffarəsi vacib olmur. Əgər bu üzr orucun onun övladına ziyanı olacağı qorxusu olsa, orucların qəzasını nə zaman tuta bilsə, tutmalıdır. Yox əgər bu üzr orucun onun özünə ziyanı olacağı qorxusu olsa, orucun qəzası onun boynundan götürülür. O, hər gün üçün fidyə verməlidir.**

**Məsələ 959.** **Qadının fidyə və ya kəffarəsi qadının öz öhdəsindədir və bunu ödəmək onun ərinə vacib deyildir, baxmayaraq ki, qadın hamiləliklə əlaqədar və ya süd verdiyinə görə oruc tutmamışdır. Həmçinin övladın kəffarəsi və ya fidyəsi atanın öhdəsində deyildir. Amma ər öz zövcəsinin və ya ata öz övladının yerinə onun fidyəsini və ya kəffarəsini ödəyə bilər.**

**Məsələ 960.** **Əgər oruc tutmaq qoca kişiyə və ya qadına olduqca çətin və əziyyətlidirsə, onlara oruc tutmaq vacib olmur. Onlar hər gün üçün bir müdd təam fəqirə verməlidirlər. Əgər oruc tutmağa əsla qadir deyillərsə, ehtiyata görə, fidyə verməlidirlər. Amma hər iki halda əgər Ramazan ayından sonra oruc tutmağa qadir olsalar, ehtiyat-müstəhəbə görə, orucun qəzasını tutsunlar.**

**Məsələ 961.** **Əgər bir şəxs xəstəliyi ilə əlaqədar tez-tez su içmək istəyirsə və susuzluğa əsla dözə bilmirsə, yaxud susuzluğa dözmək onun üçün olduqca çətin və əziyyətlidirsə, ona oruc tutmaq vacib olmur. Amma ikinci surətdə (yəni susuzluğa dözmək onun üçün olduqca çətin və əziyyətli olduğu təqdirdə) hər gün üçün bir müdd təam fəqirə verməlidir. Ehtiyat-vacibə görə, birinci surtədə də (yəni susuzluğa əsla dözə bilmədiyi təqdirdə) bu fidyəni verməlidir. Əgər o, Ramazan ayından sonra oruc tuta bilsə, ehtiyat-müstəhəbə görə, orucun qəzasını tutsun.**

**Məsələ 962.** **Fidyənin miqdarı təxir kəffarəsinin miqdarındadır, yəni 750 qram buğda, un, çörək, düyü və bu kimi ərzaqlardan biri ola bilər və fəqirə verilməlidir.**

## Ayın əvvəlinin sübuta yetməsi yolları

**Məsələ 963.** Ayın əvvəli beş yol ilə sübuta yetir:

1- İnsanın özü ayın hilalını görür;

2- İki ədalətli şəxs ayın hilalını gördüklərinə şahidlik edir, amma bu şərtlə ki, çoxsayda insan ayın göründüyünü inkar etməməli və o iki ədalətli şəxsin səhv etdiyinə güman artmamalıdır;

3- Bilik və ya əminliyə səbəb olan məşhur xəbər;

4- Əvvəlki ayın başlanmasından otuz günün keçməsi;

5- Şəri-hakimin hökmü.

**Məsələ 964.** Əsr çağı ayın hilalını görmək qəməri ayın çıxdığını sübuta yetirir və ayın hilalı göründükdən sonra həmin gecə ayın birinci gecəsidir.

**Məsələ 965.** Ayın hilalını istər hansısa bir vasitə ilə görsünlər, istərsə də heç bir vasitə olmadan və adi göz ilə görsünlər, fərqi yoxdur. Yəni əgər ayın hilalını heç bir vasitə olmadan və adi göz ilə görsələr, ayın əvvəli olduğu sübuta yetir. Həmçinin əgər eynəklə, yaxud binokl ilə, yaxud teleskop ilə görsələr, yenə də ayın əvvəli olduğu sübuta yetir. Amma işığın əks olunmasının kompyuterdə qeydə alınması və bu yolla ayın hilalının şəklini görmək məsələsinə gəlincə, bunun "görmək" adlanması məlum olmadığına görə, iradlıdır.

**Məsələ 966.** Sırf hilalın kiçik və aşağıda olması, ya böyük və yuxarıda olması, ya da enli və ya nazik olması və s. həmin gecənin birinci və ya ikinci gecə olmasına şəri dəlil deyildir. Amma əgər mükəlləf hilalın bu xüsusiyyətlərindən hansısa bir nəticəyə gələrsə və onda yəqinlik yaranarsa, bu barədə öz yəqinliyinə müvafiq əməl etməlidir.

**Məsələ 967.** Ayın əvvəli olduğu təqvimlər vasitəsilə və ya astroloqların elmi hesablamaları ilə sübuta yetmir. Amma əgər onların sözlərindən insanda yəqinlik yaranarsa, bu yəqinliyə müvafiq əməl etmək olar.

**Məsələ 968.** Əgər bir şəhərdə ayın əvvəli olduğu sübuta yetsə, bu, həmin şəhərlə eyni üfüqdə olan digər şəhərlər üçün kifayət edir. "Üfüqün eyni olması" dedikdə, hilalı görməyin mümkün olub-olmaması baxımından bir regionun başqa bir regionla eyni olması nəzərdə tutulur.

**Məsələ 969.** Əgər şəri-hakim şəxsən ayın hilalını görsə, amma hilalın göründüyünə dair hökm verməsə, sırf şəri-hakimin ayın hilalını görməsi başqalarının ona tabe olmaları üçün kifayət etmir. Amma əgər bu yolla insanda ayın hilalının göründüyünə dair əminlik yaranarsa, bu əminliyə müvafiq əməl etmək olar.

**Məsələ 970.** Əgər şəri-hakim hökm versə ki, sabahısı gün ayın birinci günüdür və bu hökm bütün ölkəyə şamil olsa, onun hökmü şəri baxımdan bu ölkənin bütün şəhərləri üçün qüvvədədir.

**Məsələ 971.** Əgər qeyri-islami və zalım bir dövlət ayın hilalının göründüyünü elan etsə və bu elan ayın əvvəli olduğuna dair insanda yəqinlik və ya əminlik yaratsa, kifayət edir.

**Məsələ 972.** Əgər bir şəhərdə ayın hilalını görməsələr, amma radio və televiziya vasitəsilə hilalın göründüyü xəbər verilsə, bu xəbər insanda hilalın göründüyünə dair yəqinlik və ya əminlik yaratdığı təqdirdə, kifayət edir və araşdırma aparmağa da ehtiyac yoxdur.

**Məsələ 973.** Əgər Ramazan ayının əvvəli olduğu sübuta yetməzsə, oruc tutmaq vacib deyildir. Amma əgər sonradan ayın əvvəli olduğu məlum olarsa, həmin günün orucunun qəzasını tutmaq lazımdır.

**Məsələ 974.** Əgər şəvval ayının əvvəli olduğu ayı görmək, hətta qonşu və üfüqü eyni olan şəhərlərdə ayı görmək yolu ilə, yaxud iki ədalətli şəxsin şəhadəti yolu ilə, yaxud da şəri-hakimin hökmü əsasında sübuta yetməzsə, həmin günü oruc tutmaq lazımdır.

**Məsələ 975.** Əgər mükəlləf Ramazan ayının axırı, yoxsa şəvval ayının əvvəli olduğuna şəkk etsə, həmin gün oruc tutmalıdır. Amma əgər gün əsnasında şəvval ayının əvvəli olduğu sübuta yetsə, orucunu açmalıdır. Hətta məğribə çox az vaxt qalsa belə, orucunu açmalıdır.

# Orucun qisimləri

**Məsələ 976.** Oruc dörd qisimdir: vacib, haram, müstəhəb və məkruh.

**Məsələ 977.** Vacib oruclar aşağıdakılardan ibarətdir:

1- Mübarək Ramazan ayının orucu;

2- Qəza orucu;

3- Kəffarə orucu;

4- Etikafın üçüncü gününün orucu;

5- Təməttu həccində qurbanlığın əvəzinə tutulan oruc[1];

6- Nəzir, əhd və and vasitəsilə vacib olan müstəhəb oruc[2];

7- Atanın və ehtiyat-vacibə görə, ananın böyük oğula vacib olan qəza orucları.

**Məsələ 978.** Haram oruclardan bəziləri aşağıdakılardır:

1- Fitr bayramı gününün orucu;

2- Qurban bayramı gününün orucu;

3- Şaban ayının axırı, yoxsa Ramazan ayının əvvəli olduğunu bilmədiyi halda mükəlləfin Ramazan ayının orucu niyyətilə oruc tutması;

4- Ərin haqqı tapdalandığı təqdirdə qadının müstəhəb oruc tutması;

5- Orucun insana ziyanı olduğu halda onun oruc tutması;

6- Səfərdə olan şəxsin oruc tutması (əlbəttə, istisna təşkil edən hallar xaricdir).

**Məsələ 979.** İlin bütün günlərində (orucun haram və məkruh olduğu günlər istisna olmaqla) oruc tutmaq müstəhəbdir. Amma bəzi günlərdə oruc tutmağın müstəhəbliyi təkid edilib, o cümlədən:

1- Hər ayın birinci və axırıncı cümə axşamı günü, həmçinin hər ayın ikinci ongünlüyünün birinci çərşənbəsində oruc tutmaq;

2- Hər ayın on üçüncü, on dördüncü və on beşinci günləri (əyyamul-bəyz) oruc tutmaq;

3- Rəcəb və şaban aylarını oruc tutmaq (bütün ayı və ya ayın bəzi günlərini, hətta bir gün olsa belə, oruc tutmaq);

4- Həzrət Peyğəmbərin (s) mövludu günü (17 rəbiul-əvvəl) oruc tutmaq;

5- Məbəs günü (27 rəcəb) oruc tutmaq;

6- Ğədir-xum günü (18 zilhiccə) oruc tutmaq;

7- Dəhvul-ərz (25 zilqədə) oruc tutmaq.

**Məsələ 980.** Məkruh oruclar aşağıdakılardır:

1- Ev sahibinin icazəsi olmadan və ya ev sahibi qadağan etdiyi halda qonağın oruc tutması;

2- Ərəfə günü oruc tutmaq insanda halsızlıq yaradacağı və ərəfə gününün əməllərini yerinə yetirməyə mane olacağı təqdirdə, həmin gün oruc tutmaq.

[1] Əgər bir şəxsin həcc ziyarətində qurbanlıq kəsməyə maddi imkanı olmasa və borc da ala bilməsə, qurbanlığın əvəzinə on gün oruc tutmalıdır. Bu on gün orucun üç gününü həcc səfərində, qalan yeddi gününü isə öz vətənində tutmalıdır.

[2] Əslində, vacib olan əməl nəzir, əhd və anda əməl etməkdir. Yəni burada müstəhəb oruc vacib oruca çevrilmir.

## Orucun və mübarək Ramazan ayının bir sıra hökmləri

**Məsələ 981.** **Əgər bir şəxs müstəhəb oruc tutubsa, orucu başa çatdırması vacib deyildir və istədiyi vaxt orucunu aça bilər. Hətta əgər mömin bir şəxs onu yeməyə dəvət etsə, onun dəvətini qəbul edib, orucu açması şəri baxımdan bəyənilir.**

**Məsələ 982.** **Müstəhəbdir ki, oruc tutan şəxs iftar etməmişdən qabaq məğrib namazını qılsın. Amma əgər kimsə onu süfrə başında gözləyirsə, yaxud özü çox ac olduğuna görə namazı hüzuri-qəlb ilə qıla bilməyəcəkdirsə, yaxşı olar ki, o, əvvəlcə iftar etsin. İmkan daxilində də namazı fəzilətli vaxtında qılsın.**

**Məsələ 983.** **Ramazan ayının hörmətini saxlamaq üçün bu şəxslərin orucu pozan işlərdən çəkinmələri müstəhəbdir, baxmayaraq ki, onlar oruc deyildirlər:**

**1- Yolda ikən orucu pozan bir iş görən və zöhrdən qabaq öz vətəninə və ya on gün qalmaq istədiyi yerə çatan müsafir şəxs;**

**2- Zöhrdən sonra öz vətəninə və ya on gün qalmaq istədiyi yerə çatan müsafir şəxs;**

**3- Orucu pozan bir iş görən və zöhrdən qabaq sağalan xəstə insan;**

**4- Zöhrdən sonra sağalan xəstə insan;**

**5- Gün əsnasında heyz və ya nifas qanından paklanan qadın;**

**6- Ramazan ayının gündüzündə kafirlikdən dönüb müsəlmanlığı qəbul edən şəxs;**

**7- Ramazan ayının gündüzündə şəri büluğa çatan uşaq.**

# Etikaf

**Gündəlik həyat və maddi məşğuliyyətlərin çoxluğu bəzən insana özünü və Allahını unutdurur. Bu kimi durumlarda insanın özünü tapması və özü ilə hesabat aparması üçün ələ düşən fürsətlər olduqca dəyərlidir. Etikaf məhz belə fürsətlərdən biridir. İnsan ardıcıl bir neçə gün özünü dünya işlərindən təcrid edərək, ibadət və dua etməklə ruhunu cilalandırır və canını paklaşdırır.**

**Məsələ 984.** **Etikaf odur ki, insan Mütəal Allaha ibadət etmək niyyətilə məsciddə qalsın və oradan xaric olmasın.**

**Məsələ 985.** **Etikaf müstəhəb bir əməldir. Amma bəzən nəzir, əhd və and nəticəsində, yaxud əcir olmaq nəticəsində vacib olur[1].**

**Məsələ 986.** **Oruc tutmaq hansı hallarda düzgündürsə, etikaf etmək də həmin hallarda düzgündür. Amma etikaf üçün ən yaxşı zaman Ramazan ayı, xüsusilə də Ramazan ayının axırıncı ongünlüyüdür.**

---

[1] Əslində, vacib olan əməl nəzir, əhd və anda, yaxud əcirliyə əməl etməkdir. Yəni burada müstəhəb etikaf vacib etikafa çevrilmir.

## Etikafın şərtləri

**Məsələ 987.** **Etikafın düzgün olmasının yeddi şərti vardır:**

**1- Ağıl;**

**2- Niyyət;**

**3- Oruc tutmaq;**

**4- Eyni məsciddə qalmaq;**

**5- Etikafın üç gün ardıcıl davam etməsi;**

**6- Məsciddə davamlı surətdə qalmaq;**

**7- Etikaf etmək üçün icazənin olması.**

**Məsələ 988.** **Büluğa çatmaq etikafın düzgün olmasının şərtlərindən deyildir. Odur ki, müməyyiz uşaq (yaxşı və pisi ayırd edən uşaq) da etikaf edə bilər.**

## 1- Ağıl

**Məsələ 989. Etikaf edən şəxs ağıllı olmalıdır. Deməli, dəli insanın, məst bir şəxsin və bu kimi şəxslərin etikafı düzgün deyildir.**

## 2- Niyyət

**Məsələ 990.** **Başqa ibadətlərdə olduğu kimi, etikafda da niyyət və Allaha yaxınlaşmaq məqsədi şərtdir. Yəni insan yalnız Mütəal Allaha yaxınlaşmaq niyyətilə məsciddə qalmalı, hər növ riya və özünü göstərməkdən uzaq olmalıdır.**

**Məsələ 991.** **Etikafın birinci günü fəcr doğan zaman etikafin müddəti başlanır. Buna görə də fəcr doğanadək etikaf üçün niyyət edilməlidir. Amma əvvəlki gecənin əvvəlindən və ya gecə əsnasında etikafa başlamaq və həmin vaxt niyyət etmək olar. Etikaf üçüncü günün məğribinədək davam edir.**

**Məsələ 992.** **Etikaf edən şəxs niyyət edərkən bu şərti qoya bilər ki, əgər etikaf əsnasında hansısa bir üzr ilə qarşılaşarsa, hətta üçüncü gün olsa belə, etikafı pozub məsciddən xaric ola bilər.**

## 3- Oruc tutmaq

**Məsələ 993.** **Orucsuz etikaf düzgün deyildir. Amma məhz etikaf üçün oruc tutmaq vacib deyildir, əksinə, etikaf edən şəxs hər bir vacib və ya müstəhəb orucu, hətta əcir orucunu tutsa belə, kifayət edir.**

**Məsələ 994.** **Oruc tuta bilməyən şəxsin, məsələn, xəstə və ya müsafir şəxsin etikafı düzgün deyildir.**

**Məsələ 995.** **Əgər etikaf etməyi qərara alan müsafir şəxs müəyyən bir yerdə on gün qalmağı qərara alsa, yaxud səfərdə oruc tutmağı nəzir etsə, o, səfərdə etikaf edə bilər. Amma əgər müəyyən bir yerdə on gün qalmağı qərara almayıbdırsa, yaxud səfərdə oruc tutmağı nəzir etməyibdirsə, səfərdə onun orucu düzgün deyildir. Oruc düzgün olmadıqda, etikaf da düzgün deyildir.**

## 4- Eyni məsciddə qalmaq

**Məsələ 996. Bu dörd məsciddə – Məscidul-həram, Məscidun-Nəbi, Kufə məscidi və Bəsrə məscidində etikaf etməyin fəziləti daha çoxdur. Amma bütün cami məscidlərdə (yəni şəhərin mərkəzi məscidlərində) etikaf etmək olar. Həmçinin camaat namazı qılınan və ədalətli imam-camaatı olan digər məscidlərdə də qəsdi-rəca ilə etikaf etmək düzgündür.**

## 5- Etikafın üç gün ardıcıl davam etməsi

**Məsələ 997.** **Etikaf üç ardıcıl gündən az olmamalıdır. Amma ikinci gün başa çatmamış etikafı tərk etməyə icazə verilir. Əgər etikaf edən şəxs iki gün qalarsa, üçüncü gün qalmaq vacib olur. Üç gündən artıq (bir gün və ya bir gecə) qalmağın isə maneəsi yoxdur. Bunun üçün müəyyən bir hədd qoyulmayıbdır. Amma hər iki gündən sonra üçüncü gün etikafda qalmaq vacib olur.**

**Məsələ 998.** **Etikafın üç günü birinci gün fəcr doğandan üçüncü gün məğribədək hesablanır. Odur ki, ikinci və üçüncü gecələr etikafdan sayılır və məsciddən xaric olmaq olmaz. Amma birinci və dördüncü gecələr etikafdan sayılmır.**

## 6- Məsciddə davamlı surətdə qalmaq

**Məsələ 999.** **Əgər etikaf edən şəxs bilərəkdən və ixtiyari şəkildə (zəruri hallar istisna olmaqla) məsciddən xaric olsa, onun etikafı pozulur, baxmayaraq ki, o, bu hökmü bilməyibdir.**

**Məsələ 1000.** **Əgər etikaf edən şəxs unutqanlıq üzündən, yaxud məcburi şəkildə, yaxud məntiqi, ya ürfi və ya şəri baxımdan zəruri sayılan iş üçün məsciddən xaric olsa, onun etikafı pozulmur. Burada işin vacib və ya müstəhəb olmasının, yaxud dünya və ya axirət işi olmasının bir fərqi yoxdur.**

**Məsələ 1001.** **Əgər etikaf edən şəxs zərurət üzündən məsciddən xaric olmaq məcburiyyətində qalsa, yersiz yubanmalardan, o cümlədən əyləşmək, kölgədə dincəlmək və bu kimi işlərdən çəkinməlidir. Zərurət həddindən artıq məsciddən kənarda qalmamalıdır.**

**Məsələ 1002.** **Əgər zərurət halında məsciddən kənarda qalmaq etikafın surətini pozacaq həddə uzun çəkərsə, etikaf pozulur.**

## 7- Etikaf etmək üçün icazənin olması

**Məsələ 1003.** **Əgər övladın etikaf etməsi ata və ananın əziyyət çəkmələrinə səbəb olarsa, övlad öz valideynlərindən icazə almalıdır. Hətta əgər onların əziyyət çəkmələrinə səbəb olmasa belə, etikaf etmək üçün valideynlərdən icazə almaq ehtiyat-müstəhəbə müvafiqdir.**

**Məsələ 1004.** **Əgər qadının etikaf etməsi ərin haqqının tapdalanmasına səbəb olarsa, ehtiyat-vacibə görə, qadın öz ərindən icazə almalıdır.**

## Etikafda haram olan işlər, qəza və kəffarə

**Məsələ 1005.** **Etikaf edən şəxsə aşağıdakı işlər haramdır:**

**1- Həzz almaq üçün xoş qoxulu şeyləri və ətirli bitkiləri qoxulamaq;**

**2- Cinsi əlaqədə olmaq və ehtiyata görə, şəhvətlə həyat yoldaşına toxunmaq və onu öpmək (bu iş haram olmaqdan əlavə, etikafın pozulmasına da səbəb olur);**

**3- Ehtiyat-vacibə görə, istimna etmək;**

**4- Alış-veriş etmək və ehtiyat-vacibə görə, hər növ sövdələşmə (məsələn, nəyisə icarəyə verib-almaq);**

**5- Dünya və din məsələlərində mübahisə etmək (Əlbəttə, əgər məqsəd qarşı tərəfə qalib gəlmək və insanın öz üstünlüyünü və elmini göstərmək olarsa, bu iş haramdır. Amma əgər məqsəd haqqı çatdırmaq və qarşı tərəfi səhv yoldan döndərmək olarsa, mübahisə etməyin maneəsi yoxdur).**

**Məsələ 1006.** **Etikafda haram olan işlər təkcə gündüzə aid deyildir, gecəyə də aiddir və onlardan çəkinmək lazımdır.**

**Məsələ 1007.** **Əgər etikafda olan şəxs yemək və içmək üçün nəyisə alıb-satmaq məcburiyyətində qalsa və bunun üçün özünə bir vəkil tuta bilməsə, yaxud nəyisə alıb-satmadan lazım olan ərzaqları əldə etsə, alıb-satmanın maneəsi yoxdur.**

**Məsələ 1008.** **Əgər vacib etikaf pozularsa, günü müəyyən olan vacib etikaf olduğu təqdirdə, onun qəzası yerinə yetirilməlidir. Amma əgər günü müəyyən olan etikaf olmazsa, onu yenidən yerinə yetirmək lazımdır.**

**Məsələ 1009.** **Əgər etikaf edən şəxs müstəhəb etikafı ikinci gündən sonra pozarsa, onun qəzasını yerinə yetirməlidir. Amma əgər birinci və ya ikinci gün pozarsa, onun qəzası vacib olmur.**

**Məsələ 1010.** **Etikafın qəzası və ya onu yenidən yerinə yetirmək (əvvəlki iki məsələdə qeyd olundu) o halda vacib olur ki, şəxs etikafa başlayarkən hansısa bir üzr ilə qarşılaşdığı zaman etikafı pozacağını şərt etməmişdir.**

**Məsələ 1011.** **Etikafı pozmağın kəffarəsi Ramazan ayında orucu bilərəkdən pozmağın kəffarəsi ilə eynidir. Yəni bir qul azad etmək[1], yaxud iki ay oruc tutmaq (onun otuz bir günü ardıcıl olmalıdır), yaxud da altmış fəqirə yemək verməkdən ibarətdir.**

---

[1] Amma hazırkı dövrdə qul azad etmək məsələsi aradan qalxmışdır.